 İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ƏLLİ BİRİNCİ KİTAB

## APREL 2012 - İYUL 2012

**AZƏRNƏŞR**
**BAKI - 2017**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2017**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində Azərbaycanın uğurla aparılan daxili və xarici siyasətə, iqtisadi potensialın möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial inkişafının həyata keçirilməsinə, cəmiyyətimizin müasirləşdirilməsi istiqmətində önəmli nailiyyətlərə, ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri öz əksini tapmışdır.

Kitabda dövlət başçısının Amerika Birləşmiş Ştatlarına, Rusiya Federasiyasına və Türkiyə Respublikasına rəsmi və işgüzar səfərləri, həmçinin Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuyun ölkəmizə səfəri zamanı Azərbaycanın dünyada artan nüfuzundan, beynəlxalq təşkilatlarda göstərdiyi yüksək fəallığından, eyni zamanda, ölkələrimiz arasında çoxşaxəli əlaqələrin inkişafından, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrdən, beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsi və genişləndirilməsindən bəhs olunur.

Bu cilddə, həmçinin Naxçıvan Muxtar Respublikasına və ölkəmizin digər bölgələrinə səfərləri zamanı ictimaiyyət nümayəndələri ilə görüşlərinə, bir sıra mədəni-məişət, sosial və sənaye müəssisələrinin açılışında iştirakına dair materiallar da toplanmışdır.

**ISBN 978-9952-8100-7-3**

$$Я \frac{0801000000}{М - 651(07) - 2017}$$

**ББК - 32**

© Azərnəşr, 2017

## BAKIDA BMT-nin ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ AVROPA ÜZRƏ 28-ci REGİONAL KONFRANSININ AÇILIŞI MƏRASİMİ

*«Hilton Baku» hoteli*

*19 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Bakıda «Hilton Baku» hotelində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Avropa üzrə 28-ci regional konfransının açılışı mərasimində iştirak etmişdir.*

*Müasir dövrdə dünyanı narahat edən problemlərdən olan ərzaq təhlükəsizliyi məsələsinin müzakirəsi üçün Bakıya dünyanın 50-dən artıq ölkəsindən yüksək səviyyəli nümayəndə gəlmişdir. Bununla yanaşı, bir sıra beynəlxalq təşkilatların nümayəndələri konfransa müşahidəçi qismində dəvət olunmuşlar. Bu fakt bir daha konfransa olan marağı nümayiş etdirir.*

*Regional konfransın əsas məqsədi 2012–2013-cü illər üçün BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının region üzrə iş proqramının və büdcəsinin təsdiq olunması, kənd təsərrüfatı, meşəçilik və balıqçılıq sahələrinin inkişaf etdirilməsi sahəsində 2014–2015-ci illər üzrə region üçün prioritetləri müəyyənləşdirməkdir.*

*Konfrans çərçivəsində nazirlərin «dəyirmi masa»sında ərzaq təhlükəsizliyinə dair məsələlər də müzakirə olunacaqdır.*

*BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru Joze Qratsiano da Silva Bakı konfransının yüksək səviyyədə təşkilinə və açılış mərasimində iştirakına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi:*

– Zati-aliləri cənab prezident İlham Əliyev!

İcazənizlə, Sizə təşkilatımızın Bakıda keçirilən Avropa üzrə 28-ci regional konfransının bütün iştirakçıları adından

tədbirimizə «Xoş gəlmisiniz!» – demək istərdim. Çox sağ olun ki, bu konfransda iştirak edirsiniz.

Mən Bakıda ilk dəfə belə gözəl konfransda iştirak edirəm. Bakının çox gözəl şəhər olduğunu öz gözlərimlə gördüm. Bu mənə çox böyük təsir bağışladı. Çox gözəldir ki, bu regional konfransda on nazir, dövlət katibləri, nazir müavinləri və 46 ölkədən nümayəndə heyətləri iştirak edirlər.

Azərbaycan yoxsulluğun azaldılması, təbii ehtiyatların idarəçiliyi, xüsusilə neft və qaz ehtiyatlarının idarəçiliyi sahəsində böyük uğurlara nail olmuşdur. Siz kənd təsərrüfatını iqtisadiyyatın ən önəmli sektorlarından biri kimi irəli çıxarmısınız. Azərbaycanda ümumi daxili məhsul son illər ərzində bir neçə dəfə artmışdır. Sizin bu istiqamətdə həyata keçirdiyiniz bütün işlərinizi, səylərinizi mən çox yüksək qiymətləndirirəm.

Konfransın sonunda cənab nazir İsmət Abasov və mən sənəd imzalayacağıq. Bu sənəd FAO ilə Azərbaycan arasında çox səmərəli əməkdaşlığın inkişafının yeni mərhələsinin təməlini qoyacaqdır. Azərbaycan FAO-nun fəal iştirakçı üzvlərindən biridir. Bundan başqa, Azərbaycan FAO-ya yeni üzv ölkələrin qəbul olunmasında və regionda digər oyunçu ölkələrin bu prosesə qatılmasında çox böyük rol oynamışdır. Əminəm ki, aramızda olan tərəfdaşlığın əsaslarını birlikdə daha da dərinləşdirəcəyik və bu regionun inkişafına öz töhfəmizi verəcəyik.

* * *

*Prezident İlham Əliyev konfransın açılışında çıxış etdi:*

– Hörmətli cənab baş direktor!

Hörmətli qonaqlar, əziz dostlar!

İlk növbədə, mən sizin hamınızı Azərbaycanda salamlayıram.

Ölkəmizə xoş gəlmisiniz! BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Avropa üzrə regional konfransının

Azərbaycanda keçirilməsi çox əlamətdar hadisədir. Deyə bilərəm ki, ölkəmizin həyatında çox vacib hadisədir.

FAO ilə Azərbaycan arasındakı əlaqələr böyük tarixə malikdir. Biz bu mötəbər beynəlxalq təşkilatın fəal üzvüyük. Müxtəlif layihələr, proqramlar icra edilir. FAO tərəfindən Azərbaycana verilən dəstək kənd təsərrüfatı sahəsində islahatların aparılması üçün də çox vacibdir.

Əminəm ki, əməkdaşlığımız bundan sonra da sürətlə inkişaf edəcəkdir. Azərbaycan FAO-dakı fəaliyyətini daha da genişləndirəcəkdir. Beləliklə, bu əməkdaşlıq yeni mərhələyə qədəm qoyacaqdır.

Bugünkü konfransın mahiyyəti də çox önəmlidir. Konfransın gündəliyində çox mühüm məsələlər dayanır. Biz istərdik ki, Azərbaycan haqqında reallıqlar, ölkəmizdə son illər ərzində aparılan islahatlar və nəticələr barədə dolğun məlumat verilsin.

Azərbaycanda kənd təsərrüfatında aparılan islahatlar ötən əsrin 90-cı illərinin ortalarından başlanmışdır. Prezident Heydər Əliyevin təşəbbüsü ilə çox ciddi və deyə bilərəm ki, radikal islahatlar keçirilmişdir. Onu da qeyd etmək istəyirəm ki, kənd təsərrüfatı sahəsində aparılan islahatlar bəlkə də başqa sahələrə də müsbət təkan vermişdir. Çünki Azərbaycanda, ümumiyyətlə, islahatların aparılması keçən əsrin 90-cı illərinin ortalarından başlamışdır.

Biz 1991-ci ildə dövlət müstəqilliyimizi bərpa etdik. Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçmişdir. Ölkəmiz həm siyasi, həm iqtisadi sahədə çox böyük çətinliklərlə, fəlakətlərlə üzləşmişdir. Ölkə iqtisadiyyatı iflic vəziyyətində idi, sənaye istehsalı tənəzzül edirdi, inflyasiya min faizlərlə ölçülürdü. Ümumiyyətlə, ölkəmizin gələcək inkişafı, xüsusilə iqtisadi sahədəki inkişaf böyük suallar doğururdu. Məhz bu həlledici anlarda – 90-cı illərin ortalarında kənd təsərrüfatı sahəsində başlamış və bu gün də uğurla davam etdirilən islahatlar bizi bu çətin vəziyyətdən çıxara bilmişdir.

Bu gün bu islahatlar davam etdirilir. Cənab baş direktor qeyd etdiyi kimi, kənd təsərrüfatı bizim üçün prioritet sahədir,

xüsusilə, indiki mərhələdə. Çünki biz iqtisadiyyatımızı şaxələndiririk.

Azərbaycan qədim neft diyarıdır. Hazırda zəngin neft-qaz ehtiyatları həm bizim enerji təhlükəsizliyimizi, həm dostlarımızın enerji təhlükəsizliyini təmin etməkdədir. Biz əldə olunan gəlirlərdən səmərəli şəkildə istifadə edirik. Qeyri-neft sektorunun inkişafına dövlət çox böyük investisiyalar qoyur.

Azərbaycanda investisiya qoyuluşu prosesi sürətlə davam edir. Keçən il 15 milyard dollar investisiya qoyulmuşdur. Hesab edirəm ki, bu il bundan artıq olacaqdır. Daxili investisiyalar xarici investisiyaları üstələyir. İnvestisiyaların böyük hissəsi kənd təsərrüfatına, aqrar sektora, ölkəmizin bölgələrinə yönəldilir. Hazırda fermerlərə dövlət tərəfindən kifayət qədər böyük yardımlar göstərilir. Yəqin ki, Azərbaycan nümayəndələri konfransda bu məsələlər haqqında sözlərini deyəcəklər. Fermerlərə subsidiyalar, güzəştli şərtlərlə yanacaq, gübrələr verilir. «Aqrolizinq» Dövlət Şirkəti yaradılıbdır. Texnikanın alınması və fermerlərə icarəyə verilməsi prosesi də təkmilləşir. Aqroservislər yaradılır. Çox müsbət təcrübəmiz var. Çünki həm dövlət, həm də özəl aqroservis qurumları var. Partnyorluq əsasında fəaliyyət göstərən dövlət və özəl aqroservislər kənd təsərrüfatında islahatların daha da ciddi aparılması üçün şərait yaradır.

Biz dünyanın ən mütərəqqi texnologiyalarını Azərbaycana gətiririk. Kənd təsərrüfatı sahəsinə də bu texnologiyalar gəlir. Əlbəttə, beynəlxalq qurumlarla, ilk növbədə FAO ilə əməkdaşlığımızın nə qədər vacib olduğunu bir daha qeyd etmək istəyirəm. Çünki ölkəmizi müasirləşdiririk. Azərbaycanda çox böyük modernləşmə siyasəti aparılır. Kənd təsərrüfatı bizim üçün ən vacib olan sahələrdən biridir. Bu gün cənab baş direktor ilə görüşdə bu barədə fikir mübadiləsi apardıq və qeyd etdim ki, hazırda Azərbaycanda qeyri-neft sahəsində bizim üçün iki əsas prioritet sahə vardır. Onlardan biri informasiya-kommunikasiya texnologiyaları, digəri isə kənd təsərrüfatıdır.

Kənd təsərrüfatı sahəsi hər bir xalq üçün çox önəmlidir, xüsusilə Azərbaycan üçün. Əhalimizin təxminən yarısı, ondan bir qədər az kənd zonalarında, kəndlərdə yaşayır. Kəndlərdə müasir infrastrukturun yaradılması, müasir xidmətin göstərilməsi məsələləri də bizim üçün prioritetdir. 2004-cü ildə ölkəmizdə birinci regional inkişaf proqramını qəbul etmişik. Proqramın icrası nəticəsində Azərbaycanda bir milyondan artıq yeni iş yeri açılmışdır. Bu iş yerlərinin mütləq əksəriyyəti aqrar sektorda yaranıbdır.

Son səkkiz il ərzində ümumi daxili məhsulumuz 3, büdcə xərcləri 20 dəfəyə yaxın artmış, yoxsulluq 5 dəfə azalmışdır. Səkkiz il əvvəl əhalimizin 49 faizi yoxsulluq şəraitində yaşayırdı. Hazırda bu rəqəm 7,6 faizdir. Şübhə yoxdur ki, yoxsulluq şəraitində yaşayanların əksəriyyəti paytaxtda deyil, bölgələrdə yaşayırdı. Ona görə iqtisadi islahatlarımız və regionlara böyük investisiyaların qoyulması bir neçə məsələyə müsbət təsirini göstərmişdir. Burada bir neçə məqsədi – ilk növbədə, iş yerlərinin açılması, yoxsulluğun azaldılması, bölgələrdən, kəndlərdən böyük şəhərlərə, xüsusilə paytaxta miqrasiyanın dayandırılmasını təmin edə bilmişik. İdxalı əvəzləyən yerli istehsal sahələrinin yaradılması prosesi də çox sürətlə gedir. Qarşıya hədəf qoymuşuq ki, özümüzü əsas ərzaq məhsulları ilə tam şəkildə təmin etməliyik. Bu istiqamətdə çox ciddi addımlar atılmışdır. Hazırda özümüzü əsas qida məhsulları ilə böyük dərəcədə – təxminən 80–90 faiz səviyyəsində təmin edirik. Çox güclü ixrac potensialı da formalaşır. İxrac potensialını daha da artırmaq üçün indi müxtəlif stimulverici amillərdən istifadə edirik. Yeni bazarlara çıxırıq. Azərbaycanda, demək olar, bütün yeni, müasir emal müəssisələri dünya standartlarına cavab verir ki, məhsulumuzu istənilən bazarlara ixrac edə bilək. Hazırda bizim üçün əsas ixrac bazarı qonşu ölkələrdir. Bu, ənənəvi bazardır. Ancaq məhsullarımızla artıq Avropa İttifaqı məkanına da çıxırıq. Əminəm ki, yaxın zamanlarda bu işlər daha sürətlə gedəcəkdir.

İslahatlar davam etdirilir. Bu islahatlar ölkəmizin inkişafına, iqtisadiyyatın şaxələndirilməsinə xidmət göstərir.

Bu gün Azərbaycanın kifayət qədər böyük maliyyə resursları vardır. Bu resurslar qeyri-neft sektorunun inkişafına yatırılır. Beləliklə, ölkə iqtisadiyyatının dayanıqlığı təmin edilir.

Ərzaq təhlükəsizliyi məsələləri dünya gündəliyində çox mühüm yer tutur. Azərbaycan artıq donor ölkəyə çevrilir. Müstəqilliyimizin ilk illərində beynəlxalq təşkilatlardan böyük yardımlar almışıq və buna görə minnətdarıq. Bu yardımlar bizə imkan verib ki, ölkəmizi inkişaf etdirək.

Hazırda müxtəlif sahələrdə, o cümlədən FAO-nun məşğul olduğu sahədə də donor ölkəyə çevrilirik. Biz istəyirik ki, bu sahədəki fəaliyyəti FAO ilə birlikdə, əlaqələndirilmiş şəkildə aparaq. Çünki Azərbaycanın təcrübəsi hesab edirəm ki, çox dəyərlidir. Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına qısa müddətdə keçmişik. Müstəqilliyi bərpa etdikdə – 1991-ci ildə bazar iqtisadiyyatı bizim ümumi daxili məhsulda sıfır faizə bərabər idi. Hazırda Azərbaycan iqtisadiyyatının 80 faizdən çoxu özəl sektorda formalaşır. Biz dövlət–özəl partnyorluq təcrübəsinə malikik. Qeyd etdiyim kimi, son səkkiz ildə ümumi daxili məhsul 3 dəfə, yəni 300 faiz artmışdır. Növbəti onillik üçün daha ciddi planlarımız, hədəflərimiz vardır. Mən bu barədə artıq bəyanatlar vermişəm ki, növbəti 10 il ərzində Azərbaycanda ümumi daxili məhsul daha iki dəfə artmalıdır. Bu, artıq ilk növbədə, qeyri-neft sektorunun hesabına baş verməlidir.

Beləliklə, hesab edirəm ki, bizim təcrübəmiz müsbətdir, bu islahatlar mütləq aparılmalıdır. İlk növbədə, kənd təsərrüfatı sahəsində aparılmalıdır. Biz torpağı kəndlilərə, insanlara qaytardıq. Uzun illər idi ki, Sovet İttifaqının tərkib hissəsi idik. Hər şey, o cümlədən torpaq dövlətə məxsus idi. Sovet İttifaqı zamanında Azərbaycan əsas ərzaq məhsullarını başqa respublikalardan gətirirdi. Hazırda biz nəinki böyük dərəcədə özümüzü təmin edirik, hətta ixrac potensialımız da yaranıbdır. Yəni bu müsbət təcrübə vacib ola bilər və bununla əlaqədar,

FAO ilə müxtəlif layihələrdə əməkdaşlığın dərinləşməsində maraqlıyıq.

Biz aclığa qarşı mübarizədə daha da fəal rol oynamağa hazırıq. Çünki aclıq XXI əsrin ən böyük bəlasıdır, dözülməzdir ki, hazırda bu gün, bu dəqiqə aclıqdan ölənlər vardır. Bütün səylərimizi birləşdirib bu böyük bəlaya qarşı ciddi mübarizə aparmalıyıq. Azərbaycan buna hazırdır və FAO-nun çox dəyərli üzvü kimi, bu sahədə konkret addımları atmağa hazırıq. Əminəm ki, konfransda bu məsələ də müzakirə ediləcəkdir.

Bir məsələyə də diqqətinizi çəkmək istəyirəm. Son illər ərzində kənd təsərrüfatında böyük islahatlar aparmışıq və bu islahatları aparacağıq. Yeni torpaqların dövriyyəyə buraxılması prosesləri gedir. Torpağa xidmət müasir səviyyədə aparılır. Hələ ki, bu sahədə görüləsi işlər çoxdur. Hesab etmirəm ki, istədiyimizə tam şəkildə nail ola bilmişik. Qüsurlar da, problemlər də, çətinliklər də vardır. Ancaq bu problemlərin həll yollarını bilirik. Ancaq bizim ərazimizin müəyyən hissəsi 20 ilə yaxındır ki, işğal altındadır. Ermənistanın Azərbaycana qarşı apardığı işğal və etnik təmizləmə siyasəti torpaqlarımızın, yəni beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan torpaqlarının 20 faizinin işğal altına düşməsinə gətirib çıxarmışdır. Orada bütün infrastruktur dağıdılmışdır. Kənd təsərrüfatı üçün yararlı torpaqlar indi istifadəsiz qalır. Əgər münaqişəyə son qoyularsa, Ermənistan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə riayət edərsə və işğal edilmiş torpaqlardan öz xoşu ilə çəkilərsə, hazırda həmin torpaqlar da dövriyyəyə buraxılacaqdır. Beləliklə, kənd təsərrüfatı, insanların normal yaşaması üçün daha yaxşı imkanlar yaranacaqdır.

Biz bundan sonra da bütün beynəlxalq təşkilatlar, o cümlədən FAO ilə əməkdaşlığımızı davam etdirəcəyik. FAO-nun dünyadakı mövqeləri möhkəmlənir. Bu təşkilat çox böyük nüfuza malikdir və BMT ailəsində konkret proqramı ilə seçilir. Azərbaycan da BMT-nin fəal üzvüdür. Keçən il oktyabr ayında müstəqilliyimizin 20 illiyini qeyd edərkən, Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Bu, müstəqillik tarixində

bizim ən böyük qələbəmizdir, ən böyük diplomatik uğurumuzdur. Gənc müstəqil dövlət üçün dünyanın bir nömrəli mötəbər qurumuna üzv seçilmək böyük nailiyyətdir. Sevindirici haldır ki, namizədliyimizi 155 ölkə dəstəkləmişdir. Bu onu göstərir ki, son 20 ildə Azərbaycan özünü dünyaya etibarlı tərəfdaş, dost, ədaləti müdafiə edən ölkə kimi tanıtdıra bilmişdir. Hazırda BMT Təhlükəsizlik Şurasında fəaliyyətə başlamışıq, prinsipial mövqemizlə seçilirik. Gələn ay dünyanın bir nömrəli qurumuna sədrlik edəcəyik. Biz Təhlükəsizlik Şurasında beynəlxalq hüququ və ədaləti müdafiə edəcəyik. Ədalətin tam şəkildə bərqərar olması üçün dünyada aclıq olmamalıdır. Aclıq dünyada ən böyük ədalətsizlikdir.

Bir daha tam əminliklə demək istəyirəm ki, Azərbaycan bu islahatlarda yeni uğurlar qazanacaq, beynəlxalq təşkilatlarla, FAO ilə əməkdaşlığımız daha da dərinləşəcəkdir.

Hörmətli dostlar, sonda demək istərdim ki, ümidvaram qonaqlarımız, dostlarımız şəhərimizlə tanış ola biləcəklər. Bu çox önəmli konfransdır. Bu konfransın gündəliyində çox önəmli məsələlər qeyd olunubdur. Buna baxmayaraq, əksəriyyətiniz Azərbaycana ilk dəfədir gəlib. Ona görə də ümidvaram imkanınız olacaqdır ki, Bakını görəsiniz, mədəniyyəti ilə tanış olasınız, Azərbaycanı daha yaxşı tanıyasınız və bizim dostlarımıza çevriləsiniz.

Bir daha sizə uğurlar arzu etmək istəyirəm. Cənab baş direktor, sizə və bütün həmkarlarınıza təşəkkürümü bildirir və konfransın işinə uğurlar arzulayıram.

Sağ olun.

# DUBAY ƏMİRİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ, DUBAY İNVESTİSİYA KORPORASİYASININ İCRAÇI DİREKTORU MƏHƏMMƏD ƏL-ŞAYBANİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Dubay Əmiri Administrasiyasının rəhbəri, Dubay investisiya korporasiyasının icraçı direktoru Məhəmməd əl-Şaybanini qəbul etmişdir.*

*Məhəmməd əl- Şaybani Dubay Əmiri Şeyx Məhəmməd bin Rəşid əl-Məktumun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycanda gedən inkişaf proseslərinin onda böyük təəssürat yaratdığını dedi.*

*Dövlətimizin başçısı Dubayda keçirdiyi görüşləri məmnunluqla xatırlatdı. Azərbaycan ilə Dubay Əmirliyi arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə yaxşı səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev bu əlaqələrin gələcəkdə daha da genişləndirilməsi üçün böyük imkanların olduğunu dedi.*

*Dövlətimizin başçısı Dubay Əmiri Şeyx Məhəmməd bin Rəşid əl-Məktumun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Dubay Əmirinə çatdırmağı xahiş etdi.*

**DÜNYA BANKININ PREZİDENTİ**
**CƏNAB CİM YEN KİMƏ**

Hörmətli cənab Prezident!

Dünya Bankının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz ölkəmizin Dünya Bankı ilə əməkdaşlığına böyük əhəmiyyət veririk. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlarda, infrastruktur layihələrinin maliyyələşdirilməsində Dünya Bankının yaxından iştirakını məmnunluqla qeyd etmək istərdim.

Ümidvaram ki, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası sahəsində qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əməkdaşlığımızın daha da dərinləşdirilməsi naminə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bir daha Sizə öz təbriklərimi yetirir, möhkəm cansağlığı, qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 aprel 2012-ci il*

# HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNDA YENİ UÇUŞ-ENMƏ ZOLAĞININ AÇILIŞI MƏRASİMİ

*20 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni uçuş-enmə zolağının açılışında iştirak etmiş, mövcud aerovağzal kompleksində yenidənqurma və yeni kompleksdə tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Azərbaycanda sərnişin daşımalarının həyata keçirilməsi üçün aerovağzal binası 1933-cü ildə istifadəyə verilmişdir. Beynəlxalq standartlara cavab verən aerovağzal kompleksi isə ulu öndər Heydər Əliyevin səyi nəticəsində 1999-cu ildə istismara buraxılmışdır. Son illərdə Heydər Əliyev Beynəlxalq Aeroportunda uçuş-enmə zolaqları və yönəldici yollar yenidən qurulmuş, uçuşları idarəetmə sistemləri müasirləşdirilmiş, radionaviqasiya və meteoavadanlıq yenilənmiş, digər silsilə tədbirlər reallaşdırılmışdır. 2003-cü ildən isə Azərbaycanın mülki aviasiyası intensiv inkişaf mərhələsinə qədəm qoymuşdur. 2004-cü ildə beynəlxalq standartlara cavab verən Naxçıvan Beynəlxalq Aeroportu istifadəyə verilmişdir. Bundan sonra bir-birinin ardınca Gəncə, Zaqatala, Lənkəran və Qəbələ aeroportları işə salınmışdır. Sərnişin və yükdaşımaların daha müasir səviyyəyə çatdırılması üçün təyyarə və helikopter parkı yenilənmişdir.*

*Dövlətimizin başçısı Heydər Əliyev Beynəlxalq Aeroportunun yenidən qurulmasının baş planını, yeni uçuş-enmə zolağını, yönəldici yolları və perronu əks etdirən stendlərə baxdı. «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov məlumat verdi ki, dövlət başçısının tapşırığına uyğun olaraq, Heydər Əliyev Beynəlxalq Aeroportunda yenidənqurma işlərinə 2011-ci ilin aprelindən başlanılmışdır. İsti-*

*fadəyə hazır* olan *yeni uçuş-enmə zolağı dünyanın ən ağır və müasir təyyarələrini qəbul edə biləcəkdir.*

*Qeyd edildi ki, yeni uçuş-enmə zolağının uzunluğu 4 min, eni 75 metr, sahəsi 325 min 500 kvadratmetrdir. Yönəldici yolların ümumi uzunluğu 3 min 800, eni isə 60 metrdir. Ən müasir* stan*dartlara* cavab *verən perronun sahəsi 309 min kvadratmetrdir. Ərazini yağış və qrunt sularından mühafizə etmək üçün açıq yağış kanalı, drenaj və kollektor xətləri, o cümlədən təzyiqli su xətti və üç nasos stansiyası inşa olunmuşdur.*

*Prezident İlham Əliyev yeni uçuş-enmə zolağının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı açılış münasibətilə sifarişçi – «Azərbaycan Hava Yolları» QSC-nin və yenidənqurma işlərini həyata keçirən «Azvirt» MMC-nin kollektivlərini təbrik etdi.*

*Azərbaycan prezidenti yeni uçuş-enmə zolağı ilə tanış oldu. Tanışlıq avtomobil ilə davam etdirildi.*

*Yeni uçuş-enmə zolağı ilə tanışlıqdan* sonra *prezident İlham Əliyevə mövcud aerovağzal kompleksində aparılan yenidənqurma işlərinin gedişi barədə məlumat* verildi.

*Diqqətə çatdırıldı ki, müvafiq marşrutlar üzrə Heydər Əliyev Beynəlxalq* Aeroportuna *gələn təyyarələrdəki sərnişinlərin yüklərinin qəbulu bölməsində ən müasir avadanlıq quraşdırılmışdır. Mövcud aerovağzal* kompleksinin *gömrük sahəsində də əsaslı yenidənqurma işləri görülmüşdür.* Burada *xidmət sahələri genişləndirilmiş,* texniki *baxımdan müasirləşdirilmişdir. İşıqlandırma* sistemi *də orijinallığı və müasirliyi ilə diqqəti cəlb edir. Viza və pasport qeydiyyatı şöbələri də müasir görkəm almışdır.*

*Prezident İlham Əliyevə Gömrük Bəyannaməsinin* elektron *formatda doldurulması üçün yeni quraşdırılan* avadanlığın *üstünlükləri barədə məlumat* verildi.

*Bildirildi ki, gömrük sahəsində yüklərin qəbulu* prosesi *təkmilləşdirilmiş və ən müasir* standartlara *uyğunlaşdırılmışdır. Sərnişinlər gömrük sahəsindəki Azərbaycan və* paytaxt *Bakının xəritələri vasitəsilə respublikamızın turizm imkanları,*

mehmanxanalar, metro stansiyaları, ölkəmizdəki mövcud aeroportlar və onları maraqlandıran digər suallar barədə dolğun məlumat əldə edə biləcəklər. Kompleksdə yeni monitorlar quraşdırılmış, çıxışların sayı iki dəfə artırılmışdır. Gözləmə salonları əsaslı şəkildə genişləndirilmiş, sərnişinlərə təklif olunan xidmətlərin sayı artırılmış və keyfiyyəti daha da yaxşılaşdırılmışdır. Ümumilikdə, mövcud aerovağzalın istər «Cənub», istərsə də «Şimal» terminallarında hərtərəfli yenidənqurma işləri görülmüş, sərnişin və yükdaşımalarla bağlı xidmətin səviyyəsinin yüksəldilməsi üçün kompleks tədbirlər reallaşdırılmışdır.

Daha sonra yeni aerovağzal kompleksində tikinti işlərinin gedişi ilə tanış olan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, inşaat işləri cədvəl üzrə aparılır və dünyadakı ən son yeniliklərə əsaslanır. İstər yeni layihəsinin orijinallığına, istərsə də ən son elmi-texniki yeniliklərə əsaslanmasına görə Heydər Əliyev Beynəlxalq Aeroportu dünyada nadir aeroportlardan biri olacaqdır.

Bildirildi ki, 58 min kvadratmetr sahəsi olan dördmərtəbəli yeni aerovağzal kompleksi beynəlxalq reysləri yerinə yetirən təyyarələrin sərnişinlərinə xidmət göstərəcəkdir. Yenidən qurulan mövcud terminaldan isə yerli aviareyslər həyata keçiriləcək və ildə 3 milyon sərnişinə xidmət göstəriləcəkdir.

Prezident İlham Əliyevə məlumat verildi ki, yeni terminalın binasının tikintisi ilə yanaşı, ümumi sahəsi 63 min kvadratmetrə çatacaq vağzalətrafı meydan da tamamilə yenidən qurulacaqdır. Bundan başqa, uçuşları idarə edəcək yeni naviqasiya qülləsi, yanğından mühafizə binası, enerji mərkəzi və digər tikililərin inşası aparılır, yeraltı və yerüstü kommunikasiya xətləri yeniləşdirilir.

Yenidənqurma işləri ilə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.

**PAKİSTAN İSLAM RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ**

Hörmətli cənab Prezident!

İslamabad şəhəri yaxınlığında baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Pakistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 aprel 2012-ci il*

## İSRAİLİN BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ AVİQDOR LİBERMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də İsrail Dövlətinin Baş nazirinin müavini, Xarici İşlər naziri Aviqdor Libermanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İsrailin Baş nazirinin müavini, Xarici İşlər naziri Aviqdor Liberman Azərbaycana səfərindən ötən dövr ərzində ölkəmizdə çox böyük inkişafın şahidi olduğunu dedi.*

*Dövlətimizin başçısı Azərbaycanda quruculuq işlərinin ardıcıl olaraq sürətlə həyata keçirildiyini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə İsrail arasında əlaqələrin müxtəlif sahələrdə inkişafına dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## RUSİYA FEDERASİYASI KURQAN VİLAYƏTİNİN QUBERNATORU OLEQ BOQOMOLOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Rusiya Federasiyasının Kurqan vilayətinin qubernatoru Oleq Boqomolovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycana növbəti səfərindən məmnunluğunu bildirən Oleq Boqomolov ötən dövr ərzində ölkəmizdə gedən sürətli inkişaf proseslərinin onda xoş təəssürat yaratdığını dedi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin bütün istiqamətlərdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya Federasiyasının ayrı-ayrı subyektləri arasında yaxşı əməkdaşlığın qurulduğunu bildirərək, bunun ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi.*

## NÜVƏ TƏHLÜKƏSİZLİYİNƏ DAİR KOREYA RESPUBLİKASININ «DİPLOMACY» JURNALINA MÜSAHİBƏ

*Seul*

*24 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreya Respublikasında nəşr olunan nüfuzlu «Diplomacy» jurnalına müsahibə vermişdir. Müsahibənin əvvəlində jurnalın rəhbəri, doktor Thok-kyu Limb oxuculara Azərbaycan Respublikası barədə məlumat verərək bildirmişdir ki, uğurlu iqtisadi islahatlar nəticəsində hazırda dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilən Azərbaycan bu iqtisadi sıçrayışa prezident İlham Əliyevin rəhbərliyi ilə nail olmuşdur.*

**S u a l: Zati-aliləri prezident İlham Əliyev, əvvəlcə Koreyaya səfəriniz münasibətilə ən xoş salamlarımı Sizə çatdırmaq istərdim. Koreyaya səfərinizdən əsas məqsədiniz nədir?**

**C a v a b:** «2012 Seul Nüvə Təhlükəsizliyi Sammiti»nə dəvəti qəbul edərək böyük məmnuniyyətlə Seula səfərə gəlmişəm. Ümid edirəm ki, sammitin işi və burada aparılan müzakirələr səmərəli olacaq və Azərbaycan da nüvə təhlükəsizliyi ilə bağlı məsələlərin həllinə müəyyən dərəcədə öz töhfəsini verəcəkdir.

**S u a l: «2012 Seul Nüvə Təhlükəsizliyi Sammiti»nin nəticələri ilə bağlı təəssüratınız necədir?**

**C a v a b**: Qədəm qoyduğumuz XXI əsrdə beynəlxalq aləmdə baş verən qloballaşma prosesinin, geosiyasi dəyişikliklərin fonunda dünya yeni çağırışlarla üzləşmişdir. Ən ciddi çağırışlardan biri nüvə təhlükəsizliyi məsələləridir. Bu məsələ ayrı-ayrı ölkələr tərəfindən təklikdə həllini tapa bilməz. Bunun üçün bütün dünya birliyi öz səylərini ortaya qoymalıdır. Bu baxımdan müxtəlif

ölkələrin dövlət və hökumət başçılarının iştirak etdiyi «2012 Seul Nüvə Təhlükəsizliyi Sammiti» böyük əhəmiyyət daşıyır.

**S u a l: Bü gün Sizin Azərbaycanda üzləşdiyiniz əsas problemlər hansılardır?**

**C a v a b**: Mən qətiyyətlə deyə bilərəm ki, Azərbaycan özünün inkişaf yolu ilə bağlı məqsədlərinə, demək olar ki, çatmışdır. Əlbəttə ki, həlli vacib olan bəzi problemlər də mövcuddur. Lakin Azərbaycan xalqı və Azərbaycan dövləti üçün ən ağrılı problem Ermənistanın Azərbaycana davam edən təcavüzü və bu təcavüz nəticəsində yaranmış Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin indiyə qədər həll olunmamasıdır. Münaqişə bölgədə sülhə və sabitliyə ən böyük təhlükədir. İyirmi ildən çoxdur ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisinin 20 faizi işğal edilib, ermənilərin həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. İşğal olunmuş ərazilərdə bütün sosial və infrastruktur obyektləri, qədim tarixi abidələr, məscidlər, qəbiristanlıqlar ermənilər tərəfindən tamamilə dağıdılmışdır.

Münaqişənin nizama salınması üçün güclü beynəlxalq hüquqi baza mövcuddur. Problemin həlli ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır. Həmin qətnamələr işğalçı qoşunların işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılmasını tələb edir. Bildiyimiz kimi, bu qətnamələr ən yüksək səviyyədə qəbul olunan beynəlxalq qərarlardır, lakin bunlar icra olunmur. ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq qurumlar da Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən mühüm qərar və qətnamələr qəbul edib. Təəssüflər olsun ki, Ermənistan bunların da heç birinə məhəl qoymur.

Uzun illərdir ki, ATƏT-in Minsk qrupu bu münaqişənin həlli ilə məşğul olur. Həmsədr ölkələrin – Rusiyanın, ABŞ-ın və Fransanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan prezidentləri arasında çoxlu sayda görüşlər keçirilib. Amma Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi nəticəsində münaqişə həllini tapa bilmir. Bu münaqişə yalnız sülh yolu ilə, beynəlxalq prinsiplər

əsasında və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizama salına bilər.

**S u a l: Azərbaycanın hazırkı iqtisadi vəziyyəti ilə bağlı nə deyərdiniz?**

**C a v a b**: Azərbaycan dünyanın ən sürətli inkişaf edən ölkələrindən biridir. Son vaxtlar həyata keçirilən uğurlu islahatlar nəticəsində Azərbaycan iqtisadi inkişaf templərinə görə dünyada liderdir. Ümumi daxili məhsulun artımı baxımından biz ən yüksək göstəricilərə nail olmuşuq. Son bir neçə ildə ölkə iqtisadiyyatı, demək olar ki, 300 faiz artmışdır. İşsizliyin aradan qaldırılması ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Son 8 il ərzində bir milyondan çox yeni iş yeri açılmışdır. İşsizliyin səviyyəsi 5,4 faizdir. Hər il əhalinin pul gəlirləri inflyasiyanı iki dəfədən çox üstələyir. Yoxsulluğun səviyyəsi 49 faizdən 7,6 faizə endirilmişdir. Biz qısa müddətdə iqtisadiyyatın kifayət qədər şaxələndirilməsinə nail ola bilmişik. Təsadüfi deyildir ki, aparıcı beynəlxalq maliyyə qurumları bu baxımdan Azərbaycanın uğurlarını çox yüksək qiymətləndirirlər. Əgər Dünya İqtisadi Forumunun rəyinə nəzər salsaq görərik ki, Azərbaycan rəqabətlilik baxımından dünyada 55-ci, MDB məkanında isə birinci yerdə olan dövlətdir. «Standard & Poors» Beynəlxalq Reytinq Xidməti də Azərbaycanın suveren kredit reytinqini yüksəltmişdir. Bu, ölkədə həyata keçirilən uğurlu islahatların göstəricisidir. Biz iqtisadiyyatın liberallaşdırılmasına, özəl sektor üçün yaxşı şəraitin yaradılmasına nail olmuşuq. Həyata keçirilən liberal iqtisadi siyasət ölkədə sahibkarlıq fəaliyyəti üçün münbit şərait yaratmışdır. İqtisadiyyatda özəl sektorun payı artıq 80 faizdən çoxdur. Bu gün Azərbaycan iqtisadiyyatı ümumilikdə Cənubi Qafqaz iqtisadiyyatının 75–80 faizini təşkil edir.

**S u a l: Azərbaycan ilə Koreya arasında iqtisadi münasibətlərin perspektivlərini necə görürsünüz?**

**C a v a b**: Azərbaycan ilə Koreya arasında ikitərəfli əlaqələr sürətlə inkişaf edir. Dövlət başçılarının yüksək səviyyəli qarşılıqlı səfərləri zamanı imzalanan sənədlər ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün möhkəm baza yaratmışdır. 2007-ci ildə mənim Koreya Respublikasına dövlət

səfərim iqtisadi əlaqələrin genişləndirilməsinə böyük təkan vermişdir. Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə komissiya yaradılmışdır. Bu komissiya iqtisadi əməkdaşlıq məsələləri ilə bağlı, demək olar ki, bütün sahələri əhatə etmişdir. Bütövlükdə Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlığa dair 40-dan çox sənəd imzalanmışdır. Azərbaycanda mövcud olan münbit sərmayə mühiti Koreya şirkətlərinin ölkəmizə marağını artırır. Bu şirkətlər Azərbaycanın enerji, informasiya texnologiyaları sahələrində və bir çox infrastruktur layihələrində uğurla fəaliyyət göstərirlər. 2011-ci ildə Azərbaycan Respublikasının Koreya Respublikası ilə ticarət dövriyyəsinin həcmi təxminən 650 milyon ABŞ dolları təşkil etmişdir.

Azərbaycan ilə Koreya arasında iqtisadi əməkdaşlığın çox böyük perspektivləri vardır, əməkdaşlıq imkanlarımız genişdir. Ölkələrimiz arasında elm və texnologiya, enerji, nəqliyyat, turizm, kənd təsərrüfatı və ümumi maraq doğuran digər sahələrdə uzunmüddətli əməkdaşlıq üçün yaxşı imkanlar mövcuddur.

**S u a l: XXI əsrdə Azərbaycanı necə görürsünüz?**

**C a v a b**: Azərbaycan əlverişli coğrafi mövqeyə və zəngin təbii sərvətlərə malik olan bir ölkədir. Azərbaycan XXI əsrə sürətli iqtisadi inkişaf templəri ilə qədəm qoymuşdur. Azərbaycan əməkdaşlıq üçün açıq olan bir ölkədir. Ölkəmizin güclü iqtisadiyyatı və neft-qaz sənayesinin inkişafı resurslarımızı insan kapitalına yönəltmək üçün bizə əlverişli imkan yaradır. Bütün sahələri əhatə edən uğurlu sosial infrastruktur layihələrini həyata keçiririk və bu, gələcəkdə də davam etdiriləcəkdir.

Elmi-texniki tərəqqinin inkişaf etdirilməsi, təhsilin, səhiyyənin ən müasir tələblər səviyyəsinə qaldırılması, cəmiyyətin bütünlüklə modernləşdirilməsi əsas prioritet məsələlərdəndir. Biz eyni zamanda, informasiya-kommunikasiya texnologiyalarının daha da inkişaf etdirilməsinə böyük önəm veririk. Bu il Azərbaycan özünün ilk süni peykini orbitə buraxacaqdır. Bu, böyük uğurdur.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan tarixən müxtəlif sivilizasiyaların qovuşduğu bir ərazi olmuşdur. Bu gün biz ölkəmizdə bütün dinlərin və mədəniyyətlərin birgə yaşayışı üçün tolerant cəmiyyət qurmuşuq. Əminəm ki, dünyaya nümunə ola biləcək bu tolerantlıq ölkəmizdə gələcəkdə də hökm sürəcəkdir.

Digər sahələrə gəlincə, deyə bilərəm ki, biz Azərbaycanı turizm ölkəsinə çevirmək üçün mühüm layihələr həyata keçiririk. İdmanın inkişaf etdirilməsi də dövlətin daim diqqət mərkəzindədir və deyə bilərəm ki, artıq bu sahədə böyük uğurlar əldə etmişik. Bir sözlə, gələcəklə bağlı planlarımız çoxdur və əminəm ki, Azərbaycan xalqının iradəsi, xalqla iqtidar arasında olan birlik, həyata keçirdiyimiz məqsədyönlü daxili və xarici siyasət XXI əsrdə qarşıya qoyduğumuz məqsədlərə çatmağa kömək edəcəkdir.

**S u a l: Koreya ilə bağlı ümumi təəssüratlarınız nədən ibarətdir?**

**C a v a b**: Bu mənim Koreyaya ikinci səfərimdir. Koreya ilə bağlı xoş təəssüratlarım vardır. Mən 2007-ci ildə Koreyaya dövlət səfərimi böyük məmnunluqla xatırlayıram. Səfər zamanı mənə və Azərbaycan nümayəndə heyətinə çox böyük qonaqpərvərlik göstərildi. Koreyada yüksək inkişafın şahidi oldum. Koreyanın yeni şəhərlərin salınması layihələri bizdə maraq doğurdu. Nəhəng tikinti layihələri, həmçinin Koreya memarlığının qədim nümunələri məndə dərin təəssürat yaratdı. Bir daha əmin oldum ki, Koreyada milli, mənəvi və tarixi dəyərlər necə böyük qayğı ilə qorunur.

Mən Kyunq He Universitetində koreyalı tələbələrlə görüşümü də yaxşı xatırlayıram. Kyunq He Universitetinin Fəxri doktoru adına layiq görülməyimdən çox məmnunam. Hər bir ölkənin gələcək tərəqqisi gənc nəslin təhsili, biliyi və elmin inkişafı ilə bağlıdır. Əminəm ki, koreyalı gənclərin elmə və təhsilə marağı ölkənizin gələcək inkişafına bundan sonra da öz töhfəsini verəcəkdir. Ümumiyyətlə, Koreya xalqının zəhmətsevərliyi, ölkənizin həyata keçirdiyi siyasət Koreyanı

dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevirmişdir. Azərbaycan xalqı Koreyaya dost münasibət bəsləyir. Ölkələrimiz arasında mədəni əlaqələr daim genişlənməkdədir. Mən Koreya xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

## AZGÜNTEX ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*Sumqayıt*

*24 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən Sumqayıtda inşa olunmuş Azgüntex zavodunun açılışında iştirak etmişdir.*

*Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin direktoru Akim Bədəlov prezident İlham Əliyevə məlumat verdi ki, Azgüntex zavodunda iki istehsal xətti – Günəş modulları və LED lampaları xətləri fəaliyyət göstərəcəkdir. İnşasına ötən ilin yanvarından başlanılan və Avropa ölkələrinin aparıcı şirkətlərinin ən müasir texnologiyaları əsasında yaradılan Günəş modulları xətti istifadəyə tam hazırdır.*

*Dövlətimizin başçısı zavodun rəmzi açılışını bildirən lenti kəsdi və müəssisənin altımərtəbəli inzibati binası ilə tanış oldu.*

*Bildirildi ki, inzibati bina bütün lazımi avadanlıq və inventarlarla təchiz olunmuşdur. Burada işçilərin səmərəli fəaliyyəti üçün hər cür imkan vardır. Zavod tam kompüterləşdirilmiş, «Wi-Fi» şəbəkəsi yaradılmışdır. İşçilərin istirahəti üçün ayrıca sağlamlıq zalı da fəaliyyət göstərir.*

*Prezident İlham Əliyev inzibati binada ölkəmizdə alternativ və bərpa olunan enerji siyasətindən bəhs edən filmi izlədi.*

*Dövlətimizin başçısı binanın foyesində Azgüntex zavodunda hazırlanan günəş panellərinin nümunələrinə baxdı. Bildirildi ki, müəssisədə hər birinin gücü 42 vatdan 250 vata qədər olan və 60 fotoelementlə təchiz edilən bu panellər beynəlxalq standartlar səviyyəsində hazırlanacaq və sabit enerji verəcəkdir. Yaşayış binalarının, küçələrin, meydanların, müxtəlif iaşə və sosial obyektlərin daha səmərəli işıqlandırılması və*

enerji təminatının yaxşılaşdırılması üçün zavodda LED yüksək texnologiyalı lampaların istehsalı da nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyevə «min ev – min elektrostansiya» layihəsi barədə də məlumat verildi. Qeyd olundu ki, əsasən yaşayış binaları üçün nəzərdə tutulan bu layihə hər bir evin müstəqil şəkildə günəş enerjisini elektrik enerjisinə çevirən, ekoloji cəhətdən təmiz və təhlükəsiz kiçik elektrik stansiyası ilə təchizinə yönəlmişdir. Bu elektrostansiyalardakı günəş panelləri vasitəsilə əldə olunan sabit enerji dəyişən enerjiyə çevrilərək istehlakçıların istifadəsinə veriləcəkdir. Artıq qalan enerji şəbəkəyə ötürüləcək, gecə saatlarında isə şəbəkədən alınacaqdır. İlk mərhələdə yığcam şəkildə salınan qəsəbələr üçün nəzərdə tutulan bu layihənin gələcəkdə daha da genişləndirilməsi imkanları böyükdür. Körpülərin, ticarət obyektlərinin üzərində günəş panellərinin qurulması, enerjidoldurma məntəqələrinin inşası da mühüm əhəmiyyət kəsb edən layihələrdəndir.

Dövlətimizin başçısı inzibati binadan Sumqayıt Yüksək Texnologiyalar Parkının yaradılacağı ərazini seyr etdi.

Sonra prezident İlham Əliyev zavodun Günəş modulları istehsalı xətti ilə tanış oldu. Bildirildi ki, hazırda müəssisədə bir növbədə 33 nəfər işləyir. Üçnövbəli iş rejiminə keçdikdən sonra işçilərin sayı 130 nəfərə çatdırılacaqdır. Alternativ və bərpa olunan enerji sahəsində dünyanın məşhur şirkətlərinin istehsal etdikləri ən müasir texnologiyalarla təmin olunan zavodda ekoloji normalara ciddi əməl edilir. Burada işçilərin sağlam və təhlükəsiz fəaliyyəti üçün yüksək şərait yaradılmışdır.

Azərbaycan prezidenti zavodu işə saldı və istehsal prosesini izlədi.

Sonra prezident İlham Əliyev Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin Sumqayıtda yaradılacaq Yüksək Texnologiyalar Parkının layihəsi ilə tanış oldu. Məlumat verildi ki, ümumilikdə parkın ərazisində alternativ və bərpa olunan enerji və enerjidən səmərəli istifadə texnologiyasına əsaslanan 15 zavodun inşası planlaşdırılır. Parkın

*ərazisində yaradılacaq optik linzalar, şüşə və bazalt liflər, akkumulyator istehsalı və digər zavodlar alternativ enerjinin əldə edilməsində və istifadəsində lazım olan avadanlığın ölkəmizdə istehsalına şərait yaradacaqdır. Bu həm tələb olunan avadanlığın daha ucuz başa gəlməsinə, həm də onların tətbiqinin xeyli asanlaşmasına imkan verəcəkdir. Alternativ enerjinin tətbiqi zamanı istifadə olunan əsas materiallardan biri də LED lampalarıdır. Hazırda sürətlə yayılan və yeni nəsil işıqlandırma sistemi hesab olunan LED lampaları enerjiyə qənaəti və uzun müddət istifadəyə yararlılığı ilə seçilir. Bu məqsədlə parkın ərazisində lampa zavodunun inşası da nəzərdə tutulur.*

*Dövlətimizin başçısına Sumqayıt Məişət Tullantıları Emalı zavodunun layihəsi barədə məlumat verildi. Bildirildi ki, zavodun illik emal gücü 146 min ton olacaqdır.*

*Prezident İlham Əliyev Azgüntex zavodunun kollektivinə uğurlar arzuladı.*

## Texnologiyalar parkında polimer məhsulları istehsalı zavodunun genişləndirilməsi işləri ilə tanışlıq, ağır maşınqayırma və dəqiq emal mərkəzləri zavodlarının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Sumqayıt Texnologiyalar Parkında polimer məhsulları istehsalı zavodunun genişləndirilməsi işləri ilə tanış olmuş, ağır maşınqayırma və dəqiq emal mərkəzləri zavodlarının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 17 zavoddan ibarət olan STP-də respublika əhəmiyyətli müxtəlif çeşidli məhsullar, o cümlədən kabellər, transformatorlar, yüksək gərginlikli avadanlıq, hidroturbinlər, su nasosları, elektrik mühərrikləri, borular, texniki qazlar istehsal edilir. Bu sənaye nəhənginin istifadəyə verilməsi nəticəsində yüzlərlə yeni iş yeri açılmışdır.*

*Prezident İlham Əliyevə STP kabel zavodunun tikintisinin üçüncü mərhələsi çərçivəsində yüksək gərginlikli kabellərin izolyasiya xətlərinin quraşdırılacağı qüllə barədə məlumat verildi. Bildirildi ki, burada 500 kilovoltluq güc kabellərinin iki izolyasiya xətti yerləşəcəkdir. Bu layihə MDB məkanı və Yaxın Şərqdə yalnız Azərbaycanda reallaşdırılır. Qüllənin yeraltı hissəsi 40 metr dərinlikdədir. Ümumi uzunluğu 124,5 metr olan qüllənin tikintisinə 2009-cu ilin sonunda başlanılmışdır. Tikinti işləri və avadanlığın quraşdırılması 2012-ci ilin sonunadək başa çatdırılacaqdır.*

*Prezident İlham Əliyev avtobusla STP-nin ərazisini gəzdi. Bildirildi ki, dövlətimizin başçısının tapşırıqlarına əsasən, Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun xüsusi çəkisinin artırılması məqsədi ilə park ölkəmizin sənaye nəhənglərindən birinə çevrilməkdədir.*

*Dövlətimizin başçısı polimer məhsulları istehsalı zavodunun genişləndirilməsi işlərindən sonrakı vəziyyəti ilə tanış oldu.*

*Vurğulandı ki, 2009-cu ildə zavod istehsala başlayan zaman burada cəmi beş xətt var idi. Genişləndirmə işlərindən sonra bu xətlərin sayı artırılaraq, ümumilikdə 25-ə çatdırılmışdır. Müxtəlif təyinatlı boruların istehsalı üzrə ixtisaslaşan zavod hazırda nəinki respublikamızın, o cümlədən regionun ən perspektivli müəssisələrindəndir. Peşəkar kadrların çalışdığı bu müəssisədə ölkəmizdə və beynəlxalq bazarda kəskin ehtiyac duyulan qaz, su, kanalizasiya və digər məqsədlər üçün istifadə olunan alüminium təbəqəli çoxqatlı polietilen və polipropilen borular istehsal edilir.*

*Qeyd edildi ki, zavodun ümumi ərazisi 2,8 hektardır. Hazırda burada 400 nəfər işlə təmin edilmişdir. Zavod sutkada 396 ton polietilen boru istehsal etmək gücünə malikdir. Burada quraşdırılan yeni xətlərdə diametri 16 millimetrdən 800 millimetrədək olan borular istehsal etmək mümkündür. Zavodun məhsulları müasir tələblərə cavab verir. Polietilen borular yüksək təzyiqə davamlı olmaqla yanaşı, korroziyaya uğramır və onlara 50 il zəmanət verilir. Buradakı xətlərin hər biri saatda*

1300 kiloqram polietilen boru istehsal etmək gücünə malikdir. Zavodda diametri 50 millimetrdən 250 millimetrədək olmaqla istehsal edilən drenaj boruları, həmçinin qızdırıcı xətlərin çəkilməsi üçün nəzərdə tutulan polipropilen borular da ən müasir tələblərə uyğun şəkildə, yüksək keyfiyyətlə istehsal olunur.

Zavodda Almaniya istehsalı olan və ən son texnoloji yeniliklərə cavab verən avadanlıq quraşdırılmışdır. Bunun sayəsində müəssisədə yüksək keyfiyyətli və rəqabətə davamlı məhsul istehsal edilir. MDB-də bənzəri olmayan bu zavod daxili tələbatı tam ödəməklə yanaşı, məhsullarını bir sıra xarici ölkələrə də ixrac etməyi nəzərdə tutur. Müəssisənin idarə edilməsi tam avtomatlaşdırılmışdır. Gələcəkdə zavodun fəaliyyəti daha da genişləndiriləcəkdir. Yaxın günlərdə burada diametri 1200 millimetr olan kanalizasiya borularının istehsalına da başlanılacaqdır. Xammalı Almaniyadan alan zavod polipropilendən stadionlar üçün tamaşaçı oturacaqları və xüsusi sifarişlə bir sıra digər məhsullar istehsal etmək imkanına malikdir.

Müəssisənin fəaliyyəti ilə tanış olan prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

* * *

Azərbaycan prezidenti STP-nin ağır maşınqayırma zavodunun açılışında iştirak etdi.

Diqqətə çatdırıldı ki, tikintisinə 2010-cu ildə başlanan müəssisə xammalı Rusiya, Türkiyə və digər ölkələrdən alır. Ümumi sahəsi 4,5 hektar olan zavodda dünyanın bir sıra aparıcı şirkətlərinin avadanlıqları quraşdırılmışdır. Zavodda 900 nəfər işlə təmin olunmuşdur.

Müəssisədə yaradılan şəraitlə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, burada elektrik stansiyalarının inşası üçün metal konstruksiyalar və müxtəlif hissələr istehsal edilir. Zavodda, həmçinin 10, 110, 220 və 330 kilovoltluq elektrik ötürücü xətlərin dayaqları hazırlanır. Burada, həmçinin energetika avadanlığının təmiri həyata keçiriləcəkdir. Zavodun illik istehsal gücü 50 min tondur. Bu cür gücə malik zavod Cənubi Qafqazda yalnız Azər-

*baycandadır. Gələcəkdə müəssisənin fəaliyyətinin daha da genişləndirilməsi nəzərdə tutulur. Zavod məhsullarını xarici bazarlara çıxarmağı da planlaşdırır.*

* * *

*STP-nin Dəqiq Emal mərkəzləri zavodunun açılışında iştirak edən prezident İlham Əliyevə məlumat verildi ki, müəssisə maşın və mexanizmlərin işlək detallarının dəqiq emalı və hazırlanması sexindən və bu sexin tərkibində olan pəstah, xüsusi təyinatlı avadanlığın işlək hissələrinin emalından və avadanlığın işlək detallarının dəqiq emalı sahələrindən ibarətdir. Pəstah sahəsində detalların hazırlanması üçün lazım olan materiallar universal frez və torna dəzgahları vasitəsilə müvafiq ölçülərə gətirilir. Xüsusi təyinatlı avadanlığın işlək hissələrinin emalı sahəsində isə hidroturbin, alternativ enerji qurğularının hissələri yüksək dəqiqliklə və keyfiyyətlə istehsal olunur. Avadanlığın işlək detallarının dəqiq emalı sahəsində müxtəlif ölçülü valların, reduktor hissələrinin hazırlanması həyata keçirilir.*

*Bildirildi ki, zavodda dünyanın inkişaf etmiş ölkələrinin aparıcı şirkətlərinin istehsal etdiyi 58 dəzgah quraşdırılmışdır. Bu dəzgahlarda energetika, maşınqayırma və neft sənayesi sektoruna aid bir çox detalların emalı mümkündür. Burada, həmçinin plastik injektorlu qəliblərin, ştampların layihələndirilməsi, hissələrin emalı, yığımı yerinə yetirilir. Zavodda kabel istehsalı üçün müxtəlif ölçülü kalibrlər, matrisa və s. istehsal olunur. Müəssisədə, həmçinin STP-nin polimer məhsulları istehsalı və kabel zavodları üçün də müxtəlif ölçülü detallar hazırlanır. Zavod İsveçrə, İsveç və Almaniyanın tanınmış şirkətləri ilə əməkdaşlıq edir. Daxili bazardakı tələbatı ödəyən zavod məhsullarını xarici ölkələrə də ixrac edəcəkdir.*

*Zavodun fəaliyyəti ilə tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## GENERAL HƏZİ ASLANOVUN ABİDƏSİNİN, BAKI FUNİKULYORUNUN ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULMASI, DAĞÜSTÜ PARKDA İSTİQLAL MUZEYİNİN İNŞASI VƏ DƏNİZKƏNARI MİLLİ PARKIN GENİŞLƏNDİRİLMƏSİ İLƏ BAĞLI HƏYATA KEÇİRİLƏN İŞLƏRİN GEDİŞİ İLƏ TANIŞLIQ

*25 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general Həzi Aslanovun abidəsinin, Bakı funikulyorunun əsaslı şəkildə yenidən qurulması, Dağüstü parkda İstiqlal Muzeyinin inşası və Dənizkənarı Milli Parkın genişləndirilməsi ilə bağlı həyata keçirilən işlərin gedişi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general Həzi Aslanovun abidəsinin təmiri, abidənin ətrafında həyata keçirilən abadlıq və quruculuq işlərinin gedişi barədə məlumat verildi.*

*Sonra prezident İlham Əliyev Bakı funikulyorunun «Şəhidlər xiyabanı» stansiyasında aparılan əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanış oldu. Yeni funikulyorun müasir standartlara uyğun layihə əsasında yenidən qurulduğu qeyd edildi. Dövlətimizin başçısı Bakı funikulyorunun «Bəhram Gur» stansiyasında görülən işlərin gedişi ilə yaxından tanış oldu, yeni gətirilmiş vaqonlara baxdı. Dövlətimizin başçısı Dağüstü parkda inşa olunan İstiqlal Muzeyinin tikinti işlərinin gedişi ilə də maraqlandı, Dənizkənarı Milli Parkın genişləndirilmiş ərazisində görülən işlərin gedişi ilə yerindəcə tanış oldu. Abadlıq və yenidənqurma işlərinin gedişi ilə tanışlıqdan sonra prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## İORDANİYA SENATI SƏDRİNİN BİRİNCİ MÜAVİNİ ABDURRAUF ƏL-RAVABİDƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də İordaniya Senatı sədrinin birinci müavini Abdurrauf əl-Ravabidənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İordaniya Senatı sədrinin birinci müavini Abdurrauf əl-Ravabidə Azərbaycana səfərindən və prezident İlham Əliyevlə görüşündən böyük məmnunluq hissi keçirdiyini dedi. Əsasını ulu öndər Heydər Əliyevin qoyduğu quruculuq işlərinin prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayan Abdurrauf əl-Ravabidə Azərbaycanda gedən iqtisadi inkişaf proseslərinin ölkəsində maraqla izlənildiyini dedi. O, Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə İordaniya Krallığı arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluğunu bildirdi.*

*Dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq etdiyini vurğuladı. Siyasi sahədə münasibətlərimizin yüksək səviyyədə olduğunu deyən prezident İlham Əliyev iqtisadi və parlamentlərarası əlaqələr sahəsində də əməkdaşlığımızı genişləndirmək üçün yaxşı potensialın mövcudluğunu qeyd etdi.*

## BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ BOYKO BORİSOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovu qəbul etmişdir.*

*Azərbaycan–Bolqarıstan ikitərəfli münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə yüksələn xətlə inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev ölkələrimiz arasında ticarət dövriyyəsinin səviyyəsinin razılıq doğurduğunu dedi. Dövlətimizin başçısı Bolqarıstanın Baş naziri Boyko Borisovun Azərbaycana səfərinin ikitərəfli münasibətlərimizin yeni istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətini qeyd etdi və səfərin uğurlu olacağına əminliyini bildirdi.*

*Baş nazir Boyko Borisov Bolqarıstan ilə Azərbaycan arasında yaxşı əməkdaşlıq ənənələrinin mövcudluğunu vurğulayaraq, əlaqələrimizin genişləndirilməsi üçün böyük imkanların olduğunu qeyd etdi.*

*Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirildi.*

*Dövlətimizin başçısı Baş nazir Boyko Borisovun böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin önəmini qeyd etdi. Prezident İlham Əliyev ölkəmizin Bolqarıstan ilə ikitərəfli əlaqələrin konkret layihələrlə daha da genişləndirilməsində maraqlı olduğunu dedi. İqtisadi sahədə əlaqələrə toxunan dövlətimizin başçısı enerji sektorunda əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı, nəqliyyat, turizm, informasiya texnologiyaları, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığı inkişaf etdirməyin önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev Bolqarıstanın Baş* nazir*i* Boyko Borisovun *ölkəmizə səfərinin* ikit*ərəfli münasibətlərimizin* daha da *möhkəmləndirilməsi baxımından* konkret *nəticələr verəcəyinə əminliyini ifadə* etdi.

*Bolqarıstanın Baş* nazir*i* Boyko Borisov *müzakirə* olunan *məsələlərin xalqlarımız və ölkələrimiz arasında əlaqələrin* daha da *genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar* olduğunu bildirdi. *Baş* nazir *ayrı-ayrı sahələrdə əməkdaşlığımızın inkişafı ilə bağlı qarşıda* duran *məsələlərin həyata keçirilməsi üçün müvafiq* struktur *rəhbərlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğuladı.*

## TÜRKİYƏNİN ELM, SƏNAYE VƏ TEXNOLOGİYA NAZİRİ NİHAT ƏRGÜNÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 aprel 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Türkiyə Respublikasının Elm, Sənaye və Texnologiya naziri Nihat Ərgünün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Türkiyə arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev elm, sənaye və texnologiya sahəsində də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi. Dövlətimizin başçısı Türkiyənin Elm, Sənaye və Texnologiya naziri Nihat Ərgünün ölkəmizə səfərinin bu sahədə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi baxımından önəmli olacağına əminliyini ifadə etdi.*

*Türkiyə Respublikasının Elm, Sənaye və Texnologiya naziri Nihat Ərgün prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Nihat Ərgün Azərbaycana səfərindən və prezident İlham Əliyev ilə görüşündən böyük məmnunluq hissi keçirdiyini dedi. Türkiyəli nazir səfər zamanı rəhbərlik etdiyi nazirliklə Azərbaycanın müvafiq qurumları arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı səmərəli müzakirələr aparacaqlarına ümidvar olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA İŞGÜZAR SƏFƏR

*Nyu-York*

*2 may 2012-ci il*

*Prezident İlham Əliyev Azərbaycan Respublikasının BMT-yə üzv qəbul olunmasının 20-ci ildönümü ilə bağlı tədbirdə və BMT Təhlükəsizlik Şurasının yüksək səviyyəli iclasında iştirak etmək üçün mayın 2-də Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərinə işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimihin başçısını Heydər Əliyev Beynəlxalq aeroportunda Prezident Administarısiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

## ARGENTİNANIN XARİCİ İŞLƏR NAZİRİ HEKTOR TİMERMAN İLƏ GÖRÜŞ

*Nyu-York*

*3 may 2012-ci il*

*ABŞ-da işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Nyu-Yorkda Argentinanın Xarici İşlər naziri Hektor Timerman ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Argentina arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu. Ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın mövcudluğu vurğulandı.*

*Argentinanın iş adamlarının yaxın zamanlarda Azərbaycana həyata keçirəcəkləri səfərin iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətinin qeyd olunduğu görüşdə əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə edildi.*

## ABŞ-ın NƏQLİYYAT KOMANDANI GENERAL UİLYAM FREYZER İLƏ GÖRÜŞ

*Nyu-York*

*3 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Nyu-Yorkda ABŞ-ın nəqliyyat komandanı general Uilyam Freyzer ilə görüşmüşdür.*

*General Uilyam Freyzer Azərbaycan ilə ABŞ arasında əlaqələrin inkişafından məmnunluğunu bildirdi. Terrorizmə qarşı mübarizədə və Əfqanıstanda həyata keçirilən sülhyaratma əməliyyatlarında Azərbaycanın rolunu vurğulayan komandan bu sahədə əməkdaşlığın gələcəkdə də davam edəcəyinə ümidvar olduğunu dedi.*

*Əməkdaşlığımızın uğurlu və səmərəli olduğunu qeyd edən Azərbaycan prezidenti İlham Əliyev antiterror koalisiyası çərçivəsində əlaqələrin bundan sonra da uğurla davam edəcəyinə əminliyini bildirdi.*

## AZƏRBAYCANIN BMT-yə ÜZV QƏBUL OLUNMASININ 20-ci İLDÖNÜMÜ VƏ 2012–2013-cü İLLƏR ÜÇÜN BMT-nin TƏHLÜKƏSİZLİK ŞURASINA QEYRİ-DAİMİ ÜZV SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*Nyu-York*

*3 may 2012-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevin adından mayın 3-də Nyu-Yorkda Azərbaycanın BMT-yə üzv qəbul olunmasının 20-ci ildönümü və ölkəmizin 2012–2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibətilə rəsmi qəbul təşkil edilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, BMT-nin Baş katibi Pan Gi Mun, ABŞ-ın nüfuzlu siyasi və ictimai xadimləri mərasimdə iştirak etmişlər.*

*Bu tədbir Azərbaycan–BMT əməkdaşlığının verdiyi töhfələri təhlil etmək, onun nəticələri barədə müzakirələr aparmaq baxımından xüsusi əhəmiyyəti ilə diqqəti cəlb edir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak edən BMT-nin Baş katibi Pan Gi Mun ilə görüşdü.*

*Mərasimə dəvət olunan qonaqlar Azərbaycan prezidenti ilə görüşərək ölkəmizin BMT-yə üzv qəbul olunmasının 20 illiyi və BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi münasibətilə təbriklərini çatdırdılar. Bu bir daha ölkəmizin dünya birliyində tutduğu mövqenin möhkəm təməllər üzərində qurulduğunu göstərdi. Bu il ölkəmizin BMT-yə qəbul olunmasının 20-ci ildönümüdür. 1992-ci il martın 2-də BMT Baş Məclisinin 46-cı sessiyasında Azərbaycanın təşkilata üzv qəbul olunması haqqında qətnamə qəbul edilmişdir. Nyu-Yorkda BMT-nin iqamətgahı qarşısında təşkilatın 181-ci üzvünün – Azərbaycanın bayrağı qaldırılmışdır. 1992-ci il*

*mayın 6-da isə təşkilatda Azərbaycan nümayəndəliyi fəaliyyətə başlamışdır. Ötən müddətdə qurumla əməkdaşlıq Azərbaycanın dünya birliyinə sıx inteqrasiyasına nail olmaq və ölkəmizin beynəlxalq mövqeyini möhkəmləndirməklə yanaşı, həm də Ermənistanın təcavüzkar siyasətini ifşa etməyə geniş imkan yaratmışdır.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.*

– Xanımlar və cənablar!

Hörmətli qonaqlar, hörmətli dostlar!

Dəvətimizi qəbul edib bu gün axşam bizimlə olduğunuza görə, sizə çox minnətdaram. Belə bir möhtəşəm ziyafəti təşkil etməkdən və sizin hamınızı burada görməkdən böyük şərəf hissi duyuram.

Burada uzun illərdən bəri tanıdığım insanları, bir çox dostları, o cümlədən yeni dostları görürəm. Əminəm ki, hamımız bu günü hələ çox xatırlayacağıq. Bu gün biz Azərbaycanın müasir tarixində iki mühüm hadisəni qeyd edirik. 20 il öncə Azərbaycan BMT-nin üzvü oldu. Ötən il isə ölkəmiz bu təşkilatın Təhlükəsizlik Şurasına üzv seçildi. Həmin iki əlamətdar hadisə bu gün qeyd olunur. Bir neçə gün öncə Azərbaycan Təhlükəsizlik Şurasında sədrliyi qəbul etdi.

Mən bizə səs verən və etimad göstərən, seçki prosesinin ən mühüm məqamında bizi dəstəkləyən şəxslərin hamısına təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan səslərin çoxunu topladı. Bu, müstəqillik illərində göstərdiyimiz səylərin qiymətləndirilməsidir, son 20 ildə sürətlə dəyişmiş, qarşısına böyük məqsədlər qoymuş və bu məqsədlərə çatmağa çalışan müasir gənc ölkəyə göstərilən dəstəyin rəmzi oldu. Biz iyirmi il öncə müstəqil ölkəyə çevrildik. Xalqımızın böyük tarixi, mədəniyyəti və adət-ənənələri vardır. Lakin müstəqil deyildik. 20 il öncə dövlətçiliyi qurmaq, qonşularımız və dostlarımızla sülh və dostluq şəraitində həyatımızı yaşamaq fürsəti bizə nəsib oldu. İyirmi il ərzində baş verən dəyişikliklər göstərdi ki, Azər-

baycan böyük uğurlar əldə edib. Siyasi sistemdə böyük dəyişikliklərə nail olduq və köklü siyasi islahatlar həyata keçirdik. Bu gün Azərbaycan bütün siyasi azadlıqları – mətbuat azadlığını, ifadə azadlığını, azad interneti, dini azadlığı təmin edən müasir, demokratik və açıq ölkədir. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Biz bundan qürur duyuruq. Bu bizim keçmişdən qalan irsimizdir. Siyasi sistemdən asılı olmayaraq, həyatımızın bütün dövrlərində Azərbaycan dinlərin və xalqların qovuşduğu, bir ailə kimi yaşadığı məkan olub. Biz çox fərəhlənirik ki, iyirmi ildə keçmişimizin bu mühüm irsini nəinki qoruyub saxlamağa, əməkdaşlıq, qardaşlıq və tərəfdaşlıq ruhunu gücləndirməyə nail olduq. Biz multikulturalizm ideyasına, müxtəlif mənşəyə və dini köklərə malik olan insanların birgə yaşamasına və müasir ölkənin qurulmasına həsr olunmuş bir çox beynəlxalq tədbirləri də keçiririk.

Biz olduqca ciddi iqtisadi layihələri həyata keçirmişik. Bu isə gündəliyimizin çox mühüm hissəsi olub. Çünki planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçməli idik. İyirmi illik dövr ərzində bazar iqtisadiyyatının payı ümumi daxili məhsulda 80 faizi ötüb. Bu gün isə biz inkişafı və iqtisadi islahatların nəticələrini həqiqətən hiss edirik. Son 10 ildən az müddətdə ümumi daxili məhsul 3 dəfə artmışdır. Sənaye istehsalı da 3 dəfə artmışdır. Yoxsulluq səviyyəsi təxminən 50 faizdən 7,6 faizə düşmüşdür. İşsizlik səviyyəsi 5,4 faizdir. Biz «Holland sindromu»na məruz qalmadıq və yalnız enerji sektorundan asılı olmamaq məqsədilə iqtisadiyyatımızı şaxələndirdik. İqtisadi islahatlarımızı davam etdirəcəyik. Çünki ölkə əhalisi üçün bu islahatların faydasını görürük. Çox məmnunuq ki, beynəlxalq maliyyə təsisatları ölkəmizdə görülən işlərə dəstək verir və bunu qiymətləndirirlər. Xüsusən də iqtisadi və maliyyə böhranının baş verdiyi illərdə «Standard & Poors», «Fitch» və «Moodys» kimi əsas beynəlxalq maliyyə təsisatları kredit reytinqimizi yaxşılaşdırmışdır. Bu gün iqtisadiyyatımız əvvəlki illərə nisbətən daha rəqabətədavamlıdır. Bu gün iqtisadiyyatın

şaxələndirilməsi artıq reallıqdır. Biz İKT-nin inkişafı kimi məsələlər üzərində işləyirik, kosmos sənayesini yaradırıq, bir sözlə, iqtisadiyyatımızı müasir və inkişaf edən iqtisadiyyata çeviririk. Məqsədimiz dünyanın inkişaf etmiş ölkələri sırasında olmaqdır. Artıq 3 dəfə artmış ümumi daxili məhsulu gələn 10 il ərzində daha 2 dəfə artırmaq və yüksəkgəlirli ölkəyə çevrilmək məqsədimiz vardır.

Biz həmçinin sosial problemlərin həlli üzərində çalışırıq. Əsas sosial problemlərdən biri qaçqın və məcburi köçkünlərlə bağlıdır. 20 ildir ki, Ermənistanın təcavüzündən və torpaqlarımızın işğalından əziyyət çəkirik. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi hələ də işğal altındadır. BMT Təhlükəsizlik Şurası məsələ ilə bağlı 4 qətnamə qəbul edib. Əfsuslar olsun ki, onlar hələ də icra olunmayıb. Ermənistan onlara məhəl qoymur. Həmin qətnamələrdə erməni silahlı qüvvələrinin ərazilərimizdən qeyd-şərtsiz və dərhal çıxarılması tələb olunur. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional sabitliyə əsas təhlükədir. Bu, regionda böyük ədalətsizlikdir və beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması deməkdir. Azərbaycan BMT-yə 20 il öncə suveren və bütöv ölkə kimi daxil oldu. Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisidir. Hər zaman Azərbaycanın tarixi hissəsi olub. Hüquqi baxımdan Azərbaycanın ayrılmaz hissəsidir. Biz ərazi bütövlüyümüzün bərpasını, qaçqın və məcburi köçkünlərimizin doğma yerlərinə qayıtmasını istəyirik.

Ölkəmizin problemləri və nailiyyətləri haqqında çox danışa bilərəm. Lakin ən vacibi odur ki, bizdə 20 il öncə yaranmış fürsətdən düzgün istifadə olunmuşdur. Biz müstəqilliyimizi gücləndirə bildik, iqtisadiyyatımızda dəyişiklik etdik, siyasi təsisatları qurduq, dostlarımızla yaxşı tərəfdaşlıq əlaqələri yaratdıq. Bu gün gözəl Nyu-York şəhərində çıxış edərək bildirmək istəyirəm ki, Birləşmiş Ştatlarla ikitərəfli münasibətlərimizə böyük əhəmiyyət veririk. Bu münasibətlərin böyük tarixi var və onlar bir çox sahələri əhatə edir. Biz siyasi

inkişaf, iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi və bütövlükdə təhlükəsizlik məsələləri və antiterror əməliyyatları ilə bağlı fəal əməkdaşlıq edirik. Azərbaycan Birləşmiş Ştatların etibarlı tərəfdaşıdır və 20 illik dövr ərzində bu münasibətlər hər iki tərəf üçün strateji tərəfdaşlıq münasibətlərinə çevrilib. Əminəm ki, əlaqələrimizin gələcəyi də çox uğurlu olacaqdır. Hazırda regional miqyaslı mühüm məsələlər üzərində işləyirik. Regionun aparıcı ölkəsi kimi, güclü iqtisadiyyata malikik. Təhlükəsizlik Şurasının üzvü olan Azərbaycan qlobal işlərdə öz rolunu oynamağa hazırdır.

Regional səviyyədə irəli sürdüyümüz istər siyasi, istər iqtisadi, istərsə də enerji və digər sahələrdə təşəbbüslər yeni vəziyyət yaradır. Enerji təşəbbüslərimiz regional enerji xəritəsini dəyişir və regionda çiçəklənməyə, proqnozlaşdırmaya doğru aparır. Biz qonşularımızla sülh şəraitində yaşamaq istəyirik və dostlarımızla əməkdaşlığı gücləndirmək arzusundayıq. Bir neçə ay öncə beynəlxalq ictimaiyyət və BMT ailəsi bizə öz böyük dəstəyini verdi. Biz Təhlükəsizlik Şurasına seçildik. Bu gün bizə dəstək verən bütün ölkələrə minnətdarlığımı bildirmək istəyirəm. Seçilmək üçün 16 turdan keçməli olduq. Çox güclü rəqiblərimiz var idi. Bu, güclü, lakin ədalətli rəqabət oldu. 155 ölkənin dəstəyini almaqdan qürur hissi duyuruq. Bu, dostluq, dəstək, eləcə də ölkə daxilində və qlobal səviyyədə gördüyümüz işlərə verilən qiymətin rəmzidir. Həmçinin böyük məsuliyyətdir. Gələn iki il ərzində biz bu məsuliyyəti Təhlükəsizlik Şurasındakı tərəfdaşlarımızla bölüşəcəyik. Sizi əmin edə bilərəm ki, Azərbaycan Təhlükəsizlik Şurasının fəal və konstruktiv üzvü olacaqdır. Seçildiyimiz zaman bəyanat verərək xalqımızı təbrik etdim və bildirdim ki, Azərbaycan Təhlükəsizlik Şurasında ədalət və beynəlxalq hüququ müdafiə edəcəkdir.

Çox sağ olun, əziz dostlar. Bizimlə olduğunuza görə minnətdaram. Sizə ən xoş arzularımı çatdırıram.

## AZƏRBAYCAN PREZİDENTİNİN SƏDRLİYİ İLƏ BMT TƏHLÜKƏSİZLİK ŞURASININ YÜKSƏK SƏVİYYƏLİ İCLASINDA İŞTİRAK

*Nyu-York*

*4 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə mayın 4-də Nyu-Yorkda BMT Təhlükəsizlik Şurasının yüksək səviyyəli iclası keçirilmişdir.*

*İclasda Azərbaycanın təşəbbüsü ilə «Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər» mövzusunda müzakirələr aparılmışdır.*

*Ötən ilin oktyabrında Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməklə, müstəqil olduğumuz 20 ildə xarici siyasətin ən böyük uğurlarından birini qazanmışdır. Bu məqsədlə keçirilən seçkilərdə 155 ölkənin səsini qazanaraq tarixi nailiyyətə imza atan ölkəmiz 2012-ci il yanvarın 1-dən Təhlükəsizlik Şurasında səlahiyyətlərinin icrasına başlamışdır. ABŞ, Çin, Rusiya, Böyük Britaniya və Fransa kimi daimi üzvlərlə birgə Azərbaycanın da dünyanın bir nömrəli beynəlxalq təşkilatının ən ali qurumunda iştirakı ölkəmizin tutduğu yolun dünya tərəfindən dəstəklənməsinin əyani təsdiqidir. Bu həm də beynəlxalq birliyin Azərbaycanda yürüdülən siyasətə və prezident İlham Əliyevin fəaliyyətinə verdiyi önəmin təzahürü, dünya ictimaiyyətinin ölkəmizə olan inamı və etimadının ifadəsidir.*

*Təhlükəsizlik Şurasının yüksək səviyyəli iclasında iştirak etmək üçün prezident İlham Əliyev BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahına gəldi.*

*BMT Təhlükəsizlik Şurasının Azərbaycan prezidentinin sədrliyi ilə keçən iclasında dövlətimizin başçısı budəfəki gündəliyin «Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər» mövzusuna həsr olunduğunu diqqətə çatdırdı.*

*Azərbaycan prezidenti İlham Əliyev BMT-nin Baş katibi Pan Gi Muna bu iclasda iştirak etdiyinə görə təşəkkürünü bildirdi.*

BMT-nin Baş katibi Pan Gi Mun Azərbaycan prezidenti İlham Əliyevi ölkəmizin Təhlükəsizlik Şurasına sədrlik etməsi münasibətilə təbrik etdi və dövlətimizin başçısının bu iclasa sədrliyini alqışladığını dedi. Baş katib bildirdi ki, beynəlxalq ictimaiyyət terrorizmə qarşı davamlı mübarizə aparır və dünyanın müxtəlif nöqtələrindəki terror təşkilatları hələ də təhlükə mənbəyi olaraq qalır. «Ötən il Liviyaya göndərilən faktaraşdırıcı missiya oradakı terror təşkilatlarına kənardan yardımların olduğunu göstərdi» – deyən Pan Gi Mun qeyd etdi ki, əsas məqsəd terrorla mübarizəni gücləndirib insan haqlarının müdafiəsinə zəmin yaratmaqdır. BMT-nin Baş katibi terrorla mübarizədə ortaq konsepsiyanın yaradılmasının zəruriliyini vurğuladı.

Almaniyanın Xarici İşlər naziri Guido Vestervelle Azərbaycan prezidentinə Təhlükəsizlik Şurasına sədrlik etməsi münasibətilə təbriklərini çatdırdı. «Bizim birgə fəaliyyətimiz terrorçu mənbələri zəiflətmişdir» – deyən Guido Vestervelle İraq və Əfqanıstanda bu baxımdan uğurlu nəticələrin əldə olunduğunu bildirdi. Nazir vurğuladı ki, Almaniya hər zaman BMT-nin antiterror strategiyasının həyata keçirilməsinə dəstək verəcəkdir.

Toqonun Xarici İşlər və Əməkdaşlıq naziri Eliot Ohin də Azərbaycan prezidentini ölkəmizin Təhlükəsizlik Şurasına sədrliyi münasibətilə təbrik etdi. Nazir terrorizmin sülhə və təhlükəsizliyə ən böyük təhdid olduğunu dedi. Eliot Ohin terror təşkilatlarının fəaliyyəti nəticəsində Afrika qitəsinə vurulan zərərin miqyası barədə məlumat verdi.

Mərakeşin Xarici İşlər və Əməkdaşlıq naziri Yusif Əmrani belə bir əhəmiyyətli iclasa sədrlik etdiyinə görə prezident İlham Əliyevə minnətdarlığını bildirərək dedi ki, bu, ölkəmizin terrorizmə qarşı əməliyyatlara verdiyi xüsusi önəmdən irəli gəlir.

Rusiya prezidentinin terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə xüsusi nümayəndəsi Aleksandr Zmeyevski bildirdi ki, terrorizmə heç cür bəraət qazandırmaq olmaz və onunla mübarizə yalnız beynəlxalq əməkdaşlıq sayəsində mümkündür.

*Kolumbiyanın Çoxtərəfli İşlər nazirinin müavini Patti Londono bu cür böyük əhəmiyyətə malik bir iclasa sədrlik etdiyinə görə prezident İlham Əliyevə minnətdarlığını bildirərək bir neçə ay əvvəl Azərbaycana səfərini xatırlatdı. O, terrorizmə qarşı mübarizənin onun ölkəsinin də prioritetləri sırasına daxil olduğunu diqqətə çatdırdı.*

*Çin Xalq Respublikasının nümayəndəsi may ayında BMT Təhlükəsizlik Şurasına sədrlik edəcək Azərbaycana «Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər» mövzusunda yüksək səviyyəli iclas keçirmək təşəbbüsünə görə təşəkkürünü çatdırdı. İyirmi ildir BMT-nin üzvü olan Azərbaycanın beynəlxalq birliklə əməkdaşlığını yüksək qiymətləndirən Çinin nümayəndəsi ölkəmizin bu əməkdaşlığa böyük töhfələr verdiyini dedi. BMT-nin prinsiplərinin qorunub saxlanmasında Azərbaycanın böyük səylər göstərdiyini diqqətə çatdıran Çinin nümayəndəsi ölkəsinin bu səyləri dəstəklədiyini bildirdi.*

*Pakistan, Böyük Britaniya, Hindistan, Cənubi Afrika Respublikası, Qvatemala, Fransa və Portuqaliya nümayəndələri də çıxışlarında Azərbaycanın tarixində ilk dəfə BMT Təhlükəsizlik Şurasına sədrlik etdiyini bildirərək bu münasibətlə təbriklərini çatdırdılar. Beynəlxalq sülh və təhlükəsizliyi təhdid edən terrorizmin hazırda dünya üçün ən böyük bəla olduğunu qeyd etdilər və BMT-nin bu sahədə həyata keçirdiyi mübarizə tədbirlərini dəstəklədiklərini bildirdilər.*

* * *

*Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının yüksək səviyyəli iclasında çıxış etdi.*

– İndi isə mən Azərbaycan Respublikasının Prezidenti kimi, öz bəyanatımla çıxış edəcəyəm.

Terrorçuluq beynəlxalq sülh və təhlükəsizliyə, bütün üzv dövlətlərdə insan hüquqlarının, fundamental azadlıqların, demokratiyanın, siyasi müstəqilliyin, suverenliyin, ərazi bütövlüyünün və nəhayət, sosial və iqtisadi inkişafın bərqərar olunmasına ciddi təhdiddir.

Azərbaycan terrorçuluğun bütün forma və təzahürlərini qəti surətdə pisləyir. Biz hesab edirik ki, bütün terror aktları ağır cinayətdir, onlar pislənməli və bunu törədənlər cəzalandırılmalıdırlar. Terrorçulara öz əməllərini əsaslandırmaq üçün heç vaxt imkan verilməməlidir. Səbəblərindən asılı olmayaraq, heç bir terror aktı əsaslandırıla bilməz. Terrorçuluğun dəyişən mahiyyəti və siması, bir çox hallarda onun təcavüzkar separatizm, ekstremizm və mütəşəkkil cinayətkarlığa bağlılığı vardır.

Silahlı münaqişələrə məruz qalan yerlərdə, xüsusən də xarici hərbi işğal altında olan ərazilərdə terrorçuluq ilə həmin məkanda olanlar arasında bir qayda olaraq, sövdələşmənin yaranmasına şəraitlər formalaşır. Azərbaycan müxtəlif yollarla terrorçuluğa məruz qalmışdır. Azərbaycan kənardan təşkil olunan terror fəaliyyətinin birbaşa hədəfinə çevrilmişdir. Ermənistan Respublikası Azərbaycanın mülki əhalisi və infrastrukturuna qarşı onlarla terror aktı törətmişdir. Bunun nəticəsində 2 mindən artıq azərbaycanlı həyatını itirmişdir. Ermənistan öz güc strukturlarının bilavasitə iştirakı ilə hazırladığı həmin terror aktlarını beynəlxalq terror qruplarından istifadə edərək törətmişdir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin fəal fazasında Ermənistan etnik təmizləməyə nail olmaq üçün hərbi təcavüzlə yanaşı, mülki əhaliyə qarşı geniş şəkildə terror aktlarından da istifadə etmişdir. Həmin vəhşilik aktları 1992-ci ilin fevral ayında Xocalı əhalisinin məhv edilməsi ilə kulminasiya nöqtəsinə çatdı. Həmin vaxt 613 günahsız insan, o cümlədən qadınlar, uşaqlar və yaşlılar öz həyatı ilə vidalaşmışdır. 100-dən artıq qadın, 63 uşaq qətlə yetirilmişdir. Ermənistan, həmçinin münaqişə zonasından uzaq məsafədə də – ictimai nəqliyyatda və mühüm infrastruktur yerlərində, 1994-cü ildə Bakı metrosunda bomba partlayışı və digər terror aktlarını törədərək, mülki əhaliyə qarşı mübarizə apardı.

Bu gün Ermənistanın terror risklərindən irəli gələrək, biz əsasən terror hədələrinin tərəfimizdən zərərsizləşdirilməsinə baxmayaraq, bu risk yenə də yüksək olaraq qalır. Terror aktlarının Azərbaycanın mülki infrastrukturlarına, xüsusən su rezervuarları və bəndlərinə,

neft kəmərləri şəbəkəsinə hücum etməsi kimi əməllərinin legitim hərbi taktika olması ilə bağlı açıq bəyanatlar və fikirlər hələ də müşahidə edilir. Bunlar birmənalı surətdə mülki əhali arasında yüz minlərlə tələfatın olması ilə nəticələnə bilər. Beynəlxalq terror təşkilatlarının elementləri Ermənistanın təhlükəsizlik və müdafiə sektoruna inteqrasiya edilib. Avropa dəyərlərinə və universal dəyərlərə sadiq olduğunu göstərməyə çalışan ölkə tərəfindən beynəlxalq terror təşkilatlarının üzvlərini qəhrəman kimi qələmə vermək və onlara abidələr ucaltmaq səylərini görmək təəssüf doğurur.

Azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalı ilə nəticələnmişdir. Bir milyondan artıq qaçqın və məcburi köçkün öz doğma yurdlarından didərgin salınmışdır. BMT Təhlükəsizlik Şurası erməni qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Lakin əfsuslar olsun ki, Ermənistan təxminən 20 il ərzində bu qətnamələrə məhəl qoymur.

Azərbaycanın işğal edilmiş əraziləri terrorçuluqla separatizm, ekstremizm və mütəşəkkil cinayətkarlıq, o cümlədən narkotik maddələrin dövriyyəsi, çirkli pulların yuyulması və silah qaçaqmalçılığı arasında olan əlaqə baxımından böyük narahatlıq mənbəyidir. Ermənistanın terror hədələrinə əlavə olaraq, Azərbaycan beynəlxalq terror qruplarından irəli gələn risk və təhlükələrlə hələ də üzləşir. Ölkəmizin həssas regionlara yaxınlığı bu hədələri bizim üçün daha qabarıq şəklə salır. Buna görə, Azərbaycan təbii olaraq milli səviyyədə genişmiqyaslı tədbirləri görməkdədir və terrorçuluğun qarşısının alınması üçün beynəlxalq səylərə fəal şəkildə töhfə verir.

Təhlükəsizliyin bölünməzliyinin carçısı olan Azərbaycan beynəlxalq antiterror koalisiyasına fəal şəkildə töhfə verən ölkədir. Beynəlxalq ictimaiyyətin terrorçuluğun qarşısının alınmasında böyük nailiyyətlər əldə etməsinə baxmayaraq, bu bəlanın qarşını almaq, ona qarşı mübarizə aparmaq üçün hələ çox işlər görülməlidir. Beynəlxalq hüquqda terrorçuluğun aydın tərifinin

olmaması nəinki ayrı-ayrı terrorçuları və terror təşkilatlarını, o cümlədən terror fəaliyyətini təşviq edən və maliyyələşdirən dövlətləri məsuliyyətə cəlb etməkdə beynəlxalq ictimaiyyətin səylərinə maneə yaradır. Bu baxımdan, Azərbaycan terrorçuluğa qarşı mübarizənin aparılmasında səmərəli vasitə kimi xidmət edəcək beynəlxalq terrorçuluqla bağlı əhatəli konvensiya üzərində razılığın əldə edilməsinin vacibliyini vurğulayır.

Terrorçuluğun aydın tərifi və beynəlxalq terrorçuluqla bağlı konvensiya həll olunmamış bəzi məsələlərin, o cümlədən terror hərəkətlərinin təşkil edilməsi, maliyyələşdirilməsi, təşviq edilməsi, təlimatlandırılması, digər birbaşa və ya dolayı yolla dəstəklənməsindən çəkindirmək məsələlərinin həllinə töhfə verə bilər. Bu cür razılığın əldə olunması terrorçuluğun əsas səbəblərinin əhatəli və açıq şəkildə müzakirəsinə əsaslanmalıdır. Biz sosial və iqtisadi inkişaf, eləcə də təhsil məsələlərinin həlli üçün bu sahəyə hazırkı beynəlxalq səylər çərçivəsində, o cümlədən Birləşmiş Millətlər Təşkilatının mexanizmləri vasitəsilə birmənalı olaraq lazımi diqqət yetirməliyik. İqtisadi çətinliklərlə müşayiət olunan məhdud təhsil imkanları bir çox hallarda dinləri təfsir etmək adı altında terror təşviqatının aparılmasına zəmin yaradan amillər hesab edilə bilər. Terrora qarşı mübarizə hər hansı konkret din və ya mədəniyyətə hücum çəkmək üçün istifadə edilə bilməz. Bu gün biz məhdud dini məlumatlılıq şəraitində yaşayırıq və bu, müəyyən hallarda şişirdilmiş forma alır, bəzən etnik, dini və mədəni köklərə malik münaqişələrin qızışdırılması üçün məkrli şəkildə sui-istifadə olunur. Son illər ərzində bəzi ölkələrdəki islamofobiyanın qəbuledilməz səviyyədə olması bu cür böhtan xarakterli hərəkətlərin və səhv konsepsiyaların qarşısının alınmasında birgə səylərin və dialoqun olduqca böyük əhəmiyyətini təsdiqləmişdir.

Azərbaycan sivilizasiyaların dialoqu işinə töhfə verməyə çalışır. Ölkəmiz müxtəlif dinlərin nümayəndələri arasında daha yaxşı anlaşmanın yaradılmasına xidmət edən çoxsaylı tədbirlər keçirir. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir, bütün millətlərin və dinlərin nümayəndələri ölkəmizdə sülh, anlaşma şəraitində yaşayırlar. Ölkəmizdə aparılan çoxmədəniyyətli dialoq

müxtəlif dinlərə və mənşəyə malik olan insanlar arasında sülh şəraitində birgəyaşayışın yaxşı nümunəsi kimi istifadə oluna bilər. Azərbaycan tolerantlıq ölkəsidir və biz keçmişin bu irsini yüksək dəyərləndiririk. Bu gün isə biz bütün xalqların və dinlərin nümayəndələri arasında tərəfdaşlıq və qardaşlıq ruhunu yaratmaq məqsədilə səylərimizi artırmağa çalışırıq.

İqtisadi inkişafdan danışdıqda, bu, terrorçuluğa qarşı mübarizə aparmağın, yaxşı idarəçiliyi təmin etməyin və xalq üçün daha yaxşı şərait yaratmağın ən mühüm aspektidir. Son on il ərzində Azərbaycan iqtisadi dəyişikliklər sahəsində böyük irəliləyişə nail olub. Ölkəmizin müstəqilliyinin tarixi qısadır. İyirmi il öncə müstəqilliyi bərpa etmişik. Lakin bu illər islahatlar, dəyişikliklər, inkişaf və tərəqqi illəri olub. On ildən az müddətdə iqtisadiyyatımız 3 dəfə artıb. Yoxsulluq təxminən 50 faizdən 7 faizə düşüb. Bir milyon iş yeri açılıb. Bir çox sosial layihələr və proqramlar həyata keçirilir. Beynəlxalq maliyyə təsisatları gördüyümüz işləri dəyərləndirir. «Fitch», «Moodys» və «Standard & Poors» kimi üç əsas beynəlxalq təşkilat bu yaxınlarda kredit reytinqimizi yaxşılaşdırmışdır. Bu xüsusən də maliyyə və iqtisadi böhran illərində inkişafın yaxşı göstəricisidir. Buna görə, yoxsulluğa qarşı mübarizə, yeni iş yerlərinin açılması, mükəmməl qanunvericilik bazasının formalaşması, qanunun aliliyi, korrupsiyaya qarşı mübarizə kimi amillər ölkənin inkişafına və terrorçuluğa qarşı mübarizədə səylərin səfərbər olunmasına xidmət edir. Terrorçuluğa qarşı mübarizənin aparılması işində bütün səylərimizi birləşdirməliyik. Terrorçuluğun hazırkı siması və onun beynəlxalq sülh və sabitliyə təhlükə olan digər hədələrlə bağlılığı dövlətlər arasında daha sıx əməkdaşlığı, o cümlədən BMT-nin daha yaxşı, əlaqələndirilmiş, ahəngdar və sistemli yanaşmasını tələb edir. Bununla belə, dövlətlər arasında münaqişələrin olması, xarici hərbi təcavüz və təcavüzkar separatizm terrorçuluq üçün münbit şərait yaradır. Buna görə beynəlxalq ictimaiyyət beynəlxalq hüququn ümumi qaydada qəbul edilmiş normaları və prinsipləri əsasında münaqişələrin, xüsusən ərazi bütövlüyünün təmin edilməsi və dövlətlərin beynəlxalq səviyyədə tanınmış

sərhədlərinin toxunulmazlığına aid məsələlərin həllinə çalışmalı və ölkələrə öz əraziləri üzərində suverenliyin bərpa edilməsinə yardım etməlidir.

Fürsətdən istifadə edərək, BMT-nin bütün üzvlərinə Azərbaycanın namizədliyini dəstəklədiyinə görə təşəkkürümü bildirmək istəyirəm. Ötən ilin oktyabrında qısa tariximizdə ilk dəfə olaraq Azərbaycan Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bu, böyük məsuliyyətdir və biz bu məsuliyyəti üzərimizə götürməyə hazırıq. Azərbaycan ədalət ideallarını, beynəlxalq hüququ və bütün ölkələr arasında sülh şəraitində əməkdaşlığı müdafiə edəcəkdir. Biz bölgəmizdə region ölkələrini bir araya gətirmək üçün çox çalışırıq. Təşəbbüslərimiz regional əməkdaşlığın dostluq, tərəfdaşlıq və yaxşı qonşuluq ruhunda genişləndirilməsinə yönəlib.

Biz birmənalı olaraq, Təhlükəsizlik Şurasında sədrliyimiz zamanı böyük töhfəmizi verəcəyik. Mən BMT-dəki bütün dostlarımızı və üzv dövlətləri əmin edə bilərəm ki, Azərbaycan bütün ölkələr qarşısında etibarlı və dost tərəfdaş olacaqdır. Biz əməkdaşlıq və tərəfdaşlığımızı genişləndirmək istəyirik. Bu dəstəyə görə çox minnətdarıq. Ölkəmizin böyük tarixi, mədəniyyəti və adət-ənənələri vardır. Lakin müstəqil ölkə kimi, bizim hələ iyirmi yaşımız var. Bu illər dəyişikliklər, inkişaf və dünyaya təqdimat illəri olmuşdur. Namizədliyimizin 155 ölkə tərəfindən dəstəklənməsi faktı göstərir ki, biz özümüzü təqdim etməyi bacardıq. Bu, beynəlxalq ictimaiyyətin bizə verdiyi dəstəyi, etimadı və inamını nümayiş etdirir. Sizi əmin edə bilərəm ki, bu məsuliyyəti üzərimizə götürməyə hazırıq. Bizə etimad göstərənlərin etimadını doğruldacağıq və əlimizdən gələni edəcəyik ki, hamımız üçün daha da proqnozlaşdırılan və təhlükəsiz dünya yaradaq. Çox sağ olun.

## BMT-nin BAŞ KATİBİ PAN Gİ MUN İLƏ GÖRÜŞ

*Nyu-York*

*4 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Nyu-Yorkda BMT-nin Baş katibi Pan Gi Mun ilə görüşmüşdür.*

*Görüşdə BMT-nin Baş katibi Pan Gi Mun Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına sədrliyi ilə əlaqədar prezident İlham Əliyevin Nyu-Yorka işgüzar səfərinin əhəmiyyətini qeyd etdi. O, Azərbaycanın təşəbbüsü ilə «Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər» mövzusunun BMT Təhlükəsizlik Şurasının gündəliyinə salınmasını uğurlu addım kimi dəyərləndirdi və bu mövzunun hazırda dünyada çox aktual məsələ olduğunu bildirdi.*

*BMT-nin Baş katibi 2011-ci ildə prezident İlham Əliyev tərəfindən imzalanan «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı»nın əhəmiyyətinə toxundu və bu sənədin ölkəmizdə demokratiyanın daha da inkişaf etdirilməsinə verdiyi töhfələri vurğuladı. Pan Gi Mun prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda demokratiyanın bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanın təşəbbüsü ilə terrorizmə qarşı mübarizə mövzusunun BMT Təhlükəsizlik Şurasının gündəliyinə salınmasına BMT-nin Baş katibi tərəfindən verilən qiymətə görə təşəkkür etdi. Bildirdi ki, Azərbaycan terrorizmə qarşı mübarizədə və antiterror koalisiyasının tərkibində ilk günlərdən fəal iştirak etmişdir. Ölkəmiz bundan sonra da bu işə öz töhfəsini verəcəkdir. Dövlətimizin başçısı Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra siyasi, iqtisadi sahələrdə*

*həyata keçirdiyi genişmiqyaslı* islahatlar, *demokratiyanın təmin* olunması *istiqamətində ölkəmizdə gedən böyük işlərdən danışdı.*

*Pan Gi Mun Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ* müna-*qişəsinin* nizama *salınmasına* dair *proseslərlə bağlı prezident İlham Əliyevin fikirləri ilə maraqlandı.*

Prezident *İlham Əliyev Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində* meydana *gələn* bu *münaqişənin həlli ilə bağlı* bir daha *ölkəmizin mövqeyi barədə məlumat* verdi.

# BMT-nin BAŞ KATİBİ ADINDAN VƏ BMT TƏHLÜKƏSİZLİK ŞURASINA SƏDRLİK EDƏN ÖLKƏ TƏRƏFİNDƏN TƏŞKİL OLUNMUŞ NAHARDA İŞTİRAK

*Nyu-York*

*4 may 2012-ci il*

*Nyu-Yorkda BMT-nin Baş katibi adından və BMT Təhlükəsizlik Şurasına sədrlik edən ölkə tərəfindən mayın 4-də nahar təşkil olunmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və BMT-nin Baş katibi Pan Gi Mun naharda iştirak etmişlər.*

*Dövlətimizin başçısı naharda çıxış etdi. BMT Təhlükəsizlik Şurasının Azərbaycanın sədrliyi ilə keçən yüksək səviyyəli iclasında bir sıra məsələlərin müzakirə olunduğunu deyən Azərbaycan prezidenti İlham Əliyev əməkdaşlığa verdikləri töhfələrə görə tədbir iştirakçılarına minnətdarlığını bildirdi.*

*Azərbaycan dövlətinin başçısı müzakirələrin əməkdaşlıq və konstruktivlik ruhunda keçdiyini vurğuladı. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsini və hazırda Şuranın iclasına sədrlik etməsini ölkəmizin tarixində ən əlamətdar hadisələrdən biri kimi qiymətləndirən prezident İlham Əliyev hərtərəfli dəstəyə görə bir daha minnətdarlığını bildirdı.*

*BMT-nin Baş katibi Pan Gi Mun isə çıxışında Azərbaycanı BMT Təhlükəsizlik Şurasına sədrlik etməsi münasibətilə bir daha təbrik etdi və uğurlar arzuladı.*

## ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİ GUİDO VESTERVELLE İLƏ GÖRÜŞ

*Nyu-York*
*4 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 4-də Nyu-Yorkda Almaniya Federativ Respublikasının Xarici İşlər naziri Guido Vestervelle ilə görüşü olmuşdur.*

*Görüşdə Guido Vestervelle Azərbaycan ilə Almaniya arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd etdi. Ölkəsinin əlaqələrimizin genişlənməsində maraqlı olduğunu vurğulayan nazir Azərbaycan–Almaniya əməkdaşlığının bütün sahələrdə strateji maraqlar üzərində qurulduğunu diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Almaniya arasında əməkdaşlığın inkişafından məmnunluğunu bildirdi, ölkələrimiz arasında uzun illər davam edən dostluq və əməkdaşlıq mühitinin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların mövcudluğunu vurğuladı.*

## TOQONUN XARİCİ İŞLƏR VƏ ƏMƏKDAŞLIQ NAZİRİ ELİOT OHİN İLƏ GÖRÜŞ

*Nyu-York*

*4 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Nyu-Yorkda Toqonun Xarici İşlər və Əməkdaşlıq naziri Eliot Ohin ilə görüşmüşdür.*

*Görüşdə iki ölkə arasında əlaqələrin yaradılması imkanları ilə bağlı məsələlər müzakirə edildi.*

**Səfər başa çatdı**

*Amerika Birləşmiş Ştatlarına işgüzar səfərini başa vuran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Bakıya qayıtmışdır.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Mahaçqalada terror aktı nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən sarsıtmışdır.

Biz terrorizmin bütün forma və təzahürlərini qətiyyətlə pisləyirik.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm. Zərər çəkmişlərin tezliklə sağalmasını arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 may 2012-ci il*

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ, NƏRİMANOV RAYONU ƏRAZİSİNDƏKİ YOLDA VƏ «HİLTON» HOTELİNİN QARŞISINDAKI PARKDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*6 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 6-da Heydər Əliyev Mərkəzində həyata keçirilən tikinti işlərinin gedişi, paytaxtın Nərimanov rayonunda Qədirbəyov və Həsənoğlu küçələrinin kəsişməsində yeni çəkilmiş 1 kilometrə yaxın yol, «Hilton» hotelinin qarşısındakı parkın abadlıq və quruculuq işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşlar.*

*Mərkəzdə aparılan işlərlə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

*Sonra dövlət başçısı və Mehriban Əliyeva paytaxtın Nərimanov rayonu ərazisində Qədirbəyov və Həsənoğlu küçələrinin kəsişməsində yeni çəkilmiş 1 kilometrə yaxın yol ilə tanış oldular. Bildirildi ki, 32 metr eni olan ikitərəfli yol 4 zolaqlıdır. Xətai prospektinin davamı olan bu yola ən yüksək keyfiyyətli polimer asfalt döşənmiş, ikikomponentli yol zolaqları çəkilmişdir. Yolboyu 3400 poqonmetr qranit daşlardan bardürlər düzəldilmiş, 3800 kvadratmetr ərazisi olan səkilərə qranit daşlar döşənmişdir. Burada müasir işıqlandırma sistemi quraşdırılmışdır.*

*Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Hilton» hotelinin qarşısındakı parkda həyata keçirilmiş abadlıq və quruculuq işləri ilə tanış oldular.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülmüş işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, 7800 kvadratmetr ərazisi olan parkın 5700 kvadratmetr hissəsinə qranit daşlar döşənmişdir. Burada böyük fəvvarələr kompleksi quraşdırılmışdır. Parkda İtaliyadan gətirilmiş 12 illik 18 ədəd maqnoliya və 26 illik 28 ədəd şaxtaya davamlı palma ağacları əkilmiş, 2010 kvadratmetrlik ərazi*

*yaşıllaşdırılmışdır. Parkın işıqlandırma* sistemi *ən müasir* standartlar *səviyyəsində qurulmuşdur.*

*Dövlətimizin başçısı görülən işləri yüksək qiymətləndirdi.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Rusiya Federasiyasının Prezidenti vəzifəsinə başlamağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan və Rusiya arasında inkişafına və möhkəmlənməsinə Sizin sanballı və mühüm töhfə verdiyiniz ənənəvi dostluq və mehriban qonşuluq münasibətləri daha da möhkəmlənəcək və dərinləşəcəkdir.

İnanıram ki, bizim birgə səylərimiz bundan sonra da xalqlarımızın və ölkələrimizin mənafeyi naminə, Qafqazda sülh, sabitlik və təhlükəsizlik naminə strateji tərəfdaşlığımızın və çoxplanlı əməkdaşlığımızın hər cəhətdən genişlənməsinə yönələcəkdir.

Əziz Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 may 2012-ci il*

**FRANSA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA**

Hörmətli cənab Olland!

Fransa Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Fransa arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət veririk. Dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi, siyasi, iqtisadi və humanitar sahələrdə səmərəli əməkdaşlığımız məmnunluq doğurur.

Bu gün beynəlxalq qurumlar, Avropa strukturları çərçivəsində, eləcə də enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində birgə işimiz ölkələrimiz arasında, həmçinin çoxtərəfli qaydada əməkdaşlığı səciyyələndirən amillərdəndir.

Xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə tezliklə və ədalətli həlli sahəsində ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın rolu böyükdür. Biz sülhyaratma prosesində ölkənizin öz səylərini daha da artıracağına, bu işə Sizin şəxsən töhfələr verəcəyinizə ümidlər bəsləyirik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Fransa xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 may 2012-ci il*

**MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YANOŞ ADERƏ**

Hörmətli cənab Prezident!

Macarıstanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan–Macarıstan əlaqələri ardıcıl və davamlı inkişaf yolundadır. Ümidvaram ki, ölkələrimizi birləşdirən ənənəvi dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq daim genişlənəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Macarıstan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 may 2012-ci il*

## NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

Əlahəzrət!

Norveç Krallığının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Norveç münasibətləri, dostluq və əməkdaşlıq əlaqələrimiz bundan sonra da öz inkişafını davam etdirərək xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Norveç xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 may 2012-ci il*

**YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDURABBİH MƏNSUR HADİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Yəmən Birliyi Günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Yəmən arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yəmən xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 may 2012-ci il*

**DƏNİZKƏNARI MİLLİ PARKIN YENİ TİKİLMİŞ HİSSƏSİNİN AÇILIŞI MƏRASİMİ**
*7 may 2012-ci il*

*Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dənizkənarı Milli Parkın yeni tikilmiş hissəsinin açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı Dənizkənarı Milli Parkın yeni tikilən hissəsinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan prezidenti və xanımı elektromobillərlə yeni bulvarın ərazisini gəzdilər, yaradılmış şəraitlə tanış oldular.*

*Bakının əvəzsiz incilərindən olan Dənizkənarı Milli Park maddi mədəniyyətimizin əsrarəngiz nümunəsi olmaqla yanaşı, paytaxtın tarixi və müasir simasını təşkil edən xüsusi təbii kompleksdir. Son illər prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə baş verən sürətli sosial-iqtisadi inkişaf meqapolisə çevrilməkdə olan Bakının simasını nəzərəçarpacaq dərəcədə dəyişmişdir. Bu, Dənizkənarı Milli Parkdan da yan keçməyib. Şəhərsalma, istirahət və turizm infrastrukturu, gözəlləşən paytaxtımızın ekoloji təhlükəsizliyi Dənizkənarı Milli Parkla bağlı strategiyanın həyata keçirilməsi üçün daha böyük imkanlar açmışdır.*

*Dövlətimizin başçısının Dənizkənarı Milli Parkın Dövlət Bayrağı Meydanına qədər uzadılması ilə bağlı tapşırıqları əsasında şəhərimizin sahil boyuna xüsusi yaraşıq verən və ümumi sahəsi 20 hektar, uzunluğu 1,8 kilometr olan yeni bulvar tikilmişdir. Bu, prezident İlham Əliyevin Azərbaycanın müasir simasının yaradılması istiqamətində həyata keçirdiyi tədbirlər silsiləsinin mühüm tərkib hissəsidir. Aparılan quruculuq və abadlıq işləri sayəsində paytaxt Bakı tədricən öz görkəmini dəyişmiş və dünyanın ən gözəl şəhərləri sırasında yerini möhkəmləndirmişdir.*

*Prezident İlham Əliyev Dənizkənarı Milli Parkın Azneft meydanından Dövlət Bayrağı Meydanına qədər olan hissəsinin yenidən qurulmasını nəzərdə tutan layihənin icrasını daim diqqət mərkəzində saxlamışdır. Mütəmadi olaraq əraziyə gələn dövlətimizin başçısı işlərin yüksək keyfiyyətlə görülməsinə dair tapşırıq və tövsiyələrini vermişdir. Bu çərçivədə paytaxtda həyata*

*keçirilən abadlıq-quruculuq işlərinin tərkib hissəsi kimi, yeni bulvarın ərazisində yerləşən köhnə zavodlar, sosial və iqtisadi səmərəsini itirmiş, böyüyən paytaxtın tələblərinə cavab verməyən, ən çox da ekoloji tarazlığı pozan müəssisələr başqa yerə köçürülmüşdür. Bununla da yeni bulvarın yaradılması üçün bütün maneələr aradan qaldırılmışdır.*

*Məlumat verildi ki, üç növbədə aparılan yenidənqurma və abadlıq işləri nəticəsində ərazidə yaşıllıq zolağından avtomobil yolunadək uzanacaq daha bir xətt inşa olunmuşdur. Bu xətt bulvar ərazisində hərəkət edən avtomobillər, qatarlar, kiçik ölçülü gəzinti avtobusları üçün nəzərdə tutulmuşdur. Diqqətə çatdırıldı ki, bulvarda uzunluğu 450 metr olan estakada dənizin içərilərinə doğru daha 100 metr uzadılmışdır. Gələcəkdə isə bulvarın uzunluğu 25 kilometrə çatdırılacaq, Zığ və Şıx çimərliklərini birləşdirərək böyük bir istirahət zonasına çevriləcəkdir. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva şəhər əhalisinin və Bakıya gələn qonaqların istifadəsi üçün nəzərdə tutulan gəzinti gəmilərində yaradılan şəraitlə də tanış oldular. Bildirildi ki, Dənizkənarı Milli Parkın genişləndirilməsi çərçivəsində əhalinin Xəzər dənizində gəzintisi də diqqət mərkəzində saxlanılmış və bu məqsədlə paytaxta 3 yeni gəmi gətirilmişdir.*

*Dövlətimizin başçısı yeni bulvar xətti boyunca salınan piyada keçidlərinə də baxdı.*

*Qeyd edək ki, prezident İlham Əliyev 2012-ci il aprelin 27-də Dənizkənarı bulvarın genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında növbəti Sərəncam imzalamışdır.*

## «BAKU CRYSTAL HALL» KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*7 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 7-də «Eurovision–2012»*

*mahnı müsabiqəsinin keçiriləcəyi «Baku Crystal Hall»un açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan prezidentinə və Mehriban Əliyeva «Baku Crystal Hall»da görülən işlər, eləcə də müsabiqəyə hazırlıqla bağlı ətraflı məlumat verildi. Bildirildi ki, 25 min nəfərlik tamaşaçı yeri olan kompleks orijinal arxitekturası ilə fərqlənir və paytaxtın memarlıq quruluşuna xüsusi yaraşıq verir. Kompleksdə gələcəkdə başqa beynəlxalq tədbirlərin keçirilməsi də mümkündür. «Baku Crystal Hall»un əhəmiyyətini artıran mühüm amillərdən biri də onun Dövlət Bayrağı Meydanı ətrafında yerləşməsidir.*

*«Baku Crystal Hall» prezident İlham Əliyevin Bakı şəhərində müasir İdman-Konsert Kompleksinin inşa edilməsi haqqında 2011-ci il iyulun 11-də imzaladığı Sərəncama əsasən inşa olunmuşdur. Bu il yanvarın 15-də isə Avropa Yayım Birliyi müsabiqənin məhz «Crystal» sarayında keçirilməsi ilə bağlı qərar qəbul etmişdir.*

*Özlüyündə böyük mədəniyyət hadisəsi olan, lakin siyasi və iqtisadi əhəmiyyəti ilə daha çox önəm daşıyan bu hadisə göstərdi ki, Qərblə Şərqin kəsişməsində yerləşən Azərbaycan bütün dövrlərdə diqqət mərkəzində olmuşdur. «Eurovision»u regiona gətirən Azərbaycan bu uğura müstəqil olduğu 20 il ərzində müsabiqəyə cəmi 4 dəfə qatılmaqla nail olmuşdur.*

## BAKI–ƏLƏT YOLUNUN DÖVLƏT BAYRAĞI MEYDANINA GEDƏN 2–4 KİLOMETRLİK HİSSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*7 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 7-də Bakı–Ələt yolunun Dövlət Bayrağı Meydanına gedən 2–4 kilometrlik hissəsinin açılışında iştirak etmişlər.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına yolun texniki göstəriciləri barədə məlumat verdi. Bildirildi ki, 2,8 kilometr uzunluğu olan yolda hərəkət zolaqlarının eni 3,75 metrdir. Səkkizzolaqlı yolun üzərində 4 piyada keçidi də inşa olunmuşdur. Tikinti zamanı 614 min kubmetr torpaq işləri görülmüş yolun əhəmiyyətini artıran digər mühüm amil onun «Azneft» meydanından Dövlət Bayrağı Meydanına, oradan isə Bibiheybət məscidi istiqamətində avtomobillərin rahat hərəkətini təmin etməsidir.*

*Azərbaycan prezidenti yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Qeyd edək ki, Bakı–Ələt yolunun yenidən qurulması və tikintisinə dair Nazirlər Kabineti 2008-ci il 6 fevral, 2009-cu il 2 fevral, 2010-cu il 28 yanvar, Bakı–Ələt yolunun 2–4-cü kilometrliyinin yenidən qurulması üçün isə 2011-ci il 25 yanvar tarixli sərəncamlar qəbul etmişdir.*

**RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Rusiya Federasiyası Hökumətinin Sədri vəzifəsinə başlamağınız münasibətilə səmimi təbriklərimi qəbul edin.

Dərin tarixi köklərə malik olan Azərbaycan–Rusiya dostluq və mehriban qonşuluq münasibətləri bu gün məqsədyönlü və hərtərəfli şəkildə inkişaf edərək, keyfiyyətcə yeni xarakter almış, strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır.

Əminəm ki, Azərbaycan və Rusiya arasında ikitərəfli əlaqələr, qarşılıqlı faydalı əməkdaşlıq və çoxplanlı qarşılıqlı fəaliyyət xalqlarımızın və ölkələrimizin rifahı naminə bundan sonra da genişlənəcək və dərinləşəcəkdir.

Hörmətli Dmitri Anatolyeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dost Rusiyanın tərəqqisi naminə fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 may 2012-ci il*

## 9 MAY – QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK

*9 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İkinci dünya müharibəsində faşizm üzərində Qələbənin 67-ci ildönümü münasibətilə mayın 9-da ölkəmizin paytaxtında keçirilən təntənəli mərasimdə iştirak etmişdir.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə böyük diqqət və qayğı ilə yanaşmışdır. Ulu öndərimizin bu siyasəti prezident İlham Əliyev tərəfindən də davam etdirilir. Qələbə bayramı ərəfəsində dövlətimizin başçısının sərəncamı ilə müharibə iştirakçılarına, onların ailələrinə birdəfəlik maddi yardımın edilməsi bu qayğının bariz nümunəsidir.*

*1941–45-ci illər Böyük Vətən müharibəsinin görkəmli sərkərdələrindən biri, xalqımızın rəşadətli oğlu, tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun abidəsi önünə toplaşmış müharibə veteranları, ictimaiyyətin nümayəndələri, paytaxt sakinləri prezident İlham Əliyevi hörmət və ehtiramla qarşıladılar.*

*Burada Fəxri qarovul dəstəsi düzülmüşdür.*

*Dövlətimizin başçısı müharibə veteranlarını səmimiyyətlə salamladı, onların hər birini Qələbə bayramı münasibətilə təbrik etdi.*

*Prezident İlham Əliyev 1941–45-ci illər müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların problemləri, qayğıları ilə maraqlandı. Veteranlar ümummilli liderimiz Heydər Əliyevin onlara göstərdiyi diqqət və qayğını heç vaxt unutmadıqlarını xatırladaraq, ulu öndərin siyasi xəttini uğurla davam etdirən prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər və onu hər bir işdə dəstəkləyəcəklərini vurğuladılar.*

*Dövlətimizin başçısı iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərmiş cəsur sərkərdənin, xalqımızın igid oğullarının əziz xatirəsini dərin ehtiramla yad etdi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Ali Baş Komandanın qarşısından keçdi.*

*Prezident İlham Əliyev İkinci dünya müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdi, daha sonra tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə səmimi görüşdü, Qələbə günü münasibətilə onları təbrik etdi.*

## BAKININ İNŞAATÇILAR PROSPEKTİNDƏ SALINMIŞ YENİ İSTİRAHƏT PARKI İLƏ TANIŞLIQ

*9 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da Bakının Yasamal rayonu ərazisindəki İnşaatçılar prospektində salınmış yeni istirahət parkı ilə tanış olmuşdur.*

*Görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, parkın yerləşdiyi ərazi uzun müddət baxımsız qalmışdır. Bakı şəhərində park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı prezident İlham Əliyevin tapşırıqlarına əsasən, bu ərazidə xüsusi layihə əsasında dörd ay ərzində müasir səviyyədə yeni park salınmışdır. Parkın ərazisi 3,5 min kvadratmetrdir. Yaşıllaşdırılan ərazidə avtomatik suvarma sistemi quraşdırılmışdır. Parkın işıqlandırma sistemi ən müasir standartlar səviyyəsində qurulmuşdur. Parkda uşaqların əylənmələri üçün hər cür şərait yaradılmışdır. Ən müasir standartlar səviyyəsində qurulan park paytaxt sakinlərinin və qonaqların sevimli istirahət mərkəzlərindən biri olacaqdır.*

*Görülmüş işlərlə yaxından tanış olan prezident İlham Əliyev tövsiyə və tapşırıqlarını verdi.*

## NƏSİMİ RAYON İCRA HAKİMİYYƏTİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*9 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da Bakının Nəsimi Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, yeddi mərtəbədən ibarət yeni bina ən müasir tələblər səviyyəsində inşa edilmişdir. Ümumi sahəsi 5 min kvadratmetr olan bina bütün lazımi avadanlıqlar və sistemlərlə təchiz edilmişdir. Müasir memarlıq üslubunda yüksək zövqlə inşa olunmuş binanın interyeri Azərbaycanın zəngin təbiətini əks etdirən fotolarla bəzədilmişdir. Binadakı otaqların hamısı müasir tələblər səviyyəsində qurulmuşdur.*

*Prezident İlham Əliyev Nəsimi Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulmuş, Azərbaycanın dövlət rəmzlərinin əks olunduğu stendlər yaradılmışdır. Foyedə, həmçinin ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ictimai-siyasi fəaliyyətini əks etdirən fotoguşə vardır. Fotoguşədə ümummilli lider Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin Nəsimi rayonunda müxtəlif illərdə keçirilmiş tədbirlərdə iştiraklarını əks etdirən fotolar böyük maraq doğurur.*

*Dövlətimizin başçısı binada quraşdırılan elektron idarəetmə və məlumat bazası ilə tanış oldu. Bildirildi ki, prezident İlham Əliyevin «elektron hökumət»in yaradılması barədə tapşırıqlarına uyğun olaraq, icra hakimiyyətinin elektron idarəetmə və məlumat bazasında vətəndaşların ərizə və şikayətlərinin qəbulu da reallaşacaqdır. Rayonun hər bir sakini icra hakimiyyətinin binasına gələrək bu sistem vasitəsilə elektron ərizə yaza və müvafiq şöbəyə göndərə bilər. Bununla yanaşı,*

*vətəndaşlar bu sistemdən internetlə rayon icra hakimiyyətinin rəsmi saytına və ya bu bazaya daxil olaraq evlərindən birbaşa müraciət edə bilərlər.*

*Prezident İlham Əliyev vətəndaşların qəbulu otağı ilə tanış oldu.*

*Diqqətə çatdırıldı ki, vətəndaşların qəbulunu operativ və səmərəli həyata keçirmək üçün burada geniş imkanlar vardır. Qəbul otağında ümummilli lider Heydər Əliyevin zəngin siyasi irsi barədə maraqlı kitablar toplanmışdır. 300 yerlik akt zalı ən müasir standartlar səviyyəsində qurulmuşdur.*

*Müşavirə zalı ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, burada bütün lazımi inventar və avadanlıq quraşdırılmışdır. 65 yerlik müşavirə zalındakı şərait ən müasir tələblərə cavab verir. Yeni inzibati binada işçilərin normal fəaliyyəti üçün geniş və hərtərəfli imkan yaradılmışdır. Binada ekspo-mərkəz də vardır. Mərkəzdə paytaxtımızın keçmiş və müasir vəziyyətini əks etdirən maraqlı fotolar yerləşdirilmişdir. Gələcəkdə burada rayon məktəblilərinin müxtəlif sərgilərinin keçirilməsi nəzərdə tutulur.*

*Prezident İlham Əliyev yeni inzibati binanın operativ idarəetmə mərkəzi ilə tanış oldu. Mərkəzdə rayonun maketinə baxan dövlətimizin başçısına məlumat verildi ki, maket xüsusi proqramla təchiz edilmişdir. Rayon ərazisində yerləşən bütün tikililər barədə proqram vasitəsilə məlumat almaq mümkündür.*

*Sonra prezident İlham Əliyev yeni inzibati binanın qarşısında əsaslı təmir edilən parkla tanış oldu.*

*Bildirildi ki, bu ərazidə geniş yenidənqurma işləri həyata keçirilmiş, ətraf abadlaşdırılmışdır. Ümumi sahəsi 6 min 760 kvadratmetr olan parkın 4 min 560 kvadratmetr ərazisi tamamilə yenidən qurulmuşdur. Parkda geniş yaşıllıq zolaqları salınmış, fəvvarələr quraşdırılmış, sakinlərin səmərəli istirahəti üçün hər cür şərait yaradılmışdır.*

## ŞİMAL-QƏRB BÖLGƏSİNDƏ BAŞ VERMİŞ ZƏLZƏLƏNİN NƏTİCƏLƏRİNİN ARADAN

**QALDIRILMASI İLƏ BAĞLI GÖRÜLƏN TƏDBİRLƏRLƏ YERİNDƏ TANIŞ OLMAQ ÜÇÜN TƏBİİ FƏLAKƏT BÖLGƏSİNƏ SƏFƏR**
*Zaqatala*

*9 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da Azərbaycanın şimal-qərb bölgəsində zəlzələdən zərər çəkmiş bölgənin sakinləri ilə görüşmək və təbii fəlakətin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən tədbirlərlə yerində tanış olmaq üçün təyyarə ilə Zaqatala rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı helikopterlə zəlzələnin episentrindəki ərazini seyr etdi.*

*Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov prezident İlham Əliyevə təbii fəlakətin nəticələri barədə ətraflı məlumat verərək bildirdi ki, mayın 7-də axşam saat 19.15-də zəlzələnin episentrində 12 ballıq cədvəl üzrə 7 bal gücündə baş verən təkrar yeraltı təkan daha ciddi dağıntılar törətmişdir. Ümumiyyətlə, ötən müddətdə 500-dək yeraltı təkan qeydə alınmış və onlardan bir neçəsi daha çox hiss olunmuşdur.*

*Bildirildi ki, zəlzələ nəticəsində Zaqatala, Qax və Balakən rayonlarında üç minədək ev ya uçmuş, ya da qəzalı vəziyyətə düşmüşdür. Çoxlu sayda sosial obyektə də ciddi ziyan dəymişdir. Zəlzələnin episentrində yerləşən Zaqatala rayonunun Gözparaq, Mamrux, Zəyəm, Muxax, Bazar, Qımır və Çobankol, eləcə də Qax rayonunun Güllük, Zərnə, Ləläpaşa kəndlərində ciddi dağıntılar baş vermişdir.*

*Diqqətə çatdırıldı ki, dövlətimizin başçısının tapşırığına uyğun olaraq zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı operativ qaydada qərargah yaradılmış və işçi qruplar dəymiş ziyanın müəyyənləşdirilməsi ilə bağlı müvafiq tədbirlər görür. Qısa müddətdə rayona Fövqəladə Hallar Nazirliyi tərəfindən*

*çoxlu sayda texnika və avadanlıq, çadırlar, böyük miqdarda tikinti materialları gətirilmişdir.*

*«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin xəttilə də Zaqatala rayonuna tikinti materialları ilə kömək göstərilmişdir. Zəlzələ bölgəsinə çoxlu sayda çadırlar gətirilərək quraşdırılmışdır.*

*Zaqatala, Qax və Balakən rayonlarına əlavə texnika, inşaat materialları, avadanlıq və digər zəruri materialların gətirilməsi davam edir. Zəlzələdən ziyan çəkən əhaliyə dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq hər cür kömək göstərilir.*

*Sonra prezident İlham Əliyev baş vermiş zəlzələnin episentrində yerləşən Zaqatala rayonunun Gözparaq kəndinə gəldi və kənd sakini, Qarabağ müharibəsi veteranı Mahir Sultanovun zəlzələdən ziyan çəkən evinə baxdı.*

**İ l h a m  Ə l i y e v:** Salam, necəsiniz?

**E v  s a h i b ə s i:** Sağ olun, xoş gəlmisiniz. Bizə baş çəkdiyinizə görə Sizə minnətdarlığımızı bildiririk. Allaha şükür edirik ki, bu fəlakət gecə vaxtı olmayıb, gündüz olub. Gecə olsaydı, camaat qırılardı.

**İ l h a m  Ə l i y e v**: Təbii fəlakət baş verib. Gərək hələlik müvəqqəti olaraq bu çadırlarda qalasınız. Amma tezliklə bütün evlər bərpa ediləcəkdir. Göstərişlər verilib, vəsait ayrılıb. Bundan da gözəl ev tikiləcəkdir. Kömək edəcəyik. Sənin evin də bərpa ediləcək, bundan daha yaxşı ev tikiləcək. İndi bu çadırlar gətirilib, bunlar müvəqqəti yaşamaq üçündür.

**E v  s a h i b ə s i:** Çox sağ olun, bizə yardım etdilər.

* * *

*Dövlətimizin başçısı Gözparaq kənd sakinləri ilə də görüşdü. Kənd ağsaqqalı Əhməd Qurbanov təbii fəlakətin nəticələri ilə yerindəcə tanış olduğu, sakinlərlə görüşüb onların qayğıları ilə yaxından maraqlandığı üçün dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi.*

**Ə h m ə d  Q u r b a n o v**: Sizi gözparaqlılar adından salamlayıram, «Xoş gəlmisiniz!» – deyirəm. Gözparaqlılar bö-

yük iftixar hissi keçirirlər ki, Siz bu gün zəhmət çəkib buraya gəlmisiniz. Biz bilirik və görürük ki, böyük zəhmət çəkib xalqın qayğısına qalmaq üçün buraya gəlmisiniz. Ümid edirik, bu fəlakətə düşən gözparaqlıların vəziyyətini, yaşayışını əvvəlki məcraya salmaq üçün tədbir görəcəksiniz. Sizə müvəffəqiyyətlər arzulayırıq.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Əlbəttə, müvafiq göstərişlər verilmişdir. Artıq dünəndən vəsait də ayrılıb. Bu, ilkin vəsaitdir. Ondan da artıq ayıracağıq. Çünki dağıntılar çoxdur. Zaqatala, Qax, Balakən rayonlarında üç minə qədər ev dağılıb və qəzalı vəziyyətdədir. Bütün evlər, sosial obyektlər bərpa ediləcəkdir. İndi gördüyüm mənzərə çox acınacaqlıdır. İnsanlar zəhmət çəkib evlər tikiblər, indi isə uçulub. Xoşbəxtlikdən heç bir itki olmayıb, əsas məsələ budur. Azərbaycan dövləti güclü dövlətdir, biz bütün evləri bərpa edəcəyik.

İndi müvafiq qurumların nümayəndələri buradadırlar. Fövqəladə Hallar Nazirliyinin rəhbərliyi ilk gündən buradadır. Bütün qurumlara göstərişlər verilmişdir. Evlər tikilənə qədər müvəqqəti məskunlaşma yerləri də müəyyən edilib. Aydındır ki, çadırda yaşamaq ağırdır. Ancaq başqa yol yoxdur. İndi bu qəzalı evlər, uçulmuş evlər sökülməlidir. Onların yerində yeni evlər tikilməlidir. Seysmoloji vəziyyətə nəzarət edilməlidir. Çünki təkanlar hələ də davam edir. Mənə verilən məlumata görə, əsas dağıntılar üçüncü, dördüncü təkandan sonra baş verib. Heç kim bilmir, yenə təkan olacaq, yoxsa yox. Ona görə də bir qədər gözləməliyik. Amma söküntü işləri bu gündən başlamalıdır, yerlər təmizlənməlidir. Görəcəksiniz, qısa müddətdə bundan da yaxşı evlər tikiləcəkdir. Məktəblər, sosial obyektlər dağılıb. Onlar da bərpa ediləcəkdir. İndi ərzaq təchizatı, tibbi xidmət vacib məsələlərdir. Göstəriş vermişəm, bu məsələlərə də baxılacaqdır. Biz bu məsələlərə hərtərəfli yanaşırıq. Elə etməliyik ki, insanlar əziyyət çəkməsinlər, əziyyətləri minimum səviyyədə olsun. 6 bala yaxın zəlzələ olmuşdur. Bu çox güclü zəlzələdir. Əminəm ki, qısa müddətdə bu sınaqdan da şərəflə çıxacağıq. Bütün kəndlər bərpa ediləcək, evlər daha yaxşı olacaq. Ən önəmlisi, bu işlər üçün

çəkiləcək bütün xərcləri Azərbaycan dövləti öz üzərinə götürür. Bu da dünyada nadir hallarda baş verən bir hadisədir. Adətən, xüsusilə indi inkişaf etmiş ölkələrdə bütün evlər sığortalıdır. Vətəndaşlar sığorta şirkətlərinə müraciət edirlər, evləri sığortalayırlar. Təbii fəlakət baş verdikdə dövlət heç bir xərc çəkmir, vətəndaş sığorta şirkətindən vəsait alır. Bizdə isə vəziyyət fərqlidir. Nə vaxtsa bizdə də belə olacaqdır. Azərbaycan dövləti bu öhdəliyi öz üzərinə götürür və bütün evlər qısa müddətdə bərpa ediləcək.

Məktəblər gələn tədris ilinə qədər tikilməlidir. Bütün fəlakət zonasında 20-dən artıq məktəb dağılıb. Biz onları sentyabrın 15-nə qədər tikməliyik. Evlərə də indi vəsait ayrılıb. Dünən göstəriş vermişəm, Nazirlər Kabineti birinci vəsaiti ayırmışdır, 20 milyon manat. Ancaq indi verilən məlumata görə, bu vəsait çatmayacaqdır. Çünki dağıntılar həddən artıq çoxdur. Mənə məruzə edilmişdi ki, üç yüz ev uçulub. İndi məlumat verilir ki, üç minə qədər ev uçulub, yaxud da ki, qəzalı vəziyyətdədir. Üç min. Ondan da çox ola bilər, araşdırmalar hələ ki, davam edir. Üç min evi tikmək böyük işdir, özü də qısa müddət ərzində tikilməlidir ki, insanlar əziyyət çəkməsinlər. Mənə Kəmaləddin Heydərov və icra başçısı məlumat verirlər ki, xahiş etmisiniz, çadırlar öz həyətlərinizdə qoyulsun. Bunu da edərik. Çadırda yaşamaq da çətindir. Qışda soyuq, yayda isti. Amma başqa yol yoxdur.

**S a k i n:** Sizdən çox razıyıq, hörmətli cənab Prezident. İcazə verin, bu camaatın adından, öz adımdan Sizə, ailənizə dərin minnətdarlığımı bildirim. Bir şüar var bizim Azərbaycanda, ümummilli lider rəhmətlik Heydər Əliyevin şüarı – «Mən azərbaycanlıyam». Mən də deyirəm: «Biz azərbaycanlıyıq». Biz bu siyasəti müdafiə edirik, biz bu siyasətin arxasınca gedirik. Mən Sizə cansağlığı, uzun ömür arzulayıram.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən də sizə minnətdaram ki, dözümlülük göstərirsiniz. Bu doğrudan da böyük fəlakətdir, böyük bəladır. Azərbaycan bu çətin sınaqdan şərəflə çıxacaqdır. Bütün evləri öz gücümüzə bərpa edəcəyik. Bizim indi imkanlarımız, gücümüz vardır. Bizim xilasedicilər müxtəlif ölkələrdə baş vermiş zəlzələlərin, yanğınların nəticələrinin aradan

qaldırılmasında iştirak edirlər, başqa ölkələrə köməklik göstərirlər. Ancaq bu məsələləri özümüz öz gücümüzə həll edirik. İki il əvvəl böyük daşqın baş vermişdi. On minlərlə hektar ərazidə bütün evlər dağılmışdı, hər tərəfi su basmışdı. Biz o fəsadların əksər hissəsini artıq aradan götürdük. Yeni evlər, məktəblər tikildi, əvvəlkindən daha gözəl. Ziyan dəymiş yerlərdə bütün infrastruktur yeniləşəcək, evlər tikiləcək və siz daha yaxşı, daha rahat yaşayacaqsınız.

O ki qaldı mənim fəaliyyətimə, mənim borcumdur. Bu borcu yerinə yetirmək üçün bu vəzifəyə seçilmişəm. Həmişə xalqla birlikdəyəm, birlikdə də olacağam. Yaxşı günlərdə də, ağır günlərdə də. Bir daha demək istəyirəm ki, bugünkü Azərbaycan dövləti çox böyük potensiala malikdir. Həm dünya miqyasında, həm bölgədə, regionda mövqelərimiz möhkəmdir. Ölkə daxilində də vəziyyət yaxşıdır. İqtisadi imkanlarımız, güclü iradəmiz var və bizim siyasətimizin mərkəzində insan dayanır – Azərbaycan vətəndaşı, adi vətəndaş, sizin kimi. Ona görə əmin ola bilərsiniz ki, yaxın zamanlarda bütün bu məsələlər həll olunacaqdır.

**S a k i n:** Yüz faiz əminik.

**İ l h a m Ə l i y e v:** Mənim nümayəndələrim buradadırlar. İcra nümayəndələri, icra başçıları öz vəzifə borclarını yerinə yetirirlər. Sizin bütün problemləriniz həll olunacaqdır. Mənə məlumat verilib ki, ərzaqla, uşaq yeməkləri ilə, su təchizatı ilə bağlı müəyyən xahişlər irəli sürülüb. İndi burada müəyyən yerlərdə ictimai mərkəzlər yaradılmalıdır ki, insanlar dincəlsinlər, hamamlar, televizora baxmaq üçün yerlər düzəldilməlidir. Təhlükəli olduğu üçün elektrik verilişi dayandırılıbdır. Çalışacağıq, maksimum dərəcədə şərait yaradaq ki, siz bu çətinliyi hiss etməyəsiniz.

**K ə m a l ə d d i n H e y d ə r o v** *(Fövqəladə Hallar naziri)* Cənab Prezident, əhali ilə danışdıq, bu tikintilərdə yerli əhali də işə götürüləcək və bu müddətdə işləyib pul qazanacaqlar.

**İ l h a m Ə l i y e v**: Əlbəttə, siz özünüz gərək işləyəsiniz, özünüz üçün evlər tikməlisiniz. Dövlət buna görə də vəsait verəcəkdir. Çalışın, evləri keyfiyyətlə tikin. Mən yuxarıdan da seyr

edirdim, bu evlər möhkəm tikilib, daş evlərdir. Bizdə bəzi yerlərdə evlər keyfiyyətsiz, çiy kərpicdən tikilir. Sizin evlər daş evlərdir, amma təkan çox güclü olub ki, dözməyib. Odur ki, bu dəfə daha keyfiyyətli tikin ki, gələcəkdə heç bir ağır hadisə baş verməsin.

**S a k i n:** Allah qismət etsin, işlər qaydasına düşəndən sonra bir də gələrsiniz, bir də görüşərik, inşallah.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, mütləq gələcəyəm. Gələcəyəm, yoxlayacağam, yeni evlərə köçməyinizi bir yerdə qeyd edəcəyik. Tikiləndə yenə də görüşəcəyik. Onda sizin əhval-ruhiyyəniz yaxşı olacaq. Görəcəksiniz, yeni evlər daha keyfiyyətli, geniş, daha rahat olacaqdır. Siz də bütün ölçüləri götürün. İndi söküləcək evlərin ölçülərini, neçə otaqdan ibarətdir, neçə kvadratmetrdir, ondan böyük evlər tikək. Bütün qeydiyyat işləri dəqiqliklə aparılmalıdır.

**K ə m a l ə d d i n H e y d ə r o v:** Artıq başlayıbdır, onlar özləri də icra nümayəndələri ilə bərabər bizim komissiyalarla işləyirlər. Yeni evlər tapşırığınıza uyğun tikiləcəkdir.

**İ l h a m Ə l i y e v:** Siz müəyyən müddətdən sonra o evlərin layihələrini də bəlkə burada təqdim edəsiniz ki, insanlar görsünlər evləri necə olacaqdır.

**S a k i n:** Cənab Prezident, bir xahişimiz var, bizim uşaq bağçamız yoxdur, onu da nəzərə alsınlar.

**İ l h a m Ə l i y e v:** O mütləq olacaqdır. Uşaq bağçaları da dağılıb. Neçə uşaq bağçası dağılıb?

**M ü b a r i z Ə h m ə d z a d ə** *(Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı):* Burada bütün məktəblər dağılıb – köhnə məktəb də, təzə məktəb də. Uşaq bağçası primitiv bir binada idi.

**S a k i n:** Uşaq bağçası yoxdur, heç olmayıb. Uşaqlarımız məktəbə gedəndə əziyyət çəkirlər.

**İ l h a m Ə l i y e v:** Olmayıb, indi olacaqdır.

**M ü b a r i z Ə h m ə d z a d ə:** Mamrux kəndində keçən il təzə tikilib istifadəyə verildi. Burada da bu il nəzərdə tutmuşduq. Belə fəlakət oldu.

**İ l h a m Ə l i y e v:** Burada məktəb neçə nəfərlik idi? Köhnə məktəb idi?

**M ü b a r i z  Ə h m ə d z a d ə:** Bəli, köhnə idi. Yeni korpus tikilmişdi, 400 nəfərlik idi. Hər ikisi dağılıb.

**İ l h a m  Ə l i y e v:** Kəndin əhalisi nə qədərdir?

**M ü b a r i z  Ə h m ə d z a d ə:** 1696 nəfərdi, 645 təsərrüfatdır.

**İ l h a m  Ə l i y e v:** Məktəbi 600 nəfərlik tikin. Biz yaxşı, gözəl məktəblər tikirik. Minlərlə məktəb tikilib. Uşaq bağçası da məktəbin yanında, bəlkə də bir ərazidə. Onların layihələrini hazırlayın və sonra kəndlərdə bir yerdə düzün ki, insanlar görsünlər. Evlər tikiləndə vətəndaşların xahişləri də nəzərə alınmalıdır. İndiki ölçüləri müəyyənləşdirin. Yeni ölçülər indiki ölçülərdən çox olmalıdır. Evlərin daxili planlaşdırılmasını insanların xahişi ilə etmək olar. Sağ olun. Əminəm ki, yaxın zamanlarda yenə də görüşəcəyik.

**S a k i n l ə r**: İnşallah. Çox sağ olun. Təşəkkür edirik.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

* * *

*Sonra dövlətimizin başçısı zəlzələnin episentrində yerləşən Qax rayonunun Güllük kəndinə gəldi.*

*«Meliorasiya və Su Təsərrüfatı» ASC-nin sədri Əhməd Əhmədzadə zəlzələ nəticəsində bu rayonda baş verən dağıntılar və həyata keçirilən tədbirlər barədə dövlətimizin başçısına məlumat verdi.*

**İ l h a m  Ə l i y e v:** Təbii fəlakət baş verib. Fəlakətin nəticələri aradan qaldırılacaq, sizin üçün daha da gözəl evlər tikiləcək. İlk növbədə, qəzalı vəziyyətdə olan evləriniz sökülməlidir və yerində yeni evlər tikilməlidir. Mən göstəriş vermişəm, bütün evlər Azərbaycanın dövlət büdcəsi hesabına yenidən tikiləcək. Bu məsələ mənim nəzarətimdədir. Sabahdan başlayaraq bütün kəndlərdə ilk növbədə təhlil və söküntü işləri aparılacaqdır.

Evlərin ölçüləri müəyyən ediləcəkdir və yeni evlər elə həmin bu evlərin yerində tikilməlidir. İndiki evlərdən daha da böyük evlər olacaqdır. Bütün xərcini də Azərbaycan dövləti öz üzərinə götürür.

**S a k i n:** Çox sağ olun, Allah Sizi qorusun, bilirik ki, bizi darda qoymayacaqsınız.

**İ l h a m Ə l i y e v:** Heç narahat olmayın. Məktəb də tikiləcək. Yəqin buradakı məktəb də dağılıbdır.

**M u s a Ş ə k i l i y e v** (*Qax Rayon İcra Hakimiyyətinin başçısı*): Müxtəlif dərəcədə xəsarət alan 30-a yaxın sosial obyekt vardır.

**İ l h a m Ə l i y e v:** Rayonda?

**M u s a Ş ə k i l i y e v:** Bəli, həmin 16 kənddə. Üç məktəbin binasında divarlar uçulmuşdur.

**İ l h a m Ə l i y e v:** Bu kənddə məktəb var?

**M u s a Ş ə k i l i y e v:** Bəli, onda da çatlar var.

**İ l h a m Ə l i y e v:** Bu kənddə əhali nə qədərdir?

**M u s a Ş ə k i l i y e v:** 2400 əhali, 576 ev.

**İ l h a m Ə l i y e v:** Böyük kənddir. Bir neçə aydan sonra tikiləcək evlər necə gözəl olacaqdır. Dövlətimiz güclü dövlətdir. İnsanlara da böyük qayğı vardır. Siz də görəcəksiniz ki, necə gözəl evlər tikiləcəkdir. Gözlərinizə inanmayacaqsınız. Göstəriş vermişəm, yaxın vaxtlarda layihələr hər kənddə göstəriləcəkdir, insanlar da görsünlər ki, onlar necə gözəl evlərdə yaşayacaqlar. Yeni evlərin tikintisində siz özünüz də iştirak edəcəksiniz, özünüz tikəcəksiniz. Dövlət isə maaş şəklində əlavə vəsait verəcəkdir.

**K ə m a l ə d d i n H e y d ə r o v:** Təmirdə, tikintidə işləyənlərə pul veriləcəkdir.

**İ l h a m Ə l i y e v:** Evlər yəqin ki, daşdan tikiləcəkdir.

**K ə m a l ə d d i n H e y d ə r o v:** Daşdan tikiləcək, bəli.

**İ l h a m Ə l i y e v:** Mən görürəm, bax, bu evlər kərpicdəndir.

**K ə m a l ə d d i n H e y d ə r o v:** Kərpicdir, bir də çay daşlarıdır, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Bu, keyfiyyətsiz tikilib. Elədir?

**S a k i n:** O vaxt.

**İ l h a m Ə l i y e v:** O vaxt – 40 il əvvəl, özü də keyfiyyətsiz. Amma indi evlər daşdan tikiləcək və keyfiyyətli olacaqdır. Heç kim Azərbaycanda sahibsiz qala bilməz. Təbii fəlakət baş veribdir. Xoşbəxtlikdən heç bir itki yoxdur. Ev nədir ki, biz tikəcəyik.

**F a z i l  M u s a y e v** (*Güllük kənd sakini):* İcazə verin, Sizi bir ziyalı, ağsaqqal kimi, Güllük kənd camaatı adından salamlayım və Sizə «Xoş gəlmisiniz!» – deyim.

Cənab Prezident, biz çox istərdik ki, Siz bizim xoş günlərimizdə iştirak edəsiniz. Təəssüf ki, kəndimizdə böyük təbii fəlakət baş verib. Siz çətin günümüzdə bizimlə görüşə gəlmisiniz. Bu bizi çox ruhlandırıb. Sizinlə görüşə çox şadıq. Əminik ki, Sizin müdrik siyasətinizlə, köməyinizlə problemlərimiz həllini tapacaqdır. Biz Sizin iradənizə, qətiyyətinizə əminik. İnşallah elliklə, Sizin köməyinizlə bu çətin vəziyyətdən çıxacağıq.

Cənab Prezident, zəlzələnin episentri bizim ərazimizdə olduğu üçün kəndimizdə daha çox dağıntılar var. Demək olar ki, kəndin binalarının 95 faizi ya dağılıb, ya da qəzalı vəziyyətə düşüb. Ona görə də Sizdən xahiş edirik ki, bizə kömək edəsiniz. Biz Sizə inanırıq, Sizin siyasətinizi bəyənirik, təbliğ edirik və daim Sizin arxanızda durmuşuq. Biz Sizə, Sizin müdrikliyinizə inanırıq. Bilirik ki, bu işin öhdəsindən gəlməyə bizə kömək edəcəksiniz. Xalqımız, camaatımız yeni binalarda yaşayacaq, övladlarını əmin-arxayın böyüdəcəklər. Sizə çox təşəkkür edirəm.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Əminəm ki, yaxın aylarda biz xoş günlərdə də görüşəcəyik. Çünki müvafiq göstərişlər verilmişdir ki, bütün evlər qısa müddət ərzində yenidən tikilsin.

Təbii fəlakətdir. Çox güclü zəlzələ baş vermişdir. Dediyiniz kimi, episentr də sizin kəndinizə, bu əraziyə düşüb. Əsas dağıntılar Zaqatala, Qax və qismən Balakən rayonlarındadır. Evlər uçulub, dağılıb, qəzalı vəziyyətdədir. Məktəblər, uşaq bağçaları, bütün sosial obyektlər dağılıb. Yəni böyük fəlakətdir. Mənə verilən son məlumata görə, 3 minə qədər ev yenidən tikilməlidir. Amma çox güman ki, ondan da artıq olacaqdır. Çünki hələ hesablamalar aparılır, komissiya işləyir. Bütün qəzalı vəziyyətdə olan və uçulmuş, dağılmış evlər bərpa ediləcək. Harada ki, mümkün deyil – əksər hallarda bu mümkün deyil – yeni evlər tikiləcəkdir.

Evlər tikiləndə sizin istəyiniz nəzərə alınacaq. Göstəriş vermişəm ki, evlərin ölçüləri götürülsün. Bu ölçülər evlərin

sahiblərinin iştirakı ilə təsdiqlənsin ki, siz də biləsiniz, dövlət də bilsin evin ölçüləri nə qədərdir. Yeni tikiləcək evlər indiki evlərdən daha böyük olmalıdır. Bu göstərişi də mən vermişəm. Bütün evlər dövlət hesabına tikiləcəkdir. Bu məqsədlərə çatmaq üçün dünən mənim göstərişimlə ilkin ödəmələr artıq ayrıldı – 20 milyon manat. Ancaq bundan sonra da ayrılacaq. Çünki dağıntılar həddindən artıq çoxdur.

Dövlətimizin gücü kifayət qədərdir. Bizim siyasətimizin mərkəzində insan amili dayanır. Ona görə də, şübhə etmirəm və xahiş edirəm siz də şübhə etməyəsiniz ki, bütün evlər tikiləcək, indikindən daha da gözəl, daha da yaxşı.

Bu evin yiyəsi mənə deyir ki, 1972-ci ildə tikilib, özü də o vaxt texnologiyalar indiki kimi deyildi. Deyə bilmərəm ki, çox keyfiyyətlə tikilib. Amma yeni tikiləcək evlər ən müasir texnologiyalara cavab verəcək, keyfiyyətli tikiləcək, rahat, işıqlı və gözəl olacaqdır. Bunu qısa müddət ərzində etməliyik. Bütün qüvvələr səfərbər olunur. Fövqəladə Hallar Nazirliyi, digər qurumlar işləyir. Ərzaqla təchizat təmin ediləcəkdir. İctimai yerlər müəyyən edilməlidir. Müvəqqəti olaraq çadırlarda yaşamaq məcburiyyətindəsiniz. Düzdür, bu ağırdır, amma başqa yol yoxdur. Çalışacağıq ki, bu məsələlər tezliklə öz həllini tapsın.

İlk növbədə seysmoloji vəziyyətə nəzarət edilməlidir. Çünki istisna edilmir ki, yeni təkanlar da olsun. Onu heç kim indi deyə bilməz. Amma vaxt itirmədən qəzalı vəziyyətdə olan bütün evlər sökülməlidir. Yeri təmizlənməli və tikinti materialları gətirilməlidir, artıq yoldadır. Texnika gəlib və şərait, seysmoloji vəziyyət imkan verən kimi, dərhal tikintiyə başlayacağıq. Tikintilərdə kənd əhalisi iştirak etməlidir, işləməlidir. Dövlət də vəsait ayıracaqdır. Siz dövlət hesabına özünüz üçün evlər tikəcəksiniz, üstəlik, dövlət buna görə sizə vəsait də verəcəkdir. Bizim yanaşmamız bundan ibarətdir.

Mən heç vaxt reallaşması mümkün olmayan vədlər verməmişəm. Verdiyim bütün vədlər artıqlaması ilə icra edilib. Son 9 ilin təcrübəsi bunu göstərir. Bütün bu zonada olan kəndlərdə evlər yenidən tikiləcəkdir. Ancaq bu, böyük bir işdir. Çünki üç

minə qədər – bəlkə də ondan da çox olacaqdır – ev qəzalı və dağılmış vəziyyətdədir. Üç min, ya dörd min evi, onlarla məktəbi, uşaq bağçasını, tibb məntəqəsini tikmək böyük işdir. Amma biz bu işin öhdəsindən gələcəyik. Buna əmin ola bilərsiniz. Yeni tikilən evlərin açılışında da bir yerdə sizinlə olacağam.

**S a k i n l ə r:** İnşallah, Allah Sizdən razı olsun. Çox sağ olun.

**S a k i n:** Cənab Prezident! Siz ulu öndərimiz Heydər Əliyevin dühasından bəhrələnən bir şəxsiyyətsiniz. Siz onun oğlusunuz. Heydər Əliyevin siyasətini də Siz davam etdirirsiniz. Xalqın inamı ona görə Sizə daha çoxdur. Xalq bilir ki, Prezidentimiz bizim arxamızdadır, biz də Prezidentin arxasındayıq.

**İ l h a m Ə l i y e v:** Ümumiyyətlə, Zaqatala, Qax və ətraf rayonların sosial-iqtisadi inkişafı sürətlə gedir. Bu gün mən buraya təyyarə ilə gəlmişəm. Zaqatala aeroportuna gəlmişəm. Bu aeroportu biz yaratdıq, biz tikdik. Zaqatala şəhəri də gözəlləşir. Qax şəhəri çox gözəl, müasir şəhər olubdur. Siz görürsünüz, Qaxın əvvəlki vəziyyəti necə idi, indiki vəziyyəti necədir?!

Bir neçə ay bundan əvvəl Qaxda olmuşam. Gözəl işlər görülübdür, yeni binalar tikilir. Qaxın içməli su, kanalizasiya layihələri icra edilir. Həm infrastruktur, həm abadlıq işləri bütün rayon mərkəzlərində gedir. O ki qaldı kəndlərə, kəndlərə də diqqət göstərilir və bundan sonra da göstəriləcəkdir. Təbii fəlakətlər baş verə bilər. Heç kim bundan sığortalı deyil. Əsas məsələ ondadır ki, bu sınaqdan dövlət necə çıxır.

**S a k i n l ə r:** Dəyanətlə çıxdıq.

**İ l h a m Ə l i y e v:** Biz bütün dövrlərdə sınaqdan şərəflə çıxmışıq. Öz hesabımıza çıxmışıq. Bu dəfə də öz hesabımıza çıxacağıq. Qısa müddət ərzində. Görəcəksiniz ki, bu evlərdən qat-qat gözəl, yaraşıqlı və keyfiyyətli evlərdə yaşayacaqsınız.

**S a k i n l ə r:** İnşallah. Çox sağ olun. Təşəkkür edirik. Biz Sizə inanırıq və ümid edirik. Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

## ZAQATALADA ZƏLZƏLƏ İLƏ BAĞLI KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ NİTQ

*9 may 2012-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 9-da Zaqatala rayonunda zəlzələ ilə bağlı yaradılan qərargahda keçirilmiş müşavirədə çıxış etmişdir.*

– İki gün əvvəl Zaqatala, Qax, Balakən rayonlarında güclü zəlzələ baş vermiş, nəticədə böyük dağıntılar olmuşdu. İlkin məlumata görə, dağılmış evlər yüzlərlə hesablanırdı. Son məlumata görə, 3 minə qədər fərdi ev dağılmış, yaxud qəzalı vəziyyətə düşmüşdür. Qəzalı vəziyyətdə olan evlərdə də yaşamaq mümkün deyildir.

Fövqəladə Hallar Nazirliyi dərhal təbii fəlakətlə bağlı fəaliyyətə başlamışdır, qərargah yaradılmışdır, vəziyyət təhlil edilmişdir, insanlar təhlükəsiz yerlərə köçürülmüşlər. Xoşbəxtlikdən heç bir insan itkisi olmamışdır. Dərhal bölgəyə çadırlar gətirilmiş və quraşdırılmışdır. İnsanlar müvəqqəti olaraq çadırlarda və qohumlarının evlərində yerləşdirilmişlər. Yüzlərlə sosial obyekt, iyirmidən çox məktəb, uşaq bağçaları, tibb məntəqələri sıradan çıxmışdır. Bir sözlə, bu çox böyük və dəhşətli təbii fəlakətdir.

Azərbaycan dövləti güclü dövlətdir və bütün təbii fəlakətlərin fəsadlarının aradan qaldırılması üçün bizdə kifayət qədər imkanlar vardır. Hazırda səfərbərlik işləri, demək olar ki, yekunlaşmışdır. Ağır texnika gətirilmişdir, əlavə çadırlar gətirilir. İnsanların müvəqqəti məskunlaşması üçün bütün lazımi tədbirlər görülür. Çadırlarda yaşamaq çox ağırdır, çətindir. Çalışmalıyıq ki, qısa müddət ərzində bu vəziyyətdən çıxaq. İlk növbədə, təhlil işləri davam etdirilməlidir. Bizdə tam məlumat yoxdur. Qəzalı vəziyyətdə olan evlərin sayı getdikcə artmaqdadır və beləliklə, gələn günlərdə də təhlil işləri

aparılmalıdır. Dağılmış və qəzalı vəziyyətə düşmüş evlərin dəqiq ölçüləri müəyyən edilməlidir. Bu məsələlər ev sahibləri ilə birlikdə təhlil edilməlidir. Söküləcək hər bir evin dəqiq ölçüləri müəyyən edilməlidir. Evlərin layihələri – mən artıq göstəriş vermişəm – insanlara da təqdim edilməlidir. Tikiləcək evlər dağılmış evlərdən daha geniş, daha da böyük olmalıdır. Vətəndaşların arzuları da tikiləcək evlərdə öz əksini tapmalıdır.

Bütün dağılmış və qəzalı vəziyyətdə olan məktəblər yeni tədris ilinə qədər yenidən tikilməlidir. Bu çox böyük işdir, böyük maliyyə vəsaiti və texniki imkanlar tələb edən məsələdir. Çalışmalıyıq ki, bütün bu məsələlər maksimum qısa müddət ərzində həllini tapsın.

Bununla paralel olaraq, seysmoloji vəziyyətə daim nəzarət olunmalıdır. Çünki bir neçə təkan olmuşdur və yenə də deyirəm, xoşbəxtlikdən birinci təkan o qədər güclü olmamışdır. İnsanlar evləri tərk etmişlər, ondan sonrakı təkanlar əsas dağıntılara səbəb olmuşdur və istisna edilmir ki, təkanlar bundan sonra da baş versin. Ona görə seysmoloji vəziyyətə tam nəzarət edilməlidir. Yəni tikinti-bərpa işlərinə ancaq seysmoloji vəziyyət tam sabitləşdikdən sonra başlanılmalıdır.

Müvəqqəti məskunlaşma yerlərində bütün məişət məsələləri öz həllini tapmalıdır. Mənə verilən məlumata görə, artıq bu istiqamətdə böyük işlər görülmüşdür. İnsanların xahişlərini nəzərə alaraq, çadırlar hər bir vətəndaşın həyətində quraşdırılır. Biz bu arzuları da yerinə yetiririk, baxmayaraq ki, işin daha da səmərəli və tezliklə görülməsi üçün çadırların bir yerdə quraşdırılması məqsədə müvafiq olardı. Ancaq insanların istəklərini nəzərə alaraq hər bir həyətdə çadırlar qururuq. İçməli su, elektrik məsələləri də öz həllini tapmalıdır. İctimai yerlər artıq müəyyən edilib, səyyar hamamlar, ərzaq məntəqələri, yeməkxanalar və tibb məntəqələri quraşdırılır və quraşdırılmalıdır. Bütün müvafiq qurumlar öz vəzifə borclarını yerinə yetirirlər və elə etməliyik ki, insanların əziyyətini minimum səviyyəyə endirək. Nə qədər mümkünsə insanların müvəqqəti

məskunlaşma yerlərində gözəl şərait yaradaq ki, onlar az əziyyət çəksinlər.

Təmir-bərpa işləri şübhəsiz ki, keyfiyyətlə aparılmalıdır. Dağılan evlərin böyük əksəriyyəti onilliklər bundan əvvəl tikilmiş evlərdir. Keyfiyyətsiz materiallardan istifadə olunmuşdur və texnoloji qaydalara riayət edilməmişdir. Yeni tikiləcək evlər dağılmış evlərdən həm daha böyük və həm də şübhəsiz ki, keyfiyyətli olmalıdır. Bütün texnoloji qaydalar tətbiq edilməlidir ki, insanlar bu evlərdə rahat yaşasınlar.

Azərbaycan dövləti təbii fəlakətin fəsadlarının aradan qaldırılması üçün bütün imkanlarını səfərbər edib. Dünən mənim göstərişimlə bu məqsədlər üçün 20 milyon manat vəsait ayrılıbdır. Ancaq real vəziyyət göstərir ki, bu vəsait bizə kifayət etməyəcəkdir. Növbəti mərhələdə əlavə vəsaitin ayrılmasına da baxmalıyıq. Dövlət büdcəsində və ehtiyat fondlarında vəsait var və bu vəsaitdən istifadə edib bütün məsələləri tezliklə həll etməliyik. Üç minə qədər evin tikintisi çox böyük maliyyə vəsaiti tələb edəcəkdir və texniki məsələlər öz həllini tapmalıdır. Çalışmalıyıq ki, bütün evləri qısa müddətdə bərpa edək ki, insanlar az əziyyət çəksinlər. Bütün müvafiq qurumlar, yerli icra orqanları burada əlaqəli şəkildə fəaliyyət göstərməlidir. Bu məqsədlə qərargah yaradılıbdır və bütün işləri ardıcıllıqla və keyfiyyətlə görməliyik.

Bizim siyasətimizin mərkəzində insan amili dayanır, çünki sosialyönümlüdür və Azərbaycanda aparılan islahatlar insanların rahat yaşamasına yönəldilib. Əlbəttə, ağır vəziyyətə düşmüş vətəndaşlarımızın problemlərinin həlli bizim üçün həmişə olduğu kimi, prioritetdir. Dövlətimiz güclü dövlətdir, biz istənilən sınaqdan şərəflə çıxa bilirik və təcrübə də bunu göstərmişdir. İki il bundan əvvəl baş vermiş daşqınlar nəticəsində minlərlə ev dağılmışdı. O evlər yenidən quruldu, yeni qəsəbələr tikildi, kəndlər bərpa edildi, məktəblər inşa olundu, yollar çəkildi. Təcrübəmiz var, xilasedicilərimiz başqa ölkələrdə xilasetmə missiyalarında uğurla fəaliyyət göstərirlər. Xilasedicilərimiz həm yanğınların, zəlzələlərin və digər təbii fəlakətlərin fəsadlarının aradan qaldırılmasında artıq çox böyük peşəkarlıq nümayiş etdiriblər. Öz

problemlərimizi özümüz həll edəcəyik. Bizdə kifayət qədər imkanlar, çadırlar, səyyar mətbəxlər vardır. Məsələnin hərtərəfli həlli üçün təhlil, söküntü, tikinti-bərpa işləri, insanların normal yaşamasını təmin etmək üçün bütün məsələlər öz həllini tapmalıdır və əminəm ki, tapacaqdır.

*Sonra Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov vəziyyətlə bağlı məlumat verdi.*

**K ə m a l ə d d i n  H e y d ə r o v**: Çox sağ olun, cənab Prezident. Mayın 7-də Zaqatala, Qax və Balakən rayonlarının ərazisində güclü zəlzələ baş vermişdir. Zəlzələnin episentri 9-11 kilometr dərinlikdə, gücü isə 7 bal olmuşdur. Saat 9.40-da baş vermiş ilkin zəlzələ 5,3 bal gücündə hiss olunmuşdur. Saat 19.22-də baş verən zəlzələ isə dağıdıcı olmuşdur. Kəndlərdə əsas dağıntılara bu zəlzələ səbəb olmuşdur. Bu zəlzələlərin arasında təxminən 500-ə qədər yeraltı təkan qeydə alınmışdır. Xırdalı, böyüklü zəlzələlər haqqında icazə versəydiniz, çıxışımdan sonra Milli Seysmoloji Mərkəzin direktoru məruzə edərdi. Mən isə gördüyümüz işlər haqqında məlumat verim.

Zəlzələ baş verən anda Sizin mənə tapşırığınızdan dərhal sonra bütün rəhbər heyət Zaqatalaya gəlmişdir. O cümlədən min nəfərə yaxın şəxsi heyət bu gün müxtəlif qərargahlarda, kəndlərdə fəaliyyət göstərir. Bizim ilkin işimiz əhali arasında tələfatın olub-olmamasını və zədələnənləri araşdırmaq idi. Məlum oldu ki, heç bir insan həlak olmamışdır. Amma yüngül zədələrlə qurtulanlar olmuşdur ki, onlara da tibbi xidmət göstərilmişdir və bu gün onların vəziyyətləri yaxşıdır. Birinci və ikinci dağıdıcı zəlzələdən sonra işləyən komissiyaların rəyləri artıq əlimizdədir. Zaqatala rayonu üzrə uçulmuş evlərin sayı 274, qəzalı evlərin sayı 2052 – cəmi 2326 ev. Balakən rayonunda uçulmuş ev qeydə alınmamışdır, qəzalı evlərin sayı 35-dir. Qax rayonu üzrə 250 uçulmuş ev var və 150 ev qəzalı vəziyyətdədir – cəmi 400 ev. Bu rayonlar üzrə uçulmuş evlərin sayı 524, qəzalı evlərin sayı 2237 və bütün bunların hamısının cəmi, bu saata olan məlumata görə 2761-dir.

Sosial obyektlərlə bağlı – bütün bu üç rayonda 74 məktəb ciddi zərər çəkmişdir, bunların hamısı yenidən tikilməlidir. Həmçinin 48

uşaq bağçası, 2 lisey, 40 inzibati bina, 9 tibb məntəqəsi, 4 məscid – cəmi 177 sosial obyekt uçulmuş və ya qəzalı vəziyyətdədir.

Möhtərəm cənab Prezident! Sizin tapşırığınıza əsasən əhali arasında icra hakimiyyətlərinin başçıları ilə bərabər ilkin olaraq danışıqlar, söhbətlər aparılmışdır. Çünki əhali ilk gün və bu gün də daxil olmaqla, təbii fəlakətdən, açıq desək, bir balaca qorxuya düşmüşdür. Bu da təbiidir və apardığımız işin nəticəsində, tapşırıqlarınızı onlara çatdırandan sonra əhalidə nisbətən sakitlik yaranmışdır və onlar bu qəza ilə bağlı öz xahişlərini söyləmişlər.

Dünən Sizin verdiyiniz tapşırığa görə bir neçə böyük qəsəbədə olmuşam və onlara evlərin tikilməsindən başqa, ərzaq və digər xidmət göstərilməsi haqqında məlumat vermişəm ki, bu da əhali tərəfindən müsbət qarşılanmışdır. İcazə versəniz, məruzə edərdim ki, artıq buraya gətirilən və yolda olan 2600 çadır vardır. İlk günlərdə qəzalı evlərə yaxınlaşmamaları üçün əhalini böyük çadırlarda yerləşdirmişdik.

O günə, yəni dünənədək imkan daxilində hərənin həyətində öz ailə tərkibinin sayına görə çadırlar paylanmışdır. Bu gün, sabah, ola bilsin ki, birisi gün günortaya qədər hər bir ev fərdi çadırla təmin olunacaqdır. Bundan əlavə, əhaliyə un, şəkər, yağ, uşaq yeməkləri, çay, yuyucu toz, sabun, uşaq üçün gündəlik paltarlar paylanmışdır. Əhali gündəlik qaz balonları xahiş etmişdirlər ki, həyətlərində yeməklərini bişirsinlər və onları da bu gün və sabah ərzində əhaliyə təqdim edəcəyik.

Ümumiyyətlə, tikinti ilə bağlı dünən Sabirabad və Saatlı rayonlarında inşaatda təcrübəsi olan və digər şirkətlərin rəhbərləri buraya dəvət olunmuşdular. Onların arasında iş bölgüsü aparılmışdır. Onlar hansı kənddə ki, böyük işlər aparılacaqdır, orada bizim qurduğumuz qərargahla təmasda olacaqlar. Amma Sizin bugünkü əlavə tapşırığınıza görə o evlər indiki evlərdən daha böyük, daha gözəl olmalıdır və layihələr fərdi surətdə hər bir evin sahibləri ilə razılaşdırılmalıdır. Onlara göstərilməlidir ki, necə olacaqdır. Bu gün Siz camaatla söhbətinizdə də vurğuladınız ki, o tikintilərdə iştirak edəcək işçi qüvvələrinin çoxu elə kənddə

yaşayan insanlar olacaqdır. Bu da onlara əlavə pul qazanmalarına kömək edəcəkdir.

Artıq dünəndən başlayaraq ağır texnikalar kəndlərə paylanmışdır və ardı gəlir. Divarları tikmək üçün sement və digər inşaat materialları paylanır. Bilirsiniz ki, çoxlu divar uçubdur. Onlara bizim müəyyən etdiyimiz tikinti şirkətləri qarışmayacaqdır. Onlara sement və digər materiallar verəcəyik ki, öz divarlarını özləri bərpa etsinlər.

İçməli su, məhəllələrdə müvəqqəti hamamlar, səyyar mətbəxlər məsələsi həll olunur. Tibbi xidmət göstərmək üçün həm Səhiyyə Nazirliyinin qurumları və əgər başqa yerlərdə tələb olunacaqsa, bizim tibb xidmətinin əməkdaşları onlara xidmət göstərəcəklər. Camaata nə lazımsa, hamısı ilə təmin olunacaqlar.

**İ l h a m Ə l i y e v:** İnsanların narahatlığını başa düşmək olar. İnsanların gözü qabağında onların evləri uçulub dağılıb. Bu gün həm Zaqatala, həm Qax rayonlarında vətəndaşlarla görüşlər əsnasında onların nikbinliyi də görünür. Çünki inanırlar ki, Azərbaycan dövləti əlindən gələni əsirgəməyəcək və onların evləri tezliklə yenidən qurulacaqdır. Mən də qeyd etdim ki, tezliklə bu məsələyə baxacağıq və yeni evlər əvvəlki evlərdən qat-qat üstün olacaqdır. Bütün parametrlər üzrə – həm ölçülərə, həm keyfiyyətə, həm də müasirliyə görə. Biz bu məsələyə baxacağıq və indiki mərhələdə əsas məsələlərdən biri insanların müvəqqəti yerləşdirilməsidir.

Qeyd etdiyiniz kimi, insanların xahişləri nəzərə alınır. Şübhəsiz, ilk anlarda insanlar stress keçirmişlər və bu başa-düşüləndir. Hazırda vətəndaşlardan bizə gələn xahişlər artıq yerinə yetirilir, məsələlərə baxılır, ərzaq təminatı və məişət problemləri ilə bağlı bütün məsələlər mümkün qədər öz həllini tapmaqdadır.

**Q u r b a n Y e t i r m i ş l i** *(Azərbaycan Milli Elmlər Akademiyasının Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru):* Möhtərəm cənab Prezident! Gördüyünüz kimi, bu, güclü zəlzələlər baş verən ərazidir. Birinci, saat 09.40-da olan zəlzələnin episentri, ikinci isə saat 19.15-də olan zəlzələnin episentridir. Bu ərazi isə, ümumiyyətlə, ocaq zonasıdır – mütəmadi

olaraq qeydə aldığımız, sonradan baş vermiş afterşokların episentrləridir. Birinci zəlzələ güclü zəlzələdir. Bilirik ki, bu ərazi seysmoaktiv bölgədə yerləşir, burada tarixən zəlzələlər olub, mən bunu göstərəcəyəm. Ancaq ikincisi ondan da güclü olub və dağıntılar daha çoxdur. Çünki bu ərazidə, ümumiyyətlə, yanvar ayından aktivlik başlayırdı. Biz bunu görmüşdük, hiss edirdik.

Burada baş verən zəlzələ təsadüfi deyildir. Sadəcə olaraq, mən onu deyim ki, dünyanın heç bir ölkəsində zəlzələnin vaxtını, dəqiq gününü demək qeyri-mümkündür. Çünki qısamüddətli proqnoz yoxdur, nəinki bizim ölkədə, hətta bütün dünyada.

Möhtərəm Prezident, aparılan bu tədqiqatlara görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Çünki Siz seysmologiyaya çox diqqət yetirirsiniz. Bu gün Azərbaycanda tədqiqatlar o cihazlarla aparılır ki, dünyanın ən müasir avadanlığıdır. Bunu təkcə mən demirəm. Yaponiyadan, ABŞ-dan, digər ölkələrdən gələn alimlər, seysmoloqlar bunu təsdiq edirlər. Təbii ki, bu iş davam edir. Məlumat üçün onu da deyim ki, bu il ilk dəfə olaraq biz Xəzər dənizinin dibində seysmik stansiyalar quraşdıracağıq. Quru ərazilər qurtarandan sonra oraya keçəcəyik.

Ekranda göstərilən görüntülər həmin zəlzələlərin mexanizmidir. Biz parametrlər üzrə bunun elmi araşdırmalarını aparmışıq. Burada proses necə gedir? Gördüyünüz kimi, bu, təkan nəticəsində qırılıb-düşmə prosesidir. Yəni blokdaxili gedən prosesdə litosferdə böyük bir qırılma baş verib və onun təsirindən həmin təkanlar yaranıb. Onun 3D modelini qurmuşuq. Yəni ocaqda bu cür proses – qırılıb-düşmə, sıxılma və burada olan parçalanmalar gedib. Bu indi də davam edir. Dediyim kimi, ilin əvvəlindən burada aktivlik müşahidə edirdik. Çünki burada zəif təkanlar özünü göstərir. Apardığımız digər geofiziki tədqiqatlar da onu göstərirdi ki, burada fəallıq gözlənilir. Bu, ilk baş vermiş zəlzələnin episentridir.

Bu gördükləriniz isə Azərbaycanda hazırda mövcud olan, fəaliyyət göstərən ən müasir avadanlıqlar, stansiyalardır. Bölgələrdə olan stansiyalardır. Bunlar peyk rabitəsi ilə saniyəbəsaniyə respublikanın hər hansı ərazisində, regionda, eləcə də dünyanın müxtəlif nöqtələrində baş vermiş zəlzələni Bakıya

ötürür, onu əyani surətdə monitorda görür, sonradan proqramlar üzrə elmi araşdırmalar aparırıq.

Hər iki zəlzələnin dalğa yazıları, yəni spektr analizini də aparmışıq. Bu yolla qruntun rəqsini, sonradan isə zəlzələ vaxtı binanın rəqsini müəyyən edirik. Biz bunu inşaatçılara veririk ki, həmin ərazidə hansı bal gücündə zəlzələ ola bilər, necə tikmək lazımdır ki, qruntun rəqsi ilə binanın rəqsi üst-üstə düşməsin, əks təqdirdə gələcəkdə zəlzələ vaxtı böyük dağıntılar əmələ gələ bilər. Bu bizim apardığımız işlərdir.

Bu isə ikinci zəlzələnin təsviridir, Rixter cədvəli üzrə 5,7 bal gücündə baş verib. Onun dalğaları yerin səthinə doğru şaquli hərəkət etdiyinə görə də o cür dağıntılar əmələ gəlib. Binalarda əmələ gələn dağıntıların digər bir səbəbi isə onların keyfiyyətsiz inşaat materiallarından, yəni çay daşlarından tikilməsidir.

Bu isə ayın 7-də saat 09.40-dan sonra baş vermiş təkanların zaman üzrə paylanmasıdır. Cənab nazir qeyd etdiyi kimi, 500-dən çox afterşok olmuşdur. Üstəlik, ayrı-ayrı xırda təkanlar vardır. Onlar 1-dən aşağı olan təkanlardır. O barədə bir-iki kəlmə deyəcəyəm, onun ayrı səbəbləri də vardır. Bu onu göstərir ki, proses gedir. Biz burada qruntun saniyədə nə qədər yerdəyişməsini hesablamışıq.

Bu xəritədə episentri göstərmək istəyirəm. Bura Mamrux, Çobankol kəndləridir. Siz oralarda oldunuz, dağıntılara baxdınız. Bunlar isə Gözparaq, Bazar, Qımır, Güllük kəndləridir. 7,7 baldan çox olan episentr buradır. Hesablamalarımıza görə, episentrin uzunluğu 15 kilometrdir. Bura proses gedən sahədir. Burada 9–11 kilometr dərinlik arasında proses gedir. Proses bu gün də davam edir. Zaqatalada, Şəkidə, Qəbələdə, İsmayıllıda, dağın o biri tərəfində – Xınalıqda, Qubada, Qusarda, Dəvəçidə, Şamaxıda stansiyalarımız vardır. Buna baxmayaraq episentrin harada olduğu bilinməyən zəif təkanlar da var. Buna görə də mən əlavə tapşırıq verdim və ABŞ istehsalı olan yeni mobil rəqəmsal stansiyalar bu zonalarda quraşdırılacaqdır.

**İ l h a m Ə l i y e v:** Aydındır, sağ olun. Kəndlərin mühafizəsi ilə bağlı tədbirlər də görülməlidir. Bu təcrübə də bizdə var. Daşqın zonasında bu təcrübəni biz tətbiq etmişdik. Burada da Daxili İşlər

Nazirliyi bu məsələlərə baxmalıdır. Hər kənddə mühafizə məsələləri yüksək səviyyədə təşkil edilməlidir.

**R a m i l   U s u b o v:** Cənab Prezident, məruzə edirəm ki, hadisədən dərhal sonra Fövqəladə Hallar Nazirliyi ilə danışaraq buraya məsul əməkdaşlarımız gəliblər. Daxili Qoşunların böyük bir alayı burada yerləşir. Qüvvələr ayrılıbdır və kəndlərdə asayişin qorunması, baş verə biləcək cinayətlərin qarşısının alınması üçün bütün tədbirlər görülür, tapşırığınıza əsasən bu da axıra qədər davam etdiriləcəkdir.

**İ l h a m   Ə l i y e v:** Çox yaxşı. Yerli icra orqanları da öz vəzifə borclarını bilirlər. Daim insanlarla əlaqədə olmaq lazımdır. Hər bir məntəqədə, hər bir kənddə insanların problemlərini araşdırmaq və həll etmək lazımdır. Xüsusilə belə çətin anlarda vətəndaşlar sizin qayğınızı daha çox hiss etməlidirlər. Sizin qəsəbə, kənd nümayəndələri daim bu işlərdə fəal olmalıdırlar. İndi dövlət qurumları tərəfindən bütün lazımi tədbirlər görülür. Siz də öz tərəfinizdən bu işlərdə fəal iştirak etməlisiniz. Bu vəziyyətdən çıxmaq üçün sizin bütün imkanlarınız səfərbər olunmalıdır.

Mən şübhə etmirəm ki, bu sınaqdan da uğurla və şərəflə çıxacağıq. Bütün evlər, məktəblər yenidən tikiləcəkdir. İndi Fövqəladə Hallar naziri deyir ki, 74 məktəb tikilməlidir. Çox böyük işdir. Çalışmaq lazımdır ki, tədris ilinə qədər bunu edək və əlbəttə ki, siz yeni məlumatın hesablamalarını da təqdim edin. Əlavə vəsait nə qədər və nə vaxt lazım olacaqdır?! İndi ayrılan 20 milyon manat vəsaitdən artıq istifadə etməyə başlayın. Bu məqsədlər üçün, fəsadların aradan qaldırılması üçün lazım olan vəsait indi ayırdığımızdan qat-qat çox olacaqdır.

Bir daha demək istəyirəm ki, bu çox güclü təbii fəlakətdir, çox güclü zəlzələdir. Yeddi bal gücündə zəlzələ çox güclü zəlzələ hesab olunur. Xoşbəxtlikdən insan itkisi olmayıb. Bütün imkanlarımızı səfərbər edib tezliklə zəlzələnin fəsadlarını aradan qaldırmalıyıq, yeni evlər tikməliyik. Azərbaycan güclü dövlətdir və bizim dövlət siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və bu sahədəki siyasətimiz dəyişməz olaraq qalır. Əminəm ki, zəlzələdən əziyyət çəkmiş bütün kəndlərdə qısa

müddət ərzində yeni gözəl evlər, binalar tikiləcək və insanların güzəranı daha da yaxşı olacaqdır.

**ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT**

*Fəxri xiyaban*

*10 may 2012-ci il*

*Azərbaycan Respublikaının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 89-cu ildönümündə məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəlmişlər.*

*Ümummilli liderimizin ad günündə – mayın 10-da sübh tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana gələrək, ulu öndər Heydər Əliyevin məzarı önünə təzə-tər güllər qoyub, əziz xatirəsini dərin ehtiramla yad etdilər.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, ruhu qarşısında baş əydi.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndi.*

*Sonra prezident İlham Əliyev və ailə üzvləri oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarlarını ziyarət edərək önünə gül dəstələri qoydular.*

**ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 89-cu İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ PAYTAXTDA TƏŞKİL EDİLMİŞ GÜL BAYRAMINDA İŞTİRAK**
*10 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibətilə Bakıda ulu öndərin adını daşıyan sarayın qarşısında təşkil edilmiş Gül bayramında iştirak etmişlər.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlətimizin başçısına məlumat verdi ki, səhər tezdən başlayaraq paytaxt sakinləri dünyanın bir sıra ölkəsindən gətirilmiş gül-çiçəklə bəzədilmiş parka gəlirlər.*

*Müstəqil dövlətimizin xilaskarı və qurucusu, xalqımızın dahi oğlu Heydər Əliyevin əzəmətli abidəsinin ətrafı gül-çiçəyə qərq olmuş, postament ağ güllərlə hörülmüşdür.*

*Prezident İlham Əliyev və ailə üzvləri ulu öndərin abidəsini ziyarət etdilər.*

*Müxtəlif güllərdən yığılmış «xalça»lar və türk dünyasının böyük oğlu Heydər Əliyevin tər çiçəklərdən «toxunmuş» portret xalçası orijinallığı ilə göz oxşayırdı. Çiçək və bitkilərdən, yarpaqlardan hazırlanan rəngarəng kompozisiyalar görünüşü və ifadəliliyi ilə seçilir, gözəlliyin hədsiz imkanlarını nümayiş etdirir, hər kəsdə xoş ovqat yaradırdı.*

*Prezident İlham Əliyev və ailə üzvləri gül kompozisiyalarına maraqla tamaşa etdilər. Güllərdən hazırlanmış müxtəlif mənzərələr, orijinal lövhələrdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərinə aid fotoşəkillər böyük maraq doğururdu.*

*Üzərində ulu öndərin portreti, müxtəlif çiçəklər, «Eurovision–2012» yazısının əks olunduğu hava şarları maraqla qarşılandı.*

*Gül və müxtəlif nağıl qəhrəmanları kimi bəzənmiş, bayramı daha da gözəlləşdirən uşaqlar prezident İlham Əliyevi və ailə üzvlərini özlərinə xas səmimiyyətlə salamladılar.Dövlətimizin başçısı və ailə üzvləri uşaqlarla söhbət etdilər, ulu öndər Heydər Əliyevin gül-çiçəyə qərq olmuş abidəsi önündə onlarla birgə xatirə şəkli çəkdirdilər.*

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞI, ULU ÖNDƏRİN ANADAN OLMASININ 89-cu İLDÖNÜMÜ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTƏ BAŞLAMASININ 8 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*10 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Heydər Əliyev Mərkəzinin açılışı, ulu öndərin anadan olmasının 89-cu ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 8 illiyi münasibətilə keçirilmiş təntənəli mərasimdə iştirak etmişlər.*

*Dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dünya arxitekturasının nadir incilərindən olan Heydər Əliyev Mərkəzinin quruluşunda Bakının memarlıq koloriti dəqiqliklə nəzərə alınmışdır. Dünyada bənzəri olmayan Mərkəzin yaradılması ideyasının arxitekturada mükəmməl formada əks olunması onun quruluşuna xüsusi özəllik verir. Ümummilli liderin azərbaycançılıq fəlsəfəsinin təbliği, gələcəkdə Azərbaycan vətəndaşlarının dünyada gedən müasir proseslər çərçivəsində vətəninin və xalqının taleyi ilə bağlı genişmiqyaslı layihələrdə iştirakının, onların arzu və istəklərini gerçəkləşdirmək əzminin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edən Heydər Əliyev Mərkəzinin inşası Azərbaycanın müasir reallıqlarını əks etdirir. Bununla yanaşı, ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisəyə çevriləcək bu mədəniyyət ocağının yaradılması Azərbaycanda prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlərin miqyasını və əhəmiyyətini göstərir.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi:*

– Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün biz Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünü qeyd edirik. Bu əziz gündə biz Heydər Əliyev Mərkəzinin açılışına toplaşmışıq. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm.

Heydər Əliyev Mərkəzi nadir memarlıq abidəsidir. Mərkəzin yaradılması haqqında fikirlər təqribən 6-7 il əvvəl yaranmağa başlamışdı. O vaxt belə bir fikir yarandı ki, Bakıda çoxfunksiyalı gözəl memarlıq abidəsi olan Mərkəz yaradılsın. Mərkəzə ulu öndərin adı verilsin. Biz araşdırmalar aparmağa başladıq. Əsas məsələ yerin düzgün seçilməsi idi. Bu ərazidə uzun illər bundan əvvəl yaradılmış «Səttarxan» zavodu fəaliyyət göstərirdi. Əslində, zavod köhnəlmişdi və burada istehsal olunan məhsullar müasir tələblərə cavab vermirdi. Buna baxmayaraq, zavodun fəaliyyətini dayandırmamaq məqsədi ilə o, başqa yerə köçürüldü, ərazi təmizləndi və tikinti başlandı. Zavodun ərazisi 16 hektar təşkil edirdi. İndi bu ərazidə bu möhtəşəm bina ucaldılmış və gözəl park yaradılmışdır.

İkinci məsələ Mərkəzin memarlıq tərəfi idi. Bu məqsədlə dünya şöhrətli memar Zaha Hadid öz təkliflərini irəli sürmüşdü. Dərhal onun təklifləri təhlil edildi və qərar qəbul edildi ki, Heydər Əliyev Mərkəzi məhz bu layihə əsasında yaradılmalıdır. Çünki bu, nadir memarlıq əsəridir, dünyada analoqu olmayan, müasirliyi özündə təcəssüm etdirən çoxfunksiyalı binadır. Binanın xarici görünüşü müxtəlif fərziyyələr irəli sürməyə imkan verir. Bəziləri bu Mərkəzi dalğaya, bəziləri küləyə bənzədirlər. Bu təbiidir, hər bir insanın öz fantaziyaları əsasında fikirləri yarana bilər. Hər halda, bu bina həm memarlıq baxımından, həm funksional baxımdan nadir binadır.

Beş il əvvəl – 2007-ci ildə binanın bünövrəsi qoyuldu, tikintisi başlandı. Bu gözəl memarlıq əsərini reallığa çevirmək lazım idi və bu gün bu fürsətdən istifadə edərək həm dünya şöhrətli memar Zaha Hadidə, binanın tikintisi ilə məşğul olan bütün insanlara bu

gözəl əsəri yaratdıqlarına görə minnətdarlığımı bildirmək istəyirəm.

Əziz dostlar, ilk dəfədir ki, bu binaya gəlmisiniz. Mən isə tikinti zamanı dəfələrlə burada olmuşam və tikinti daim nəzarət altında idi. Bina ilə tanışlıq üçün imkanlar olacaq – həm sizin, həm Azərbaycan vətəndaşlarının. Bu bina çoxfunksiyalı Mərkəzdir. Burada iclaslar və konsert, rəsmi qəbullar və konfrans zalları vardır, Heydər Əliyev Muzeyi fəaliyyət göstərəcəkdir. Kitabxana, sərgi salonları nəzərdə tutulubdur, digər otaqlar və zallar vardır. Bina Azərbaycan vətəndaşlarına hərtərəfli şəkildə xidmət göstərəcəkdir.

Binanın ərazisi 16 hektardır. Gözəl parklar salınıb. İnsanların rahatlığı üçün eskalatorlar quraşdırılıb. Əminəm ki, bu Mərkəz və ətrafı şəhərimizin gözəlləşməsinə xidmət göstərəcəkdir və insanların istirahət yerinə çevriləcəkdir.

Bakı sürətlə gözəlləşir, inkişaf edir. Bakıda həm qədimlik, həm müasirlik vəhdət təşkil edir. Bakının ənənəvi qədim rəmzləri var ki, biz bu rəmzlərlə haqlı olaraq fəxr edirik. Qız qalası Bakının ən əsas rəmzlərindən biridir. Dənizkənarı bulvar Bakının rəmzidir. Şirvanşahlar sarayı, Qobustan qoruğu, İçərişəhər Bakının qədim və köhnə rəmzləridir. Müasir Bakımızın müasir rəmzləri isə bu illərdə yaradılır. Onların arasında qeyd edə bilərəm – 3,5 kilometrdən 14 kilometrə qədər uzadılan Bakı bulvarı, onun köhnə hissəsi, yeni hissəsi və Bayraq Meydanı ətrafında tikilən bulvar.

Bayraq Meydanı şəhərimizin, ölkəmizin müasir rəmzidir. Dünyanın ən böyük bayrağı və ən möhtəşəm Bayraq Meydanı Bakıdadır. Meydanın ərazisi 60 hektardır və nadir memarlıq abidəsidir, dövlətçiliyimizin rəmzidir.

Yeni rəmzlərdən söhbət açarkən «Alov qüllələri»ni qeyd etməliyəm. Bu da müasir, inkişaf edən Bakımızın rəmzidir. Yeni istismara verilən «Bakı kristal zalı» və nəhayət, Heydər Əliyev Mərkəzi. Bu binalar da Bakının müasir rəmzləridir. Əminəm ki, Bakıya gələn hər bir vətəndaş, hər bir qonaq şəhərin qədim və müasir rəmzlərini görəcək, onlarla tanış olacaqdır. Onlar görəcəklər ki, Azərbaycanda həm qədim tarixə

böyük diqqət və hörmət var, həm də Azərbaycan sürətlə inkişaf edən müasir dövlətdir.

Heydər Əliyev Mərkəzi artıq dünya memarlıq siyahısına daxil edilibdir. Heydər Əliyev Mərkəzi memarlıq möcüzəsidir. Təbii ki, bu Mərkəz müstəqilliyimizin banisi Heydər Əliyevin adını daşıyır.

Heydər Əliyev bütün dövrlərdə xalqına sədaqətlə xidmət etmişdir, Azərbaycan xalqının rifah halının yaxşılaşdırılmasına və Azərbaycanın inkişafına çalışmışdır. Keçən əsrin 70–80-ci illərində onun rəhbərliyi altında Azərbaycan Sovet İttifaqında ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə qədər yol keçmişdir. Onun rəhbərliyi altında güclü sənaye potensialı yaradılmışdır ki, bu gün də bu potensial müasir və müstəqil Azərbaycana xidmət göstərir.

Heydər Əliyevin fəaliyyəti uzunmüddətli inkişafa hesablanmışdır. Onun təşəbbüsü ilə başlanmış layihələr, tikilmiş müəssisələr bu gün də xalqımıza, dövlətimizə xidmət göstərir. 1987-ci ildə Heydər Əliyev Sovet İttifaqının siyasi rəhbərliyindən uzaqlaşdırılandan sonra Azərbaycanın problemləri başlamış, iki həftə sonra erməni lobbisi tərəfindən başlanmış kampaniya nəticəsində Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək ideyası ortaya atılmışdır. Bu ideya ətrafında Ermənistan və onun havadarları Azərbaycana qarşı işğalçı siyasətini başlamışlar. Heydər Əliyev amili, gücü imkan vermirdi ki, belə iddialar ortaya atılsın. 1988-ci ildə Azərbaycana qarşı növbəti təxribat – Sumqayıt hadisəsi baş vermişdi. İstintaq materialları dərc edilib. Heç kim üçün sirr deyil ki, Sumqayıt hadisələrini erməni millətçiləri törətmişdilər. Bu onların təxribatı idi və orada ən çox qəddarlıq göstərən erməni millətindən olanlar idilər. Məqsəd bu hadisədən istifadə edib Azərbaycana qarşı əsassız iddialar irəli sürmək və azərbaycanlılara qarşı soyqırımını əsaslandırmaq idi.

1990-cı ildə Azərbaycan xalqına qarşı təcavüz edilmiş, qanlı Yanvar hadisələri baş vermiş, 1992-ci ildə Xocalı soyqırımı törədilmişdi. 1992-ci ilin mayında Şuşa və Laçın rayonları işğal

altına düşmüşdü. 1993-cü ilin aprel ayında Kəlbəcər rayonu işğal edilmiş, Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi bağlantı yaranmışdır.

Heydər Əliyevin siyasi hakimiyyətdə olmadığı dövrdə Azərbaycan xalqının başına gör nə qədər bəlalar gətirilmişdir. Xoşbəxtlikdən, Azərbaycan xalqı müdriklik göstərərək 1993-cü ildə vətəndaş müharibəsi gedə-gedə ulu öndərə müraciət etmiş, onu siyasi rəhbərliyə dəvət etmiş və imkan yaranmışdır ki, Azərbaycan bu ağır, çətin vəziyyətdən çıxa bilsin. Yalnız Heydər Əliyev siyasəti, onun müdrikliyi, cəsarəti, xalq tərəfindən ona olan inamın nəticəsində biz o böhranlı vəziyyətdən çıxa bildik. Qanunsuz silahlı birləşmələr tərksilah edildi, sabitlik yarandı, asayiş bərpa edildi, ölkə inkişaf etməyə başladı.

Deyəndə ki Heydər Əliyev müasir və müstəqil Azərbaycanın banisidir, yanılmırıq. Çünki müasir tariximiz, şanlı tariximiz 1993-cü ildən başlayır. O ildən 2003-cü ilə qədər Azərbaycan böyük və uğurlu yol keçmişdir, dövlətçiliyin əsasları qoyulmuşdur. Mütərəqqi Konstitusiya qəbul edilmiş, ümumi dövlət quruculuğu prosesi başlamışdır, əsaslı siyasi və iqtisadi islahatlar reallaşmışdır, Azərbaycan dünya miqyasında özünü tanıtdıra bilmişdir və beynəlxalq təşkilatlara üzv olmuşdur.

Heydər Əliyevin təşəbbüsü ilə aparılan iqtisadi islahatlar bazar iqtisadiyyatı prinsiplərinə söykənirdi. Bu da inqilabi bir dəyişiklik idi. Həm siyasi islahatlar, həm iqtisadi islahatlar bugünkü inkişafı şərtləndirir.

O vaxtkı ağır şəraitdə Heydər Əliyevin təşəbbüsü ilə neft strategiyası reallaşmağa başlamışdır. Onun tərəfindən başlanmış bu strategiya bu gün davam etdirilir, zənginləşdirilir. Azərbaycanın uğurlu inkişafını şərtləndirən əsas amillərdən biri də Heydər Əliyevin neft strategiyasıdır.

Ordu quruculuğu prosesi başlamışdır. Azərbaycanda nizami ordu, demək olar ki, yox idi. Ayrı-ayrı silahlı birləşmələr, müxtəlif siyasi qüvvələrə tabe olan birləşmələr müharibəni lazımi səviyyədə apara bilmirdilər. Nizami ordunun yaradılması

tarixi hadisədir. Bu gün ordumuz güclənir və istənilən məsələni həll etməyə qadirdir. Biz bütün sahələrdə bugünkü Azərbaycan reallıqlarında Heydər Əliyevin izini görürük. Onun təşəbbüsü ilə dövlətimizin ideoloji əsasları formalaşmışdır. Güclü və möhkəm təməl, milli dəyərlər üzərində müasir dövlətin qurulması Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycançılıq məfkurəsini cəmiyyətə təqdim edən məhz Heydər Əliyev olmuşdur. Bu gün azərbaycançılıq fəlsəfəsi əsas ideoloji dayaqlarımızdan biridir.

Bu 10 il ərzində ulu öndərin xalq qarşısında göstərdiyi xidmətlər misilsizdir. Azərbaycan xalqı Heydər Əliyev sevgisini qəlbində yaşadır və yaşadacaqdır. Biz – ulu öndərin davamçıları elə etməliyik ki, onun siyasi xətti Azərbaycanda daim üstünlük təşkil etsin. Mən buna şübhə etmirəm. Son doqquz ilin təcrübəsi göstərir ki, biz bu siyasətə sadiqik. Heydər Əliyevin siyasi vəsiyyətinə sadiqik. Çünki 2003-cü ilin sonlarında o demişdir ki, mənim tərəfimdən başlanan işlərə mənim davamçılarım yekun vuracaqdır. Belə də oldu. Onun təşəbbüsü ilə yaradılan və şəxsən təməl daşını qoyduğu Bakı–Tbilisi–Ceyhan neft kəmərini 2006-cı ildə istismara verdik. Onun təşəbbüsü ilə imzalanmış «Şahdəniz» layihəsinin tərkib hissəsi olan Bakı–Tbilisi–Ərzurum qaz kəmərini biz 2007-ci ildə işə saldıq. Artıq açılan bu yeni dəhliz bizə imkan verdi ki, üçüncü strateji layihəni icra edək. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi uğurla davam edir və yaxın müddətdə başa çatacaqdır. Bu yeni Dəmir İpək yolunun yaradılması Azərbaycanın uzunmüddətli siyasi və iqtisadi maraqlarını təmin edəcəkdir.

Siyasi islahatlar davam etdirilir. Azərbaycan mövqelərini möhkəmləndirir. Azərbaycanda demokratikləşmə prosesi uğurla gedir. Azərbaycanda bütün azadlıqlar vardır. Bu istiqamətdə aparılan islahatlar çox müsbətdir, çox uğurludur, çox dəyərlidir. Bu islahatlar davam etdiriləcəkdir. Son 9 il ərzində Azərbaycan iqtisadi sahədə misli görünməmiş inkişaf dövrünü yaşayır. 9 ildə iqtisadiyyat 3 dəfə artmışdır. Sənaye istehsalı da 3 dəfə

artmışdır. Yoxsulluq şəraitində yaşayanların sayı təxminən 50 faizdən 7,6 faizə düşmüşdür. İşsizlik kəskin şəkildə azalmış, bir milyondan artıq yeni iş yeri açılmışdır. Hazırda işsizlik Azərbaycanda 5,3 faizdir. Büdcə kəsiri, demək olar ki, yoxdur. Bəlkə bir faiz təşkil edir. Amma kəsirsiz büdcə bizim üçün problem deyildir. Xarici dövlət borcu ümumi daxili məhsulun cəmi 7 faizini təşkil edir. Bu, hesab edirəm ki, dünya miqyasında ən uğurlu nəticələrdən biridir. Bizim iqtisadi sahədə uğurlarımız beynəlxalq maliyyə qurumları tərəfindən də qiymətləndirilir və qeyd edilir. Dünya üçün, qitə üçün ən çətin böhran illərində Azərbaycan iqtisadiyyatı inkişaf edir. Üç əsas beynəlxalq reytinq agentlikləri – «Moodys», «Fitch», «Standard & Poors» Azərbaycanın kredit reytinqini artırır.

Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi siyasəti uğurla davam etdirilir. Bu ilin birinci rübünün yekunları bunu əyani şəkildə göstərir. Qeyri-neft iqtisadiyyatı 7,7 faiz, qeyri-neft sənayesi 16,5 faiz artmışdır. Budur bugünkü Azərbaycanın inkişaf dinamikası və reallıqları. Bununla bərabər, çox güclü sosial siyasət aparılır. Keçən il pensiyaların böyük dərəcədə artımına nail ola bildik. Bu ildən sovet dövrü əmanətlərinin qaytarılması, daha doğrusu, insanlara kompensasiyanın verilməsi prosesi başlanmışdır. Hesablanan əmsala görə, postsovet məkanında ən uğurlu və insanlar üçün ən faydalı yanaşma bizdədir. Ən qısa müddətdə ən çox vəsait ödəniləcək ölkə Azərbaycan olacaqdır. Gələn ilin sonuna qədər bütün kompensasiyalar verilməlidir.

Ordu quruculuğu prosesində Azərbaycan çox böyük uğurlara nail ola bilmişdir. Bu gün bizim hərbi xərclərimiz Ermənistanın dövlət büdcəsindən 50 faiz çoxdur. Bizim böyük gücümüz, böyük ordumuz vardır. Silahlı Qüvvələrimiz istənilən məsələni həll etməyə qadirdir. Mən dəfələrlə bir fikri qeyd edirəm, bir daha demək istəyirəm: Mən tam əminəm və bilirəm, Azərbaycan xalqı da tam əmindir ki, əgər ölkəmiz üçün həlledici illərdə – keçən əsrin 80-ci illərinin sonu, 90-cı illərin

əvvəllərində Heydər Əliyev Azərbaycanda rəhbərlikdə olsaydı, bir qarış torpaq işğal altına düşməzdi.

Məhz ona görə erməni lobbisi – bu mənfur qurum bütün səylərini Heydər Əliyevin neytrallaşdırılmasına yönəltmişdi. Əfsuslar ki, buna nail oldu. Əfsuslar olsun ki, bu çirkin kampaniyada o vaxt burada, Azərbaycanda milli satqınlar da iştirak etmişlər. «Beşinci kolon» o vaxt da var idi, əfsuslar olsun ki, bu gün də vardır. Onların sayı çox azdır, amma vardır. Bu gün də müstəqil ölkəyə zərbə vurmaq, ölkəmizi ləkələmək, ölkəmizin imicinə xələl gətirmək onların peşəsidir. Antimilli qüvvələr qınaq obyektinə çevrilir. Azərbaycan cəmiyyəti bu qüvvələri rədd edir və biz heç vaxt imkan verməri k ki, Azərbaycanın müstəqilliyinə, suveren inkişaf haqqına kimsə müdaxilə etsin.

Son 9 ildə Azərbaycan xarici siyasət sahəsində böyük uğurlara imza atmışdır. Bizim dostlarımızın sayı artmaqdadır. Biz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı, bərabərhüquqlu münasibətlər qura bilmişik. Bu bizim yanaşmamızdır. Bu, ədalətli yanaşmadır. Biz beynəlxalq hüquq normalarına hörmətlə yanaşırıq və bütün ölkələri buna dəvət edirik. Bir sözlə, regionda, bölgədə nüfuzumuz artır. Azərbaycanın iştirakı olmadan nə iqtisadi sahədə, nə də siyasi sahədə heç bir təşəbbüs, heç bir layihə icra edilə bilməz. Azərbaycan bölgənin mərkəzidir, ən qüdrətli, ən dinamik inkişaf edən dövlətdir. Biz bundan sonra da ikitərəfli formatda bütün ölkələrlə ancaq bərabərhüquqlu münasibətlərin inkişafına çalışacağıq. Mən çox şadam ki, bu prinsipləri bölüşən ölkələrin sayı həddindən artıq çoxdur və bir sözlə, dostlarımızın sayı artır.

Biz beynəlxalq təşkilatlarda prinsipial mövqemizi həmişə olduğu kimi ifadə edirik. Hər bir məsələ ilə bağlı bizim prinsipial, birmənalı mövqemiz vardır. Bu mövqe ədalətə, beynəlxalq hüquqa və Azərbaycan xalqının milli maraqlarına əsaslanır. Azərbaycan tərəfindən aparılan xarici siyasət nəticəsində bu gün dünya miqyasında bizə çox böyük inam və hörmət vardır. Mən bunu bilirdim. Çünki ikitərəfli təmaslarda,

beynəlxalq təşkilatların toplantılarında iştirakım və bütövlükdə xarici əlaqələrlə bağlı irəli sürülən təşəbbüslər bu əminliyi yaradırdı. Mən bilirdim ki, Azərbaycan çox böyük hörmətə malik olan ölkədir. Ancaq bu gün bunu bütün dünya bilir. Bir neçə ay əvvəl Azərbaycan dünyanın ən mötəbər qurumuna – BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Hesab edirəm ki, müstəqillik dövründə bu bizim ən böyük diplomatik uğurumuzdur. Biz dünya birliyinin dəstəyini qazana bilmişik. Dünya birliyi deyəndə, əlbəttə ki, Birləşmiş Millətlər Təşkilatı nəzərdə tutulur. Dünya dövlətlərini birləşdirən yeganə təşkilat BMT-dir. BMT-nin ən ali orqanında təmsil olunmağımız böyük tarixi nailiyyətdir və tarixi ədalətdir.

Azərbaycan 155 ölkənin dəstəyini qazanaraq bu mötəbər kürsüyə çatmışdır, hazırda Təhlükəsizlik Şurasına rəhbərlik edir. Bir həftə bundan əvvəl Azərbaycan Prezidenti BMT Təhlükəsizlik Şurasına rəhbərlik edirdi. Bu da tariximizdə böyük hadisədir.

Əziz dostlar, tam səmimiyyətlə deyə bilərəm ki, bugünkü reallıqların təməli ulu öndər tərəfindən qoyulmuşdur. Əlbəttə, həyat yerində durmur, yeni çağırışlar irəli sürülür, yeni vəzifələr ortaya çıxır. Biz daim çevik diplomatiya aparırıq. Çalışırıq ki, ölkə daxilində olan bütün sosial və iqtisadi məsələləri həll edək. Büdcə xərcləri 12 faizdən çox artmışdır. Digər iqtisadi göstəriciləri artıq qeyd etdim.

1993-cü ildə və ondan sonra inkişafımızın əsas istiqamətləri məhz onun təşəbbüsü ilə müəyyən edilmişdir. İstər xarici, istər daxili siyasətlə bağlı siyasi və iqtisadi islahatlar onun dünyagörüşü, onun fəlsəfəsi və uzaqgörənliyi sayəsində formalaşmışdır. Biz bu istiqamətlər üzrə irəliyə gedirik. Biz bu ana xətdən kənara çıxmırıq, əvvəlki dövrün təcrübəsini təhlil edərək irəli gedirik. Azərbaycan cəmiyyəti də inkişaf edir – müəyyən edilmiş istiqamətlər, strategiya üzrə. Bütün addımlarımız ölçülüb-biçilmiş addımlardır, siyasətimizi vahid strategiya və konsepsiya əsasında qururuq. Bugünkü Azərbaycan reallıqları bir daha sübut edir ki, seçdiyimiz yol düz

yoldur. Bu yolu Heydər Əliyev siyasəti işıqlandırır. Biz bu yola sadiqik. Əminəm ki, bundan sonra da bu yolda bizi ancaq və ancaq uğurlar gözləyir.

* * *

*Sonra dünya memarlığının nadir incilərindən olan Heydər Əliyev Mərkəzindən bəhs edən film nümayiş etdirildi.*

*Filmdə Mərkəzin yaradılması ideyası, bu istiqamətdə həyata keçirilən tədbirlər, prezident İlham Əliyevin rəhbərliyi ilə Bakının rəmzinə çevriləcək nadir memarlıq kompleksinin əhəmiyyətindən bəhs olunur.*

*Əvvəlcə ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətindən bəhs edən videoçarx nümayiş olundu. Daha sonra Heydər Əliyev Fondunun fəaliyyətinin 8 illiyinə həsr olunmuş mərasim keçirildi.*

*Mərasimdə Fondun prezidenti çıxış etdi.*

**Mehriban Əliyeva:** Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar, əziz dostlar!

Sizi səmimi-qəlbdən salamlayır və Heydər Əliyev Mərkəzinin açılışı münasibətilə təbrik edirəm.

Bu gün qapılarını açan bu möhtəşəm memarlıq əsəri böyük insan, dahi şəxsiyyət Heydər Əliyevin unudulmaz xatirəsini yaşadan abidədir. Heydər Əliyev ömrü boyu xalqına, vətəninə sədaqətlə xidmət etmişdir. Müasir Azərbaycanın tarixinin bütün səhifələrində – istər iqtisadiyyat, istər xarici siyasət, istər elm və mədəniyyətdə onun silinməz izlərini görürük. Ölkəmizin bugünkü uğurları, nailiyyətləri, müstəqilliyimizin güclənməsi Heydər Əliyev yolunun və onun azərbaycançılıq ideyasının davamıdır.

Heydər Əliyevin adını daşıyan Fond fəaliyyətə başlayan ilk anlarından daşıdığı yüksək ada layiq olmağa, xalqımıza və ölkəmizə xidmət etməyə, Azərbaycanı dünyada layiqincə təmsil etməyə, humanizm və insansevərlik ideallarına arxalanmağa çalışıb. Bu 8 ildə Fond ölkəmizin ictimai həyatının, demək olar

ki, bütün sahələrində fəal iştirak edib. Fond öz işləri, konkret layihələri ilə hər zaman adi insanların maraqlarını qorumaqla, köməyə ehtiyacı olana kömək etməklə həm Azərbaycanda, həm ölkəmizdən kənarda hörmət və etimad qazanıb.

Ötən il də Fond tərəfindən bir sıra vacib işlər həyata keçirilib. Azərbaycan Respublikasının müstəqilliyinin bərpa olunmasının 20-ci ildönümü münasibətilə Fransa, Rusiya, Almaniya, İtaliya və Vatikanda geniş tədbirlər keçirilib və beynəlxalq ictimaiyyətin diqqəti bir daha Azərbaycanın tarixinə, mədəniyyətinə və incəsənətinə yönəldilmişdir. Fondun dəstəyi ilə İngiltərədə və Fransada baş tutmuş, Almaniyada və İtaliyada keçirilməsi nəzərdə tutulmuş «Bakıya uçuş: Müasir Azərbaycan İncəsənəti» sərgisi Azərbaycan rəssamlarının beynəlxalq miqyasda tanıdılması üçün yeni imkanlar yaradır.

«Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi çərçivəsində Fondun dəstəyi ilə ölkəmizdə məktəblərin, internatların, uşaq evlərinin, bağçaların təmiri və bərpası davam edir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar daim Fondun diqqət mərkəzindədir. Biz humanitar sahədə fəaliyyətimizi genişləndiririk. Sirr deyil ki, müasir dünyada humanitar əməkdaşlıq mövcud problemlərin, münaqişələrin aradan qaldırılmasında, müxtəlif xalqlar arasında qarşılıqlı hörmət və anlaşma yaradılmasında ən vacib vasitələrdən biridir. Buna görə də Fond ötən il bu sahədə bir çox vacib işlər həyata keçirib. Luvr Muzeyinin, İkinci dünya müharibəsi zamanı yanmış və dağıdılmış Berlin qəsrinin, Vatikan arxivlərində qorunan orta əsr əlyazmalarının bərpasında, Haitidə baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılmasında, Afrika «İrs» məktəbinin yaradılmasında Fond çox fəal iştirak edib.

Fond ilk illərdən bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən BMT, YUNESKO, İSESKO ilə çox sıx və uğurlu əməkdaşlıq qurub. birgə layihələrimiz həm Azərbaycanda, həm xaricdə uğurla həyata keçirilir.

Əziz dostlar, bizim yeni ideyalarımız var. Qarşımızda yeni məqsədlər durur və ümidvaram ki, gələcəkdə də bizim bütün

planlarımız həyatda öz reallığını tapacaqdır. Mən bu gün Fondla əməkdaşlıq edən, layihələrdə iştirak edən, bizdən öz dəstəyini əsirgəməyən hər bir kəsə, hər bir təşkilata dərin minnətdarlığımı çatdırıram. Bu günlər hamımız paytaxtımızda keçirilən «Eurovision–2012» mahnı müsabiqəsinin rəsmi başlanmasını gözləyirik. Biz, Heydər Əliyev Fondunun işçiləri fəxr edirik ki, Fondun təşəbbüsü ilə və birbaşa dəstəyi ilə bir neçə il bundan əvvəl ölkəmiz bu müsabiqəyə qatıldı və cəmi 4 ildən sonra bizim istedadlı gənclər Nigar və Eldarın qələbəsi nəticəsində bu mahnı bayramı ölkəmizə gəldi.

Heydər Əliyev Fondu «Eurovision–2012»nin rəsmi tərəfdaşı olaraq bu müsabiqənin ölkəmizdə ən yüksək səviyyədə keçirilməsi üçün bütün səylərini göstərir. Bir neçə gündən sonra şəhərimiz müsabiqənin iştirakçılarını və qonaqlarını salamlayacaq. Onların əksəriyyəti üçün ölkəmizlə ilk tanışlıq olacaq. Ümidvaram ki, şəhərimizə gələn hər bir qonaq Bakının gözəlliyinə, qədim Bakının müasir simasına, Bakının təkrarolunmaz ab-havasına vurulacaq və ən əsası, insanlarımızın, Azərbaycan xalqının qonaqpərvərliyini hiss edəcəklər. Əminəm ki, Bakıda «Eurovision–2012» unudulmaz bir bayrama çevriləcəkdir.

Əziz qonaqlar, bir daha sizi bu gün münasibətilə təbrik edirəm. Ümidvaram ki, Heydər Əliyev Fondu tərəfindən hazırlanmış bu axşam sizə xoş anlar bəxş edəcək. Sizə və yaxınlarınıza cansağlığı, xoşbəxtlik və məhəbbət arzulayıram.

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İndoneziya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 may 2012-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

İndoneziyada «Sukhoi SuperJet-100» təyyarəsinin qəzaya uğraması nəticəsində Rusiya vətəndaşlarının faciəli şəkildə həlak olması xəbəri məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 may 2012-ci il*

## SUDAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ƏLİ ƏHMƏD KARTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Sudan Respublikasının Xarici İşlər naziri Əli Əhməd Kartinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xarici İşlər naziri Əli Əhməd Karti Sudan Respublikasının Prezidenti Ömər Həsən Əhməd əl-Bəşirin məktubunu və salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycan prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gedən sürətli inkişaf proseslərinin böyük təəssürat yaratdığını dedi. Əli Əhməd Karti Azərbaycanın beynəlxalq təşkilatlarda Sudanı dəstəkləməsinə görə minnətdarlığını ifadə etdi.*

*Azərbaycan ilə Sudanın beynəlxalq təşkilatlarda bir-birinə daim dəstək verməsinin önəmini vurğulayan prezident İlham Əliyev bu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə etdi. Dövlətimizin başçısı Sudan Respublikasının Xarici İşlər naziri Əli Əhməd Kartinin ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizin genişləndiriləcəyi işinə xidmət edəcəyinə ümidvar olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev Sudan prezidenti Ömər Həsən Əhməd əl-Bəşirin məktubuna və salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Sudan dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## HEYDƏR ƏLİYEV PROSPEKTİNİN SURAXANI RAYONU ƏRAZİSİNDƏN KEÇƏN HİSSƏSİNDƏ YENİ SALINMIŞ PARKIN AÇILIŞI MƏRASİMİ

*11 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Heydər Əliyev prospektinin Suraxanı rayonu ərazisindən keçən hissəsində yeni salınmış parkın açılışında iştirak etmişdir. Dövlətimizin başçısı ərazinin əvvəlki və hazırkı görkəmini əks etdirən fotolara baxdı.*

*Parkın ərazisi əvvəllər ekoloji cəhətdən yararsız vəziyyətdə olmuşdur. Qrunt sularının səthə çıxması nəticəsində bataqlıq əmələ gəlmişdi. 2006-cı ildə prezident İlham Əliyev həmin əraziyə gələrək gölün qurudulması barədə tapşırıq vermişdi. Göl qurudulduqdan sonra dövlət başçısının tapşırıqlarına əsasən, bu ərazidə park salınmışdır. İndi bu ərazi nəinki Suraxanı rayonunun, eləcə də paytaxtımızın ən gözəl parklarından biridir. Bülbülə qəsəbəsi ərazisində salınmış bu istirahət guşəsində sakinlərin və qonaqların istirahəti üçün bütün lazımi şərait yaradılmışdır.*

*Prezident İlham Əliyevin imzaladığı «Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın icrası nəticəsində bu gün paytaxtımızın görkəmi dəyişir və bütün işlər yüksək keyfiyyətlə aparılır. Heydər Əliyev prospektinin Suraxanı rayonu ərazisindən keçən hissəsində salınmış yeni park Bakının simasını daha da gözəlləşdirməklə bərabər, əhalinin istirahəti üçün sevimli məkanlardan biri olacaqdır.*

# BEYNƏLXALQ VELOSİPEDÇİLƏR İTTİFAQININ PREZİDENTİ PATRİK MAK QUAYD İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti Patrik Mak Quaydı qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkəmizdə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq velosiped turunun keçirilməsinin əhəmiyyətini qeyd etdi, bu beynəlxalq tədbirin təkcə paytaxtı deyil, regionları da əhatə etməsinin önəmini vurğuladı.*

*Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti Patrik Mak Quayd müasir dövrdə velosipedsürmə idman növünə dünyanın müxtəlif ölkələrində marağın getdikcə artdığını dedi, qlobal istiləşmə, iqlim dəyişikliyi, ətraf mühitin qorunması və digər məsələlərin həllində bu idman növünə daha çox üstünlük verildiyini vurğuladı. Patrik Mak Quayd Azərbaycanda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq velosiped turunun keçirilməsinin əhəmiyyətini qeyd etdi.*

**İORDANİYANIN KRALI ƏLAHƏZRƏT
II ABDULLAH İBN AL HÜSEYNƏ**

Əlahəzrət!

Əziz qardaşım!

İordaniyanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə İordaniya arasındakı ənənəvi dostluq münasibətlərinin möhkəmləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın inkişaf etdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş İordaniya xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 may 2012-ci il*

**ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – May İnqilabının ildönümü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Argentina arasında təşəkkül tapmış münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Argentina xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 may 2012-ci il*

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ**

Hörmətli cənab Prezident!

Əziz dostum!

Milli bayramınız – Dövlət Müstəqilliyinin Bərpası Günü münasibətilə Sizi və qardaş Gürcüstan xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Tarixən möhkəm dostluq və mehriban qonşuluq telləri ilə bir-birinə sıx bağlı olan xalqlarımızın yekdil iradəsinə uyğun olaraq bu gün Azərbaycan – Gürcüstan münasibətləri dinamik və hərtərəfli şəkildə inkişaf etməkdədir.

Əminəm ki, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş ikitərəfli münasibətlərimizin dərinləşdirilməsi, regional qurumlar və layihələr çərçivəsində qarşılıqlı dəstək və etimada əsaslanan birgə işimizin müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Gürcüstan xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 may 2012-ci il*

## BOLQARISTAN RESPUBLİKASININ XALQ MƏCLİSİNİN SƏDRİ TSETSKA TSAÇEVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Bolqarıstan Respublikası Xalq Məclisinin Sədri xanım Tsetska Tsaçevanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin zəngin tarixə malik olduğunu qeyd etdi, yüksək səviyyədə təmasların səmərəli nəticələr verdiyini vurğuladı. Prezident İlham Əliyev Bolqarıstan Respublikası Xalq Məclisi Sədrinin səfərini, həmçinin Baş nazir Boyko Borisovun bu yaxınlarda ölkəmizə gəlişini xatırladaraq həmin səfərləri əlaqələrimizin dinamik inkişafının nümunəsi kimi dəyərləndirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında enerji, turizm və digər sahələrdə mövcud olan bir sıra birgə layihələrin önəmini qeyd etdi. Azərbaycan prezidenti parlamentlərarası əməkdaşlığa toxunaraq «Avro-nest» layihəsində iki ölkənin fəal əməkdaşlığından məmnunluğunu ifadə etdi, dost ölkə olan Bolqarıstan ilə ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası əlaqələr sahəsində bundan sonra da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi.*

*Bolqarıstan Xalq Məclisinin Sədri xanım Tsetska Tsaçeva Azərbaycan ilə Bolqarıstan arasında diplomatik əlaqələrin qurulmasının 20-ci ildönümü ərəfəsində Bolqarıstan parlament nümayəndə heyətinin Azərbaycana səfərinin önəmini vurğulayaraq ali qanunverici orqanlar arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Robert Bradtkeni (ABŞ), Jak Foru (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə edilmişdir.*

## RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*15 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştirak etmək üçün mayın 15-də Rusiya Federasiyasının paytaxtı Moskvaya işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

*** * ***

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştirak etmək üçün mayın 15-də Rusiya Federasiyasının paytaxtı Moskvaya işgüzar səfərə gəlmişdir.*

*MDB-nin üzvü olan ölkələrin dövlət bayraqlarının dalğalandığı Vnukovo-2 Beynəlxalq Aeroportunda Azərbaycan prezidentini Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ŞURASININ QEYRİ-RƏSMİ İCLASINDA İŞTİRAK

*Moskva*

*15 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Moskvada keçirilən MDB-nin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştirak etmişdir.*

*Rusiya prezidenti Vladimir Putin Azərbaycan prezidenti İlham Əliyevi və iclasda iştirak edən digər dövlət başçılarını qarşıladı.*

*İclası açan Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Birliyin üzvü olan ölkələrin dövlət başçılarına dəvəti qəbul etdikləri üçün təşəkkürünü bildirdi, qeyd etdi ki, Rusiya MDB ölkələri ilə hərtərəfli əlaqələrə çox böyük önəm verir. MDB-də sədrlik edən Türkmənistan dövlətinin başçısı Qurbanqulu Berdıməhəmmədov isə çıxışında Birlik məkanında müxtəlif sahələrdə əməkdaşlığın sürətləndirilməsinin vacibliyini vurğuladı.*

*İclasda MDB çərçivəsində inteqrasiya proseslərinin inkişafına dair fikir mübadiləsi aparıldı.*

## MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ NİKOLAYE TİMOFTİ İLƏ GÖRÜŞ

*Moskva*
*15 may 2012-ci il*

*Mayın 15-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Moldova Respublikasının Prezidenti Nikolaye Timoftinin görüşü olmuşdur.*

*Əlaqələrimizin müxtəlif sahələrdə inkişafından məmnunluğun ifadə olunduğu görüşdə dövlət başçıları Azərbaycan ilə Moldova arasında enerji, sərmayələrin yatırılması və digər sahələrdə əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğunu qeyd etdilər.*

*Görüşdə ikitərəfli münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.*

## QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ALMAZBEK ATAMBAYEV İLƏ GÖRÜŞ
*Moskva*

*15 may 2012-ci il*

*Mayın 15-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə inkişafından, eləcə də hökumətlərarası komissiyanın fəaliyyətindən məmnunluq ifadə olundu. Qarşılıqlı səfərlərin münasibətlərimizin inkişafına böyük töhfə verdiyi vurğulandı. İkitərəfli faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların mövcud olduğu bildirildi.*

### Səfər başa çatdı

*Moskvada MDB-nin üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 15-də Rusiyaya işgüzar səfəri başa çatmışdır.*

*Moskvanın Vnukovo-2 Beynəlxalq Aeroportunda Azərbaycan prezidentini Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vətənə qayıtmışdır.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ZUĞULBADAKI «XƏZRİ» İSTİRAHƏT VƏ SAĞLAMLIQ MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*16 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Daxili İşlər Nazirliyinin Zuğulbada inşa edilmiş «Xəzri» İstirahət və Sağlamlıq Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov Ali Baş Komandan, prezident İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, 13,5 hektar ərazidə salınan «Xəzri» İstirahət və Sağlamlıq Mərkəzində yeddimərtəbəli əsas korpus, nəzarət-buraxılış məntəqəsi, konfrans bölməsi, idman meydançaları, açıq və qapalı hovuzlar, xüsusi çimərlik sahəsi, ikimərtəbəli kotteclər, dəniz kənarında müxtəlif iaşə obyektləri və digər istirahət guşələri yaradılmışdır. İnşa edilmiş bina və qurğuların ümumi sahəsi 30 min kvadratmetrdir. Mərkəzin su təchizatı məqsədi ilə artezian quyuları qazılmışdır. Həm Mərkəzin qarşısında, həm də sahil boyu ərazidə göz oxşayan geniş yaşıllaşdırma işləri aparılmışdır. Dəniz gəzintisi üçün xüsusi ərazi vardır. «Xəzri» İstirahət və Sağlamlıq Mərkəzi bütün zəruri mühəndis-kommunikasiya və müasir işıqlandırma sistemləri ilə təchiz olunmuşdur. Mərkəzin ərazisindəki yollar da yenidən qurulmuşdur.*

*Mərkəzdə yaradılmış şəraiti yüksək qiymətləndirən prezident İlham Əliyev kollektivi təbrik etdi, uğurlar arzuladı.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA İŞGÜZAR SƏFƏR

*Çikaqo*

*19 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO-nun sammitində iştirak etmək üçün mayın 19-da ABŞ-ın Çikaqo şəhərinə işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısının şərəfinə Çikaqo şəhərinin «O Hare» Beynəlxalq Aeroportunda Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi ABŞ-ın rəsmi şəxsləri qarşıladılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*Çikaqo*

*19 may 2012-ci il*

*ABŞ-da işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Türkiyə Respublikasının Prezidenti Abdullah Gül ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq bildirildi, bu münasibətlərin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Dövlət başçıları ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı ətraflı fikir mübadiləsi apardılar.*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*Çikaqo*

*19 may 2012-ci il*

*NATO-nun sammitində iştirak etmək üçün ABŞ-ın Çikaqo şəhərində işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvili ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan–Gürcüstan əlaqələrinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu, ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## SLOVENİYA RESPUBLİKASININ BAŞ NAZİRİ YANEZ YANŞA İLƏ GÖRÜŞ

*Çikaqo*

*20 may 2012-ci il*

*ABŞ-ın Çikaqo şəhərində işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Sloveniya Respublikasının Baş naziri Yanez Yanşa ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin son dövrlərdə inkişafından məmnunluq ifadə olundu. Azərbaycan–Sloveniya əlaqələrinin iqtisadi, xüsusilə də enerji, sərmayə qoyuluşu sahələrində və müxtəlif layihələrdə birgə iştirakı baxımından əhəmiyyəti qeyd edildi.*

*Tərəflər ölkələrimiz arasında əməkdaşlığın Avropa İttifaqı çərçivəsində daha da genişlənməsinin yaxşı potensialı olduğunu vurğuladılar.*

## BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ BAKİR İZZETBEKOVİÇ İLƏ GÖRÜŞ

*Çikaqo*

*20 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Çikaqoda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzzetbekoviç ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu. İkitərəfli əməkdaşlığın müxtəlif sahələrdə yaxşı nəticələr verdiyi bildirildi və bu əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyi vurğulandı.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ilə bağlı fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYANIN BAŞ NAZİRİ DEVİD KEMERON İLƏ GÖRÜŞ

*Çikaqo*

*21 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Çikaqoda Böyük Britaniyanın Baş naziri Devid Kemeron ilə görüşmüşdür.*

*Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişaf səviyyəsindən məmnunluq bildirildi, bu əlaqələrin daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıqdan gözəl nəticələrin əldə olunduğu qeyd edilən görüşdə bp şirkəti ilə birgə səylər nəticəsində «Cənub Qaz Dəhlizi»nin yaradılması istiqamətində uğurlu addımlar atıldığı və bu prosesin davam etdirildiyi vurğulandı.*

*Bundan əlavə, Əfqanıstanda vəziyyətin yaxşılaşdırılmasına, bu ölkədə sülhün və təhlükəsizliyin təmin olunmasında birgə əməkdaşlığa böyük əhəmiyyət verildiyi qeyd edildi.*

*Görüşdə tərəflər arasında bir sıra regional məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## MONTENEQRO RESPUBLİKASININ BAŞ NAZİRİ İQOR LUKŞİÇ İLƏ GÖRÜŞ

*Çikaqo*

*21 may 2012-ci il*

*Azərbaycan Respublikasının* Prezidenti *İlham Əliyev mayın 21-də Çikaqoda* Monteneqro *Respublikasının Baş* nazi*ri İqor Lukşiç ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf* etdiyi *vurğulandı. Siyasi sahədə əlaqələrimizin möhkəmlənməsinin digər sahələrdə, o cümlədən* iqtisadi *istiqamətdə əməkdaşlığın genişlənməsinə təkan* verdiyi bildirildi.

Energetika, turizm, *nəqliyyat* infrastrukturu *və digər sahələrdə əməkdaşlığın yaxşı perspektivlərinin* olduğu vurğulanan *görüşdə əlaqələrimizin* bundan sonra da *genişlənəcəyinə əminlik ifadə* edildi.

## DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ƏFQANISTAN ÜZRƏ GÖRÜŞÜNDƏ İŞTİRAK

*Çikaqo*

*21 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də ABŞ-ın Çikaqo şəhərində keçirilən NATO-nun sammiti çərçivəsində dövlət və hökumət başçılarının Əfqanıstan üzrə görüşündə iştirak etmişdir.*

*NATO-nun sayca 25-ci sammiti 13 illik fasilədən sonra yenidən ABŞ-da keçirilmişdir. Dünyanın 28 ölkəsinin dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdikləri toplantıda 2014-cü ilin sonunadək beynəlxalq qüvvələrin Əfqanıstandan çıxarılması və bundan sonra ölkədə vəziyyətə nəzarətin milli təhlükəsizlik qüvvələrinə verilməsi ilə bağlı hərəkət strategiyası müzakirə olunmuşdur.*

*Görüşü açan NATO-nun Baş katibi Anders Foq Rasmussen bildirdi ki, bu gün burada Əfqanıstan dövlətinin və əfqan xalqının gələcəyi müzakirə edilir.*

*Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin Əfqanıstandakı fəaliyyətindən danışan NATO-nun Baş katibi qeyd etdi ki, bu qüvvələr terror ilə mübarizədə fəal rol oynamışlar. Hazırda Əfqanıstanda NATO qüvvələrinin səlahiyyətlərinin ölkə polisinə və hərbçilərə həvalə olunması prosesi davam edir.*

*ABŞ prezidenti Barak Obama görüşdə çıxış edərək Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri tərəfindən Əfqanıstanda həyata keçirilən əməliyyatları yüksək qiymətləndirdi və bildirdi ki, alyansın 2 il əvvəl Lissabon sammitində qəbul olunmuş qərarına əsasən, NATO qüvvələrinin səlahiyyətlərinin yerli təhlükəsizlik qüvvələrinə verilməsi prosesinə başlanılmışdır. Əfqanıstanın 75 faiz ərazisinə artıq əfqanlar özləri nəzarət edirlər.*

*Azərbaycan prezidenti İlham Əliyev görüşdə çıxış etdi.*

*Dövlətimizin başçısı Azərbaycanın ilk illərdən Əfqanıstanda sülhün və təhlükəsizliyin təmin olunmasında bütün səylərini ortaya qoyduğunu vurğuladı. Azərbaycanın bu sahədə alyansın ən fəal üzvlərindən biri olduğunu deyən prezident İlham Əliyev bildirdi ki, ölkəmiz Əfqanıstanda öz hərbçilərinin iştirakı ilə sülhyaratma missiyasını davam etdirir. Azərbaycan əfqan hərbçilərinin müxtəlif sahələrdə hazırlanması və treninqlərin keçirilməsi ilə Əfqanıstana öz töhfəsini verir.*

*Prezident İlham Əliyev dedi ki, Azərbaycan Əfqanıstana öz yardımını 2014-cü ilədək davam etdirəcək, lazım gəldikdə ondan sonra da əlindən gələni əsirgəməyəcəkdir.*

**Səfər başa çatdı**

*Mayın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ-ın Çikaqo şəhərinə işgüzar səfəri başa çatmışdır.*

*Azərbaycan dövlətinin başçısını Çikaqonun «O Hare» Beynəlxalq Aeroportunda ABŞ-ın rəsmi şəxsləri yola saldılar.*

* * *

*Mayın 22-də dövlətimizin başçısı Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB CİORCİO NAPOLİTANOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin şimalında baş vermiş zəlzələnin doğurduğu insan tələfatı və ciddi dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 may 2012-ci il*

**SERBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TOMİSLAV NİKOLİÇƏ**

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Serbiya dövlətlərarası münasibətləri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Serbiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 may 2012-ci il*

**YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDURABBİH MƏNSUR HADİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə törədilmiş amansız terror aktı nəticəsində çoxsaylı insan tələfatı xəbəri bizi olduqca sarsıtdı.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərinə qarşı qətiyyətlə mübarizə aparılmasına tərəfdar çıxırıq.

Baş vermiş faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Yəmən xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 may 2012-ci il*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BAMİR TOPİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş ağır avtomobil qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Albaniya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2012-ci il*

## BAKI FUNİKULYORUNUN VƏ AZNEFT MEYDANINDA YERALTI PİYADA KEÇİDİNİN AÇILIŞINDA İŞTİRAK, DƏNİZKƏNARI MİLLİ PARKDA ABADLIQ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*23 may 2012-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 23-də Bakı Funikulyorunun əsaslı təmir və yenidənqurmadan sonra açılışı mərasimində iştirak etmişlər.*

*Son illər paytaxtda həyata keçirilən quruculuq tədbirləri, parkların və xiyabanların abadlaşdırılması, mədəniyyət ocaqlarının müasir tələblər səviyyəsində təmir edilməsi və inşası, nəqliyyat infrastrukturunun əsaslı şəkildə yenidən qurulması Bakını dünyanın inkişaf etmiş şəhərlərindən birinə çevirməkdədir. Paytaxtın gözəlliyinə xüsusi yaraşıq verən, şəhərimizin sakinlərinə və qonaqlarına xidmət göstərəcək Bakı Funikulyorunun əsaslı şəkildə yenidən qurulması da bu istiqamətdə həyata keçirilən məqsədyönlü quruculuq işlərinin davamıdır.*

*Bakı Funikulyoru 1960-cı il mayın 5-də istifadəyə verilmişdir. Funikulyorun ilk vaqonları o zaman xüsusi sifarişlə Ukraynanın Xarkov şəhərində hazırlanaraq gətirilmişdir. İki stansiyadan ibarət funikulyorun vaqonu saniyədə 2,5 metr sürətlə hərəkət edərək bir stansiyadan digərinə 4 dəqiqəyə çatırdı. Vaqonlararası intervalı 10 dəqiqə olan funikulyor saatda orta hesabla 2 min sərnişini daşımaq imkanına malik idi.*

*Dövlətimizin başçısı Bakı Funikulyorunun açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Funikulyorunun əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə yaxından tanış oldular.*

*Görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, funikulyorun aşağı və yuxarı vestibülləri, köhnə relsləri tamamilə təzələnmiş, yeni vaqonlar alınmışdır. Mexaniki*

*və elektron qurğuları tamamilə dəyişdirilmiş funikulyorun hər iki stansiyası şüşədən hazırlanmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva funikulyorla yuxarı stansiyaya qalxdılar.*

*Bakı Funikulyoru ilə tanışlıqdan sonra dövlətimizin başçısı və xanımı Azneft döngəsində, Mikayıl Hüseynov küçəsində inşa olunmuş yeraltı piyada keçidinin açılışında iştirak etmişlər.*

*Azərbaycan prezidenti keçidin açılışını bildirən lenti kəsdi.*

*Nəqliyyat naziri Ziya Məmmədov yeraltı piyada keçidinin texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verdi. Uzunluğu 54, eni 6 metr olan yeraltı keçid Bəhram Gur abidəsi tərəfdən Dənizkənarı Milli Parka və yeni inşa olunmuş Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi istiqamətinə keçən piyadaların rahat gediş-gəlişinin təmin edilməsinə xidmət göstərəcəkdir.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Dənizkənarı Milli Parkda xüsusi memarlıq üslubunda inşa olunmuş Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin fasadına baxdılar, Dənizkənarı Milli Parkın «Venesiya» adlanan ərazisində həyata keçirilən abadlıq və quruculuq işlərinin gedişi ilə maraqlandılar və Bayraq Meydanının yaxınlığında tikilib istifadəyə verilmiş yeni iaşə obyektləri ilə tanış oldular.*

## 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*«Buta» sarayı*

*25 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 25-də «Buta» sarayında 28 May – Respublika Gününə həsr olunmuş rəsmi qəbulda iştirak etmişlər. Salona toplaşanlar Azərbaycan prezidentini hərarətlə qarşıladılar.*

*Azərbaycanın Dövlət himni səsləndi.*

*Dövlətimizin başçısı rəsmi qəbulda nitq söylədi:*

– Hörmətli xanımlar və cənablar!

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm. Hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımız üçün tarixi hadisə idi. Ona görə ki, Azərbaycan xalqı əsrlər boyu arzuladığı müstəqilliyə qovuşurdu. İslam dünyası üçün də tarixi hadisə idi, ona görə ki, ilk dəfə olaraq müsəlman Şərqində demokratik respublika yaranırdı.

Azərbaycan xalqı və dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bakının mərkəzində İstiqlal Bəyannaməsini imzalayan şəxslərin şərəfinə abidə ucaldılmışdır. Bugünkü müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir.

Əfsuslar olsun ki, müstəqilliyimiz çox qısamüddətli oldu. İki ildən sonra Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Ancaq iki il ərzində böyük işlər görüldü. Dövlət atributları qəbul edildi. Dövlət bayrağımız təsdiq edildi. Dahi bəstəkarımız Üzeyir Hacıbəylinin əsəri olan Azərbaycan Dövlət himni qəbul olundu. Digər istiqamətlərdə

müsbət işlər görülmüşdür. Dövlət strukturları yaradılmışdır. Bir sözlə, ölkəyə xas olan bütün atributlar mövcud idi.

Ancaq müəyyən obyektiv və subyektiv səbəblər üzündən müstəqillik uzunmüddətli olmadı və bu 2 il ərzində xalqımız üçün çox ağır hadisə baş vermişdir. Azərbaycanın qədim torpağı olan İrəvan Ermənistana verilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra biz 70 il Sovet İttifaqının tərkibində yaşamışıq. Bu tarixin də həm müsbət, həm mənfi tərəfləri vardır. Əlbəttə, Azərbaycan müstəqilliyini itirmişdi. Biz azad deyildik, azadlıqdan məhrum edilmişdik. Biz məhdud ideoloji çərçivələr içində yaşamışdıq və Azərbaycan xalqı öz taleyinin sahibi deyildi. Ancaq bununla bərabər, müsbət məqamlar da kifayət qədər çox olmuşdur. İlk növbədə, Azərbaycanda savadsızlıqla mübarizə müsbət nəticə verdi. Savadsızlıq kimi böyük bəla aradan qaldırıldı. Elmin inkişafına təkan verildi. Azərbaycanda Milli Elmlər Akademiyası yaradılmışdır və bu gün bizim elmi elitamız sovet dövründə yetişmiş insanlardır.

Xüsusilə keçən əsrin 70–80-ci illərinin əvvəllərində Azərbaycanda sənaye istehsalının inkişafında çox böyük işlər görülmüşdür. Faşizm üzərində Qələbədə Azərbaycan xalqının və Azərbaycanın çox böyük rolu, töhfəsi olmuşdur. 600 mindən çox Azərbaycan vətəndaşı müharibədə iştirak etmişdir. Onlardan yarısı həlak olmuşdur. Azərbaycan neftçiləri ümumi qələbəmizə əvəzedilməz töhfələr vermişlər. Azərbaycan nefti olmasaydı, müharibənin nəticələri şübhə altına düşə bilərdi.

Bir sözlə, sovet dövründə həm müsbət, həm mənfi məqamlar kifayət qədər çox idi. Ancaq bu dövrün də öz inkişaf mərhələləri var idi. Mən xüsusilə ötən əsrin 70-ci illərini qeyd etmək istəyirəm. Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsindən sonra respublikada köklü dəyişikliklər baş vermişdir. O vaxta qədər geridə qalmış respublika idik. Amma ondan sonra inkişaf başladı. Bu inkişaf nəticəsində böyük sənaye potensialı yaradılmışdır ki, bu gün də müstəqil Azərbaycana xidmət edir.

XX əsrin 80-ci illərinin sonlarından ölkəmizə qarşı, Azərbaycana qarşı etnik təmizləmə siyasəti başlamışdır. Azərbaycan çox böyük problemlərlə üzləşmişdir. Əlbəttə ki, mən bu barədə fikirlərimi dəfələrlə bildirmişəm və bu gün də demək istəyirəm, əgər Heydər Əliyev o vaxt xalqımız üçün həlledici məqamlarda Azərbaycanda olsaydı, bir qarış torpaq işğal altına düşməzdi. Əfsuslar olsun ki, o illərdə hakimiyyətdəki insanlar vəzifə borclarını ləyaqətlə yerinə yetirə bilməmişlər və beləliklə, Sovet İttifaqının dağılması ərəfəsində Azərbaycan böyük çətinliklərlə üzləşmişdir. Bizə qarşı elan edilməmiş müharibə başlamışdır. Torpaqlarımız işğal olunmağa başlamışdır. Müstəqilliyimizin ilk illərində, xüsusilə 1992–93-cü illərdə Şuşa, Laçın və Kəlbəcərin işğalı nəticəsində Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı, əlaqə yaranmışdır ki, bu ondan sonrakı müharibə dövrünə də çox mənfi təsir göstərmişdir.

Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçirdi, müstəqil inkişafımız əslində şübhə altında idi. Əgər xalqın iradəsi ilə 1993-cü ildə Heydər Əliyev yenidən artıq müstəqil Azərbaycanın prezidenti kimi hakimiyyətə gəlməsəydi, ölkəmizin gələcək taleyi çox böyük fəlakətlərlə üzləşə bilərdi. 1993-cü ildə bütün xoşagəlməz halların qarşısı alındı, ölkədə sabitlik yarandı, inkişaf başlandı. Dövlətçiliyimizin əsasları qoyuldu və ölkəmizin ümumi inkişaf strategiyası müəyyən edildi. Bu strategiya həm xarici, həm də daxili siyasəti əhatə edirdi. Azərbaycanı müasir, demokratik ölkə kimi görmək ulu öndərin arzusu idi. Onun fəaliyyəti, səyləri nəticəsində bu gün Azərbaycan, sözün əsl mənasında, inkişafda olan, inkişaf edən müasir, dünyəvi, demokratik ölkədir.

1993–2003-cü illərdə dövlətçiliyimizin əsasları qoyulmuş və möhkəmlənmişdir. O illərdə iqtisadi islahatlar başlamışdır, demokratiya inkişaf etmişdir. Mən Heydər Əliyevin neft strategiyasını xüsusilə qeyd etmək istəyirəm. Əgər o vaxt bu cəsarətli və uzaqgörən addımlar atılmasaydı, bizim bugünkü iqtisadi və siyasi inkişafımız tam başqa istiqamətdə gedə bilərdi. O çətin, ağır şəraitdə, hələ ki, müharibənin dayan-

dırılmasının ilk aylarında atılmış cəsarətli və müdrik addım Azərbaycanın bugünkü uğurlu inkişafını şərtləndirir. Heydər Əliyevin neft strategiyası haqqında kifayət qədər elmi əsərlər, məqalələr, kitablar dərc edilmişdir. Mən bu işin içində olan insan kimi, deyə bilərəm ki, bu, müstəqil Azərbaycan üçün həlledici addımlar idi.

O illərdə Azərbaycan böyük beynəlxalq təşkilatların üzvü olmuşdur. Dünya birliyinə inteqrasiyamız başlamışdır. Biz Azərbaycana böyük həcmdə investisiyaların gətirilməsinə nail ola bilmişik. Bir sözlə, dövlətçiliyimizin möhkəm siyasi, iqtisadi və ideoloji əsasları qoyulmuşdur.

İdeoloji əsaslara gəldikdə, Heydər Əliyev siyasətinin mərkəzində azərbaycançılıq məfkurəsi dayanmışdır. Bu gün də bu ideologiya, bu fəlsəfə bizim əsas ideoloji dayağımızdır. Eyni zamanda, «Müstəqil Azərbaycanın müstəqil siyasəti olmalıdır» şüarı o vaxt da aktual idi, bu gün də aktualdır.

Dünya dəyişir. Dünyada cərəyan edən proseslər müxtəlif istiqamətdə inkişaf edir. Ancaq təbiətin ümumi qanunları dəyişmir. Müstəqil ölkə kimi, Azərbaycan bu gün də müstəqil siyasət aparır. Bu müstəqil siyasət ilk növbədə Azərbaycan xalqının iradəsinə əsaslanır. 1993–2003-cü illərdə ölkəmiz böyük, uğurlu yol keçmişdir. Biz ulu öndərin xatirəsinə həmişə böyük hörmətlə yanaşırıq. Onun siyasi xəttinə sadiqik, onun qoyduğu yolla gedirik. Deyə bilərəm ki, müstəqilliyə gedən yol yenə də Heydər Əliyevin adı ilə bağlıdır. Hələ Sovet İttifaqı dövründə ilk dəfə olaraq Naxçıvanda bizim milli üçrəngli bayrağımız Dövlət bayrağı elan edildi. Sovet İttifaqının saxlanmasına yönəlmiş referendum Naxçıvanda keçirilmədi və beləliklə, müstəqilliyə aparan ilk ciddi addımlar atıldı.

Biz 20 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. Keçən il müstəqilliyimizin bərpasının 20 illik yubileyini qeyd etmişik. Bu yubileyi böyük uğurlarla qeyd etmişik. 20 il tarix üçün böyük dövr deyildir, tarix üçün bir andır. Ancaq bu 20 il ərzində ölkəmiz çox uğurla inkişaf etmişdir.

Heydər Əliyev siyasəti davam etdirilir. Siyasi islahatlar davam etdirilir. Bölgədəki mövqelərimiz böyük dərəcədə möhkəmlənmişdir. Bizim təşəbbüsümüzlə həyata keçirilən layihələr həm bizim üçün, həm bu layihələrdə bizimlə bərabər iştirak edən ölkələr üçün böyük səmərə verir. Biz demokratiyanın inkişafına çox böyük əhəmiyyət veririk. Hüquqi dövlət quruculuğu prosesi uğurla gedir. Çox ciddi siyasi islahatlar aparılır. Dünyanın bu sahədə böyük təcrübəyə malik olan ölkələrinin müsbət təcrübəsi öyrənilir və Azərbaycanda tətbiq edilir. Bir sözlə, bizim ictimai-siyasi sahədəki fəaliyyətimiz çox müsbətdir, çox uğurludur.

Ölkədə sabit ictimai-siyasi vəziyyət mövcuddur. Xalqla iqtidar arasında vəhdət vardır. Ölkəmizin ümumi inkişaf yolları haqqında cəmiyyətdə fikir ayrılığı yoxdur. Biz bundan sonra da yalnız və yalnız müstəqilliyimizi gücləndirəcəyik, azərbaycançılıq fəlsəfəsini rəhbər tutacağıq, iqtisadi islahatları davam etdirəcəyik və güclü dövlət yaradacağıq. Bu istiqamətdə artıq böyük addımlar atılmışdır.

Ölkə qarşısında duran əsas vəzifə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, bu istiqamətdə heç bir nəticə yoxdur. Ermənistan uzun illərdir ki, beynəlxalq hüququ kobudcasına tapdalayır, beynəlxalq hüquq normalarına riayət etmir. Dünyanın mötəbər, aparıcı beynəlxalq təşkilatlarının qətnamələrinə əhəmiyyət vermir, məhəl qoymur. Nə hərb, nə sülh vəziyyəti davam edir.

Müharibə hələ bitməyib. Müharibənin birinci dövrü başa çatıbdır. Biz hamımız arzu edirik ki, müharibənin ikinci dövrü başlamasın. Ancaq buna nail olmaq üçün Ermənistan beynəlxalq hüquq normalarına əməl etməli və işğal edilmiş torpaqlardan çıxmalıdır. Bildiyiniz kimi, BMT Təhlükəsizlik Şurasının məsələ ilə bağlı 4 qətnaməsi vardır. Bir neçə gün bundan əvvəl Çikaqoda keçirilən NATO zirvə görüşündə yenə bu məsələ ilə bağlı çox əsaslı və ədalətli qətnamə qəbul edilmişdir, münaqişə ölkələrin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və ərazi bütövlüyü orada yeganə prinsip kimi

göstərilmişdir. ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar münaqişə ilə bağlı kifayət qədər çox qətnamələr, qərarlar qəbul etmişdir. Yəni məsələnin hüquqi müstəvidə həlli üçün əlavə heç bir addıma ehtiyac yoxdur.

Ancaq Ermənistanın qeyri-konstruktiv mövqeyi və indiki vəziyyəti uzatmaq cəhdləri hələ imkan vermir ki, məsələ həllini tapsın. Mən bu barədə dəfələrlə fikrimi bildirmişəm. Biz hər gün, hər an məsələnin həllinə yaxınlaşırıq. Bizi bu günə yaxınlaşdıran amillər həm siyasi, həm iqtisadi və digər sahələrlə bağlıdır. Siyasi sahədə bu gün Azərbaycan bölgənin lider dövlətidir. Bizim kifayət qədər güclü mövqemiz vardır. Dünya birliyində böyük dəstəyimiz vardır. BMT Təhlükəsizlik Şurasına seçilməyimiz dünya birliyinin bizə olan münasibətini göstərir və hazırda Azərbaycan Təhlükəsizlik Şurasına sədrlik edir.

Bölgədə mövqelərimiz möhkəmdir. İqtisadi sahəyə gəldikdə deyə bilərəm ki, Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 80 faizini təşkil edir və bundan sonrakı illərdə bu rəqəm yalnız artacaqdır. Çünki uzunmüddətli inkişaf strategiyamız bizə imkan verəcək ki, növbəti 10 il ərzində – yəni qarşıya belə hədəf qoyulub – ümumi daxili məhsulumuzu 2 dəfə artıraq. Müqayisəedilməz fərq vardır.

Məsələnin həlli üçün, əlbəttə, bütün diplomatik-siyasi imkanlardan istifadə edirik, hərbi gücümüzü də artırırıq. Bu istiqamətdə də böyük addımlar atılmışdır. Təkcə onu demək kifayətdir ki, hazırda Azərbaycanın hərbi xərcləri Ermənistanın bütün dövlət xərclərindən 50 faiz çoxdur. Əlbəttə, həm maddi-texniki təchizatımız böyük dərəcədə yaxşılaşır, həm də ordumuzun peşəkarlığı, döyüş qabiliyyəti artır. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü orduların sırasındadır. Bundan sonrakı illərdə ordu quruculuğuna göstərilən diqqət daha çox olacaq və biz daha güclü orduya malik olacağıq.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün digər vacib amillər də mövcuddur və bu amillər də Azərbaycanın mövqeyini gücləndirir – iqtisadi gələcəyimiz. Biz dəqiqliklə bilirik ki, gələcəkdə bizi nələr gözləyir. Çünki gələcəyimizi biz özümüz yaradırıq. Ermənistan isə gələcəyini başqa ölkələrdən verilən, yaxud da veriləcək və ya verilməyəcək ianələrlə bağlayır. Belə olan halda uzunmüddətli inkişafı proqnozlaşdırmaq mümkün deyildir. Uzunmüddətli inkişafa nail olmaq üçün biz nə qədər işləmişik, nə qədər səfərbərlik işləri aparmışıq, proqramlar qəbul etmişik, layihələr icra etmişik. Yəni uzunmüddətli inkişafa nail olmaq üçün bir neçə il vaxt lazımdır. Bu gün yaranmış bu müsbət inersiya bizi qabağa aparır. Ona görə mən tam məsuliyyətlə deyə bilərəm ki, 10 il bundan sonra Azərbaycanın iqtisadi durumu təxminən necə olacaqdır. Amma Ermənistana gəldikdə, orada, ümumiyyətlə, iqtisadiyyat iflic vəziyyətindədir və heç bir iqtisadi perspektiv yoxdur. Ölkədən kütləvi şəkildə miqrasiya baş verir və əlbəttə, bu, məsələnin – yəni Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün öz rolunu oynayacaqdır.

Uzun illər biz yalnız siyasi, iqtisadi, hüquqi, hərbi amilləri nəzərdən keçirirdik. Deyə bilərəm ki, hazırda demoqrafik amillər də nəzərdən keçirilməlidir. Çünki bu amillər nəinki bizim bölgədə, artıq dünyada ön plana çıxır. Demoqrafik inkişaf, bəzi ölkələrdə müsbət, bəzi ölkələrdə tənəzzülə uğrayan demoqrafik proseslər bu gün təhlil mövzusudur. Azərbaycanda demoqrafik vəziyyət də çox müsbətdir. Əhalimiz artır – 9 milyon 200 mindən çoxdur. Ermənistanda isə əksinə, əhali azalır. Heç şübhə etmirəm ki, biz suverenliyimizi, ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik və vahid Azərbaycan uğurlu inkişafa davam edəcəkdir.

Bir daha demək istəyirəm ki, bu günə qədər görülən işlər belə deməyə əsas verir. Çünki 20 illik tariximiz – əlbəttə, birinci iki ili istisna etmək şərtilə – göstərir ki, Azərbaycan xalqı istedadlı xalqdır. Azərbaycan xalqı zəhmətkeş xalqdır.

Azərbaycan xalqı bu tarixi şansı əldən verməyib. Müstəqillik tarixi bir şans idi. Çünki bizdən əvvəl əsrlər boyu nəsillər gəlib-gedib, əcdadlarımız müstəqillik arzuları ilə yaşayıbdır. Amma bu müstəqilliyi görmək, müstəqilliyi möhkəmləndirmək, müstəqilliyi inkişaf etdirmək bizim nəslə nəsib oldu. Bu, tarixi bir şans idi və Azərbaycan xalqı bu şansı nəinki əldən vermədi, bu müstəqillik dövründən maksimum səmərə ilə istifadə etdi.

Bu gün iqtisadi inkişaf templərinə görə Azərbaycan dünya miqyasında lider ölkədir. Beynəlxalq kredit agentlikləri böyük ölkələrin kredit reytinqlərini aşağı saldığı bir dövrdə, Azərbaycanın kredit reytinqləri qalxır. Azərbaycanda rəqabətqabiliyyətli şirkətlərin sayı artır. Ölkə iqtisadiyyatının şaxələndirilməsi, demək olar ki, təmin edilibdir. Neft-qazdan asılılıq azalır. Özəl sektorun inkişafına böyük dəstək verilir. Hazırda iqtisadiyyatımızın 80 faizi özəl sektorda formalaşır. Əgər neft-qaz yataqlarımızı və yaratdığımız nəqliyyat infrastrukturunu əlavə etsək, görərik ki, gələcəkdə Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcəkdir. Bundan sonrakı dövr üçün, bir daha demək istəyirəm ki, hər bir sahə üzrə konkret proqramlarımız və planlarımız vardır. Bu barədə də bir neçə kəlmə demək istərdim.

Bundan sonra biz ənənəvi olaraq müstəqil xarici siyasəti davam etdirəcəyik. Bu siyasət bizə böyük uğurlar gətirmişdir. Bəzi hallarda bəzi yerli və xarici təhlilçilər əvvəlki dövrdə Azərbaycanın xarici siyasəti ilə bağlı qeyri-real fikirlər səsləndirirdilər. Ancaq həyat onu göstərdi ki, bizim xarici siyasətimiz yeganə düzgün siyasətdir. Əgər belə olmasaydı, gənc dövlətimiz 155 ölkənin etimadını qazanmazdı. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına seçilməyimiz xarici siyasətimizin nə qədər düzgün olduğunun bariz nümunəsidir.

Bundan sonra da bu siyasəti davam etdirəcəyik. Üstünlüyü ikitərəfli əlaqələrə verəcəyik. Bu gün də bu bizim üçün prioritetdir. Qonşularla münasibətlər xüsusi əhəmiyyət daşıyır. Çünki biz bu bölgədə yaşayırıq və əsrlər boyu bu qonşuluqda

yaşamışıq, bu qonşuluqda yaşayacağıq. Hər bir ölkə, o cümlədən Azərbaycan çalışmalıdır ki, qonşularla yaxşı münasibətləri olsun. Ancaq, əlbəttə ki, beynəlxalq hüquq prinsipləri əsasında, bir-birinin işinə qarışmamaq şərti ilə və qarışlıqlı hörmət və etimad əsasında.

Bildiyiniz kimi, biz bu yaxınlarda Qoşulmama Hərəkatına üzv olduq. Bu da böyük təşkilatdır. Bir çox ölkələri əhatə edən təşkilatdır. Bu təşkilat çərçivəsində biz fəaliyyətimizi fəallaşdıracağıq. Bu təşkilatda Azərbaycana qarşı böyük rəğbət, inam vardır. Biz bu vəziyyətdən istifadə edib daha çox dostlar qazanacağıq.

Azərbaycan xalqı və Azərbaycan islam dünyasının ayrılmaz parçasıdır. Bu bizim tariximizdir, bu günümüzdür, ənənəmizdir, milli identifikasiyamızdır. Milli dəyərlərimiz islam dəyərləri əsasında formalaşıbdır. Biz milli dəyərlərimizə çox sadiqik və bu dəyərlər bizim üçün hər şeydən üstündür. Dəfələrlə demişəm və şadam ki, gənc nəsil də milli ruhda böyüyür, milli ruhda tərbiyə alır. Biz Azərbaycan xalqının zəngin milli- mənəvi dəyərlərini, ənənələrini qorumalıyıq, saxlamalıyıq, təbliğ etməliyik. Hər bir Azərbaycan gənci, hər bir Azərbaycan uşağı bu əhval-ruhiyyədə böyüməlidir.

İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bizim çox fəal rolumuz vardır, böyük dəstəyə malikik. Beynəlxalq təşkilatlarda, demək olar ki, müsəlman ölkələrinin mütləq əksəriyyəti Azərbaycanın mövqeyini, Azərbaycan dövlətini birmənalı şəkildə dəstəkləyir. Bildiyiniz kimi, biz də islam həmrəyliyinin gücləndirilməsi üçün əməli addımlar atırıq. Bakıda keçirilən müxtəlif tədbirlər bunun əyani göstəricisidir.

Azərbaycan Avropa strukturlarının, həmçinin Avropa Şurasının üzvüdür, bu təşkilat çərçivəsində fəaliyyət göstərir və əlbəttə ki, bu təşkilat çərçivəsində fəaliyyətimiz davam etdiriləcəkdir. Bütövlükdə, biz bütün ölkələrlə qarşılıqlı hörmət və etimad əsasında bərabərhüquqlu münasibətlər qururuq. Mən çox şadam ki, işğalçı Ermənistan istisna olmaqla, heç bir ölkə ilə ikitərəfli formatda heç bir problemimiz yoxdur.

Hökumətlərarası əlaqələr çox yaxşıdır, müsbətdir. Yenə də deyirəm, bizim BMT Təhlükəsizlik Şurasına üzv seçilməyimiz, bir çox ölkələrdə Azərbaycan haqqında yeni bir təsəvvürün yaranmasına gətirib çıxardı. Çünki 155 ölkənin dəstəyi ilə bu mötəbər, dünyanın bir nömrəli təşkilatına seçilməyimiz, əlbəttə ki, böyük nəticədir. O ki qaldı beynəlxalq təşkilatlara, biz üzv olduğumuz beynəlxalq təşkilatlar qarşısında öhdəliklər götürmüşük. Bu öhdəlikləri vaxtında yerinə yetiririk. Üzv olmadığımız təşkilatlar qarşısında bizim heç bir öhdəliyimiz yoxdur, ola da bilməz. Çünki sadəcə, məntiq onu göstərir, bir halda ki, sən bu təşkilatın üzvü deyilsən, deməli, bu təşkilat qarşısında heç bir öhdəlik daşımırsan.

Bundan sonra da xarici siyasətimiz həmişə olduğu kimi açıq, xoşniyyətli olacaqdır. Ancaq, əlbəttə ki, müstəqil siyasətimiz bundan sonra daha da güclənəcək və biz bölgədə gedən proseslərdə daha da fəal olacağıq. Dünyada gedən proseslərdə də rolumuz artır. Hazırda biz yeni qitələri siyasi, diplomatik cəhətdən özümüz üçün kəşf edirik. Latın Amerikası ilə bizim indi çox gözəl münasibətlərimiz formalaşır. Deyə bilərəm ki, Xocalı faciəsini soyqırımı kimi tanıyan 3 ölkədən 2-si Latın Amerikası ölkəsidir. Meksika, Kolumbiya və Pakistan bizim qardaş ölkələrimizdir. Afrika qitəsindən Azərbaycana çox böyük maraq vardır. Xüsusilə, BMT Təhlükəsizlik Şurasına üzv olandan sonra biz bunu görürük. Bu kontinent bizim üçün də çox maraqlıdır. Yəni xarici siyasətimizi artıq daha da genişləndirəcəyik, iqtisadi terminlə ifadə etsək, şaxələndirəcəyik. Beləliklə, ölkəmizin dünyadakı rolunu bundan sonra böyük dərəcədə artıracağıq.

Daxili siyasətlə bağlı konkret proqramlarımız, qərarlarımız vardır. Biz demokratik inkişafa sadiqik. Azərbaycanda bütün demokratik institutlar fəaliyyət göstərir. Hüquqi dövlət quruculuğu sahəsində böyük uğurlar vardır. Demokratiyanın inkişafı bizim vəzifəmizdir, borcumuzdur. Bu, ilk növbədə Azərbaycan xalqına lazımdır. Bu sahədəki fəaliyyətimizi kiminsə xoşuna gəlmək üçün yox, Azərbaycan xalqının rifah

halını yaxşılaşdırmaq və bütün azadlıqları təmin etmək üçün edirik. Biz bundan sonra da bu siyasətə sadiq olacağıq.

İqtisadi sahə ilə bağlı mənim fikirlərim çıxışlarda, bəyanatlarda, konkret proqramlarda dəfələrlə ifadə olunub. Son illər ərzində Azərbaycanda müşahidə olunan inkişafın dünyada analoqu yoxdur. Ümumi daxili məhsulun 3 dəfə artırılması, yoxsulluğun 5 dəfə aşağı düşməsi, sənaye müəssisələrinin, texnoparkların yaradılması, informasiya-kommunikasiya texnologiyalarının və sair digər sahələrin inkişafı. İqtisadi blokla bağlı konkret istiqamətlər üzrə proqramlar vardır. Mən növbəti illərdə prioritetlər arasında, ilk növbədə informasiya-kommunikasiya texnologiyalarını görürəm. Dünyanın inkişafı bu istiqamətdə gedir. Gələcəkdə bilik, savad ölkələrin dünyadakı yerini daha da böyük dərəcədə müəyyən edəcəkdir. Ona görə bu sahəyə xüsusi diqqət göstərilməlidir. Elm və təhsil sahəsinə xüsusi diqqət göstərilməlidir, bu sahə ön plana çıxmalıdır. Son illər elmin inkişafı və gənclərin təhsili ilə bağlı qəbul edilmiş proqramlar bu məqsədi güdür. İstəyirik ki, gənclərimiz bilikli, savadlı olsunlar. Azərbaycanda elm inkişaf etsin. Elm, bilik, istedad – inkişaf deməkdir. Biz indi başqa ölkələrdə yaradılan elmi dəyərlərdən istifadə edirik. Bu da təbiidir. Çünki biz dünya birliyinin bir hissəsiyik. Ancaq hesab edirəm ki, Azərbaycanda hazırda kifayət qədər güclü elmi potensial vardır. Növbəti illərdə bu potensial daha da güclənəcəkdir, xüsusilə gənclərin hesabına. Azərbaycanda çox güclü gənc elmi elita yaradılmalıdır ki, bu elita Azərbaycanı 20 il, 30 il, 50 il bundan sonra uğurla idarə etsin. Ona görə informasiya-kommunikasiya texnologiyaları, elm, təhsil sahələri növbəti illər üçün prioritet olmalıdır.

Kənd təsərrüfatı, inkişaf etdirilməlidir. Çünki əhalimizin, demək olar ki, yarısı aqrar sektorda çalışır. Bu sahə də prioritetlər sırasındadır. Yəni hər bir sahə prioritetdir. Əgər əvvəlki dövrdə biz prioritetlər deyəndə, ilk növbədə neft-qaz sektorunu nəzərdə tuturduqsa, hazırda bu belə deyildir. Çünki neft-qaz sektorunda qarşımıza qoyduğumuz bütün vəzifələri ləyaqətlə icra etmişik.

Çoxşaxəli ixrac infrastrukturumuz, 7 neft-qaz kəmərimiz vardır. Neftimiz, qazımız bütün istiqamətlər üzrə dünya bazarlarına çıxarılır. Biz, demək olar ki, enerji sahəsində işlərin böyük əksəriyyətini görmüşük. Bundan sonra, əlbəttə, bizim yeni fikirlərimiz, təşəbbüslərimiz vardır. Bu təşəbbüslər daha çox bizim tərəfdaşlarımız üçün lazımdır, vacibdir. Bizə də lazımdır. Burada maraqların üst-üstə düşməsi müsbət haldır. Artıq enerji sahəsi ilə – həm neft, həm qaz, həm elektrik enerjisinin generasiyası ilə bağlı, demək olar ki, əsas məsələlər öz həllini tapmışdır.Nəqliyyat sahəsində dünya üçün və əlbəttə, bizim üçün çox vacib olan Yeni İpək yolunun – Bakı–Tbilisi–Qars dəmir yolunun istismarına başlayacağıq. Beləliklə, Azərbaycanı dünya miqyasında tranzit mərkəzə çevirəcəyik. Bu isə onilliklər, əsrlər bundan sonra ölkəmizə həm siyasi, eyni zamanda, iqtisadi dividentlər gətirəcəkdir. Bu layihənin təşəbbüskarı da biz olmuşuq. Gələcək inkişafımızla bağlı bir daha demək istəyirəm ki, hər bir sahə üzrə konkret planlarımız vardır. Bugünkü imkandan sadəcə olaraq, istifadə edib bəzi fikirlərimi ifadə etmək istərdim.

Bütövlükdə, Azərbaycanın 20 illik tarixi göstərir ki, bu 20 il ərzində çox şey etmək olar. Bu gün xoş niyyətlə Bakıya gələn hər bir qonaq Bakının gözəlliyinə heyran olur. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bu barədə dəfələrlə demişəm və hər dəfə də bunu böyük qürur hissi ilə deyirəm. Bəlkə də gün gələcək deyəcəyik ki, Bakı dünyanın ən gözəl şəhəridir. Bizim qonaqlarımız – xüsusilə, bu günlərdə çoxsaylı qonaqlarımız əsas iki məqamı – Bakının təkrarolunmaz gözəlliyini və insanların xoş ovqatda olmasını, qonaqlara olan mehriban münasibətini qeyd edirlər. Bu iki amil bir-biri ilə bağlıdır. Vaxt var idi ki, bizim Dənizkənarı bulvarda heç kimi görmək mümkün deyildi. Dağılmış yollar, sındırılmış işıq dirəkləri, çürümüş dəmirlər və s. Bu gün on minlərlə insan asudə vaxtını Bakı bulvarında keçirir. Bu gözəlliyi, inkişafı görərkən haqlı olaraq qürur hissi keçirir ki, Azərbaycan vətəndaşıdır.

Bizim bu illər ərzindəki ən böyük uğurumuz ondan ibarətdir ki, müstəqillik yolundan dönməmişik. Müstəqillik sadəcə

olaraq, dövlət atributu deyildir. Müstəqillik həm də o deməkdir ki, ölkə müstəqil siyasət apara bilir, yoxsa yox. Xüsusilə, böyük olmayan ölkələr üçün bu daha aktualdır. Xüsusilə, böyük güc mərkəzlərinin maraqlarının kəsişdiyi bir coğrafi məkanda yerləşən ölkələr üçün bu aktualdır. Bu məkanda, bu qonşuluqda təbii sərvətlərlə zəngin olan Azərbaycan müstəqil siyasət aparır və aparacaqdır. Bizim təcrübəmiz onu göstərir ki, bu mümkündür.

Əgər sənin ləyaqətli siyasətin, kifayət qədər cəsarətin və ölkə üçün, ölkənin gələcəyi üçün aydın strategiyan varsa, bunu etmək mümkündür.

Bu gün Azərbaycan müstəqil ölkə kimi inkişaf edir. Bizim inkişafımızdan, əlbəttə ki, Azərbaycan vətəndaşları, dostlarımız bəhrələnir. İyirmi illik tariximiz bir daha onu göstərir ki, biz düz yoldayıq. Bundan sonra da Azərbaycanın müstəqilliyi əbədi olacaqdır, bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcəkdir. Hamımız elə etməliyik ki, bu yol işıqlı, nurlu, açıq olsun.

* * *

*Sonra 2012-ci il üçün Azərbaycan Respublikasının elm sahəsi üzrə Dövlət mükafatının təqdim edilməsi mərasimi oldu.*

*Qarabağın, Naxçıvanın və İrəvan xanlığının tarixinə dair silsilə əsərlərə görə tarixçi-alimlər Yaqub Mahmudov, Süleyman Məmmədov, Nazim Mustafayev, Göhər Məmmədova, Hacı Həsənov, İsrafil Məmmədov, Vidadi Umudlu, Səidə Hacıyeva və Nigar Gözəlovaya Dövlət mükafatları təqdim edildi.*

*Göstərdiyi yüksək diqqət və qayğıya görə dövlətimizin başçısına ölkəmizin elmi ictimaiyyəti adından minnətdarlığını çatdıran Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov dedi:*

– Hörmətli cənab Prezident!

Xalqımız üçün son dərəcə əziz olan Respublika Gününün qeyd olunduğu bu təntənəli mərasimdə bir qrup tarixçi alimə, o cümlədən də mənə Dövlət mükafatının təqdim olunması Sizin ölkəmizdə elmin inkişafına, akademiyamıza, Tarix İnstitutuna

göstərdiyiniz gündəlik qayğının daha bir parlaq təzahürüdür. Bu ali mükafatı zəmanəmizin böyük dövlət xadimi olan Sizin əlinizdən aldığımız üçün qürur hissi keçirir, unudulmaz anlar yaşayırıq. Zati-aliləri, Sizin müdrik, uzaqgörən tövsiyələriniz və konkret tapşırıqlarınızla Tarix İnstitutunda əsaslı islahatlar aparılır. Milli tariximiz saxtalaşdırmalardan, təhriflərdən təmizlənir, vətənimizin tarixi yenidən yazılır, həqiqətdə olduğu kimi yazılır. Dünyanın müxtəlif ölkələrindən qiymətli ilk mənbələri, çoxsaylı arxiv sənədlərini institutumuza gətirib nəşr etdiririk. Sizə güvənərək, arxalanaraq tarixdə ilk dəfə olaraq Azərbaycanımızın «Milli Tarix Atlası»nı hazırlayıb nəşr etdirdik. Zati-alinizin birbaşa tapşırığı ilə bu gün Dövlət mükafatına layiq görülən «Qarabağ: real tarix, faktlar, sənədlər», «Naxçıvan: tarixi və abidələri», «İrəvan xanlığının tarixi» fundamental tədqiqatlar yazıldı və xarici dillərə tərcümə olunaraq dünya ölkələrində yayıldı. İndi bizim əsərlərimiz Azərbaycan ilə yanaşı, dünyanın onlarla ölkəsində, şəhərində nəşr olunur.

Mən bu təntənəli mərasimdə bəyan etməyi özümə borc bilirəm ki, bu gün Milli Elmlər Akademiyasının Tarix İnstitutunda aparılan köklü islahatlar, bütün fundamental araşdırmalar, milli tariximizin dirçəldilməsi prosesi bilavasitə prezident İlham Əliyevin rəhbərliyi və tapşırıqları ilə həyata keçirilir. Bir faktı isə xüsusi olaraq vurğulamaq istəyirəm: Azərbaycan xalqının qatili və soyqırımı cəlladı olan Stepan Şaumyanın və onun əlaltılarının məzarlarının paytaxtımızın mərkəzindən ümumşəhər qəbiristanlığına köçürülməsi ilə dövlətimizin başçısı milli tariximiz qarşısında çox böyük xidmət göstərdi. Çünki Prezidentin bu cəsarətli addımı nəticəsində həmin məzarlıqda 26 deyil, 23 cəsədin qalıqları aşkar olundu və bununla illərlə xalqımıza yalan satan bolşevik-daşnak saxtakarlığının üstü açıldı. Məlum oldu ki, Stepan Şaumyan və Tatevos Amiryan kimi soyqırımı qatillərinin cəsədləri həmin məzarlıqda yoxdur. Prezidentimizin tarix qarşısındakı bu xidməti bugünkü təntənəli mərasimin həsr

olunduğu Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə də dərin ehtiram nümunəsidir.

Dövlətimizin başçısının tövsiyə və tapşırıqları ilə əldə olunan ən mühüm və təkzibolunmaz elmi nəticələrdən biri də budur ki, erməni toplumunun Azərbaycan torpaqlarına vur-tut 180 il bundan əvvəl köçürülüb gətirildiyi qəti olaraq ilk mənbələrdən sübut olundu.

Möhtərəm Prezident, cənab Ali Baş Komandan!

Bu gün Azərbaycan tarixçiləri Sizin çağırışınız, tapşırığınız və tövsiyələrinizlə erməni təcavüzkarlarına qarşı informasiya müharibəsi aparır. Bizim hamımız, o cümlədən bu gün təltif olunan tarixçilər Sizin əsgərlərinizik. Sizin çağırışınızla biz tariximizi saxtalaşdıranlara qarşı açıq döyüşə girmişik. Siz bütün çıxışlarınızda əməyimizə, mübarizəmizə yüksək qiymət verirsiniz. Bu günlərdə Tarix İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi barədə verdiyiniz tarixi sərəncam imkanlarımızı genişləndirdi, gücümüzü daha da artırdı. Fürsətdən istifadə edərək, yüksək qayğıya görə tarixçi alimlərin ən dərin minnətdarlığını da Zati-alinizə yetirirəm. Əmin ola bilərsiniz ki, lap yaxın gələcəkdə Sizə informasiya müharibəsindəki uğurlarımız barədə yeni-yeni qələbə raportları verəcəyik. Biz buna əminik. Çünki arxamızda Sizin kimi müdrik, müdrik olduğu qədər də cəsarətli və qətiyyətli Ali Baş Komandan durub. Şübhə etmirik ki, artıq bütün dünyada qurucu prezident kimi şöhrət qazanan və Azərbaycan tarixinin «Qurucu İlham» səhifələrini yazan Siz lap yaxın gələcəkdə Qarabağımızı düşmən tapdağından azad edərək Azərbaycan tarixinə xilaskar prezident kimi daxil olacaqsınız.

Əziz Prezidentimiz, bu çətin dünyada apardığınız müqəddəs Vətən mücadiləsində Sizin həmkarlarınız olan tarixçilər hər zaman yanınızda olacaqlar. Azərbaycan elminə, alimlərimizə, akademiyamıza göstərdiyiniz gündəlik qayğıya və layiq gördüyünüz mükafata görə çox sağ olun. Sizə çox minnətdarıq.

# AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORT İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefortu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## «EUROVİSİON–2012» MAHNI MÜSABİQƏSİNİN FİNAL MƏRHƏLƏSİNDƏ İŞTİRAK

*«Baku Crystal Hall»*

*27 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri möhtəşəm «Baku Crystal Hall»a gələrək «Eurovision–2012» mahnı müsabiqəsinin final mərhələsini izləmişlər.*

*Bakının ev sahibliyi etdiyi «Eurovision–2012» mahnı müsabiqəsinin final mərhələsi başa çatmışdır. İsveçli 28 yaşlı müğənni Loren 42 ölkənin səs verməsi nəticəsində «Eyforiya» mahnısı ilə «Eurovision–2012»nin qalibi olmuşdur.*

*Artıq 57-ci ildir ki, davam edən «Eurovision» mahnı müsabiqəsinin ən çox gözlənilən mərhələsi məhz yarışmanın final günüdür. İki yarımfinaldan finala vəsiqə qazanmış və müsabiqənin əsas beşliyi, həmçinin ötənilki yarışmanın qalibi Azərbaycanın da birbaşa iştirak etdiyi «Eurovision–2012» mahnı müsabiqəsinin ən maraqlı və həyəcanlı məqamı şübhəsiz ki, qalibin adının açıqlanacağı gün idi. Final günü «Baku Crystal Hall»a ardı-arası kəsilməyən insan axını da məhz bununla əlaqədar idi. Artıq iki həftə idi ki, Avropa musiqisevərlərinin və tamaşaçılarının diqqəti müasirliyi, sürətli inkişafı və gözəlliyi ilə çoxsaylı qonaqlarını valeh edən, hər bir turistə xoş anlar yaşadan Odlar yurdu Azərbaycanın paytaxtı Bakıya yönəlmişdi.*

*Nəhayət, mayın 26-da Bakı vaxtı ilə saat 00:00-da müsabiqənin səbirsizliklə gözlənilən final mərhələsi başlandı. Avropa möhtəşəm final şousunun açılışı mərasimində Azərbaycanın rəngarəng milli musiqisi ilə bir daha tanış oldu.*

*«Eurovision–2012» mahnı müsabiqəsinin finalı Azərbaycanın qədim milli musiqi aləti balabanda həzin ifa ilə başladı. Tamaşaçıları sülh rəmzi olan ağ geyimlərdə salamlayan şounun*

*aparıcıları – Leyla, Eldar və Nərgiz Azərbaycan, ingilis, fransız və alman dillərində Avropaya səsləndilər.*

*Final şousu Azərbaycanın dünya şöhrətli muğam ustası, Xalq artisti Alim Qasımovun möhtəşəm ifası ilə davam etdi. «Natiq» ritm qrupunun unudulmaz ifası, həmçinin «Eurovision–2011»in qalibləri Eldar Qasımov və Nigar Camalın «Running Scared» mahnısı hər kəsə gözəl anlar bəxş etdi.*

*Sonra finalda birincilik uğrunda mübarizə aparan 26 ölkənin – Böyük Britaniya, Macarıstan, Albaniya, Litva, Bosniya və Herseqovina, Rusiya, İslandiya, Kipr, Fransa, İtaliya, Estoniya, Norveç, Azərbaycan, Rumıniya, Danimarka, Yunanıstan, İsveç, Türkiyə, İspaniya, Almaniya, Malta, Makedoniya, İrlandiya, Serbiya, Ukrayna və Moldovanın təmsilçilərinin hər biri üç dəqiqə ərzində möhtəşəm şou nümayiş etdirdi.*

*«Eurovision» mahnı müsabiqəsinin qaydalarına əsasən, müsabiqənin finalından bir gün əvvəl münsiflər səs verirlər. Final şousu başa çatanadək gizli saxlanılan münsiflərin verdiyi səslər müsabiqənin yekununda tamaşaçı səsləri ilə toplanır.*

*Səsvermə intervalı aktında iyirmi altı ölkənin təmsilçilərinin final şousundakı çıxışlarının ən maraqlı məqamları bir daha nümayiş olundu. Beləliklə, iştirakçı ölkələr səs verməyə başladılar.*

*Səsvermə prosesinin davam etdiyi müddətdə «Baku Crystal Hall»un səhnəsinə 68 musiqiçi heyəti ilə tanınmış azərbaycanlı bəstəkar və müğənni Emin Ağalarov çıxdı. «Never Enough» mahnısı ilə bütün Avropa qarşısında çıxış edən Emin Ağalarov səsvermə zamanı yaşanan həyəcanı maraqlı ifası ilə yumşaltmağa müvəffəq oldu.*

*Nəhayət, müsabiqənin səsvermə prosesi dayandırıldı və həm tamaşaçıların, həm də münsiflər heyətnin səslərinin toplanmasına başlanıldı.*

*Beləliklə, 42 ölkənin iştirak etdiyi səsvermə prosesində «Baku Crystal Hall»a ilk olaraq Albaniya qoşuldu. İştirakçı ölkələrin əksəriyyətinin mühüm hesab edilən 8, 10, 12 səslərini İsveçə verməsi çoxlarını təəccübləndirmədi. Çünki müsabiqənin*

*ilk günlərindən məhz İsveçin qələbəsinə inananlar çox idi. Bununla da ən çox səs qazanan İsveç təmsilçisi Loren müsabiqənin qalibi oldu.*

*Azərbaycan isə «Eurovision–2012» mahnı müsabiqəsində dördüncü yerdə qərarlaşdı. Ukrayna, Malta, Litva, Türkiyə ən yüksək – 12 səsini, Gürcüstan, Moldova, Bolqarıstan, İsrail 10 səsini, Kipr isə 8 səsini Azərbaycanın hesabına yazdırdı.*

*Azərbaycandan verilən səslərin nəticələrini 2010-cu ildə Norveçdə keçirilən «Eurovision» mahnı müsabiqəsində ölkəmizin təmsilçisi olmuş Səfurə Əlizadə elan etdi. Səfurə Azərbaycanın 8 səsi Maltaya, 10 səsi Rusiyaya, 12 səsi isə qardaş Türkiyəyə verdiyini elan etdi. Səsverməyə sonuncu İrlandiya qoşuldu. Bununla da 372 səs alan İsveç müsabiqənin birincisi oldu. Rusiya ikinci, Serbiya üçüncü, Azərbaycan isə dördüncü yerləri tutdular.*

*Müsabiqənin qaydalarına əsasən, qalib ölkənin təmsilçisi yenidən «Eurovision»un əsas səhnəsinə çıxaraq ona birincilik qazandırmış mahnısını bir daha ifa etdi. Möhtəşəmliyi ilə dünyanı heyran qoyan «Baku Crystal Hall»un səhnəsində İsveç təmsilçisini «Eurovision–2011»in qalibləri Eldar və Nigar təbrik edərək, ona yarışmanın rəmzi «Büllur mikrofon»unu təqdim etdilər.*

*Daha sonra qalib ölkənin təmsilçisi «Baku Crystal Hall»un Mətbuat mərkəzində jurnalistlərlə görüşdü, onların suallarını cavablandırdı. Loren «Eurovision–2012» mahnı müsabiqəsinin yüksək səviyyədə təşkil edildiyini, «Baku Crystal Hall»un möhtəşəm, Bakının gözəl şəhər, azərbaycanlıların qonaqpərvər və istiqanlı olduğunu dedi.*

*Azərbaycanın ev sahibliyi etdiyi «Eurovision–2012» mahnı müsabiqəsinin bütün şouları 46 ölkədə birbaşa yayımlanmışdır.*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*28 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Respublika Günü münasibətilə paytaxtın İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət etmişdir.*

*Abidənin ətrafında Fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

**HEYDƏR ƏLİYEV VƏ ZİYA BÜNYADOV PROSPEKTLƏRİNİN KƏSİŞMƏSİNDƏKİ YOL QOVŞAĞININ ÜÇÜNCÜ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ**

*28 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Bakının Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişməsində, metronun «Koroğlu» stansiyasının yaxınlığında yerləşən müxtəlif səviyyəli yol qovşağının üçüncü kompleksinin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı yol qovşağının texniki göstəricilərini, paytaxtda təmir olunacaq yollar və prospektləri əks etdirən stendlərə baxdı.*

*Qeyd edildi ki, aeroport istiqamətindən gələn nəqliyyat vasitələrinin 8-ci Kilometr, Əhmədli, «Günəşli» yaşayış massivləri və Zığ dairəsi – aeroport magistral avtomobil yoluna birbaşa hərəkətini təmin etmək üçün inşa olunmuş üçüncü kompleksin asma dayağının hündürlüyü 93 metr, körpüdəki yolun hərəkət hissəsinin eni isə 9 metrdir.*

*Prezident İlham Əliyev üçüncü kompleksin açılışını bildirən rəmzi lenti kəsdi, körpüdən ətraf əraziyə baxdı. Bildirildi ki, inşası tam başa çatdırılan üçkompleksli bu qovşaq aeroport, Qara Qarayev, 20 Yanvar prospektləri, 8-ci Kilometr yaşayış massivi, Bakıxanov qəsəbəsi, paytaxtın mərkəzi istiqamətlərində avtomobillərin sərbəst və təhlükəsiz hərəkətini təmin etməklə, ərazidə tıxac probleminin həllinə imkan yaradacaqdır.*

*Prezident İlham Əliyev nəqliyyatçılara və inşaatçılara uğurlar arzuladı.*

**QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT
ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ**

Əlahəzrət!

Doha şəhərindəki ticarət mərkəzində baş vermiş yanğın nəticəsində çoxlu sayda insanın, xüsusən də uşaqların həlak olması xəbəri məni olduqca sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Qətər xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 may 2012-ci il*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏR

*30 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.*

*Naxçıvan Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və digər rəsmi şəxslər qarşıladılar.*

*Dövlətimizin başçısı Fəxri qarovul dəstəsinin önündən keçdi.*

*Azərbaycan prezidenti Naxçıvan Muxtar Respublikasının rəhbər şəxsləri ilə görüşdü.*

## Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

## Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının açılışı mərasimi

*Prezident İlham Əliyev mayın 30-da akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı poliklinikanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məlumat verdi ki, ölkəmizin digər bölgələrində olduğu kimi, Naxçıvanda da səhiyyə sistemi özünün ən uğurlu inkişaf dövrünü yaşayır. Muxtar respublikadakı səhiyyə ocaqları ən son tələblərə cavab verən avadanlıqla təchiz edilib. Burada son*

*illərdə müasir tələblər səviyyəsində yaradılan tibb ocaqlarından biri də akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasıdır.*

*Bildirildi ki, bu səhiyyə ocağı 1921-ci ildə Naxçıvan Şəhər Xəstəxanasının nəzdində yaradılmış və ambulatoriya kimi fəaliyyətə başlamış, 1930-cu ildə isə Mərkəzi poliklinikaya çevrilmişdir. 1972-ci ildə şəhər xəstəxanasından ayrılaraq Naxçıvan Şəhər Poliklinikası kimi fəaliyyət göstərmişdir. Poliklinika 1990-cı ildən görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyır.*

*Ümummilli lider Heydər Əliyev 1990-cı və 1999-cu illərdə poliklinikada olmuş, Zərifə xanım Əliyeva guşəsinin və büstünün açılışı mərasimində iştirak etmişdir.*

*Diqqətə çatdırıldı ki, son vaxtlar bu səhiyyə ocağı tamamilə yenidən qurulmuşdur. Poliklinikanın altımərtəbəli binasında yüksək keyfiyyətli tibbi xidmətin göstərilməsi üçün hər cür şərait yaradılmışdır.*

*Foyedə akademik Zərifə xanım Əliyevanın büstü qoyulmuş, həyat və fəaliyyətini əks etdirən maraqlı fotolar, həmçinin tanınmış insanların görkəmli oftalmoloq-alim haqqında söylədikləri fikirlər yer almışdır. Zərifə xanım Əliyeva haqqında kitablar da böyük maraq doğurur.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, binanın beşinci və altıncı mərtəbələrində yeni yaradılmış stomatoloji mərkəz fəaliyyət göstərir. Burada on kabinet, əməliyyat və rentgen otaqları və protez diş laboratoriyaları vardır. Mərkəz 10 stomatoloji qurğu, panorom rentgen, diş rentgeni, müxtəlif avtoklav və sterilizatorlar, lazer müalicə cihazı, diş müayinəsi, cərrahi, fanton masa dəsti və digər avadanlıqla təchiz edilmişdir. Burada 12 həkim, 19 orta tibb işçisi və 20 kiçik tibb işçisi çalışır.*

*Binanın zirzəmi qatı ilə birlikdə beş mərtəbəsində poliklinika yerləşir. Poliklinikada iki terapiya, cərrahiyyə, rentgen, laboratoriya, ümumilikdə 5 şöbə fəaliyyət göstərir. Burada oftalmoloq, nevroloji, ginekoloji, fizioterapiya, stomatoloji,*

*kardioloji, revmatoloji, ultrasəslə müayinə, lor, travmatoloji, yoluxucu xəstəliklər, profilaktik müayinə və herontoloji kabinetləri vardır. Poliklinikanın binasında aptek, bufet, iclas zalı və tədris-təlim otaqları da yaradılmışdır.*

*Qeyd olundu ki, poliklinikada Naxçıvan şəhərinin 66,2 min sakininə xidmət göstərən 12 sahə terapevti fəaliyyət göstərir. Poliklinikaya laboratoriya üçün avtoanalizatorlar, rentgen, elektrokardioqrafiya, ultrasəslə müayinə aparatları, lor və cərrahiyyə üçün müayinə, binokulyar lupa, oftalmoskop və digər zəruri avadanlıq verilmişdir. Burada 37 həkim, 56 orta tibb işçisi və 31 kiçik tibb işçisi vətəndaşlara xidmət göstərir.*

*Tibb ocağında yaradılan şəraitlə tanış olan prezident İlham Əliyev poliklinikanın kollektivi ilə xatirə şəkli çəkdirdi.*

## Naxçıvan Şəhər Gömrük İdarəsinin inzibati binasının açılışı mərasimi

*Mayın 30-da Azərbaycan prezidenti İlham Əliyev Naxçıvan Şəhər Gömrük İdarəsinin inzibati binasının açılışında iştirak etmişdir.*

*Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin rəisi general-leytenant Asəf Məmmədov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Naxçıvan Şəhər Gömrük İdarəsi 2001-ci ildə yaradılmışdır. Qurum bu vaxtadək uyğunlaşdırılmış binada fəaliyyət göstərmişdir. Tikintisinə ötən il başlanılan Naxçıvan Şəhər Gömrük İdarəsinin inzibati binası ən müasir avadanlıqla təchiz edilmişdir.*

*Üçmərtəbəli bina gömrük orqanlarının tanınma nişanında əksini tapan açar formasında inşa olunmuşdur. Burada xidməti otaqlar, server və tədris otaqları, arxiv vardır. Müşahidə otağında quraşdırılan 22 nəzarət kamerası ilə eyni vaxtda müşahidə aparmaq mümkündür. Binadakı iclas, konfrans və akt*

*zalları da müasir tələblər səviyyəsində yaradılmışdır. Elektron lövhələr, proyektorlar və digər informasiya texnologiyaları qurğuları ilə təchiz edilən bu zallarda müxtəlif beynəlxalq görüşlərin, seminarların və tədbirlərin keçirilməsi üçün geniş imkanlar vardır. İnzibati binada gömrük sahəsində hüquqpozmalara qarşı mübarizə, texniki nəzarət vasitələri, həmçinin statistika və informasiya texnologiyaları bölmələri yerləşir.*

*Dövlətimizin başçısına inzibati binanın birinci mərtəbəsində yaradılan avtonəqliyyat vasitələrinin rəsmiləşdirilməsi bölməsindəki şərait barədə məlumat verildi. Bildirildi ki, avtonəqliyyat vasitələrinin rəsmiləşdirilməsi «bir pəncərə» prinsipi ilə həyata keçiriləcəkdir. Bölmədə gömrük işçiləri, brokerlər, dövlət yol polisinin və notariat xidmətinin əməkdaşları fəaliyyət göstərir. Bundan başqa, burada bank filialı vardır və post-terminal quraşdırılmışdır. Bölmədə yaradılan şərait vətəndaşa cəmi 20 dəqiqə ərzində avtomobilinin rəsmiləşdirilməsini tam yerinə yetirməyə imkan verir. Bu, ilk növbədə insanların rahatlığı, digər tərəfdən isə şəffaflıq baxımından böyük əhəmiyyət kəsb edir. Bölmədəki xüsusi məlumat köşkündə isə vətəndaşlar gömrük bəyannaməsi yaza, çap edə və gömrük ödənişlərinin identifikasiya nömrəsi, qanunvericilik aktları barədə Azərbaycan, ingilis və rus dillərində ətraflı məlumat əldə edə bilərlər.*

*Diqqətə çatdırıldı ki, idarənin gömrük rəsmiləşdirilməsi və nəzarəti şöbəsi də müasir tələblər səviyyəsində qurulmuşdur. Kompleksdə operativliyin və şəffaflığın təmini üçün müraciət edən şəxslərin qəbulu ardıcıllığının müəyyən olunmasına xidmət edən elektron növbə sistemi və «infoköşk» yaradılmışdır. Bu köşkdə vətəndaşlar bəyanetmə və rəsmiləşdirməni elektron formada həyata keçirə bilərlər. Bu bölmənin fəaliyyəti də «bir pəncərə» prinsipi ilə aparılır. Burada gömrük işçiləri ilə bərabər, brokerlər, baytarlıq, fitosanitar və karantin xidmətlərinin əməkdaşları da vətəndaşlara xidmət edəcəklər.*

*Prezident İlham Əliyev idarənin laboratoriyası ilə tanış oldu. Bildirildi ki, yeni inşa olunmuş gömrük laboratoriyası da*

*ən yüksək standartlara cavab verir. İkimərtəbəli binada laborator analizlərin götürüləcəyi ayrıca bölmələr və xidməti otaqlar inşa olunmuşdur. İkinci mərtəbədə laborator analizlərin aparılacağı spektrometriya, atom absorbsiya, nümunə və mühitlərin hazırlanması, bakterioloji əkin, inkubasiya, mikroskopiya, avtoklavlama və yuma, xromatoqrafiya, radioloji, fiziki-kimyəvi tədqiqat otaqları, mikrobioloji laboratoriya fəaliyyət göstərir. Burada Cənubi Qafqazda yeganə olan geni dəyişdirilmiş malların təyini və mikrobioloji laboratoriyası yaradılmışdır. Avropanın və ABŞ-ın aparıcı şirkətlərinin istehsalı olan avadanlıqlarla təchiz edilən laboratoriyalar beynəlxalq sertifikata malikdir.*

*Naxçıvan Şəhər Gömrük İdarəsində yaradılan şəraitdən razılığını bildirən prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.*

## Sement zavodunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev mayın 30-da muxtar respublikaya səfəri çərçivəsində Naxçıvan Sement zavodunun açılışında iştirak etmişdir.*

*Müəssisənin kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Azərbaycan prezidenti əvvəlcə zavodun sxeminin, istehsal prosesinin, xammal və hazır məhsulların nümayiş olunduğu stendə baxdı.*

*Məlumat verildi ki, son illər Naxçıvan Muxtar Respublikasında yenidənqurma və tikinti işləri geniş vüsət aldığından inşaat materiallarına da tələbat getdikcə artır. Bu baxımdan yeni sement zavoduna kəskin ehtiyac yaranmışdır. Müəssisənin inşası məqsədilə mütəxəssislər əvvəlcə təbii sərvətlərlə zəngin olan muxtar respublikada sement istehsalı üçün xammal mənbələrinin müəyyən edilməsi məqsədilə geoloji axtarış işlərinə başlamışlar. Müvafiq yataqlar aşkar olunduqdan və xammalın tərkibi öyrənildikdən sonra Kəngərli rayonunda 150,6 hektar ərazidə yeni sement zavodu tikilmişdir. Nəticədə son 20 ildə muxtar res-*

*publikada investisiya qoyuluşuna görə ən böyük layihələrdən biri reallaşdırılmışdır.*

*Prezident İlham Əliyev düyməni basaraq müəssisəni işə saldı. Sonra avtobusla zavodun ərazisini gəzdi. Məlumat verildi ki, müəssisədə istehsal sahələri, xammal və hazır məhsulun saxlanması üçün anbarlar, inzibati və iaşə binaları istifadəyə verilmişdir. Burada kompleks abadlıq və yaşıllaşdırma tədbirləri reallaşdırılmışdır. Müasirliyi ilə diqqəti cəlb edən yeməkxanada hər cür şərait yaradılmışdır. Müəssisənin elektrik enerjisi ilə etibarlı təchizatı üçün ayrıca 110-35-10 kilovoltluq yarımstansiya quraşdırılmışdır. Naxçıvan–Sədərək magistralından zavoda iki kilometr uzunluğunda asfalt-beton örtüklü yeni avtomobil yolu çəkilmişdir. Naxçıvan Sement zavodu Azərbaycanın sənaye potensialının daha da möhkəmləndirilməsinə böyük töhfədir.*

*Qeyd edildi ki, zavod ən müasir standartlara cavab verir. «Naxçıvan Sement» MMC-nin məhsulları muxtar respublikada inşaat sektorunun tələbatını tam ödəməklə yanaşı, xarici bazarlara da ixrac olunacaqdır. Tezliklə bu müəssisə regionun sement bazarında əhəmiyyətli yer tutacaqdır.*

*Bildirildi ki, zavodun ətrafında geniş abadlıq və yaşıllaşdırma işləri görülmüş, 12 hektar ərazidə 18 mindən çox müxtəlif növ ağac əkilmişdir. Müəssisənin ətraf mühitə mənfi təsirinin azaldılması da diqqət mərkəzində saxlanılmış, burada dünya standartlarına cavab verən müvafiq avadanlıq quraşdırılmışdır.*

*Prezident İlham Əliyevə bildirildi ki, yenicə fəaliyyətə başlamasına baxmayaraq, artıq zavodun məhsulları Avropa tələblərinə uyğun «CE» keyfiyyət nişanına layiq görülmüşdür. Beynəlxalq ekspertlər qiymətləndirmə zamanı zavodda quraşdırılan avadanlığın və keyfiyyətə nəzarət cihazlarının müasirliyi, əməyin və ətraf mühitin mühafizəsinə maksimum həssaslıqla yanaşılmasını əsas götürürlər. Zavodda istehsal xəttinə daxil olan xammal, qatqı maddələri, istehsal edilən klinkerin, sementin fiziki və kimyəvi keyfiyyətinə nəzarət müasir avadanlıqla təchiz olunmuş laboratoriyada həyata keçirilir. Bununla yanaşı, saatda bir dəfə istehsal xəttindən nümunələr alınaraq kimyəvi, fiziki və mexaniki analizlər aparılır.*

*Həmin analizlərin nəticələri zavodun arxivində saxlanılmaqla yanaşı, istehlakçılara da təqdim olunur. Zavodun yüksək keyfiyyəti ilə seçilən məhsulları Bakıda, ölkəmizin rayonlarında və Gürcüstanda artıq satışa çıxarılmışdır. Yaxın vaxtlarda müəssisədə yeni növ məhsulların istehsalı, eləcə də yerli və beynəlxalq keyfiyyət sertifikatlarının alınması nəzərdə tutulmuşdur.*

*Naxçıvan Sement zavodu ilə yaxından tanış olan prezident İlham Əliyev müəssisənin kollektivinə uğurlar arzuladı.*

## Fövqəladə Hallar Nazirliyinin inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin inzibati binasının açılışında iştirak etmişdir.*

*Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar naziri, general-mayor Şamo Abdullayev Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev mülki müdafiə üçün nəzərdə tutulmuş sinif otaqlarında yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, səkkizmərtəbəli binanın ümumi sahəsi 7592,2 kvadratmetrdir. Burada 103-ü xidməti, 56-sı isə yardımçı olmaqla, 159 otaq vardır. Fövqəladə hallar zamanı vəziyyətin idarə olunması ilə bağlı təlimatlar verilir, əyani vəsaitlərdən istifadə qaydaları öyrədilir.*

*Sonra dövlətimizin başçısına binada yaradılan Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin «112» qaynar telefon xidmətilə bağlı məlumat verildi. Burada quraşdırılmış ən müasir avadanlıq fövqəladə hallar zamanı vaxtında məlumatın alınmasını təmin edir.*

*Azərbaycan prezidenti Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin zalı ilə də tanış oldu. Bildirildi ki, bu Mərkəzin istifadəyə verilməsi fövqəladə halların qarşısının alınmasında*

*daha səmərəli nəticələrin əldə olunmasına geniş imkanlar yaradır.*

*Daha sonra prezident İlham Əliyev nazirliyin həyatində nümayiş etdirilən texnikaya baxdı. Yeni inzibati Mərkəzdə yaradılmış şəraiti yüksək qiymətləndirən dövlətimizin başçısı kollektivə uğurlar arzuladı, tapşırıq və tövsiyələrini verdi.*

## KƏNGƏRLİ RAYONUNDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ADINI DAŞIYAN MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKI İLƏ TANIŞLIQ

*30 may 2012-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 30-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Kəngərli rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı rayonun mərkəzində ulu öndər Heydər Əliyevin adını daşıyan Mədəniyyət və istirahət parkında ümummilli liderin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

## RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*30 may 2012-ci il*

Biz 2 il əvvəl də sizinlə görüşmüşdük. 2 il əvvəl ulu öndərin abidəsinin açılışında bərabər idik. Mən çox şadam ki, bu iki il ərzində Kəngərli rayonunda böyük işlər görülmüşdür. Gözəl Mərkəz yaradılmış, yeni inzibati binalar tikilmişdir, indi fərdi evlər də tikilməkdədir. Gözəl Mədəniyyət evi tikilmişdir. Kəngərli rayonunun inzibati mərkəzi artıq yaradılmış və böyük dərəcədə inkişaf etmişdir. Bu məni çox sevindirir. Çünki Naxçıvan Muxtar Respublikasının hər bir tərəfində, hər bir rayonunda sürətli inkişaf gedir və getməlidir.

Son illər ərzində muxtar respublika böyük və şərəfli yol keçmişdir. Bu gün həm Naxçıvan şəhərində, həm də Kəngərli rayonunda bir sıra tədbirlərdə iştirak etmişəm. Günortadan sonra isə Culfa rayonunda bir sıra tədbirlərdə iştirak edəcəyəm. Bu tədbirlər çoxşaxəlidir, bütün sahələri əhatə edir. Hər bir yerdə, hər bir rayonda sürətli inkişaf gedir və respublikanın qarşısında duran bütün vəzifələr uğurla icra edilir. Həm sosial-iqtisadi inkişafla bağlı məsələlər həll olunur, həm də biznes mühitinin yaxşılaşdırılması üçün tədbirlər görülür. Bu dinamika, bu inkişaf muxtar respublikanın iqtisadi göstəricilərində də öz əksini tapıbdır. Keçən ilin yekunlarına görə həm sənaye, həm kənd təsərrüfatı istehsalı, həm də ümumi daxili məhsul artmışdır. Bu məni çox sevindirir. Naxçıvanın Azərbaycanda xüsusi yeri vardır. Bu, muxtar respublikadır, qədim Azərbaycan torpağıdır. Burada işlər yaxşı getdiyi üçün bunun ümumi işimizə böyük təsiri və töhfəsi vardır.

Bu gün gözəl Mədəniyyət evinin açılışında toplaşmışıq. Bir neçə il əvvəl Naxçıvanda Heydər Əliyev adına möhtəşəm Mədəniyyət Mərkəzinin açılışında iştirak etmişdik. İndi isə Kəngərli rayonunda Mədəniyyət evinin açılışında iştirak edirik.

Bu, böyük rəmzi məna daşıyır. Çünki bir neçə il əvvəl Kəngərli rayonu inzibati ərazi kimi mövcud deyildi. Bir neçə il əvvəl Vasif Talıbov belə təşəbbüslə çıxış etmişdi. Mən bu təşəbbüsü təkcə kağız üzərində deyil, əməldə dəstəklədim və qısa müddətdə rayon yaradıldı. Bu gün rayonun artıq inzibati Mərkəzi var. Bu Mərkəz böyüyəcəkdir və əminəm ki, gələcək illərdə Kəngərli rayonunda bundan da gözəl və yaxşı işlər görüləcək. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm, Kəngərli rayonunun və Naxçıvan Muxtar Respublikasının bütün sakinlərinə yeni uğurlar arzu edirəm.

**M i n a r ə B a y r a m o v a** *(Qarabağlar kənd 2 saylı orta məktəbin müəllimi):* Möhtərəm Prezident! Bu gün biz Azərbaycanın hər bir bölgəsində müşahidə olunan sürətli inkişafın şahidiyik. Bütün bunların kökündə ulu öndər Heydər Əliyevin yoluna, siyasi və nəzəri irsinə sədaqət dayanır. Muxtar respublikanın ən gənc rayonu olan Kəngərli 8 il əvvəl Sizin tərəfinizdən yaradılmışdır. Sizin muxtar respublikamıza hər səfəriniz rayonumuzda da yeni sosial obyektlərin istifadəyə verilməsi ilə əlamətdar olmuşdur.

2010-cu ildə ulu öndər Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsinin və Kəngərli rayon ərazisindən keçən Naxçıvan–Sədərək avtomobil yolunun açılışında iştirak etmiş və rayonumuzda aparılan quruculuq işlərini yüksək qiymətləndirmişdiniz.

Möhtərəm Prezident! Sizin həyata keçirdiyiniz siyasi xətt Azərbaycan xalqının iradəsinə söykənir. Biz bu siyasi xəttə sadiqik və inanırıq ki, Sizin rəhbərliyiniz altında doğma Azərbaycanımız daha da inkişaf edib çiçəklənəcəkdir.

* * *

*Daha sonra Azərbaycan prezidenti parkın ərazisində inşa olunmuş Kəngərli Rayon Mədəniyyət evinin açılışını bildirən lenti kəsdi.*

*Bildirildi ki, Mədəniyyət evinin binası müasir görkəmi ilə diqqəti cəlb edir. Sahəsi 1743 kvadratmetr olan ikimərtəbəli binanın inşası zamanı milli ornamentlərdən də geniş istifadə olunmuşdur. Son illərdə Azərbaycanda mədəniyyətin inkişafı və təbliği ilə bağlı həm ölkə rəhbərliyi, həm də Heydər Əliyev Fondu tərəfindən mühüm tədbirlər həyata keçirilir. Kəngərli Rayon Mədəniyyət evinin inşası mədəni irsimizin inkişafı istiqamətində bölgələrdə də xeyli işin görüldüyünü təsdiq edir.*

*Dövlətimizin başçısı binada yaradılmış şəraitlə yaxından tanış oldu.*

*İkimərtəbəli binanın foyesində prezident İlham Əliyevin 2010-cu ilin oktyabrında Kəngərli rayonuna səfəri ilə bağlı fotoşəkillərdən ibarət guşə yaradılmışdır. Birinci mərtəbədə inzibati otaqlarla yanaşı, 286 yerlik tamaşa zalı vardır. Burada müasir işıqlandırma sistemi və işıq effektləri yaradan xüsusi sistem quraşdırılmışdır. Binanın ikinci mərtəbəsində 6 inzibati otaq fəaliyyət göstərir. Bundan əlavə, binada dekorasiya otağı və istirahət guşəsi yaradılmışdır. Mədəniyyət evinin binası müasir havalandırma sistemi ilə təchiz olunmuşdur.*

*Daha sonra Azərbaycan prezidenti ulu öndər Heydər Əliyevin adını daşıyan Mədəniyyət və istirahət parkında yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, 5 hektar ərazini əhatə edən parkda əhalinin mənalı istirahəti üçün hər cür şərait yaradılmış, yaşıllıqlar salınmış, dekorativ ağac və gül kolları əkilmişdir. Burada fəvvarə, müasir dizaynda oturacaqlar quraşdırılmış və istirahət guşələri, uşaq oyun parkı inşa edilmişdir. Maraqlı attraksionlar, əyləncəli oyunlar uşaqların istirahətinin ən yüksək səviyyədə təşkilinə imkan verir. Parkda müasir işıqlandırma və suvarma sistemləri yaradılmışdır.*

## Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsində qərargah binasının açılışı mərasimi

*Prezident İlham Əliyev mayın 30-da Kəngərli rayonunda Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsində qərargah binasının açılışında iştirak etmiş, əsgər yataqxanası, yeməkxanası və məişət kompleksi ilə tanış olmuşdur.*

*Naxçıvan qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Hərbi hissənin ərazisi ilə tanış olan Ali Baş Komandana məlumat verildi ki, qərargahın üçmərtəbəli yeni binası bütün lazımi avadanlıqla təchiz olunmuşdur. Hərbi hissənin ərazisində geniş yaşıllaşdırma və abadlıq işləri aparılmışdır. Şəxsi heyətin hərbi vətənpərvərlik ruhunun gücləndirilməsi məqsədilə bütün lazımi tədbirlər həyata keçirilmişdir.*

*Dövlətimizin başçısı qərargah binasının rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılan şəraitlə tanış oldu.*

*Qərargahın birinci mərtəbəsinin foyesində hərbi hissənin döyüş bayrağı mühafizə olunur. Burada hərbi hissənin zabit heyəti üçün iş otaqları və istirahət guşəsi yaradılmışdır. Qərargahın ikinci mərtəbəsində hərbi hissənin döyüş yolunu əks etdirən guşə də vardır. Bu mərtəbədə ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının coğrafi vəziyyətinin strateji əhəmiyyəti barədə fikirlərini əks etdirən stend quraşdırılmışdır. Stenddə ümummilli liderin 1999-cu ilin oktyabrında bu hərbi hissədə olması ilə bağlı fotoşəkillər nümayiş etdirilir.*

*Qərargahın üçüncü mərtəbəsinin foyesində isə Prezident, Ali Baş Komandan İlham Əliyevin ölkəmizin ordu quruculuğu sahəsinə diqqət və qayğısını əks etdirən fotoguşə yaradılmışdır. Burada hərbi hissənin zabit heyəti üçün təlim sinifləri də fəaliyyət göstərir. Bu siniflərdə taktiki və planlaşdırma proqramları, döyüş əmrlərinin icrası ilə bağlı təlimlər keçirilir.*

*Sonra dövlətimizin başçısı hərbi hissənin əsgər yataqxanasında yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, beşmərtəbəli binada əsgərlərin istirahəti üçün hər cür şərait vardır. Birinci mərtəbədə əsgərlərin döyüş ruhunun yüksəldilməsi məqsədilə Azərbaycanın xalq qəhrəmanlarının və tarixi abidələrimizin şəkilləri nümayiş etdirilir. Burada, həmçinin silah otağı, dəftərxana və digər inzibati otaqlar yerləşir. Əsgərlərin şəxsi bacarığının üzə çıxarılması məqsədilə yaradılan guşələrdə isə onların yaradıcılıq nümunələri, divar qəzeti və hərbi qaydalar haqqında stendlər asılmışdır. İdeoloji otaqda isə hərbçilərin mənəvi-psixoloji vəziyyətinin yüksəldilməsi, vətənpərvərlik ruhunun artırılması məqsədilə dərslər keçirilir.*

*Sonra prezident İlham Əliyev hərbi hissənin həyatində nümayiş olunan silah-sursat və hərbi texnikaya baxdı. Əsgər yeməkxanasında yaradılan şəraitlə tanış oldu. Binanın ikinci mərtəbəsindəki əsgər yeməkxanasında şəxsi heyətin yüksək kalorili qida ilə təminatı üçün hər cür şərait yaradılmışdır. Binada ayrıca çörək sexi, ərzaq və əşya anbarları, emalatxana, camaşırxana və qazanxana yerləşir. Hərbi hissənin ərazisində ayrıca xəstəxana da fəaliyyət göstərir.*

*Hərbi hissədə yaradılan şəraitlə tanış olan dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verdi.*

## NAXÇIVAN–CULFA MAGİSTRAL AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*30 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da muxtar respublikaya səfəri çərçivəsində Naxçıvan–Culfa magistral avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə yolun texniki-iqtisadi göstəriciləri ilə bağlı məlumatları əks etdirən stendlə tanış oldu.*

*Məlumat verildi ki, Azərbaycan prezidentinin tapşırıqlarına əsasən, regionlarda yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması istiqamətində silsilə tədbirlər həyata keçirilir. Muxtar respublikada əsas strateji magistrallardan olan Naxçıvan–Culfa yolunun tikilməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir.*

*Bildirildi ki, uzunluğu 32,4 kilometr olan yol asfalt-beton örtüklüdür. Yolun torpaq hissəsinin eni 25, asfalt hissəsinin eni isə 17,2 metrdir. Dördzolaqlı yolun üzərində 103 suötürücü qurğu inşa olunmuşdur. İpək yolunun bir hissəsi olan Naxçıvan–Culfa magistralının çəkilməsi muxtar respublikaya yükdaşımaların həcminin artmasına geniş imkan yaradır.*

*Prezident İlham Əliyev Naxçıvan–Culfa magistral yolunun rəmzi açılışını bildirən lenti kəsdi.*

## NAXÇIVAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*30 may 2012-ci il*

Əziz dostlar, sizin hamınızı Naxçıvan–Culfa magistral avtomobil yolunun açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Bu yolun tikilməsi Naxçıvan Muxtar Respublikasında gedən böyük quruculuq işlərinin bir hissəsidir. Naxçıvan, sözün əsl mənasında, inkişaf edir. Naxçıvanda bütün sahələrdə çox uğurlu inkişaf prosesi gedir. Dinamik inkişafdır. Bütün iqtisadi göstəricilərimiz çox yaxşıdır. Sənaye istehsalı artır, yeni müəssisələr açılır. Ümumi daxili məhsul artır. Bu gün Naxçıvanda bir neçə yeni obyektin açılışında iştirak edərkən bir daha gördüm ki, hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir.

Bu məni çox sevindirir. Çünki bu, Heydər Əliyev siyasətinin təntənəsidir. Ulu öndərin rəhbərliyi altında ölkəmiz böyük inkişaf yolu keçmişdir. Bu gün bütün sahələrdə, bütün bölgələrdə və o cümlədən Naxçıvanda Heydər Əliyev siyasəti uğurla icra edilir. Bu siyasət milli maraqlarımızın müdafiə edilməsi üçün yeganə düzgün siyasətdir. Ölkəmizin dinamik inkişafı göstərdi ki, bu siyasətə alternativ yoxdur.

Biz iki gün bundan əvvəl Respublika Gününü qeyd etdik. Keçən il müstəqilliyimizin bərpasının 20 illik yubileyini keçirdik. Mən bu tədbirlərdə iştirak edərkən bir fikri daim vurğulayıram ki, müstəqilliyə gedən yol Heydər Əliyevin rəhbərliyi ilə məhz Naxçıvanda başlamışdır. Məhz onun sədrliyi ilə Naxçıvanın Ali Məclisinin sessiyasında müasir tariximizdə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət bayrağı kimi təsdiq edilmişdir və Azərbaycanın Milli Məclisinə müraciət edilmişdir ki, milli bayrağımızı Dövlət bayrağı kimi təsdiq etsin.

Məhz Naxçıvanda ulu öndərin rəhbərliyi ilə aparılan siyasət nəticəsində Naxçıvanın ərazi bütövlüyü təmin edilmişdir. Erməni düşmənləri Naxçıvana da göz dikmişdilər və Naxçıvanın işğalı onların planlarında var idi. Heydər Əliyevin qətiyyəti və müdrikliyi bu planları alt-üst etdi. Bu gün Naxçıvan sürətlə inkişaf edir.

O vaxt Sovet İttifaqının saxlanmasına dair Azərbaycanda referendum keçirilmişdi. Ancaq Naxçıvanda Heydər Əliyev buna imkan verməmişdi. Azərbaycanın müasir siyasi sistemi məhz Naxçıvanda yaradılmışdır. 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması, demək olar ki, müasir siyasi sistemin yaradılmasına təkan vermişdir. Yəni bu gözəl bayram günlərində bir daha tarixə nəzər salaraq görürük ki, ulu öndərin Azərbaycan xalqı, Azərbaycan dövləti üçün nə qədər böyük xidmətləri olmuşdur.

Bu gün ölkəmizin hər bir yerində quruculuq, abadlıq işləri gedir. Ölkəmiz inkişaf edir. İnkişaf templərinə görə Azərbaycan dünyada lider ölkədir. Avropada maliyyə və iqtisadi böhran davam edir. Ancaq Azərbaycanda bu böhranın əsər-əlaməti yoxdur. Böhranın ən ağır aylarında, illərində belə, Azərbaycan inkişaf edibdir. Bütün beynəlxalq reytinq agentlikləri Azərbaycanın reytinqlərini qaldırırlar. İqtisadi inkişaf sürətlidir. Qeyri-neft sektorunun inkişafı böyük rəqəmlərlə ölçülür. İlin birinci rübündə qeyri-neft sənayemiz 16 faizdən çox artmışdır. Bu onu göstərir ki, şaxələndirmə siyasəti öz məntiqi nəticələrini verməkdədir.

Bundan sonrakı illərdə də Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcəkdir. Biz son 8 il ərzində ümumi daxili məhsulumuzu 3 dəfə artıra bilmişik. Növbəti 10 il ərzində daha 2 dəfə artırmalıyıq. Xüsusilə qeyri-neft sektorunun hesabına. Buna nail olmaq üçün hazırda böyük proqramlar hazırlanır. Bu məsələ ilə bağlı konkret tapşırıqlar verilmişdir və bütün bölgələrdə inkişaf, quruculuq, abadlıq işləri aparılır.

O ki qaldı Naxçıvana, siz – burada yaşayan insanlar yaxşı görürsünüz və bilirsiniz ki, muxtar respublika necə dəyişir, necə

gözəlləşir. Naxçıvan Azərbaycanın qədim torpağıdır, Azərbaycanın ayrılmaz hissəsidir. Naxçıvanın bütün daşları, bütün abidələri Azərbaycan tarixinə, Azərbaycan mədəniyyətinə məxsusdur.

Mən çox şadam ki, qədim Naxçıvan bu gün yeniləşir, yenidən qurulur, gözəl binalar tikilir, xiyabanlar salınır. Bu yolun açılması Naxçıvanda böyük yol-nəqliyyat layihələrinin icrasının təzahürüdür. Biz iki il bundan əvvəl Naxçıvan–Sədərək avtomobil yolunun açılışını qeyd etmişik. Gözəl, dördzolaqlı, rahat yoldur. İndi Naxçıvan–Culfa magistral yolunun açılışını qeyd edirik. Bu arada Naxçıvan dairəvi yolu tikilibdir. Beləliklə, Naxçıvan tranzit mərkəzə çevrilməkdədir. Naxçıvan blokada şəraitində yaşayır. Ancaq naxçıvanlılar bu blokadanı hiss etmirlər. Çünki həm Naxçıvanın rəhbərliyi çox böyük işlər görür, həm də Azərbaycan dövləti hər zaman olduğu kimi, Naxçıvana böyük diqqət göstərir. Naxçıvanın respublika qarşısında duran vəzifələri icra etmək üçün bütün imkanları vardır.

Növbəti dövrlərdə Naxçıvanın yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi üçün əlavə tədbirlər görüləcəkdir. Yeni yol layihələri icra edilir. İndi kənd yollarına üstünlük verilir. Çünki magistral yollara gəldikdə onların, demək olar ki, bütün parametrləri icra edilir. Kənd yollarının tikintisi növbəti illərdə başa çatmalıdır. Beləliklə, həm magistral, həm dairəvi, həm də kəndləri, bütün yaşayış məntəqələrini birləşdirən yollar yüksək səviyyədə olmalıdır.

Naxçıvanda digər infrastruktur layihələri uğurla icra edilir. Naxçıvan 100 faiz qazlaşdırılıbdır. Elektrik enerjisi ilə təchizat çox yaxşıdır. Vaxtilə zülmət içində yaşayan insanlar indi o günləri sadəcə olaraq, ağır günlər kimi xatırlayırlar. Hazırda Naxçıvan elektrik enerjisi ixrac edən diyardır.

Bütün respublikada, şəhər və rayon mərkəzlərində içməli su və kanalizasiya layihələri icra edilir. Bu layihələrin gələn ilin sonuna qədər başa çatması nəzərdə tutulur. Beləliklə, su-kanalizasiya problemləri birdəfəlik öz həllini tapacaqdır. Təhsil,

səhiyyə ilə bağlı məsələlər öz həllini tapır. Bu gün biz Naxçıvan Şəhər Poliklinikasının açılışını qeyd etmişik. Əvvəlki dövrlərdə diaqnostika mərkəzi, doğum mərkəzi, rayonlarda yeni xəstəxanaların açılışı ilə bağlı tədbirlər keçirilmişdir. Naxçıvan Şəhər Xəstəxanasının yenidən qurulması layihəsi artıq işlənilir. Belə təşəbbüs irəli sürülüb. Mən bu təşəbbüsü dəstəkləyirəm. Əminəm ki, naxçıvanlılar şəhər xəstəxanasını da yüksək səviyyədə təmir etdirəcəklər.

Bu gün hərbi hissədə olarkən Naxçıvanın potensialının nə qədər böyük olduğunu bir daha görmək olar. Son illərdə çoxlu silah-sursat, texnika gətirilmişdir, hava hücumuna qarşı qurğular yerləşdirilmişdir, müasir artilleriya qurğuları gətirilmişdir. Tanklar, zirehli maşınlar, helikopterlər, yəni Naxçıvanın döyüş qabiliyyəti, döyüş potensialı çox yüksək səviyyədədir.

Kənd təsərrüfatının inkişafı ilə bağlı konkret proqramlar icra edilir. Naxçıvan özünü əsas ərzaq məhsulları ilə təmin edir. Bu da ərzaq təhlükəsizliyi məsələlərinin həlli üçün çox vacibdir. İnşaat materialları, demək olar ki, artıq daxili imkanlar hesabına formalaşır. Bu gün sement zavodunun açılışını qeyd etmişik. Bu məni çox sevindirir. İndi Bakıda, ondan sonra qərb bölgəsində sement zavodları tikilir. Naxçıvan Sement zavodu sementə olan ehtiyacı tam şəkildə ödəməyə imkan verəcək və idxaldan asılılıq aradan qaldırılacaqdır.

Burada hər bir sahədə gözəl inkişaf var. Naxçıvan gözəlləşir, yaşıllaşır, abadlaşır. Hər tərəf göz oxşayır, hər tərəfdə böyük zövqlə binalar tikilir. Bütün bu işlər onu göstərir ki, bu işləri görən insanlar doğma xalqına, doğma diyarına qəlbən bağlıdırlar.

Əsas məsələ Vətən sevgisidir. İqtisadi imkanlar böyük də olar bilər, o qədər böyük olmaya da bilər. Əgər Vətən sevgisi varsa, məhdud iqtisadi imkanlarla da çox iş görmək olar. Şadam ki, naxçıvanlıların vətənə bağlılığı həmişə olduğu kimi, çox yüksək səviyyədədir. Bu ideyalar, azərbaycançılıq fəlsəfəsi, dövlətçiliyə olan sədaqətimiz bizi irəliyə aparır.

Şübhə etmirəm ki, növbəti illərdə də Naxçıvan Muxtar Respublikası qarşısında duran bütün vəzifələr uğurla icra ediləcəkdir. Bütün infrastruktur, sosial, iqtisadi və sənaye layihələri, proqramları icra ediləcək, Naxçıvan daha da gözəl, daha da güclü olacaqdır. Bu işlərdə sizin hamınıza uğurlar arzu edirəm. Sağ olun.

**V a s i f  T a l ı b o v** *(Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri):* Möhtərəm Prezident! Bu gün Azərbaycan özünün intibah dövrünü yaşayır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş bu intibah Sizin rəhbərliyinizlə uğurla davam və inkişaf etdirilir.

Ulu öndərimizin şah əsəri olan müstəqil Azərbaycan hazırda lider dövlətə çevrilmişdir. Qısa müddətdə əldə olunan uğurların, inkişafın Azərbaycan modelinin bir səbəbi ulu öndər Heydər Əliyev yoluna sədaqətdirsə, əsas səbəblərdən biri də bu yolu müasir reallıqları nəzərə alaraq davam etdirən qurucu rəhbərin mövcudluğudur. Azərbaycan ümummilli liderimizdən sonra əldə etdiyi bütün möhtəşəm nailiyyətlərə görə prezident İlham Əliyevə borcludur.

Bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, o sahə üzrə hərtərəfli əsaslandırılmış inkişaf proqramı olmasın. Qəbul olunmuş proqramların mühüm elementlərindən biri də regionların sosial-iqtisadi inkişafı ilə bağlıdır. Hələ hakimiyyətinin ilk illərindən bölgələrin inkişafı olmadan Azərbaycanın inkişafının mümkün olmadığını bildirən dövlətimizin rəhbəri tövsiyə etmişdir ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etməli, hər bir rayon mərkəzi müasir standartlara cavab verməli, genişmiqyaslı abadlıq işləri aparılmalı, yollar, körpülər salınmalı, sosial obyektlər tikilməli, insanların gündəlik həyatında müsbət dəyişikliklər baş verməlidir. Bu tapşırıqların icrası istiqamətində həyata keçirilən ardıcıl tədbirlər Azərbaycanı və onun Naxçıvan Muxtar Respublikasını da əsl inkişafa qovuşdurmuşdur. Hörmətli Prezidentimiz 2004-cü ildən bəri 9 dəfə Naxçıvan Muxtar Respublikasında səfərdə olmuş, elm, təhsil və mədəniyyət, idman, səhiyyə və sosial təminat,

energetika, meliorasiya, yol tikintisi və sahibkarlıq, eləcə də hərbi quruculuq sahələrini əhatə edən 60-a yaxın obyektin açılışında iştirak etmiş, uzun fasilədən sonra 2005-ci ildə Azərbaycan təbii qazının Naxçıvan Muxtar Respublikasına verilməsi bərpa olunmuşdur.

Azərbaycan prezidentinin sərəncamlarına əsasən, Naxçıvan Muxtar Respublikasının 80 və 85 illik yubileyləri yüksək səviyyədə qeyd olunmuş, Naxçıvanın tarixinə dair yeni elmi araşdırmalar aparılmış, milli dəyərlərin inkişafı, tarixi abidələrin qorunması və bərpası istiqamətində tədbirlər görülmüşdür. Görülən tədbirlər, tikilən obyektlər ölkəmizin iqtisadi qüdrətinin konkret bir regionda əyani təzahürüdür.

Ölkə prezidentinin Naxçıvan Muxtar Respublikasına sonuncu səfərindən – 2010-cu ilin oktyabrından ötən müddət ərzində görülmüş işlər barədə məlumat verərək bildirmək istəyirəm ki, bu dövrdə muxtar respublikanın iqtisadiyyatında 54 faiz artım olmuş, sənaye, kənd təsərrüfatı və sosial sahələr inkişaf etmişdir. İqtisadiyyatın ümumi strukturuna uyğun olaraq və daxili bazarın qorunması tələbləri nəzərə alınaraq 43 istehsal və emal müəssisəsi yaradılmış, ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi artaraq 86 faiz təşkil etmişdir. Əhalinin məşğulluğu sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində 5791 yeni iş yeri açılmışdır. 2004-cü ildən ötən müddət ərzində açılan iş yerlərinin ümumi sayı isə 50 mindən çoxdur. Hər sahə üzrə inkişafın kökündə insan amili, onun tələbatlarının maksimum ödənilməsi dayanır. Bu istiqamətdə görülən tədbirlər sırasında əhalinin sağlamlığının qorunması mühüm əhəmiyyətə malikdir.

Ötən dövrdə səhiyyə, sağlamlıq müəssislərinə də diqqət artırılmış, muxtar respublikanın rayonlarında 5-i xəstəxana, 1-i poliklinika, 9-u ambulatoriya olmaqla, 15 səhiyyə müəssisəsi istifadəyə verilmişdir. 2011-ci ilin yanvar ayından ötən müddət ərzində 6176 yerlik 13 məktəb binası, 800 yerlik 3 uşaq bağçası tikilmiş və ya yenidən qurulmuşdur. Bundan başqa, Naxçıvan Dövlət Universitetinin magistratura şöbəsi üçün tədris

korpusu, 462 yerlik Tələbə evi, müasir tipli Tələbə Sosial Xidmət Mərkəzi istifadəyə verilmişdir. Təhsil müəssisələrində 405 elektron lövhə, 3 minə yaxın kompüter dəsti quraşdırılmışdır. İstifadəyə verilən bütün təhsil müəssisələrində açıq və örtülü idman qurğuları, idman zalları yaradılmış, Naxçıvanda idmanın müxtəlif növləri üzrə beynəlxalq yarışlar keçirilmişdir.

Naxçıvan şəhəri, Babək, Şərur və Sədərək rayonlarında yeni nəsil telekommunikasiya sistemləri quraşdırılmış, muxtar respublikanın yaşayış məntəqələri fiber-optik kabel üzərindən genişzolaqlı və simsiz internetlə təmin olunmuş, rəqəmsal televiziya yayımının genişləndirilməsi məqsədi ilə ötürücülərin quraşdırılmasına başlanılmışdır.

Aydın məsələdir ki, fasiləsiz enerji təminatı olmadan bu tədbirləri həyata keçirmək mümkün deyil. Ölkə rəhbərinin himayəsi ilə Naxçıvan modul və qaz-turbin elektrik stansiyaları, Heydər Əliyev Su Anbarı üzərində və Biləvdə su-elektrik stansiyaları tikilmişdir. Hazırda Arpaçay Su Anbarı üzərində 20 meqavat gücündə stansiyanın və 36 meqavat gücündə Ordubad Su-Elektrik Stansiyasının tikintisi aparılır.

Şübhəsiz ki, görülən tədbirlər ümumi məhsul istehsalına da öz təsirini göstərmiş, cari ilin 4 ayında 500 milyon manatlığa yaxın ümumi daxili məhsul istehsal olunmuş, bunun hər nəfərə düşən həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 11 faiz artaraq, 1500 ABŞ dollarına çatmışdır. Öz növbəsində əhalinin gəlirləri də artmış, cari ilin 4 ayında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 360 manat təşkil etmişdir ki, bu da əvvəlki ilin 4 ayı ilə müqayisədə 11 faiz çoxdur. Əməkhaqlarındakı artımlar, insanların layiqli iş yerləri ilə təmin olunmaları demoqrafik vəziyyətə də öz təsirini göstərmiş, muxtar respublika əhalisinin sayı bir il əvvəlki göstəriciyə nisbətən 2,1 faiz artaraq 421 min nəfərdən çox olmuşdur.

Ulu öndər Heydər Əliyev daim Azərbaycanı, o cümlədən Naxçıvanın gələcəyini düşünür və deyirdi: «Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında,

müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin».

Bu gün biz hamımız ümummilli liderimizin bu arzu və istəklərinin yerinə yetirilməsinin şahidləriyik.

Bütün bunlara görə, Azərbaycan prezidenti cənab İlham Əliyevə dərin hörmət və ehtiramımızı və minnətdarlığımızı bildiririk.

## CULFADA UŞAQ MUSİQİ MƏKTƏBİNİN AÇILIŞI MƏRASİMİ

*30 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Culfa şəhərində Uşaq musiqi məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, son illərdə Azərbaycan mədəniyyəti dünya miqyasında yüksək səviyyədə təbliğ edilir. Bu gün paytaxt Bakı da daxil olmaqla, regionlarda müşahidə olunan inkişaf gənc nəslin mənəvi tərəqqisinə geniş imkanlar açır. Hazırda ölkəmizdə bu istiqamətdə bir sıra tədbirlər reallaşdırılır. Culfada istifadəyə verilən Uşaq musiqi məktəbi də məhz bu məqsədə xidmət edir.*

*Bildirildi ki, 2010–2011-ci tədris ilində məktəbin 6 şagirdi ali və orta ixtisas musiqi məktəblərinə qəbul olmuşdur. Onlardan ikisi hazırda Naxçıvan Dövlət Universitetinin incəsənət fakültəsində, dördü isə Naxçıvan Musiqi Kollecində təhsil alır.*

*Məktəbin binası ilə tanışlıq zamanı diqqətə çatdırıldı ki, yeni inşa olunan dördmərtəbəli musiqi məktəbində 52 sinif otağı və 8 yardımçı otaq vardır. Məktəbin kitabxana fondu da zəngindir. Burada 1600 tədris vəsaiti və musiqi ədəbiyyatı toplanmışdır. Musiqi məktəbində 285 şagirdin təhsili ilə 64 müəllim məşğul olur. Məktəbdə 3 şöbə – xalq çalğı alətləri, fortepiano və nəzəri fənlər şöbələri fəaliyyət göstərir. Prezident İlham Əliyev məktəb şagirdlərinin ifasını dinlədi.*

*Dövlətimizin başçısı Uşaq musiqi məktəbinə fortepiano hədiyyə etdi. Məktəbin şagirdləri və müəllimləri Azərbaycan prezidenti ilə xatirə şəkli çəkdirdilər.*

### Sərhəd komendantlığının və sərhəd zastavasının

**açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Culfada sərhəd komendantlığının və sərhəd zastavasının açılışında iştirak etmişdir.*

*Naxçıvan Sərhəd Diviziyasının rəisi, general-mayor Asəf Quliyev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı Culfa Sərhəd Komendantlığı və Zastava Kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, sərhəd komendantlığı dörd binadan – qərargah, yardımçı, texniki və yaşayış binalarından ibarətdir. İkimərtəbəli qərargah binasında komendantlığın fəaliyyəti üçün hər cür şərait vardır. Burada müxtəlif sinif otaqları yaradılmış, əyani vəsaitlərlə təchiz olunmuşdur.*

*Qeyd edildi ki, Ali Baş Komandanın diqqət və qayğısı ilə əhatə olunan Dövlət Sərhəd Xidməti şəxsi heyətinin sosial şəraitinin yaxşılaşdırılması ilə bağlı mütəmadi tədbirlər həyata keçirilir. Bu, Culfa sərhəd zastavasının da fəaliyyətində hiss olunur. Zastavanın ərazisində zabit ailələri üçün iki yaşayış binası tikilmişdir. Binalardan biri üçmərtəbəlidir. Burada 18 mənzil vardır. Mebel və digər zəruri məişət avadanlığı ilə təchiz olunmuş mənzillərdən 6-sı üçotaqlı, 6-sı ikiotaqlı, 6-sı birotaqlıdır. Digər yaşayış binası isə ikimərtəbəli və səkkiz mənzillidir.*

*Ərazi ilə yaxından tanış olan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, sərhəd komendantlığının və zastavanın maddi-texniki təchizatı yüksək səviyyədədir. Sərhəd komendantlığının ərazisində nizami keçid meydanı və idman şəhərciyi, uşaqlar üçün əyləncə meydançası da salınmışdır.*

*Komendantlığın və sərhəd zastavasının ərazisi abadlaşdırılmış, dekorativ güllər və ağaclar əkilmişdir.*

*Prezident İlham Əliyev yaradılmış şəraiti yüksək qiymətləndirdi, şəxsi heyətə uğurlar arzuladı.*

**Səfər başa çatdı**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri mayın 30-da başa çatmışdır.*

*Naxçıvan Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidentini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və digər rəsmi şəxslər yola saldılar.*

* * *

*Mayın 30-da dövlətimizin başçısı Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Portuqaliya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Portuqaliya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Portuqaliya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 may 2012-ci il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI
ÜLYAHƏZRƏT II ELİZABETƏ**

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd Gününüz və Taxta çıxmağınızın 60 illiyi münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlər dinamik və hərtərəfli inkişaf yolundadır. Dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi əməkdaşlığımızın geniş spektrdə müvəffəqiyyətlə davam etməsinə mühüm təsir göstərir.

Əminəm ki, ölkələrimiz arasındakı siyasi, iqtisadi və mədəni əlaqələr, qarşılıqlı maraq doğuran faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 may 2012-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və bütün Rusiya xalqını dövlət bayramı – Rusiya Günü münasibətilə ürəkdən təbrik edirəm.

Sevindirici haldır ki, dövlətçiliyin və hüquq qaydasının möhkəmləndirilməsi işində, demokratik dəyişikliklərin həyata keçirilməsində sanballı uğurlar qazanmış dost Rusiya bu gün genişmiqyaslı islahatlar və cəmiyyət həyatının bütün cəhətlərinin təkmilləşdirilməsi, beynəlxalq aləmdə ölkənin mövqelərinin gücləndirilməsi yolu ilə irəliləyir.

Azərbaycan ilə Rusiyanı tarixən yaranmış, indi keyfiyyətcə yeni xarakter kəsb etmiş dostluq və mehriban qonşuluq münasibətləri sıx bağlayır. Əminəm ki, bizim ikitərəfli münasibətlər, çoxplanlı qarşılıqlı fəaliyyətimiz və strateji tərəfdaşlığımız xalqlarımızın rifahı, regionda sülhün, təhlükəsizliyin və tərəqqinin mənafeyi naminə bundan sonra da möhkəmlənəcək və intensiv inkişaf edəcəkdir.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, səadət və dövləti fəaliyyətinizdə uğurlar, bütün Rusiya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 may 2012-ci il*

## RUSİYA FEDERASİYASININ MDB İŞLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ KONSTANTİN KOSAÇOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 may 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Rusiya Federasiyasının MDB işləri üzrə xüsusi nümayəndəsi, MDB işləri, xaricdə yaşayan həmvətənlər və beynəlxalq humanitar əməkdaşlıq üzrə Federal Agentliyin rəhbəri Konstantin Kosaçovu qəbul etmişdir.*

*Konstantin Kosaçov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin və Baş nazir Dmitri Medvedevin salamlarını dövlətimizin başçısına çatdırdı, Respublika Günü münasibətilə prezident İlham Əliyevi təbrik etdi. O bu yaxınlarda Moskvada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş mərasimdə iştirakını məmnunluqla xatırlatdı. Ölkələrimiz arasında əlaqələrin müxtəlif istiqamətlərdə, xüsusilə də iqtisadi və humanitar sahələrdə uğurla inkişaf etdiyini vurğuladı, humanitar sahədə əməkdaşlığın daha da genişləndirilməsində Bakı Beynəlxalq Humanitar Forumunun önəmini qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu qeyd edərək bildirdi ki, iqtisadi və humanitar sahələrdə əməkdaşlığımızın yüksək səviyyədə olması əlaqələrimizin digər sahələrdə genişləndirilməsi işinə də öz töhfəsini verir.*

*Dövlətimizin başçısı prezident Vladimir Putinin və Baş nazir Dmitri Medvedevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Federasiyasının Prezidentinə və Baş nazirə çatdırmağı xahiş etdi.*

## XIX BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFT EMALI VƏ NEFT KİMYASI – 2012» SƏRGİSİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi XIX Beynəlxalq «Xəzər neft, qaz, neft emalı və neft kimyası – 2012» sərgisi və konfransının açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram. Hamınıza cansağlığı və işlərinizdə müvəffəqiyyətlər diləyirəm.

Bu mötəbər ənənəvi tədbirin bünövrəsi xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən elan edilmiş yeni neft siyasəti ilə eyni vaxtda, 1994-cü ildə qoyulmuşdur. Həmin dövrdən Bakıda ardıcıl keçirilən belə mühüm sərgi və konfransların ölkəmizin müəllifi və ya bilavasitə iştirakçısı olduğu strateji layihələrin həyata keçirilməsində, cəlbedici təşəbbüslərin beynəlxalq işgüzar dairələrə çatdırılmasında, dünya iqtisadiyyatına inteqrasiyanın sürətləndirilməsində və qlobal tərəfdaşlığın qurulmasında böyük rolu vardır.

Azərbaycan hazırda Avrasiya məkanında həm dayanıqlı infrastruktura və şaxələnmiş neft-qaz kəmərləri sisteminə malik etibarlı enerji daşıyıcıları təchizatçısı kimi tanınır, həm də xarici bazarlarda nüfuzlu investor kimi çıxış edir.

Respublikamızın başlatdığı daha bir irimiqyaslı layihə ən müasir tələblərə cavab verən neft-kimya kompleksinin yaradılmasıdır. Əməkdaşlıq üçün geniş perspektivlər açan bu meqalayihə Azərbaycanın neft-qaz emalı sənayesini keyfiyyətcə yeni mərhələyə çıxarmaqla ixrac potensialını əhəmiyyətli dərəcədə artıracaqdır.

Builki sərgi və konfransda 30-dan artıq ölkənin 300-dən çox şirkəti iştirak edir. Əminəm ki, bu görüşünüz də qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsi və uzunmüddətli inkişaf istiqamətlərinin müəyyən olunmasına öz dəyərli töhfəsini verəcəkdir.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyun 2012-ci il*

## NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QUDLAK CONATANA

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Nigeriya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyun 2012-ci il*

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də İslam Əməkdaşlıq Təşkilatının baş katibi Ekməlıəddin İhsanoğlunu qəbul etmişdir.*

*Baş katib Ekmələddin İhsanoğlu ölkəmizdə «Eurovision–2012» mahnı müsabiqəsinin yüksək səviyyədə təşkili və keçirilməsi münasibətilə prezident İlham Əliyevi təbrik etdi.*

*İslam Əməkdaşlıq Təşkilatının Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə daim dəstək verdiyini vurğulayan Ekmələddin İhsanoğlu bu dəstəyin bundan sonra da davam etdiriləcəyini dedi.*

*Görüşdə Azərbaycan ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın uğurlu inkişafından məmnunluq ifadə edildi, bu əlaqələrin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## UKRAYNA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ KONSTANTİN QRİŞENKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Ukraynanın Xarici İşlər naziri Konstantin Qrişenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Konstantin Qrişenko Ukrayna prezidenti Viktor Yanukoviçin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının önəmi qeyd olundu, əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev prezident Viktor Yanukoviçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Ukraynanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## ANDORRA KNYAZLIĞININ XARİCİ İŞLƏR NAZİRİ GİLBERT SABOYA SUNYEN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Andorra Knyazlığının Xarici İşlər naziri Gilbert Saboya Sunyeni qəbul etmişdir.*

*Nazir Gilbert Saboya Sunye Andorra hökuməti adından Azərbaycana ilk rəsmi səfərə gəlməsindən şərəf hissi keçirdiyini dedi. O, Azərbaycanı yaxından tanımaq və Andorranın ölkəmizdə tanınması baxımından bu səfərin yaxşı imkan yaratdığını bildirdi. Xalqlarımızın qədim tarixə malik olduğunu vurğulayan Gilbert Saboya Sunye Azərbaycanın yaxşı inkişaf perspektivlərinin olduğunu qeyd etdi.*

*Prezident İlham Əliyev ölkələrimizin bir-birini yaxından tanıması üçün bu cür səfərlərin bundan sonra da davam etdirilməsinin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı səfər zamanı ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin yaradılması ilə bağlı imkanların müzakirə ediləcəyinə ümidvar olduğunu bildirdi.*

## XIX BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFT EMALI VƏ NEFT KİMYASI – 2012» SƏRGİSİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*Bakı Sərgi Mərkəzi*

*5 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Bakı Sərgi Mərkəzində keçirilən XIX Beynəlxalq «Xəzər neft, qaz, neft emalı və neft kimyası –2012» sərgisi və konfransı»nın açılışı mərasimində iştirak etmişdir.*

*Sərgidə dünyanın 35 ölkəsindən 304 şirkət təmsil olunur. Ekspozisiyanın 40 faizindən çoxu dünyada tanınmış iqtisadi qurumların payına düşür. Onların əksəriyyəti bu sərginin daimi iştirakçılarıdır. Almaniya, Böyük Britaniya, Çin, Rusiya və Türkiyənin milli qrupları üçün pavilyonlar əvvəlcədən sifariş olunmuşdur. Sərgidə iştirak etmək arzusunda olan MDB, Avropa və Şərqi Asiya ölkələrində fəaliyyət göstərən şirkətlərin sayı xeyli artmışdır. İlk dəfə olaraq, bu il sərgidə Vyetnam milli neft şirkəti də iştirak edir.*

*Ekspozisiya sahəsinin 59 faizi xarici şirkətlər üçün ayrılmışdır. Qalan ekspozisiya sahəsi isə yerli istehsalçılar və xarici şirkətlərin yerli nümayəndəlikləri üçün nəzərdə tutulmuşdur. Sərgiyə olan daimi marağı sübut edən əsas fakt ondan ibarətdir ki, ekspozisiyanın 10 faizini əvvəllər Azərbaycan bazarında fəaliyyət göstərməmiş yeni şirkətlərin stendləri təşkil edir.*

*Bütövlükdə, bütün sərgi ekspozisiyasının ümumi artımı 15 faizdir. Sərgi sahəsinin və iştirakçı şirkətlərin sayının artması Azərbaycanın neft və qaz sahəsinin sürətlə inkişaf etdiyini və dünya miqyasında böyük nüfuz qazandığını deməyə əsas verir.*

*Bu il sərgi və konfransa rekord sayda – 21 şirkət sponsorluq edir ki, bu da tədbirin yüksək statusunu göstərir. Dünyanın*

*müxtəlif ölkələrindən onlarla aparıcı kütləvi informasiya vasitəsi sərgi və konfransa informasiya dəstəyi göstərir.*

*Ekspozisiya Bakı Sərgi Mərkəzinin iki pavilyonunda yerləşir. Burada ən yeni neft-qaz avadanlığı, neftçıxarma və enerji daşıyıcılarının nəqli sahəsində qabaqcıl texnologiyalar nümayiş etdirilir. Bundan başqa, sərgi iştirakçılarına Azərbaycanda hazırda reallaşdırılan və gələcək layihələr də təqdim olunur.*

*Sərgi çərçivəsində keçiriləcək konfransın işgüzar proqramı genişdir. Bu il konfrans neft-qaz bazarının yeni inkişaf təmayülləri, Xəzər dənizi regionunun potensialı və üstünlükləri, habelə dünyada enerji təhlükəsizliyi problemlərinin həlli perspektivlərini qiymətləndirmək üçün imkan yaradacaqdır.*

*Böyük Britaniyanın «İTE Group Plc» şirkətinin baş məsləhətçisi Endryu Vud sərgi və konfransı açdı:*

– Cənab Prezident!

Zati-aliləri, xanımlar və cənablar!

Bu gün burada olmaqdan, «İTE Group» şirkətini təmsil etməkdən, XIX Beynəlxalq «Xəzər neft, qaz, neft emalı və neft kimyası» sərgisi və konfransını təşkil etməkdən çox məmnunam.

Bu sərgi ənənəvi olaraq keçirilən bir tədbir kimi, beynəlxalq təqvimdə öz əksini tapmış, neft və qaz sənayesi üçün mühüm platformaya çevrilərək 1994-cü ildən etibarən sabiq prezident Heydər Əliyevin təşkilatçılığı ilə ilk dəfə olaraq reallaşmışdır.

Bir çox şirkətlər artıq neçə ildir ki, bu sərgidə iştirak edirlər. Lakin bir sıra şirkətlər vardır ki, onlar bu sərgiyə ilk dəfə qatılırlar. Sözsüz ki, illər keçdikcə biz davamlı artımın şahidi olmuşuq. Bu sərgidə Azərbaycanı müştərək şirkətlərlə bərabər, yerli istehsalçı şirkətlər də təmsil edir. Builki sərgidə 75 Azərbaycan şirkəti iştirak edir. Son 20 ildə Azərbaycanda neft və qaz sektoru sürətli inkişaf edib. «Xəzər neft, qaz, neft emalı və neft kimyası» sərgiləri bu inkişafa daha çox töhfə vermişdir. Bu, başqa sektorların inkişafına da təsir göstərmişdir.

«İTE Group» dünyada sərgi təşkili ilə məşğul olan çox nüfuzlu şirkətdir. 19 ildir ki, Azərbaycanda fəaliyyət göstərib və iqtisadi inkişafın, bütövlükdə inkişafın şahidi olub, fəaliyyətini daha da

fəallaşdırıb. «İTE Group» şirkəti il ərzində Bakıda 12 sərgi təşkil edir. Bu 12 sərgidə bütün sektorlar təmsil olunur. Bu il qida və turizm sərgiləri keçirilmişdir. İlin sonunadək səhiyyə, ekologiya, inşaat və s. sərgilərin də keçirilməsi planlaşdırılır.

Şirkətimizin Azərbaycandakı işi Bakı Sərgi Mərkəzinin təqdim etdiyi şəraitdən asılı olaraq çox müvəffəqiyyətli olmuşdur. Bu gün bu imkandan istifadə edərək neft və qaz sərgisinin təşkilində və müvəffəqiyyət qazanmasında bizə kömək göstərən bütün qurumlara minnətdarlığımı bildirmək istərdim. İlin ən mühüm tədbirlərindən biri olan bu sərgi də əminəm ki, böyük müvəffəqiyyət qazanacaqdır. «İTE Group» şirkəti neftayırma və neft kimyası sahələrində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə fəal əməkdaşlıq etmişdir.

Mən bu böyük sərginin təşkilinə və keçirilməsinə verdiyi önəmli dəstəyə görə hörmətli cənab Prezidentə minnətdarlığımı bildirmək istərdim. Biz bu sərginin hər bir iştirakçısını təbrik edirik. Düşünürük ki, «İTE Group» şirkətinin ölkədə gördüyü işlərin, keçirdiyi sərgilərin çox mühüm rolu olmuşdur. Cənab Prezident, bu sərginin davamlı ənənəyə çevrilməsi Sizin bu vacib tədbirə, bu vacib sahəyə, sənayenin inkişafına göstərdiyiniz diqqətin təsdiqidir.

Zati-aliləri, vaxt ayırıb «Xəzər neft, qaz, neft emalı və neft kimyası» sərgisi və konfransının açılışında iştirak etdiyinizə görə Sizə təşkilatçılar, iştirakçılar və qonaqlar adından minnətdarlığımızı bildiririk.

Bu bir daha göstərir ki, bu sahədə beynəlxalq əməkdaşlıq inkişaf etdiriləcək və neft-qaz sənayesinin regional mərkəzi olaraq Azərbaycanın nüfuzu daha da artacaqdır.

*ABŞ-ın Azərbaycandakı Müvəqqəti İşlər vəkili Adam Sterlinq prezident Barak Obamanın dövlətimizin başçısına təbrik məktubunu oxudu. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri Piter Beytman isə Baş nazir Devid Kemeronun prezident İlham Əliyevə təbrik məktubunu oxudu.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev sərgi və konfransın açılışı mərasimində* nitq *söylədi:*

– Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Sizin hamınızı ürəkdən salamlayıram.

«Xəzər neft, qaz, neft emalı və neft kimyası» sərgi və konfransının keçirilməsi ölkəmiz üçün böyük hadisədir. Bu sərgi və konfransın artıq böyük tarixi vardır. Sərgi 19-cu dəfə keçirilir və getdikcə də maraq artır. Bunun nəticəsidir ki, bu dəfə sərgidə 300-dən artıq şirkət iştirak edir.

Buraya gələrkən mən birinci sərgini xatırlayırdım. 1994-cü ildə təşkil edilən birinci sərginin Azərbaycanın nəinki neft-qaz sənayesində, ümumi inkişafında çox böyük rolu olmuşdur. Çünki Azərbaycan gənc müstəqil dövlət idi. Dünyaya hələ özünü tanıtdıra bilməmişdi. Azərbaycanın zəngin neft-qaz yataqları haqqında mütəxəssis dairələrində bilgilər var idi. Ancaq geniş biznes dairələri bundan xəbərsiz idi. Məhz sərginin 1994-cü ildə keçirilməsi ilə Azərbaycanın imkanları, xüsusilə neft sektorundakı imkanları dünyaya təqdim edildi. Azərbaycana çox böyük maraq göstərilməyə başlandı. Təsadüfi deyildir ki, sərgidən bir neçə ay sonra «Əsrin müqaviləsi» imzalandı ki, bu gün biz hamımız onun nəticələrini görməkdəyik.

O vaxt ölkəmiz gələcək inkişaf istiqamətlərini müəyyən edirdi. Azərbaycan necə inkişaf edəcək, hansı ölkəyə çevriləcəkdir?! Bizim əsas potensialımız olan neft ölkənin ümumi inkişafına xidmət göstərməli idi. Bunu etmək üçün mütləq xarici tərəfdaşlar Azərbaycana sərmayə qoymalı idilər. Çünki o vaxt Azərbaycanın maddi imkanları çox məhdud idi. Biz buna nail ola bildik. Qısa müddətdə müxtəlif irimiqyaslı, böyük şirkətlər Azərbaycana gəldilər, sərmayə qoydular. Beləliklə, Azərbaycanın uğurlu inkişafı başlandı.

Məhz 1994-cü ildə ulu öndər tərəfindən Heydər Əliyev neft strategiyası elan edilmişdir ki, bu gün də bu strategiya davam etdirilir. Əlbəttə, 19 il ərzində bu strategiya inkişafdadır, bu strategiyaya yeni istiqamətlər cəlb edilir. Beləliklə, bu gün Azərbaycanın enerji resursları tam şəkildə Azərbaycan xalqının maraqlarının xidmətindədir.

1994-cü ildə biz bu böyük yolun başında idik. Çox şadam ki, o vaxt qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edildi. Azərbaycana böyük sərmayə qoyulmuşdu. Hazırda neft-qaz sektoruna qoyulan investisiyalar təxminən 50 milyard dollar səviyyəsindədir. Bütövlükdə 1995-ci ildən bu günə qədər ölkə iqtisadiyyatına təxminən 120 milyard dollar sərmayə qoyulmuşdur. Neft amilindən çox məharətlə və böyük səmərə ilə istifadə edə bildik. Neftdən əldə edilən gəlirləri qeyri-neft sektorunun inkişafına yönəldə bildik. Ölkə iqtisadiyyatını çoxşaxəli iqtisadiyyat kimi təşkil etdik. Bu gün bu proses davam etdirilir. Ancaq XX əsrin 90-cı illərinin ortalarında neft sənayesində, ümumiyyətlə, iqtisadi sahədə köklü islahatlar aparılmağa başlanmışdır. O vaxt həm geosiyasi, həm iqtisadi, həm siyasi baxımdan Azərbaycan indiki kimi güclü dövlət deyildi. Təzyiqlər, təhdidlər var idi. Biz gənc ölkə idik, maddi imkanlarımız çox məhdud idi. Buna baxmayaraq, Heydər Əliyevin qətiyyəti və cəsarəti sayəsində, düzgün təşkil edilmiş strategiya nəticəsində biz bütün hədəflərə çatdıq.

2003-cü ildə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təməli qoyulmuş, 2006-cı ildə istifadəyə verilmişdir. Bu kəmər bütövlükdə bölgənin və bəlkə də qitənin enerji xəritəsini əsaslı şəkildə dəyişdirə bilmişdir. Bu kəmər təkcə Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün deyil, yeni dəhlizin açılması üçün də çox vacib, tarixi addım idi. Bu dəhliz işə düşəndən sonra növbəti mərhələdə böyük «Şahdəniz» yatağının qaz ehtiyatlarının dünya bazarına çıxarılması üçün Bakı–Tbilisi–Ərzurum qaz kəməri tikilmişdir. «Şahdəniz» üzrə kontraktın imzalanması «Azəri–Çıraq–Günəşli» neft yataqları kontraktının imzalanmasından iki il sonra baş vermişdir. O vaxt

Azərbaycanın qaz potensialı haqqında dünyada heç bir məlumat yox idi. Çünki sovet dövründə qaz imkanlarımız araşdırılmamışdı. Geoloqlarımız, mütəxəssislərimiz bilirdilər ki, bizim zəngin qaz ehtiyatlarımız var. Amma heç vaxt Azərbaycan xarici investorlar tərəfindən qaz ölkəsi kimi maraq doğurmurdu. «Şahdəniz» qaz yatağının kəşfindən sonra – bu yataq dünya miqyasında ən böyük yataqlardan biridir – bu sahəyə diqqət daha da çox artmışdır. Beləliklə, düzgün strategiyanın icra edilməsi nəticəsində dəhlizin açılması, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikilməsi nəticəsində biz artıq pəncərədən başlayaraq böyük qapı açdıq. Azərbaycanı beynəlxalq enerji ailəsinə daxil etdirə bildik. Həm siyasi, həm iqtisadi baxımdan böyük uğurlar əldə etdik.

Bu bizim üçün böyük təcrübə idi. Çünki bizim Dövlət Neft Şirkətimiz – SOCAR o vaxt sadəcə olaraq, daxili bazarda fəaliyyət göstərən adi bir şirkət idi. Başqa dövlət qurumlarından heç nə ilə fərqlənmirdi. Məqsədimiz ondan ibarət idi ki, SOCAR-ı dünya miqyaslı nəhəng enerji şirkətinə çevirək. Hazırda biz bu məqsədə də çatmışıq. Bundan sonra SOCAR-ın həm ölkə daxilindəki, həm xaricdəki fəaliyyəti daha genişmiqyaslı olacaq.

Biz təcrübə toplamışıq. Gənc mütəxəssislərimiz xaricdə təhsil almışlar. «Əsrin müqaviləsi»nə əsasən, bu əməliyyatlarda iştirak edən insanların mütləq əksəriyyəti yerli vətəndaşlardır. Məşğulluq məsələlərinə də diqqət göstərilmişdir. Uğurlu neft strategiyamız həm keçən əsrin 90-cı illəri üçün, həm bu gün üçün çox əhəmiyyətlidir və bizə imkan verdi ki, ölkə qarşısında duran əsas iqtisadi və sosial məsələləri uğurla inkişaf etdirək. Biz bu strategiyanı icra edərkən bir neçə hədəfi qarşımıza qoymuşduq. İlk hədəfimiz Azərbaycanın zəngin neft-qaz potensialını tam şəkildə realizə etmək idi. Digər tərəfdən, neft amilindən sadəcə olaraq, istifadə edib qeyri-neft sektorunu inkişaf etdirmək məsələsi gündəlikdə idi. Hələ o illərdə mən demişdim ki, neft bizim üçün məqsəd deyil, vasitədir – ölkəmizi inkişaf etdirmək, müasir dövlət yaratmaq üçün vasitədir.

Hesab edirəm ki, biz bu imkanlardan səmərəli şəkildə istifadə edə bilmişik. Xüsusilə Dövlət Neft Fondunun yaradılması bu istiqamətdə atılan çox vacib addım idi. Çünki bu qurumun fəaliyyətə başlaması həm şəffaflığı təmin etdi, həm də bizə imkan verdi ki, neftdən və indi qazdan əldə edilən gəlirlər əhəmiyyətli şəkildə qorunsun, saxlanılsın və ölkənin qeyri-neft sektoruna investisiya şəklində qoyulsun.

Valyuta ehtiyatlarımızı ildən-ilə artırırıq və hazırda ehtiyatlarımız 40 milyard dolları ötübdür. Gələcəkdə bu məbləğ daha da böyük olacaqdır. Bu bizə imkan verir ki, Azərbaycan iqtisadiyyatının neftdən asılılığını maksimum dərəcədə aşağı salaq. Buna nail oluruq. Çünki bu ilin birinci rübünün iqtisadi göstəriciləri deməyə əsas verir ki, biz bu yolda uğurlara nail olmuşuq, Qeyri-neft sənayemiz birinci 3 ayda 16 faiz artmışdı.

Ölkənin uğurlu inkişafı, iqtisadiyyatın şaxələndirilməsi bizim prioritetlər sırasında idi. Bu məqsəd də qarşıya qoyulmuşdu. Digər məqsəd dünya birliyi ilə əlaqələrimizi daha da möhkəmləndirmək idi. Dost, tərəfdaş ölkələrlə ikitərəfli əsasda əlaqələrimizi gücləndirmək işində də neft-qaz amili öz rolunu oynamışdır.

Bu gün bir neçə ölkənin enerji balansında Azərbaycan neftinin payı 25–30–35 faiz təşkil edir. Bu gün biz dostlarımız üçün, Avropa istehlakçıları üçün etibarlı tərəfdaş qismində çıxış edirik. Bu rol getdikcə artır. Neftlə, qazla zəngin olan hər bir ölkə qarşısında duran digər məsələni də icra etdik. Bu da ixrac imkanlarımızın şaxələndirilməsi məsələsidir. Hazırda 7 neft və qaz kəmərimiz var ki, resurslarımızı bütün istiqamətlərə ixrac edir. Bir marşrutdan, bir yoldan asılı deyilik.

Hazırda Avropa istehlakçıları da bu məsələ ilə bağlı müəyyən tədbirlər görürlər. Onlar üçün də şaxələndirmə mühüm amildir. Bir mənbədən asılı olmaq, əlbəttə ki, o qədər məqbul variant sayıla bilməz. Ancaq biz Azərbaycan olaraq, bu vəzifəni icra etmişik. Bu gün neftimiz və qazımız müxtəlif istiqamətlər üzrə ixrac edilir. Biz gələcəkdə tərəfdaşlarla bu sahədə işimizi daha da

sürətləndirəcəyik. Neft-qaz sahəsində istehsalçılar, tranzit ölkələr və istehlakçılar bir yerdə olmalıdırlar. Burada rəqabətə, yaxud da ki, qarşıdurmaya yol vermək olmaz. Əksinə, burada maksimum əməkdaşlıq olmalıdır. Çünki əməkdaşlıq olduqda hər üç tərəf öz mənfəətini götürür. Biz bu məsələyə bu fəlsəfə ilə yanaşırıq.

Bütövlükdə bizim enerji siyasətimiz çox açıqdır və xoşniyyətlidir. Hesab edirik ki, enerji siyasəti ölkələri birləşdirməlidir, ayırmamalıdır. Enerji amilindən qarşıya hansısa siyasi məqsədlər qoymaq və onlara çatmaq üçün istifadə edilməməlidir. Bizim yanaşmamız bundan ibarətdir. Bizim üçün dost olan ölkələrin enerji təhlükəsizliyi məsələlərinə də töhfəmiz buna dəlalət edir. Bəzi hallarda bəzi ölkələrin çətinliklərini nəzərə alaraq onlara yardım etmək üçün əlimizi uzatmışıq. Həm dostluğumuzu möhkəmləndirmişik, həm də iqtisadi və siyasi maraqlarımızı təmin edə bilmişik. Hesab edirəm ki, indiki mərhələdə və gələcək illərdə dünyada enerji siyasətində bu səpkidə meyillər güclənərsə, onda bütün məsələləri proqnozlaşdırmaq daha asan olacaqdır. Bir sözlə, enerji resursları ölkələri ayırmamalıdır, birləşdirməlidir. Mən hesab edirəm ki, Azərbaycan təcrübəsi bu sahədə çox məqbul ola və öyrənilə bilər. Digər sahədə – xarici investorlar, yerli şirkətlər və yerli hakimiyyət orqanları arasında əməkdaşlıq baxımından hesab edirəm ki, Azərbaycanda vəziyyət nümunəvidir.

Biz əsas enerji tərəfdaşımız olan *bp* şirkəti ilə 20 ilə yaxındır ki, əməkdaşlıq edirik. Bu əməkdaşlıq hər iki tərəfin maraqlarını təmin edir. *bp* bizim strateji partnyorumuzdur. Bir nömrəli investordur. Həm «Azəri–Çıraq–Günəşli»də, həm «Şahdəniz»də və digər yataqlarda bizimlə birgə işləyir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərində əsas oyunçudur. Bu 20 ilə yaxın olan əməkdaşlıq onu sübut edir ki, investorların maraqları və ölkənin, xalqın maraqları üst-üstə düşə bilər. Bu əməkdaşlıq və bu təcrübə hesab edirəm ki, müəyyən mənada dünyada nadir təcrübədir. Bu da öyrənilə bilər və biz hesab edirik ki, bu sahədə də uğurlu əməkdaşlığa nail ola bilmişik.

Bizim üçün dövlət olaraq, ilk növbədə Azərbaycanın milli maraqlarıdır. Biz nail ola bilmişik ki, Azərbaycan zəngin neft

yataqlarımızdan artıq nefti, qazı hasil və ixrac edir. Bu, ölkə iqtisadiyyatına əvəzedilməz bir töhfədir. Təsəvvür etmək çətindir ki, əgər 1994-cü ildə o cəsarətli addım atılmasaydı, indi bizim vəziyyətimiz necə olacaqdı?!

Enerji təhlükəsizliyi enerji müstəqilliyini şərtləndirir. Enerji müstəqilliyi isə bütövlükdə ölkələrin iqtisadi müstəqilliyinə böyük töhfə verir. İqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Mən dəfələrlə qeyd etmişəm və artıq bu reallıqdır ki, Azərbaycan bütün sahələrdə müstəqil siyasət aparır. Bu siyasəti aparmaq üçün bizə güc verən, əlbəttə ki, xalqla iqtidar arasında olan birlikdir və iqtisadi müstəqilliyimizdir. Biz iqtisadi cəhətdən tam müstəqil ölkəyik. Biz enerji resurslarının ixracı məsələlərində tam müstəqilik. Çünki çoxşaxəli neft-qaz kəmərlərimiz var, bir yoldan asılı deyilik. Bu bizə imkan verir ki, siyasi müstəvidə siyasətimizi inamla və cəsarətlə aparaq. Keçən il müstəqilliyimizin bərpasının 20 illik yubileyində qeyd etdiyim kimi, bu gün Azərbaycanda müstəqillik tamdır, şərtsizdir.

Yenə də qayıdıram 1994-cü ilə. Bugünkü uğurların təməli məhz o vaxt qoyulmuşdur. Əlbəttə, bu imkanlardan maksimum səmərə ilə istifadə edə bilmişik. Elə ölkələr tanıyırıq ki, orada bizdən daha çox neft-qaz yataqları, resurslar var, lakin orada iqtisadiyyat birtərəflidir, çoxşaxəli deyil, neftdən, qazdan asılılıq mütləqdir. Ancaq bizdə belə deyildir. Biz qarşıya hədəf qoymuşuq ki, neft, qaz sadəcə olaraq, iqtisadi şaxələndirməni təmin edən vasitədir və buna nail olmuşuq. Əgər ümumi iqtisadi göstəricilərimizə nəzər salsaq görərik ki, dünya miqyasında ən sürətli templərdir. Son 8 ildə iqtisadiyyat və sənaye istehsalı 3 dəfə artmışdır. Yoxsulluq isə 5 dəfə azalmışdır. Yoxsullar təbəqəsi Azərbaycanda getdikcə azalır. Əminəm ki, bir neçə ildən sonra biz bu böyük bəladan canımızı qurtaracağıq. Bu onu göstərir ki, vaxtilə Azərbaycanda iqtisadiyyatın birtərəfli şəkildə inkişafı ilə bağlı verilən bəzi mülahizələr özünü doğrultmadı. Vaxtilə bizi «Holland sindromu» ilə hədələyən bəzi təhrikçilər səhvlərini etiraf etməlidirlər. Çünki biz iqtisadi şaxələndirməyə nail ola bilmişik.

Neft-qaz sektoru o qədər də böyük sayda iş yerlərinin açılmasına gətirmir. Ancaq Azərbaycanda son 8 il ərzində 1 milyon yeni iş yeri açılmışdır. Harada? Qeyri-neft sektorunda, kənd təsərrüfatında, xidmət sektorunda. İnfrastruktur layihələrinə böyük həcmdə investisiya qoyulmuşdur. Bütövlükdə neft amili ölkəmizə böyük canlanma gətirdi. Yenə də deyirəm, həm resurslar vacibdir, həm onlardan səmərəli istifadə qaydaları. Hesab edirəm ki, biz Azərbaycanın timsalında uğurlu neft siyasətinin təzahürünü görürük. Bu siyasət bu gün də davam etdirilir. Əminəm ki, gələcək illərdə biz yalnız və yalnız inkişaf yolu ilə gedəcəyik.

O ki qaldı gələcək planlarımıza, mən bu gün buraya daxil olarkən sərgini təşkil edənlərlə qısa söhbət əsnasında qeyd etdim ki, hər il sərgidən-sərgiyə Azərbaycanın enerji sektorunda çox vacib hadisələr baş verir. Son bir il ərzində, keçən sərgidən ötən dövrdə bir neçə vacib hadisə baş vermişdir. Onların içində SOCAR-ın yeni neftayırma, neft kimyası kompleksinin yaradılması layihəsi artıq təqdimat şəklində göstərilmişdir. Bu, böyük layihədir. Ölkə iqtisadiyyatı üçün, bundan sonra onilliklər ərzində enerji sahəsində və qeyri-neft sahəsində iqtisadiyyatın inkişafı üçün çox vacib layihədir. SOCAR eyni zamanda, xarici bazarlara investisiyaları artırır. Bu investisiyalar milyardlarla dollar səviyyəsindədir.

Son iki ildə 2 böyük qaz yatağının aşkarlanması qaz potensialımızı xeyli dərəcədə artırmışdır. «Ümid» və «Abşeron» qaz yataqlarında ilkin hesablamalara görə 600, bəlkə də 700 milyard kubmetr qaz ehtiyatları var. Beləliklə, Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir.

Son bir il ərzində alternativ və bərpa olunan enerji sektorunda ilk böyük dəyişikliklər baş vermişdir. Azərbaycanın yeni hibrid tipli külək-günəş elektrik stansiyasının açılışı olmuşdur. Azərbaycanda artıq günəş panelləri zavodu fəaliyyət göstərir. Mənim göstərişimlə yaxın zamanlarda yüksək texnologiyalar parkının yaradılmasına başlanacaqdır. Çox şadam ki, bu sərgidə

alternativ və bərpa olunan enerjiyə aid stendlər vardır və bu gün biz onunla tanış olacağıq.

Bu məsuliyyəti biz öz üzərimizə götürmüşük. Ola bilər ki, neftlə, qazla zəngin olan ölkələr üçün bu o qədər də xas deyildir. Ancaq hesab edirəm ki, bu bizim məsuliyyətimizdir. Ətraf mühitin qorunmasına verilən töhfədir. Hesab edirəm ki, neftlə, qazla zəngin olan, enerji təhlükəsizliyini təmin edə bilən ölkələr, ilk növbədə bərpa olunan enerji növlərinə investisiya qoymalıdır. Biz bunu məcburən qoymuruq, bunsuz da yaşaya bilərik. Qeyd etdiyim kimi, qaz yataqlarımız bundan sonra bəlkə də 100 il, neft resurslarımız isə 50 ildən çox bizə xidmət edəcək. Çünki «Azəri–Çıraq–Günəşli» neft yataqlarında daha da çox neft ehtiyatları vardır.

Bu addımları ona görə atırıq ki, bərpa olunan enerjinin bizim enerji balansında payı artarsa, o zaman ənənəvi enerji növlərinə qənaət ediləcək və daha çox iqtisadi səmərə görəcəyik. Ekoloji tədbirlərin gücləndirilməsi üçün bu addımların böyük əhəmiyyəti vardır.

Çıxışımın sonunda qaz sahəsində gələcək planlarla bağlı bir-iki kəlmə demək istəyirəm. Biz bu sahədə həlledici məqama gəlib çatmışıq. Bu gün Azərbaycanın qaz imkanları artıq dünyaya təqdim edilib. Biz qaz resurslarını müxtəlif istiqamətlər üzrə çatdırırıq. 4 qaz kəmərimiz var, dördü də işlək vəziyyətdədir. Ancaq biz «Şahdəniz-2» layihəsinin işlənilməsinə yaxınlaşırıq. «Ümid», «Abşeron» və digər yataqlardan çıxarıla biləcək qaz ehtiyatlarını nəzərə almalıyıq. Biz uzunmüddətli qaz strategiyamızı indi hazırlayırıq. Demək olar ki, bu strategiya hazırdır. Burada, əlbəttə ki, qarşılıqlı inam və qarşılıqlı maraqlar ön plana çıxır. Bir daha demək istəyirəm ki, Azərbaycan öz enerji təhlükəsizliyini təmin edib. Ölkə qarşısında duran bütün vəzifələr icra edilib. Əgər bu səviyyədə irəliləsək, neftin və qazın hasilatını indiki səviyyədə saxlasaq və buna imkan vardır, onilliklər bundan sonra da uğurla inkişaf edəcəyik. Bir tərəfdən, hansısa əlavə təşəbbüslərə bəlkə də ehtiyac yoxdur. Digər tərəfdən, biz bölgədə, Cənubi Qafqazda

aparıcı ölkəyik. Cənubi Qafqazın iqtisadiyyatının 80 faizi Azərbaycanın payına düşür. Belə olan halda biz 10 il, 20 il, 30 il qabağa baxmalıyıq. Elə etməliyik ki, qaz ehtiyatlarımız maksimum şəkildə realizə edilsin. Uzunmüddətli qaz strategiyamız buna yönəlib. Hesab edirəm ki, əgər bu sahədə investorlar, hasilatçılar, tranzit ölkələri, istehlakçılar arasında işbirliyi, əməkdaşlıq olarsa, bu məsələlər öz həllini lazımi səviyyədə tapa bilər. Hər halda, keçən ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında enerji-qaz sahəsində bəyannamə imzalanmışdır, işçi qrupu yaradılmışdır. İşçi qrupu işləyir. Biz bu işçi qrupunun işinin nəticələrini gözləyirik.

Bir daha demək istəyirəm, Azərbaycan neft-qaz sahəsində xoşniyyətli, xoşməramlı siyasət aparır. Bu siyasət əməkdaşlığa, qarşılıqlı maraqların nəzərə alınmasına yönəldilib. Nəticə etibarilə bu siyasət hər bir tərəfin marağına xidmət edəcəkdir.

Mən bir daha bugünkü açılış mərasiminə toplaşmış bütün qonaqları ürəkdən salamlayıram, sərginin təşkilatçılarına minnətdarlığımı bildirmək istəyirəm. Onların fəaliyyəti ölkəmiz üçün çox vacibdir, önəmlidir. Həm işin əvvəlində, keçən əsrin 90-cı illərinin ortalarında, həm bu gün. Bu gün Azərbaycana maraq daha böyükdür və nəinki neft-qaz sektoruna, bütün başqa sahələrə də. Azərbaycan əməkdaşlığa həmişə olduğu kimi hazırdır.

* * *

*Açılış mərasimindən sonra prezident İlham Əliyev sərginin pavilyonları ilə tanış oldu.*

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və şirkətin Birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə dövlət başçısına ARDNŞ-in ekspozisiyası barədə ətraflı məlumat verdilər. Qeyd olundu ki, beynəlxalq səviyyəli şirkətə çevrilən ARDNŞ 2010–2015-ci illəri əhatə edən nano-neft proqramını və digər silsilə layihələri reallaşdırır. Bundan əlavə, Dövlət Neft Şirkətində ölkədə inşası nəzərdə tutulan yeni neft-qaz emalı və neft kimyası kompleksinin layihəsi*

hazırlanmışdır. Bu layihə istismar müddətini başa vuran və ekoloji tələblərə cavab verməyən neft-qaz və neft kimyası müəssisələrinin şəhərdən çıxarılmasını və vahid kompleksdə cəmlənməsini nəzərdə tutur. Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, layihənin hazırlanmasına xarici şirkətlər də cəlb olunmuşdur. Kompleksin Qaradağ və Abşeron rayonlarının sərhədində salınması nəzərdə tutulur. Yeni kompleksdə müasir texnologiyalar tətbiq olunacaq. Bu da keyfiyyətli məhsul istehsalına imkan verəcəkdir.

Dövlətimizin başçısı bp şirkətinin ekspozisiyası ilə də tanış oldu. Diqqətə çatdırıldı ki, Xəzərin Azərbaycan sektorunda iri neft və qaz yataqlarının işlənilməsində, Səngəçal, Supsa və Ceyhan kimi böyük terminalların inşasında, Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum boru kəmərlərinin tikintisində mühüm xidmətləri olan bp şirkəti bundan sonra da Azərbaycan ilə sıx əməkdaşlıq edəcəkdir.

Bunu təsdiqləyən ən mühüm amil bu il bp şirkətinin Azərbaycanda fəaliyyətinin 20 illiyinin tamam olmasıdır. Bu müddət ərzində qarşıya qoyulmuş bütün məqsədləri həyata keçirən şirkət hazırda təhsil, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi və icma proqramları ilə bağlı layihələr reallaşdırır.

Dünyanın 80-dən çox ölkəsində fəaliyyət göstərən Fransa–Amerika birgə şirkəti olan «Schlumberger»in ekspozisiyası ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, bu iqtisadi qurum Azərbaycanda reallaşdırılan iri neft-qaz layihələrində yaxından iştirak edir. Şirkət bütün dünyanın neft və qaz müəssisələri üçün yüksək nəticələrin, təkmilləşdirilmiş kəşfiyyat və hasilat göstəricilərinin təmin edilməsində etibarlı və sınanılmış öncül xidmət təchizatçısıdır.

Sonra Azərbaycan prezidenti «BOS Şelf» şirkətinin ekspozisiyasına baxdı. Bildirildi ki, «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun tammiqyaslı işlənilməsinin birinci mərhələsi olan «Mərkəzi Azəri» sahəsində müvəffəqiyyətlə çalışan şirkət

*həyata keçirdiyi təlim proqramları sayəsində təcrübəli işçi qüvvəsi yaratmışdır.*

*Dövlətimizin başçısına Azərbaycanın Türkiyədə özəlləşdirdiyi «Petkim» şirkətinin genişləndirilməsi və yenidən qurulması ilə bağlı görülən kompleks işlər barədə ətraflı məlumat verildi. Bildirildi ki, 1965-ci ildə təsis olunmuş şirkətin əsas hədəfi Türkiyə bazarında liderlik fəaliyyətini daha da genişləndirərək davam etdirmək və regional gücə çevrilməkdir. «Petkim» hazırda öz məhsullarını dünyanın 70-dən çox ölkəsinə ixrac edir.*

*«Eni Saipem» şirkətinin pavilyonu ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, 1957-ci ildə yaradılan müəssisənin fəaliyyəti ötən dövrdə xeyli genişlənmişdir. Azərbaycan ilə əməkdaşlığa böyük önəm verən şirkət dünyanın bir çox regionlarında da karbohidrogen ehtiyatlarının çıxarılmasında yaxından iştirak edir.*

*Rusiyanın «Rosneft» şirkəti də Azərbaycan ilə əməkdaşlığı genişləndirməkdə maraqlıdır. Qonşu ölkənin böyük neft-qaz şirkətlərindən sayılan «Rosneft» Bakıdakı sərgidə ən son elmi-texniki yeniliklərini nümayiş etdirir.*

*Türk Petrolları Anonim Şirkəti (TPAO) də 1994-cü ildən bəri Azərbaycan ilə birgə beynəlxalq neft-qaz layihələrinin uğurla reallaşmasında yaxından iştirak edir. Bildirildi ki, iki qardaş ölkənin iqtisadi qurumları bundan sonra da istər regional, istərsə də beynəlxalq səviyyədə birgə uğurlu əməkdaşlıqlarını davam etdirəcəklər.*

*Almaniyanın «RWE» şirkətinin pavilyonu ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, 2009-cu ildən Azərbaycanda fəaliyyət göstərən bu iqtisadi qurum ölkəmizdə fəaliyyətini genişləndirmək əzmindədir və bunun üçün müxtəlif layihələr təqdim edir.*

*Azərbaycan prezidenti Norveçin «Statoyl» şirkətinin pavilyonu ilə də tanış oldu. Bildirildi ki, «Qazprom»dan sonra Avropada ikinci böyük təbii qaz şirkəti olan «Statoyl» Azərbaycan ilə sıx əməkdaşlıq edir. Dünyanın 36 ölkəsində fəaliyyət*

göstərən «Statoyl»un başlıca məqsədi yüksək texnologiyaların tətbiq olunması ilə istehlakçıların enerji tələbatını məsuliyyətli və innovativ şəkildə təmin etməkdir. Qeyd olundu ki, bu şirkət Azərbaycan ilə yeni əməkdaşlıq imkanları üzərində konkret iş aparır.

Bu il Beynəlxalq «Xəzər neft, qaz, neft emalı və neft kimyası» sərgisində ilk dəfə Vyetnam da təmsil olunur. Bu ölkənin «Petrovietnam» neft-qaz şirkəti 2010-cu ildə Azərbaycanda nümayəndəliyini açmışdır. 1975-ci ildə yaradılan şirkət yaxın gələcəkdə «Muradxanlı–Cəfərli–Zərdab» neft yataqları blokunda axtarış-kəşfiyyat işlərinə başlayacaqdır.

Builki sərgidə diqqəti cəlb edən əsas məqamlardan biri də alternativ enerji mənbələri ilə bağlı ekspozisiyanın təşkil olunmasıdır. Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Şirkəti tərəfindən təşkil olunan pavilyonda külək və günəş enerjisindən istifadə edilməsi məqsədilə ölkəmizdə həyata keçirilən layihələr barədə məlumat verilir, bu sahənin hazırda dünyada ekoloji cəhətdən ən səmərəli vasitə hesab olunduğu qonaqların diqqətinə çatdırılır.

Prezident İlham Əliyevə məlumat verildi ki, Avstriyanın «OMV» şirkəti də Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlıdır və bu istiqamətdə səylərini əsirgəmir.

Ekspozisiya ilə tanış olan dövlətimizin başçısı Beynəlxalq «Xəzər neft, qaz, neft emalı və neft kimyası» sərgisi və konfransının Fəxri qonaqlar kitabını imzaladı.

Prezident İlham Əliyev pavilyonlarla tanışlıqdan sonra sərgi və konfransın işinə uğurlar arzuladı.

# TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMANDANI HAYRİ KIVRIKOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Türkiyə Respublikasının Quru Qoşunları Komandanı Hayri Kıvrıkoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə əlaqələrin yüksək səviyyədə olduğu vurğulandı, Türkiyə Respublikasının Quru Qoşunları Komandanı Hayri Kıvrıkoğlunun ölkəmizə səfərinin uğurlu olacağına və hərbi sahədə əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə edildi.*

## ALMANİYANIN KEÇMİŞ XARİCİ İŞLƏR NAZİRİ HANS-DİTRİX GENŞERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Almaniya Federativ Respublikasının keçmiş Xarici İşlər naziri Hans-Ditrix Genşerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Hans-Ditrix Genşerlə Münhendə keçirdiyi görüşü xatırlatdı. Qonağın böyük nümayəndə heyəti ilə ölkəmizə səfər etməsindən məmnunluğunu bildirən dövlətimizin başçısı bu səfərin əməkdaşlığımızın daha da genişləndirilməsi ilə bağlı məsələlərin müzakirə edilməsi baxımından yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirdi.*

*Almaniyanın keçmiş Xarici İşlər naziri Hans-Ditrix Genşer Azərbaycanda gedən sürətli inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını bildirdi. Almaniya cəmiyyətinin müxtəlif təbəqələrini təmsil edən böyük nümayəndə heyəti ilə respublikamıza səfərə gəldiyini vurğulayan Hans-Ditrix Genşer ölkəsinin Azərbaycan ilə bütün sahələrdə, o cümlədən Azərbaycan–Avropa İttifaqı arasında əlaqələri genişləndirməkdə maraqlı olduğunu dedi.*

*Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYANIN LORDLARDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Lord Şeyx Mohamed İltaf, Lord Patel Kamleş Kumar, Lord Dük Hugh Con Maksvell, Lord Risbi Riçard Con Grenvildən ibarət Böyük Britaniya nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkələrimiz arasında siyasi, iqtisadi, enerji və digər sahələrdə əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayan Lord Şeyx Mohamed İltaf bu əlaqələrin gələcəkdə daha geniş sahələri əhatə edəcəyinə ümidvar olduğunu bildirdi. bp-nin Azərbaycandakı fəaliyyətinin əhəmiyyətini qeyd edən Lord Şeyx Mohamed İltaf ölkəmizlə mədəni əlaqələrlə yanaşı, biznes sahəsində əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduqlarını vurğuladı.*

*Dövlətimizin başçısı NATO-nun Çikaqo sammitində Böyük Britaniyanın Baş naziri Devid Kemeron ilə görüşünü və ikitərəfli əlaqələrimizlə bağlı aparılan müzakirələri məmnunluqla xatırlatdı. Azərbaycanın Böyük Britaniya ilə ikitərəfli münasibətlərinin tarixinin zəngin olduğunu vurğulayan prezident İlham Əliyev enerji sektorunda, sərmayə qoyuluşu və eləcə də iqtisadiyyatın digər sahələrində əməkdaşlığın önəmini qeyd etdi. Bu gün keçirilən XIX Beynəlxalq «Xəzər neft, qaz, neft emalı və neft kimyası» sərgi və konfransının əhəmiyyətini vurğulayan dövlətimizin başçısı bp-nin Azərbaycanın əsas tərəfdaşlarından biri olduğunu, təkcə enerji sahəsində deyil, digər sahələrdə də uğurlu əməkdaşlıq etdiyini dedi.*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İVO YOSİPOVİÇƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–Xorvatiya münasibətləri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Xorvatiya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2012-ci il*

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Böyük Hersoqun Təvəllüd Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Lüksemburq arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Lüksemburq xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2012-ci il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB DANİLO TÜRKƏ**

Hörmətli cənab Prezident!

Sloveniya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Sloveniya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Əminəm ki, dost ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığın dərinləşdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sloveniya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyun 2012-ci il*

## ABŞ-ın DÖVLƏT KATİBİ XANIM HİLLARİ KLİNTON İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da ABŞ-ın Dövlət katibi xanım Hillari Klintonu qəbul etmişdir.*

*ABŞ-ın Dövlət katibi xanım Hillari Klintonun Azərbaycana növbəti səfərindən məmnunluğunu bildirən dövlətimizin başçısı bunu ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrinin göstəricisi kimi dəyərləndirdi. Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında iqtisadi, enerji, regional təhlükəsizlik, siyasi islahatlar, münaqişənin nizama salınması və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunan prezident İlham Əliyev ikitərəfli əlaqələrimizin uğurla inkişaf etdiyini bildirdi.*

*Xanım Hillari Klinton yenidən Bakıya səfərindən və ikitərəfli əlaqələrimizlə bağlı Azərbaycan prezidenti ilə məsləhətləşməkdən məmnun olduğunu dedi. Hillari Klinton Azərbaycan prezidenti İlham Əliyevin NATO-nun Çikaqo sammitində iştirakının önəmini qeyd etdi. Ölkələrimizin bir çox sahələrdə uğurlu əməkdaşlıq etməsinin əhəmiyyətini vurğulayan ABŞ-ın Dövlət katibi ölkəsinin Azərbaycan ilə sıx və strateji tərəfdaşlıq əlaqələrinin olmasını məmnunluqla qeyd etdi. O, Azərbaycanın regionda mühüm rolunu vurğuladı. Xanım Hilları Klinton ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı müzakirə olunacaq məsələlərin geniş gündəliyə malik olduğunu dedi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, ölkələrimizin enerji və digər sahələrdə əməkdaşlığının genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## NİDERLANDIN İQTİSADİ MƏSƏLƏLƏR, KƏND TƏSƏRRÜFATI VƏ İNNOVASİYALAR NAZİRLİYİNİN XƏZƏR REGİONUNUN ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ TAPŞIRIQLAR SƏFİRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Niderland Krallığının İqtisadi Məsələlər, Kənd Təsərrüfatı və İnnovasiyalar Nazirliyinin Xəzər regionunun enerji məsələləri üzrə xüsusi tapşırıqlar səfiri Rene van der Lindeni qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Niderland şirkətlərinin Azərbaycanda səmərəli fəaliyyətinə toxunan prezident İlham Əliyev bu əməkdaşlığı daha da genişləndirməyin önəmini qeyd etdi.*

*Niderland Krallığının İqtisadi Məsələlər, Kənd Təsərrüfatı və İnnovasiyalar Nazirliyinin Xəzər regionunun enerji məsələləri üzrə xüsusi tapşırıqlar səfiri Rene van der Linden ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişafını yüksək qiymətləndirdi. Əlaqələrimizin genişləndirilməsində qarşılıqlı işgüzar səfərlərin əhəmiyyətini qeyd edən niderlandlı qonaq Bakıda keçirilən XIX Beynəlxalq «Xəzər neft, qaz, neft emalı və neft kimyası» sərgi və konfransında ölkəsinin geniş şəkildə təmsil olunduğunu məmnunluqla vurğuladı.*

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi, Baş nazirin müavini və Daxili İşlər naziri, görkəmli dövlət xadimi qardaşınız Nayif bin Əbdüləziz Al Səudun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, bütün ailənizə, qardaş Səudiyyə Ərəbistanı xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 iyun 2012-ci il*

## ALBANİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BUYAR NİŞANİYƏ

Hörmətli cənab Prezident!

Albaniya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Albaniya münasibətləri, dostluq və əməkdaşlıq əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Albaniya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyun 2012-ci il*

# DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ KEÇMİŞ VƏ YENİ REGİONAL DİREKTORLARI ƏSƏD ALAM VƏ HENRİ KERALİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Dünya Bankının Cənubi Qafqaz üzrə keçmiş regional direktoru Əsəd Alamı və bu vəzifəyə yeni təyin olunmuş Henri Keralini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Dünya Bankı arasında əlaqələrin inkişafına verdiyi töhfəyə görə Dünya Bankının Cənubi Qafqaz üzrə keçmiş regional direktoru Əsəd Alama təşəkkürünü bildirdi. Müstəqilliyimizin ilk illərində Dünya Bankının dəstəyi ilə mühüm işlərin həyata keçirildiyini vurğulayan prezident İlham Əliyev ölkəmizin gələcək inkişafı ilə bağlı yaxşı perspektivlərin və çoxlu planların olduğunu dedi. Dövlətimizin başçısı Azərbaycan ilə Dünya Bankı arasında müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı, səhiyyə, bərpa olunan enerji sahələrində və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi.*

*Əsəd Alam Azərbaycanda fəaliyyət göstərməsindən qürur hissi keçirdiyini vurğuladı. O, Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı prezident İlham Əliyevin verdiyi tövsiyələrin önəmini qeyd etdi.*

*Dünya Bankının Cənubi Qafqaz üzrə yeni direktoru Henri Keralin təmsil etdiyi qurumun Azərbaycan ilə əməkdaşlığın bundan sonra da genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini dedi.*

## «İQTİSADİYYATIN İNKİŞAFINDA ANTİİNHİSAR SİYASƏTİNİN ROLU» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi ölkəmizdə antiinhisar fəaliyyətini həyata keçirən qurumun yaradılmasının 20-ci ildönümünə həsr olunmuş beynəlxalq konfransın öz işinə başlaması münasibətilə təbrik edirəm, hər birinizə cansağlığı və gələcək işlərinizdə müvəffəqiyyətlər diləyirəm.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra bazar iqtisadiyyatının əsaslarının formalaşması məqsədi ilə köklü islahatlar gerçəkləşdirilmişdir. Sosial-iqtisadi inkişafın davamlı artım tempinə nail olan ölkəmizdə həyat səviyyəsinin yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülmüş və böyük irəliləyişlər əldə edilmişdir.

İnhisarçılığın, haqsız rəqabətin və süni qiymət artımının qarşısının alınması dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindəndir. Əmtəə və xidmət bazarlarında istehlakçıların hüquqlarının qorunmasını təmin edən etibarlı mexanizmin tətbiqi üçün bütün lazımi şərait mövcuddur. Bununla əlaqədar qanunvericilik bazasının təkmilləşdirilməsi daim diqqət mərkəzində saxlanılır.

İnanıram ki, konfransınızın gedişində aparılan müzakirələr və təcrübə mübadiləsi qarşılıqlı faydalı əməkdaşlığın daha da dərinləşməsi işinə töhfəsini verəcək və onun səmərəli nəticələri iştirakçı ölkələrin iqtisadiyyatının gələcək perspektivləri baxımından əhəmiyyətli olacaqdır.

Konfransın işinə uğurlar arzulayıram!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyun 2012-ci il*

# «2011–2013-cü İLLƏRDƏ BAKI ŞƏHƏRİNİN VƏ ONUN QƏSƏBƏLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR DÖVLƏT PROQRAMI»NIN İCRASININ BİRİNCİ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA İŞTİRAK

*Bakı şəhər meriyası*

*20 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə iyunun 20-də «2011–2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfrans keçirilmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Dövlət Proqramının birinci ili çərçivəsində Bakı şəhərində və ətraf qəsəbələrdə həyata keçirilən yenidənqurma tədbirlərini əks etdirən fotostendlərlə tanış oldu.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov Dövlət Proqramının birinci ili çərçivəsində görülən işlər və nəzərdə tutulan layihələr barədə Azərbaycan prezidenti İlham Əliyevə məlumat verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev konfransı giriş nitqi ilə açdı:*

– Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı keçən ilin may ayında təsdiq edilmişdir. Keçən ilin mart ayında isə biz bu salonda gələcək proqramın konturları haqqında geniş fikir mübadiləsi aparmışdıq. May ayında proqram təsdiq olunmuş və icra edilməyə başlanmışdır.

Deyə bilərəm ki, Bakı şəhərinin və onun qəsəbələrinin inkişafına dair bu Proqram birinci proqram deyildir. Birinci proqram 2005-ci ildə tərtib edilmişdir. 2005-ci ildə Bakı

qəsəbələrinin sosial-iqtisadi inkişafını sürətləndirmək üçün konkret tədbirlər görülmüşdür. O tədbirlər 2006–2007-ci illəri əhatə edir. Bu da təbiidir, çünki 2004-cü ildə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilmişdir. Biz əsas diqqəti bölgələrin inkişafına yönəltmişdik. Əlbəttə, Bakı şəhəri və onun qəsəbələri də diqqətdən kənarda qalmamalı idi. Bu məntiqi ardıcıllıq onu göstərir ki, ölkə qarşısında, bütün bölgələr qarşısında duran vəzifələr ardıcıllıqla və məqsədyönlü şəkildə öz həllini tapmaqdadır.

Bakı şəhərinin inkişafına dair birinci proqram qısamüddətli idi. Proqramın icrası nəticəsində müəyyən işlər görüldü. Ancaq şəhər inkişaf edir, əhali artır. Ölkəmizin həm sənaye, həm iqtisadi potensialı artır. Qarşımıza yeni vəzifələr qoyulur. Bu, daimi proses olmalıdır və buna görə keçən il qarşıya yeni proqramın qəbul edilməsi məsələləri qoyuldu. Çox şadam ki, proqramın təsdiq edildiyi gündən dərhal sonra qəsəbələrdə və Bakı şəhərində işlər daha da sürətlə getməyə başlamışdır. Bir daha demək istəyirəm ki, bu proqram ümumi Azərbaycan dövlətinin, Azərbaycanın bölgələrinin sosial və iqtisadi inkişafının sürətləndirilməsi üçün qəbul edilmiş proqramdır. Bütövlükdə 2008-ci ildə hazırlanmış və 2009-cu ildə təsdiqlənmiş Azərbaycanın bütün bölgələrinin inkişafına dair Dövlət Proqramı 2013-cü ilə qədər hesablanmışdır.

Əminəm ki, 2013-cü ilin sonuna qədər həm bölgələrdə, həm Bakıda və qəsəbələrində əsas sosial-iqtisadi və infrastruktur məsələləri öz həllini tapacaqdır və biz bu məqsədə çatacağıq, bu vəzifəni icra edəcəyik. Çünki bu günə qədər qarşımıza qoyduğumuz bütün vəzifələr keyfiyyətlə və vaxtında icra edilmişdir.

Ölkəmizin ümumi iqtisadi inkişafı bizə belə böyükhəcmli proqramların icrasına şərait yaradır. Bu iqtisadi inkişafı isə biz yaratmışıq, öz əməyimizlə, zəhmətimizlə, düşünülmüş siyasətlə. Əgər ölkəmizin ümumi sosial və iqtisadi göstəricilərini təhlil etsək görərik ki, son 8-9 il ərzində dünyada Azərbaycan kimi inkişaf edən ikinci ölkə yoxdur. Bütün iqtisadi göstəricilər buna

dələlət edir. Ölkənin iqtisadiyyatı 3 dəfə artmışdır. Sənaye potensialı da 3 dəfə artmışdır. Yoxsulluq 5 dəfə azalmışdır. İşsizlik əhəmiyyətli dərəcədə azalmışdır və bu gün inkişaf etmiş ölkələrdə olan səviyyədən aşağıdır – 5,4 faizdir. Bu illər ərzində ölkəmizdə 1 milyondan artıq iş yeri açılmışdır. Bu iş yerlərinin mütləq əksəriyyəti daimidir.

Bu proqramların və təşəbbüslərin icrası nəticəsində ölkəmizin uğurlu inkişafına təkan verildi. Hazırda ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində konkret tədbirlər görülür və bu tədbirlər öz səmərəsini verməkdədir. Beynəlxalq maliyyə qurumları, kredit reytinq agentlikləri Azərbaycandakı vəziyyəti çox müsbət qiymətləndirirlər. Onlar Azərbaycanda əldə edilmiş nailiyyətləri başqa ölkələr üçün də nümunə kimi təqdim edirlər.

Neçə ildir ki, dünyada maliyyə və iqtisadi böhran davam edir. Bu böhranın növbəti dalğası başlanmışdır. Ancaq nə 2008–2009-cu illərdə, nə də indiki dövrdə Azərbaycanda bu böhranın fəsadları hiss edilmədi. Vətəndaşların maddi rifahı yüksəldi. Azərbaycanda maaşlar, pensiyalar, sosialyönümlü təşəbbüslər ildən-ilə artır, sovet vaxtından qalan əmanətlərin kompensasiya şəklində əhaliyə verilməsi məsələləri həll olunur. İnkişaf etmiş ölkələrdə böhran nəticəsində işsizlik, sosial ədalətsizlik artmış, kütləvi iğtişaşlar artıq gündəlik xarakter almışdır. Kütləvi ixtisarlar baş verir. Əmək haqları, pensiyalar kəsilir. Azərbaycanda isə biz bunun əksini görürük. Azərbaycanda sürətli inkişaf, bütün sektorlarda müşahidə olunan canlanma, ildən-ilə sosial məsələlərin həllində əldə edilmiş uğurlar, pensiyaların, əmək haqlarının qaldırılması və keçən il pensiyaların əhəmiyyətli dərəcədə artırılması həm sosial ədalət prinsiplərinə uyğundur, eyni zamanda, insanların maddi rifahını yaxşılaşdırmaq üçün çox ciddi vasitədir.

Əlbəttə, uğurlarımızın təməlində iqtisadi islahatlar dayanır. Bu iqtisadi islahatlar bizə imkan verir ki, istənilən sahədə konkret proqramları icra edək. Azərbaycanda icra edilən proqramların özəlliyi ondan ibarətdir ki, bu proq-

ramlar konkret xarakter daşıyır. Bu hansısa bir şüar xarakteri daşımır, yaxud da ki, təbliğat naminə qəbul edilmir. Hər bir proqramın təməlində konkret vəzifə, maddi resurslar, maliyyə resursları dayanır, texniki imkanlar təhlil edilir. Bizim texniki imkanlarımız da genişlənir. Əlbəttə ki, proqramların icrasını insanlar təşkil edirlər. İnsanların həm peşəkarlığı, həm də ki, öz vəzifə borclarını şərəflə yerinə yetirmələri məsələləri daim diqqət mərkəzindədir. Mən deyə bilərəm ki, ölkəmizdə bütün proqramların tam əksəriyyəti uğurla icra edilir.

Bizim gələcək iqtisadi inkişafımız çox müsbət olacaqdır. Çünki artıq əldə edilmiş təcrübə və nəticələr bunu deməyə əsas verir. Strateji baxışlarımız da ölkəmizin hərtərəfli inkişafına yönəldilib. «Azərbaycan – 2020» Proqramı və Dövlət Konsepsiyası hazırlanmışdır. Eyni zamanda, 2013–2023-cü illəri əhatə edən gələcək inkişaf proqramının konturları artıq müəyyən edilibdir. Bir müddət bundan əvvəl mən qarşıya vəzifə qoymuşam ki, 2013–2023-cü illərdə Azərbaycanın ümumi daxili məhsulu qeyri-neft sektorunun hesabına iki dəfə artmalıdır. Bu, nəticə etibarilə Azərbaycanı yüksəkgəlirli ölkələr sırasına daxil edəcəkdir. Vəzifə məhz belə qoyulub, Azərbaycan inkişaf etmiş ölkəyə çevrilməlidir. Qarşıya bu vəzifə qoyulub və biz bu vəzifəyə çatacağıq.

Bir daha demək istəyirəm ki, ölkəmizin gələcək inkişafı ilə bağlı cəmiyyətdə də heç bir fikir ayrılığı yoxdur. Cəmiyyət, Azərbaycan vətəndaşları təşəbbüslərimizi dəstəkləyir, aparılan siyasəti bəyənirlər. Azərbaycanda hökm sürən sabitlik, vətəndaş həmrəyliyi, vətəndaş birliyi, iqtisadi inkişaf bizim ümumi siyasətimizin təzahürüdür. Siyasi sabitlik olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Ancaq inkişaf özlüyündə həm ölkənin güclənməsinə gətirib çıxarmalıdır, həm də ilk növbədə insanların rifah halını yaxşılaşdırmalıdır. Bizdə, Azərbaycanda bu istiqamətdə işlər görülür.

İqtisadi islahatlar bəzi hallarda çox böyük çətinliklər gətirir. Köklü iqtisadi islahatlar, xüsusilə böyük məhrumiyyətlərlə müşayiət olunur. Biz köklü iqtisadi islahatlar aparmışıq. Çünki

planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid dövrünü uğurlu qət etmişik və sosial məsələlər bu müddət ərzində daim diqqət mərkəzində idi.

İnkişaf etmiş ölkələrdə də, konseptual yanaşmalarda da müəyyən dəqiqləşmələr aparılır. Sırf bazar iqtisadiyyatı prinsipləri bəzi hallarda insan amilini tamamilə kənara qoyur. Azərbaycanda isə həm bazar iqtisadiyyatı prinsipləri tam şəkildə bərqərar olunub və iqtisadiyyatımızın 83 faizi özəl sektorda formalaşır, həm də sosial proqramlar icra edilir. Ölkəmizin gələcək iqtisadi inkişafı çox müsbət olacaq və bu, imkan verəcək ki, biz bütün proqramları vaxtında və böyük keyfiyyətlə icra edək.

«Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı» artıq bir ildir ki, icra edilir. Ötən ilin may ayında proqram təsdiqləndi və bu gün biz bir ildə görülən işlər haqqında danışacağıq. Proqram hazırlanarkən mən qəsəbələrdə dəfələrlə olmuşdum, ümumiyyətlə, mütəmadi qaydada həm bölgələrdə, həm Bakıətrafı qəsəbələrdə oluram, vəziyyətlə yerində tanış oluram. Amma o ərəfədə daha sıx-sıx gedirdim. Çünki istəyirdim ki, bir daha vəziyyətlə yaxından tanış olum, insanların fikirlərini öyrənim və proqramın tərkibində olan maddələr, onların müəyyən hissəsi yerlərdən gələn təkliflər əsasında oraya salınıb. Qəsəbədə yaşayan insanlar daha yaxşı bilirlər ki, onların problemləri nədən ibarətdir və bu problemlər necə həll olunmalıdır. Proqramda, demək olar ki, yerlərdən gələn bütün təkliflər öz əksini tapmış və dərc edilmişdir. Hər bir vətəndaş onunla tanış ola bilər.

Ancaq bir ilin təcrübəsi onu göstərir ki, ortaya əlavə məsələlər çıxır. Bu məsələləri biz özümüz ortaya çıxarırıq. Çünki icra zamanı bir il əvvəl bu məsələlər o qədər də aktual deyildi. Misal üçün, ilk növbədə qəzalı vəziyyətdə olan məktəblərin yenidən qurulması, tikilməsi məsələlərini qarşıya qoymuşduq. Ona görə hansı məktəb qəzalı vəziyyətdədir, hansı məktəb qəzalı vəziyyətdə deyil, bunu müəyyən etmək o qədər də asan məsələ deyildir. İndi qəzalı məktəblərin məsələləri həll olunur, ancaq yaxşı təmir olunmayan

məktəblərin bərpası məsələləri ortaya çıxır. Biz təklif veririk ki, bu məqsədlər üçün əlavə vəsait ayrılsın.

Uşaq bağçalarının təmir, tikintisi məsələləri həllini tapmaqdadır. Ancaq mən bu müddətdə də dəfələrlə uşaq bağçalarında olmuşam və görürəm ki, artıq uşaqların müəyyən edilmiş indiki say tərkibi bizi qane etmir. Çünki bu bağçalar 30–40 il əvvəl tikilmişdir. Şəhərin əhalisi artır, tələbat artır, ailələr var ki, növbədə dayanıb. Xüsusilə valideynlər öz uşaqlarını yeni təmir edilmiş uşaq bağçalarına yerləşdirmək istəyirlər. Beləliklə, yeni bağçaların tikintisi məsələləri ortaya çıxır. O bağçaların tikintisi üçün ya yeni yerlər ayrılmalıdır, ya mövcud olan yerlərdə əlavə korpuslar tikilməlidir. Belə məsələlər çoxdur və proqrama əlavələr ediləcəkdir. Bu məqsədlə hökumətə tapşırıq verilmişdir və büdcəmizin icrası nəticəsində əlavə gəlirlərin əldə edilməsi bizə imkan verir ki, o gəlirlərin müəyyən hissəsini bu proqramın icrasına yönəldək və proqramın maliyyə bazasını genişləndirək.

Qəsəbələrdə olan vəziyyət bizə bəllidir. Qarşıya vəzifə qoyulubdur ki, qəsəbələrdə bütün sosial-iqtisadi infrastruktur məsələləri öz həllini tapsın və bu bir il ərzində biz bu işlərin uğurlu icrasını görürük. Bu barədə bu gün daha geniş danışılacaqdır.

Ancaq prinsip etibarilə Proqramda əsas infrastruktur məsələlərinin – ilk növbədə, su və kanalizasiya layihələrinin həlli nəzərdə tutulur. Ümumiyyətlə, heç vaxt, heç bir dövrdə Bakı qəsəbələrində kanalizasiya sistemi olmamışdır. Bakı şəhərində də kanalizasiya sistemi bizim tələblərimizə cavab vermir. Bütün dövrlərdə daim su qıtlığı yaşanmışdır və insanlar bir növ buna öyrəşmişdilər. Halbuki bu, qeyri-normal vəziyyətdir, içməli su daim olmalıdır. Elektrik enerjisi ilə təchizat, qazlaşdırma, istiliklə bağlı məsələlər, yolların çəkilişi – qəsəbədaxili, qəsəbələrarası yollar, magistral yollar, sosial obyektlərin tikilməsi, məktəblər, tibb məntəqələri, mədəniyyət ocaqları, idman qurğuları. Yəni elə bir məsələ yoxdur ki, o proqramlarda öz əksini tapmasın.

Yenə də deyirəm ki, bu Proqramın üstünlüyü ondan ibarətdir ki, dövlət tərəfindən, Prezident tərəfindən təşəbbüs olaraq irəli sürülmüşdür. Ancaq Proqramın tərkibində olan məsələlərin bir çoxu xalq tərəfindən təklif formasında göndərilmişdir. Tam əminəm ki, bu Proqramın icrası nəticəsində qəsəbələrdə yaşanan bütün infrastruktur, sosial və iqtisadi problemlər həllini tapacaqdır.

Bununla yanaşı, biz Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətinə də dəstək olaraq dövlət büdcəsindən əlavə vəsait ayırmaqla bu vəsaiti qəsəbələrdə iş yerlərinin açılmasına yönəltmişik. Bildiyiniz kimi, əvvəlki dövrdə bu Fonddan daha çox bölgələrdə gedən iqtisadi inkişaf məsələləri öz həllini tapırdı. Bu da təbiidir. Çünki məqsədimiz bölgələri canlandırmaq olub. Ancaq qəsəbələrdə də iş yerləri problemi, işsizlik vardır. Beləliklə, bu ildən başlayaraq Fondun vəsaitinin müəyyən hissəsi, təqribən 30–40 faizi qəsəbələrdə yeni müəssisələrin yaradılmasına yönəldilibdir. Buradakı foyedə göstərilən stendlərdə artıq o vəsaitlə yaradılan ilkin müəssisələrin şəkilləri də vardır. Bu məsələ də öz həllini tapmalıdır. Qəsəbələrdə təkcə yol, qaz, işıq, su problemləri deyil, işsizlik, məşğulluq məsələləri də öz həllini tapmalıdır.

Bu məqsədlərə çatmaq üçün bizdə həm güclü iradə var, həm də imkanlar vardır. Bu məsələləri yerlərdə icra edən qurumlardan da çox şey asılıdır. Bütün qurumlar – Bakı Şəhər İcra Hakimiyyəti, İqtisadi İnkişaf Nazirliyi, yerli icra orqanları bu vəzifələrə çox vicdanla yanaşırlar. Əminəm ki, bu yanaşma proqramın sonuna qədər və ondan sonrakı dövrdə də davam edəcəkdir. Çünki əsas vəzifəmiz xalqa xidmət etməkdir. Biz – dövlət işində işləyən insanlar prezidentdən tutmuş, ən aşağı səviyyəli məmura qədər insanların xidmətində olmalıyıq. Mən öz vəzifəmi belə başa düşürəm və bu 9 il ərzində belə işləmişəm. Hər kəsdən də bunu tələb edirəm, vicdanla işləmək, peşəkarlıqla xalqa xidmət etmək, ölkəmizi gücləndirmək, doğma Vətənimizi çiçəkləndirmək lazımdır. Bugünkü Azərbaycan xalqı öz

zəhməti hesabına güclənir. Xalq tərəfindən dəstəklənən iqtidar bu inkişafı öz siyasəti ilə şərtləndirir.

Bütün istiqamətlər üzrə konkret proqramımız, bütün məsələlərlə bağlı fikirlərimiz vardır. Azərbaycan reallıqları onu göstərir ki, seçdiyimiz yol düzgün yoldur. Biz bundan sonra da milli maraqlarımızın qorunması üçün həm beynəlxalq arenada, həm bölgədə, həm də ölkə daxilində siyasətimizi davam etdirəcəyik. Bu siyasət, xalqın iradəsinə əsaslanır. Bu siyasətin təməlində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının həyat şəraitini yaxşılaşdırmaq üçün bütün dövlət qurumları daha fəal işləməlidir.

## YEKUN NİTQİ

Beləliklə, bu gün burada səslənən çıxışlarda Bakıda və ətraf qəsəbələrdə gedən işlər haqqında məlumatlar verildi. Deyə bilərəm ki, bütün rayonlarda quruculuq-abadlıq işləri sürətlə gedir. Əminəm ki, bu tempi saxlayacağıq və gələn ilin sonuna qədər Proqram tam şəkildə icra ediləcəkdir. Baxmayaraq ki, çox böyük və çətin bir işdir. Proqram qəbul olunarkən sənədə daxil edilən məsələlərin həlli çox böyük işgüzarlıq, peşəkarlıq və maliyyə vəsaiti tələb edirdi. Nəzərə alsaq ki, hazırda biz Proqrama əlavələr haqqında danışırıq, aydındır ki, onun icrası daha da böyük məsuliyyət tələb edəcəkdir. Onu da qeyd etməliyəm ki, Proqramın müddəti qısadır. Bu Proqramın icra müddətini uzada da bilərdik. Çünki doğrudan da iki il yarım ərzində bu qədər işlərin görülməsi çox böyük səfərbərlik və peşəkarlıq tələb edən məsələdir. Ancaq hesab edirəm ki, əgər biz indiki templəri saxlaya bilsək, Proqramda nəzərdə tutulmuş bütün məsələləri gələn ilin sonuna qədər həll edə biləcəyik. Bunu etmək üçün və xüsusilə əlavə tədbirlərin görülməsi ilə bağlı yeni maliyyə resurslarını əldə etmək üçün gələn ilin dövlət büdcəsində investisiya proqramında bu məqsədləri təmin etməklə əlaqədar daha da böyük məbləğ nəzərdə tutmalıyıq.

Bu il iqtisadi göstəricilərimiz müsbətdir. Ona görə büdcədə əlavə vəsait yaranmışdır. Bildiyiniz kimi, həmin vəsaitin böyük hissəsi zəlzələdən əziyyət çəkmiş insanların yaşayış səviyyəsinin yaxşılaşdırılmasına yönəldilibdir. Şimal-qərb bölgəsində baş vermiş güclü zəlzələ minlərlə evi yararsız vəziyyətə salmışdır və insanlar böyük çətinliklər çəkirlər. Ona görə büdcədə yaranmış əlavə vəsait ilk növbədə o insanların problemlərinə yönəldilibdir. Yeni tədris ilinə qədər onlarla yeni məktəb tikilməlidir. Minlərlə ev bərpa edilməlidir. Bununla bərabər, Bakıətrafı qəsəbələrin inkişafına müəyyən məbləğ nəzərdə tutulubdur.

Sirr deyil ki, əsas maliyyə yükü gələn ilə düşəcəkdir. Gələn il elə etməliyik ki, maliyyə problemlərimiz olmasın. Əgər ölkəmizin ümumi iqtisadi inkişafını biz təmin edə bilsək – mən buna şübhə etmirəm – bizdə maliyyə problemi olmayacaqdır. Qarşımızda təkcə bu maliyyədən səmərəli istifadə etmək, işi keyfiyyətlə və vaxtında görmək məsələləri dayanacaqdır. Bu məqsədlərə çatmaq üçün Proqramın icrası ilə bağlı əlaqələndirmə işləri gücləndirilməlidir. Çünki Proqramın icrasında həm şəhər və rayon icra orqanları, həm də dövlət qurumları fəal iştirak edirlər. Bu qurumlar arasındakı əlaqələndirmə işlərini daha da keyfiyyətli şəkildə təmin etmək üçün böyük diqqət göstərilməlidir.

Proqramın icrası ilə Bakı Şəhər İcra Hakimiyyəti və İqtisadi İnkişaf Nazirliyi ilk növbədə məşğuldurlar. Əsas məsuliyyət onların üzərinə düşür. Əlaqələndirmə məsələlərinin həllinə gəldikdə, İqtisadi İnkişaf Nazirliyi bu funksiyanı öz üzərinə götürməlidir, daha doğrusu, götürübdür və bütün dövlət qurumları arasındakı uzlaşma, əlaqələndirmə məsələləri öz həllini tapmalıdır.

Nəyə görə bunu deyirəm? Bəzi hallarda müəyyən işləri bəzi qurumlar görür, ondan sonra başqa qurum gəlir, o işlərin elə bil ki, yenidən görülməsinə səbəb olan addımlar atır. Burada ardıcıllıq gözlənilməlidir. İlk növbədə, yeraltı işlərin görülməsi gündəlikdə olmalıdır. Kanalizasiya, yeraltı su, qaz, elektrik

xətlərinin, ondan sonra yolların çəkilişi məsələləri həllini tapmalıdır. Əgər bu ardıcıllıq pozularsa və bu işləri görən qurumlar arasında əlaqələndirmə olmasa, onda biz bir işi iki-üç dəfə görməli olacağıq. Buna isə yol vermək olmaz.

Əlaqələndirmə, ardıcıllıq plan üzrə getməlidir. Bu məsələlərlə bağlı İqtisadi İnkişaf Nazirliyində konkret cədvəl vardır. Hesab edirəm, növbəti mərhələdə – nəzərə alsaq ki, bu gündən başlayaraq gələn ilin sonuna qədər daha böyük işlər görülməlidir – əlaqələndirmə işlərinə daha ciddi diqqət verilməlidir. Nəzarət mexanizmi daha güclü olmalıdır. İşlərin böyük əksəriyyəti keyfiyyətlə görülür. Ancaq son bir il ərzində – keçən ilin may ayından bu günə qədər keçən dövr ərzində siqnallar gəlmişdir ki, bəzi işlər keyfiyyətsiz görülür. Məktəblər keyfiyyətsiz tikilir. Ciddi nəzarət olmalıdır. Keyfiyyətə nəzarət olmasa, bu işin heç bir əhəmiyyəti olmayacaqdır. Bütün işləri qısa müddət ərzində görməliyik, ancaq böyük keyfiyyətlə. Ayrılan vəsaitə də qənaətlə yanaşmaq lazımdır. Ən səmərəli yanaşma tətbiq edilməlidir. Görüləsi işlər hələ çoxdur.

Son bir il ərzində müəyyən işlər görülüb. Amma əsas işlər bundan sonra görüləcəkdir. Bütün infrastruktur layihələrinin görülməsi üçün konkret tapşırıqlar verilib. Bu layihələr çox böyük vəsait tələb edir. Vəsait də nəzərdə tutulub, Proqrama əlavələr üçün də vəsait nəzərdə tutulub. Maliyyə problemlərimiz yoxdur. Əsas məsələ texniki peşəkarlıq, nəzarət, keyfiyyət və bu işləri görən insanların məsuliyyəti dərk etməsidir.

Qazlaşdırma ilə bağlı Bakıda və ətraf qəsəbələrdə, demək olar ki, əsas işlər görülüb. Bəzi yerlərdə təzyiqin aşağı səviyyədə olması problemlər yaradır. Hesab edirəm ki, bu məsələlər köklü şəkildə öz həllini tapmışdır. Qazlaşdırma təxminən 100 faizə yaxındır. Gələn müddət ərzində qazlaşdırma 100 faiz olmalıdır. Təzyiq də yüksək səviyyədə olmalıdır və heç bir fasilə olmamalıdır.

Elektrik enerjisi ilə təchizatda da heç bir problem yoxdur. Vaxtilə fasilələr də, kəsilmələr də olurdu, bu problem bizi həmişə narahat edirdi. Son illər tikilmiş yeni stansiyaların

fəaliyyətə başlaması, Bakı Elektrik Şəbəkə sisteminin təkmilləşdirilməsi və onun dövlət nəzarətinə qaytarılması nəticəsində bu sahədə də köklü dəyişikliklər baş vermişdir. Beləliklə, Bakı şəhərində və ətraf qəsəbələrdə işıqla problem, demək olar ki, yoxdur.

Bununla bərabər, bəzi küçələrdə işıq dirəkləri yoxdur. Mərkəzi küçələrdə, hər yerdə gözəl işıq dirəkləri quraşdırılıbdır. Onlar həm yaxşı işıq verir, həm də ki, zövq oxşayır. Amma kənar küçələrin bir çoxunda işıq dirəkləri, ümumiyyətlə, yoxdur, işıq xətləri çəkilməyib. Bir müddət bundan əvvəl mən qarşıya vəzifə qoymuşam ki, bu məsələyə də diqqət göstərilsin. Tədricən bu işlər görülməyə başlanmışdır. Elə etməliyik ki, gələn ilin sonuna kimi Bakı şəhərinin bütün küçələrində müasir işıq dirəkləri və daim, davamlı işıq olsun.

Su və kanalizasiya məsələlərinin həlli əsas diqqəti cəlb etməlidir. Çünki problem bütün dövrlərdə aktual idi. Biz isə bu problemi köklü şəkildə həll etmək əzmindəyik. Bakı şəhərinin kanalizasiya layihəsi icra edilir. Müəyyən işlər görülüb, daha da böyük işlər görülməlidir ki, ən müasir standartlara cavab verən sistem yaradılsın. Bakını içməli su ilə təchiz etmək üçün böyük işlər görülür. Oğuz–Qəbələ–Bakı su kəmərinin istismara verilməsi bu sahədə atılmış böyük addımdır. Əlavə tədbirlərin görülməsi və «Azərsu» şirkətinin yeni təklifləri imkan verəcək ki, Bakının su problemlərini köklü şəkildə həll edək.

İndi yaxşılığa doğru addımlar atılıbdır. Ancaq biz bu vəziyyətlə də barışa bilmərik. İndi fasilələr azalıb, suyun verilmə müddəti artırılıb. Ancaq elə etməliyik ki, Bakı şəhərində və Bakı qəsəbələrində 24 saat keyfiyyətli içməli su olsun. Mən qarşıya belə vəzifə qoymuşam. Bu, böyük və çətin problemdir. Bakı böyük şəhərdir. Bakı Cənubi Qafqazın və bölgənin ən böyük şəhəridir. Əhalimiz də artır. Bakının əhalisi 2 milyonu ötübdür. Burada su və kanalizasiya problemlərinin həlli həm çox böyük maliyyə vəsaiti, həm də texniki imkanlar tələb edir. Ancaq qarşıya bu vəzifə qoyulub. Biz bu vəzifəyə doğru getməliyik. Görülən işlər nəticəsində yeni sutəmizləyici

qurğular tikilməkdədir. Bakıda yeni su anbarları tikilir ki, ümumiyyətlə, onlar heç vaxt olmamışdır. Anbarlar olmadan şəhəri dayanıqlı şəkildə su ilə təmin etmək mümkün deyildir. Sutəmizləyici qurğular, süzgəclər və xətlər dəyişdirilməlidir, yenilənməlidir. Bu, böyük işlər, böyük peşəkarlıq tələb edən məsələlərdir. Ancaq vəzifə belə qoyulub ki, Bakının su problemi birdəfəlik həll edilsin və icra olunan bu layihə gələcəyə də hesablansın. Əhali artır, tələbat artır, iqtisadiyyat artır, sənaye potensialı artır. Biz uzunmüddətli strategiyamızı ona əsasən hesablamalıyıq.

Bununla paralel olaraq, bütün bölgələrdə, bütün rayon mərkəzlərində və bəzi kəndlərdə indi böyük su-kanalizasiya layihələri icra edilir. Bölgələrdə isə, ümumiyyətlə, su problemi heç vaxt lazımi səviyyədə olmamışdır. Kanalizasiya, ümumiyyətlə, yox idi. Ona görə bütün rayon mərkəzlərini su və kanalizasiya ilə təmin etmək üçün indi konkret tapşırıqlar verilmişdir. Bu proqramı da çalışmalıyıq gələn ilin sonuna qədər yekunlaşdıraq. Əgər buna imkan olmasa, 2014-cü ilin sonuna qədər bütün rayon mərkəzlərinin və ətraf böyük kəndlərin su-kanalizasiya problemləri həll edilməlidir.

O ki qaldı Bakı şəhərinə, bir daha demək istəyirəm, qarşıya vəzifə qoyulubdur ki, hər bir yerdə 24 saat, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun səviyyədə təmiz içməli su təmin edilsin. Su sayğaclarının quraşdırılması prosesi daha da sürətlə getməlidir. Vaxtilə heç qaz, işıq sayğacları da olmamışdır. Biz yaxşı xatırlayırıq ki, bu sahədə nə qədər böyük pozuntular olmuşdur, nə qədər böyük problemlər yaranmışdır. Yığım çox aşağı səviyyədə idi – 8 faiz, 10 faiz. Yadımdadır, 7-8 il bundan əvvəl yığım 20 faizi keçmirdi. İndi qaz, elektrik enerjisi yığımında biz təxminən 100 faizə yaxınlaşmışıq. Nəyin hesabına? Nizam-intizam gücləndirildi, qanunsuz əməllərə son qoyuldu və müasir sayğaclar quraşdırıldı. Artıq vətəndaş bilir nəyin pulunu ödəyir. «Smart-kart» sayğaclarının quraşdırılması da, hesab edirəm ki, çox uğurlu təşəbbüs idi.

İndi hər bir vətəndaş qazı kartla almaqla rahat ödəmələr aparır və nəzarətçi ilə artıq heç bir əlaqə, ünsiyyət yoxdur. Bu həm də korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə çox ciddi vasitədir. Su sayğaclarının quraşdırılması da davam edir və daha sürətlə getməlidir. Biz buna nail olsaq – əminəm ki, olacağıq – bu sahədə də nizam-intizam yaradılacaqdır.

Bu layihələr istilik təchizatının yaxşılaşdırılması məsələləri ilə paralel şəkildə aparılmalıdır. Biz bu məsələlərə də həmişə diqqət vermişik. Son bir neçə il ərzində bu sahədə də dönüş yaranmışdır. «Azəristiliktəchizat» təşkilatı yaradılmışdır. Bütün istilik təsərrüfatı orada cəmləşmişdir. Artıq bu proses gedir və vaxtilə istiliyi kəsilmiş evlərə yeni layihələrin icrası nəticəsində istilik verilir. Bu həm ucuz enerjidir, həm elektrik enerjisinə qənaətdir, həm də insanların maddi rifahına dəstəkdir. Çalışmalıyıq ki, bu prosesi sürətləndirək. Məndə olan arayışa görə, son müddət ərzində yüzlərlə ev, demək olar ki, bütün məktəblər, uşaq bağçaları, səhiyyə obyektləri istiliklə təchiz edilmişdir. Ancaq o illəri də xatırlayırıq ki, istilik, demək olar, heç yerdə yox idi. Bu sahə ilə bağlı mən ciddi məşğul olmuşam. Bilirəm ki, bəzi hallarda vaxtilə təchizatın kəsilməsi nəticəsində batareyalar da kəsilmişdir. O evlərə gedən xətlər də kəsilmişdir. Onları bərpa etmək çətindir. Ancaq çalışmalıyıq ki, bu işlər daha da sürətlə getsin.

Yol təsərrüfatının təmiri və tikintisi layihələri Bakıda uğurla gedir. Deyə bilərəm ki, Bakı şəhərində bu sahədə aparılan işlər bəlkə də heç bir başqa şəhərdə aparılmır. Son illər ərzində 30-dan çox böyük yol qovşağı, tunellər, körpülər tikilmişdir. Onlar həm də memarlıq abidələridir, əgər vaxtilə biz bu layihələrə başlamasaydıq, indi Bakının nəqliyyatı iflic vəziyyətə düşərdi. Çünki biz təqribən 2006–2007-ci illərdə artıq birinci layihələri icra etməyə başlamışdıq. Bu gün Bakını son 5 il ərzində tikilmiş, bax, bu körpülərsiz, yol qovşaqlarsız təsəvvür etmək çətindir. Hamımız yaxşı xatırlayırıq ki, Bakı–aeroport yolunda neçə dairə var idi. Hər bir dairədə insanlar saatlarla dayanırdılar. Əgər biz dairələri ləğv etməsəydik, yeni qovşaqlar

yaratmasaydıq, indi Bakıdan aeroporta getmək üçün ən azı 2 saat vaxt lazım olacaqdı.

Təkcə Bakı–aeroport yolu deyil, başqa istiqamətlərdə də yol qovşaqları tikilir, yollar genişləndirilir, yeni yollar salınır. Bəzi hallarda sənaye obyektləri köçürülür. Baxmayaraq ki, yenə də deyirəm, 30-dan çox yol qovşağı tikilmişdir, yeni yollar, yeni arteriyalar, yeni damarlar çəkilir və bu proses davam etdirilir. Yeni layihələr, yeni planlar vardır. Biz bu planları icra edəcəyik. Qəsəbədaxili yollar diqqət mərkəzində olmalıdır. Qeyd etdiyim kimi, ardıcıllıqla. Çünki Bakı qəsəbələrində – qəsəbə sakinləri bunu yaxşı bilirlər – yolların əksəriyyəti torpaq yollar idi. Mən də qəsəbələrdə tez-tez olaraq bu məsələyə fikir vermişəm, diqqət göstərmişəm. Qarşıya vəzifə qoyulmuşdur ki, Bakı qəsəbələrində torpaq yol olmamalıdır. Heç kəndlərdə, bölgələrdə də olmamalıdır. İndi görürsünüz, bölgələrdə kənd yollarının tikintisinə Prezidentin ehtiyat fondundan nə qədər vəsait ayrılır ki, kəndlərə gedən yollar da asfalt yollar olsun. Ancaq Bakı qəsəbələrində torpaq yolların mövcudluğu, ümumiyyətlə, dözülməzdir. Ona görə su-kanalizasiya layihələri başa çatdıqdan sonra, yaxud onlarla paralel olaraq qəsəbədaxili yolların hamısı asfaltlanmalıdır, genişləndirilməlidir və rahat şərait yaradılmalıdır.

Qəsəbələrarası yolların bəziləri magistral yolların bir hissəsidir. Misal üçün, hazırda Bakı–Bilgəh–Sumqayıt yolunun tikintisi aparılır. Bu yolun üzərində bir neçə kənd yerləşir və beləliklə, biz qəsəbələrarası yolların həllinə də nail oluruq. Bu da çox böyük yoldur, yeni yoldur. Bu yolun çəkilişi qəsəbələr arasında nəqliyyatın hərəkətini asanlaşdıracaq, Bakını Sumqayıt ilə yeni gözəl dənizkənarı yolla birləşdirəcəkdir.

İndi Bakı şəhərində digər layihələr də icra edilməkdədir. Yeni ideyalar, yeni təkliflər, fikirlər vardır. Bu, daimi proses olmalıdır və biz bu işləri görməklə həm indiki vəziyyəti yaxşılaşdırırıq, həm də gələcəyə əsas zəmin yaradırıq. Çünki Bakı şəhəri böyüyəcəkdir. Buna heç kimin şübhəsi olmasın. Bu gün Bakının əhalisi 2 milyondan artıqdır. Ancaq dünyanın elə

şəhərləri var ki, onların əhalisi 5 milyon, 6 milyon, 7 milyon səviyyəsindədir.

Bizdə iqtisadi inkişaf sürətlidir. Əhalinin artması prosesi müsbət istiqamətdə gedir. Artıq 9 milyon 200 min əhalimiz vardır və son illər ərzində statistika onu göstərir ki, doğuşlar daha da çoxalır. Bu məni çox sevindirir və əvvəlki dövrlə müqayisədə dünyaya daha da çox körpə gəlir. Beləliklə, Bakının, Azərbaycanın əhalisi artacaq və biz bütün infrastruktur layihələrimizi gələcəyə – 30 il, 40 il bundan sonrakı dövrə hesablamalıyıq. Elə şərait yaratmalıyıq ki, onilliklər bundan sonra, bax, bu gün icra olunan layihələr insanlara xidmət göstərsin. Necə ki, biz bu gün 20 il, 30 il, 40 il bundan əvvəl görülmüş işlərdən bəhrələnirik, onlardan istifadə edirik, eləcə də gələcək nəsillər də bu gün bizim gördüyümüz işlərdən bəhrələnməlidirlər. Bu həm yol-nəqliyyat infrastrukturuna, həm də bütün başqa sahələrə aiddir.

Nəqliyyata gəldikdə, bu sahədə də müsbət meyillər müşahidə olunur. Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi yaradılıbdır. Bu da dünya miqyasında nadir bir sistemdir. Yeni avtobuslar, yeni taksilər gətirilir. Bütün bunlar insanların rahatlığı üçün edilir.

Metro tikintisi sürətlə gedir, daha da sürətlə getməlidir. Çünki biz Metronun Uzunmüddətli İnkişaf Planını qəbul etdik və qarşıya vəzifə qoyuldu ki, 2030-cu ilə qədər Bakıda metro stansiyalarının sayı 70-ə çatsın. Nəzərə alsaq ki, bizim indi 23 stansiyamız var, onlardan 3-ü son illər ərzində tikilmişdir. Beləliklə, ildə Bakıda bir neçə stansiya tikilməlidir. Bu sahəyə daha da böyük diqqət göstərilməlidir. Özümüzün texniki imkanlarımız, şirkətlər vardır. Amma iş həcminin böyük olduğunu nəzərə alaraq hesab edirəm, bu layihəyə xarici şirkətləri də cəlb edə bilərik ki, işlər daha da sürətlə getsin. 2030-cu ilə qədər təqribən 50-yə yaxın yeni stansiyanın tikintisini təmin etmək üçün orta hesabla ildə bir neçə stansiya təhvil verilməlidir.

Bu da çox böyük layihədir. Ancaq bu da gələcəyə yönəlmiş bir baxışdır. Əgər bu layihəni icra etməsək, nə qədər yol qovşağı tiksək də, Bakının tıxac problemlərindən canımızı qurtara bilməyəcəyik. Böyük şəhərlərdə elə yerlər vardır ki, orada 4-5-6 mərtəbəli yollar tikilir. Elə yollar var ki, o, binaların 6-cı, 7-ci mərtəbəsinin səviyyəsindədir. Nədən belə bir vəziyyət yaranıb? Çünki yolları artıq genişləndirməyə imkan yoxdur. Ona görə öz işimizi elə aparmalıyıq, elə hesablamalıyıq ki, gələcəkdə problem olmasın. Müzakirə etdiyimiz proqramın gələn ilin sonuna qədər, ondan sonra regionların iqtisadi inkişaf Proqramının icrası nəticəsində bütün bu problemlər həll olunacaqdır. Biz gələcək haqqında düşünməliyik və nəqliyyat sektorundakı məsələlər orada prioritetlərdən biridir.

Sosial infrastrukturun təkmilləşdirilməsi ilə bağlı burada çıxışlarda səsləndi ki, neçə məktəb təmir edilib, neçə məktəb tikilib. Bütün göstərişlər verilmişdir. Qəbul edilmiş proqrama əlavə olaraq onlarla yeni məktəbin tikintisi nəzərdə tutulur və əminəm ki, gələn dərs ilinə qədər Bakının bütün məktəb problemləri həll ediləcəkdir – məktəblərin maddi-texniki bazası yenilənəcək, bir dənə də olsun təmirsiz məktəb qalmayacaqdır.

O ki qaldı uşaq bağçalarının vəziyyətinə, bu sahədə hələ görüləsi işlər çoxdur. Çünki uşaq bağçalarının, burada olan uşaqların sayı bizi qane etmir. Məndə olan məlumata görə bu, Bakı şəhərinin tələbatının təqribən 20 faizini təşkil edir. Əgər biz indi bərbad vəziyyətdə olan mövcud uşaq bağçalarını bərpa etsək belə, yenə də bu, problemin həlli deyildir. Problemin həlli ondadır ki, yeni uşaq bağçaları tikilsin. Yaxşı ki, vaxtilə tikilmiş uşaq bağçaları böyük ərazini əhatə edir. İndi həmin ərazidə yeni korpuslar tikilə bilər. Bu da bir yoldur.

Digər yol ondan ibarətdir ki – bu da bizim digər proqramlarımızla uzlaşır – «Qaçqınların və məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət Proqramı»nda erməni işğalından əziyyət çəkmiş soydaşlarımızın köçürülməsi məsələləri dayanmışdır. Bu proqram da icra edilir. Bildiyiniz kimi, çadır şəhərcikləri artıq

beş ildir ki, ləğv edilib. Yataqxanalarda məskunlaşmış soydaşlarımızın evlərə köçürülməsi prosesi gedir. Fin evlərində, uşaq bağçalarında yaşayan köçkünləri də biz normal şəraitlə təmin etməliyik. Bu vəzifə də qarşıya qoyulub və hesab edirəm ki, bu konfransdan sonra bu məsələyə daha da ciddi diqqət göstərilməlidir. Həm Qaçqınkom, həm Bakı Şəhər İcra Hakimiyyəti birgə baxsınlar, cədvəl tutsunlar ki, soydaşlarımızı o uşaq bağçalarından yeni evlərə köçürək, bu bağçaları isə uşaqların sərəncamına verək. Elə hallar var ki, bağçanın bir hissəsində uşaqlar qalır, bir hissəsində isə qaçqın ailələri. Buna artıq dözmək olmaz. Yenə də deyirəm, biz köçkünləri ancaq o vaxt köçürə bilərik ki, onlar üçün lazımi şərait yaradılsın.

Beləliklə, uşaq bağçalarının problemlərinin həlli üçün biz əlavə tədbirlər görməliyik. Burada həm də bağçaların vəziyyəti, təmiri və yemək məsələləri nəzərdə tutulmalıdır. Çünki məktəbdən fərqli olaraq, uşaq bağçalarında körpələr hələ öz hüquqlarını müdafiə edə bilmirlər. Onlara verilən yeməyi yeyir, verilən suyu içirlər. Ona görə, burada bu işlərə rəhbərlik edənlərdən çox şey asılıdır.

Mən çox narahatam və narahat idim ki, gələn siqnallar da onu göstərir, hətta uşaqlara heç o aşağı səviyyəli normativlər də verilmir. Uşaqlar ya ac qalır, ya da ki, evlərindən özləri ilə yemək gətirirlər. Bu, dözülməz haldır. Mən son müddət ərzində dəfələrlə uşaq bağçalarında vəziyyətlə tanış olmuşam və eyni zamanda, bu yemək məsələləri ilə də maraqlanmışam. İndi bu məsələlər paytaxtda Bakı Şəhər İcra Hakimiyyətinə həvalə edilibdir və çox ciddi göstərişlər verilmişdir ki, yemək məsələləri birinci planda olmalıdır. Hacıbala Abutalıbovun mənə verdiyi məlumata görə, bu sahədə dönüş yaranmışdır. Əlbəttə, bu məlumat inandırıcıdır. Ancaq valideynlərdən xahiş edirəm, əgər hər hansı bir bağçada yeməklə problem varsa, ya verilmir, ya keyfiyyətsiz verilir, Prezident Administrasiyasına və Bakı Şəhər İcra Hakimiyyətinə, İqtisadi İnkişaf Nazirliyinə məlumat versinlər ki, biz bu məsələləri də həll edək.

Uşaq bağçalarının hamısı təmirli olmalıdır. Hamısında da keyfiyyətli yemək verilməlidir ki, uşaqlarımız sağlam böyüsünlər.

Proqramda səhiyyə məsələlərinin həlli də nəzərdə tutulur. Əlavə tibb məntəqələri, xəstəxanalarla bağlı – burada qeyd olundu, vətəndaşların xahişi nəzərə alınmışdır – Prezidentin ehtiyat fondundan vəsait ayrılmışdır ki, təxirəsalınmaz tədbirlər görülsün. Ancaq, əlbəttə ki, əsas işlər dövlət büdcəsinin xətti ilə görülür. Elə etməliyik ki, biz səhiyyə məntəqələrinin fəaliyyətini yaxşı səviyyədə saxlayaq. Ona nə qədər lazımdırsa vəsait ayrılacaqdır ki, bütün qəsəbələrdə keyfiyyətli tibbi xidmət göstərilsin.

Sahibkarlıqla bağlı mən giriş sözümdə qeyd etdim. Keçən ildən Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə Bakı qəsəbələrinin iş adamlarına da vəsait ayrılmağa başlanmışdır. Bu proses gələn il davam etdiriləcəkdir. Bu il Fondun idarə etdiyi məbləğ rekord həddə çatıb – 200 milyon manatdır. Lazım olsa, gələn il biz bu məbləği artıra bilərik. Çünki biz görürük ki, bu mexanizm çox gözəl işləyir. Bölgədə yaradılmış yeni müəssisələrin böyük hissəsi, o cümlədən bu kreditlərin hesabına mümkün olmuşdur. Çünki biznesə başlamaq, öz işini qurmaq üçün bəzi hallarda insanlarda ilkin kapital olmur. O ilkin kapitalı güzəştli şərtlərlə dövlət verir və beləliklə, sənayenin inkişafını stimullaşdırır, iş yerlərinin yaradılmasına da xidmət göstərir. Bakı qəsəbələrində bu proses başlamışdır. Artıq qeyd etdiyim kimi, buradakı stendlərdə ilkin işlər göstərilir. Bu işlər davam etdirilməlidir.

Bakı böyük sənaye mərkəzidir. Həmişə belə olub, sovet dövründə, inqilabdan əvvəl də belə olub. Bakı əslində sənaye şəhəri kimi formalaşmışdır. Təsadüfi deyildir ki, şəhərin mərkəzində çoxlu sənaye obyektləri, zavodlar, fabriklər vardır ki, bunlar da bizim indiki yanaşmamıza uyğun gəlmir. Ancaq biz bu sahəyə də diqqət veririk. Yeni yanaşma ondan ibarətdir ki, köhnəlmiş sənaye obyektləri şəhərin mərkəzindən çıxarılsın. Bu proses gedir, köçürmələr davam edir. Burada mən deyə

bilərəm ki, çox güclü iradə göstərilmişdir. Bəzi hallarda müqavimət də var idi. Bizim Bakı ilə bağlı planlarımız bəzi hallarda bəzi vətəndaşlar tərəfindən o qədər də dərk edilmirdi. Ancaq bugünkü Bakının gözəlliyi, yeni yaradılmış şərait göstərir ki, vaxtilə qəbul edilmiş qərarlar düzgün qərarlar idi.

Vaxtilə köhnəlmiş, fəaliyyət göstərməyən sənaye müəssisələrinin yerində gözəl binalar, ictimai yerlər yaradılmış, parklar salınmışdır. Onların bir neçəsini xatırlatmaq kifayətdir. «Səttarxan» zavodunun ərazisində dünyanın memarlıq möcüzəsi sayılan Heydər Əliyev Mərkəzi artıq mayın 10-da açılmışdır. İndi o ərazidəki əvvəlki vəziyyəti heç təsəvvür etmək belə çətindir. Bu Mərkəz, yenə də deyirəm, dünyanın müasir memarlıq abidələrinin siyahısındadır, onların içərisində öz gözəlliyi, funksional tərəfi ilə seçilir. Lampa zavodu, şifer zavodu və digər zavodlar artıq yoxdur.

Bizim sənayemiz bundan, necə deyərlər, zərər görmür. Bu ilin birinci rübünün statistik göstəricilərinə görə, qeyri-neft sənayemiz 16 faiz artmışdır. Bu işlər düzgün istiqamətdə görülən işlərdir. Yeni parklar salınır. Elə o lampa zavodunun ərazisində indi gözəl fəvvarə, gözəl park insanların sərəncamına verilmişdir. İndi gənclər bəlkə də onu xatırlamırlar, amma bizim nəsil yaxşı xatırlayır ki, o mənzərə necə idi. Bu gözəlləşmə, abadlıq, quruculuq işləri davam etdirilməlidir.

Yaxud da götürək Yeni Bakı Bulvarını. Bir müddətdən sonra insanların yadından çıxacaqdır ki, o sahə, ümumiyyətlə, necə deyərlər, hasarın arxasında qalmışdı. O hasarın arxasında köhnəlmiş zavodlar, gəmi təmiri zavodları və başqa köhnəlmiş sənaye obyektləri yerləşmişdi. Yol da çox dar idi. Bir-iki ildən sonra o da yaddan çıxacaqdır, qoy elə yaddan çıxsın. Biz onları köçürdük, sənayenin inkişafına heç bir zərər vermədən yeni bulvar – iki kilometrlik gözəl gəzinti yerləri salındı. Orada xüsusi velosiped zolaqları da yaradılmışdır ki, insanlar rahat istifadə etsinlər. Ümumiyyətlə, Bakı Bulvarının Bayraq Meydanındakı bulvar ilə birlikdə uzunluğu 3,5 kilometrdən 14 kilometrə çatmışdır. İndi Bayraq Meydanında «Eurovision»

mahnı müsabiqəsindən sonra təmizləmə işləri görülür. Yaxın zamanlarda Bayraq Meydanı da açılacaqdır və insanlar orada gəzəcəklər, istirahət edəcəklər. Bu da dünya miqyasında nadir bir yerdir. Həm müstəqilliyimizin, dövlətçiliyimizin rəmzidir, eyni zamanda, gözəl istirahət parkıdır. Altmış hektar ərazidə yerləşən bu Bayraq Meydanı hələ də sahəsini genişləndirir. Hazırda Bayraq Meydanından Bibiheybət istiqamətinə yeni bulvar salınır. Əgər hər şey plan üzrə gedərsə, yəqin ki, bir-iki ildən sonra o sahə böyük istirahət və əyləncə zonasına çevriləcəkdir. O zona ilə bağlı bizim böyük fikirlərimiz, planlarımız vardır. Parklar zonası Bibiheybətə qədər uzadıla bilər. Budur yeni yanaşma. Şəhərin mərkəzindən köhnəlmiş, yararsız vəziyyətdə olan sənaye obyektləri köçürülür, onların yerində ictimai yerlər, parkinqlər yaradılır.

İndi köçürmələr aparılır. Heydər Əliyev sarayının arxasındakı yerlər köçürülübdür, bazar qiymətindən artıq səviyyədə kompensasiya da verilibdir. Bunu hamı bilsin. Amma onun yerində nə tikilir?! Deyirdilər ki, buradan əhali köçürülür, bura satılacaqdır, binalar, restoranlar tikiləcəkdir. Orada ikimərtəbəli yeraltı parkinq tikilir, üstü də park, gəzinti zonası, meşə zolaqları olacaqdır. Bu, şəhərimizə hava-su kimi lazımdır. Çünki yaşıllıq, meşə zolaqları azdır. Ona görə köhnəlmiş sənaye obyektlərinin ərazilərində ictimai yerlər – parklar, yeraltı parkinqlər və yaşıllıq zolaqları yaradılır.

Bəzi hallarda bu yerlərin bir hissəsi özəl yerlərlə kəsişir və hesab edirəm ki, bu sahədə özəl sektor da məsuliyyətli olmalıdır. Biz hamımız bu şəhərdə yaşayırıq, Bakı hamımızın paytaxtıdır. Bakının gözəlləşməsi üçün hamımız fədakar olmalıyıq. Əgər hansısa yeni inkişaf layihələri müəyyən dərəcədə özəl torpağa düşürsə, kompensasiya verməklə, ilk növbədə, dövlət maraqları və Bakı sakinlərinin maraqları ön planda olmalıdır. Vaxtilə aparılmış özəlləşdirmə nəticəsində bəzi hallarda şəhərin mərkəzində yerlər qanunsuz olaraq zəbt edildi, sonra hasar çəkildi, sonra heç nə, elə torpaq kimi qalıb. Biz indi bu vəziyyətlə barışa bilmərik. Şəhərin mərkəzində, ya

kənarında kifayət qədər yerlər var ki, hasara alıb saxlayıblar. Niyə saxlayırlar?! İndi şəhər inkişaf edir, yollar, yol qovşaqları çəkilməlidir, yeraltı parkinqlər, parklar, yaşıllıq zolaqları tikilməlidir. Şəhər meriyası bu məsələlərlə bağlı qanun çərçivəsində bütün işləri elə görməlidir ki, ilk növbədə Bakı şəhərinin sakinləri o yerlərdən istifadə etsinlər. Biz imkan verə bilmərik ki, şəhərin mərkəzində hektarlarla ərazi hasarlanıb elə ölü vəziyyətdə qalsın. İnsanlar da gəzməyə yer axtarırlar. Axşam vaxtlarında bulvarda tərpənməyə imkan yoxdur. Baxmayaraq ki, bulvarı genişləndirmişik, dənizə tərəf uzatmışıq, yenə də o qədər insan gəlir ki, orada indiki bulvar artıq kifayət etmir. İnsanların rahatlığı üçün şəhərdə gəzinti yerləri, parklar, meşə zolaqları salınmalıdır. Biz bunu edəcəyik. Yenə də deyirəm, özəl qurumlar bu məsələyə diqqətlə yanaşsınlar, özləri təşəbbüs göstərsinlər. Bu məsələlər qanun çərçivəsində həll olunacaqdır.

O ki qaldı şəhərimizin sənaye inkişafına verilən diqqətə, bu, yüksək səviyyədədir. Bakı sənaye şəhəri kimi inkişaf etməlidir. Yeni, böyük sənaye obyektləri – mən bu barədə əvvəllər də fikrimi bildirmişəm – Qaradağ rayonu ərazisində tikilməlidir. İndi orada böyük sənaye müəssisələri, sement zavodu, başqa zavodlar tikilir. Neft Şirkəti Qaradağ rayonu ərazisində böyük neft-kimya kompleksi tikəcəkdir. Ələtdə yeni Dəniz Ticarət Limanı, gəmiqayırma zavodu tikilir. Bakı sənayesini daha çox Qaradağ rayonunun ərazisində yerləşdirməliyik. Texnoparkların yaradılması məsələləri də bu məqsədə xidmət etməlidir.

Texnoparklara gəldikdə, Bakıda, Sumqayıtda, Gəncədə bu proses gedir. Bu bizə imkan verəcək ki, giriş sözümdə dediyim kimi, 2023-cü ilə qədər qeyri-neft sənayesinin inkişafı hesabına ümumi daxili məhsulu 2 dəfə artıraq.

Ekoloji tədbirlərin görülməsi ilə bağlı bir neçə söz demək istəyirəm. Bu məsələ daim diqqət mərkəzində olmalıdır. Bakının ekoloji vəziyyəti bizi qane edə bilməz. Bu reallıqdır. Əfsuslar olsun ki, əsrlər boyu Bakı sənaye şəhəri kimi formalaşıb, xüsusilə neft sənayesi burada yaranıb. Həmişə şəhər

ekoloji cəhətdən çox ağır vəziyyətdə idi. Sovet dövründə müəyyən standartlar var idi, sovet standartları var idi. O standartlar gözlənilirdi. Amma indi biz bilirik ki, o standartlar dünya standartlarına, əlbəttə, uyğun deyildir.

Postsovet dövründə, xüsusilə ilk illərdə maliyyə vəziyyətimiz çox ağır idi. Çox böyük ehtiyac içindəydik. Bu məsələlərə lazımi qədər vəsait ayıra bilmirdik. İndi isə bunu edirik, etməliyik və bütün sahələr üzrə konkret tapşırıqlar verilmişdir. Burada qeyd edildi, Balaxanıda poliqon yaradılıbdır. Vaxtilə Balaxanı zibilxanasından qalxan tüstü bütün şəhəri bürüyürdü, zəhərləyirdi. İndi ora gözəl bir parkdır. Məişət tullantıları emalı zavodunun tikintisi nəticəsində artıq bu məsələlər öz həllini tapacaqdır.

İçməli su, kanalizasiya layihələri, göllərin təmizlənməsi məsələləri ilə də bağlı İqtisadi İnkişaf Nazirliyinə göstəriş verilmişdi. Bakının ərazisində yerləşən göllər təmizlənməlidir. Oraya axıdılan suların təmizlənməsi və yeni xətlərin çəkilişi məsələləri həllini tapmalıdır. İlk növbədə çirklənmənin səbəbini aradan qaldırmalıyıq. Ondan sonra təmizləmə, ekoloji tədbirlərlə indiki gölləri gözəl, təmiz göllərə çevirməliyik. Onların ətrafında meşə zolaqları, parklar salınmalıdır ki, insanlar bu göllərdən istifadə etsinlər. Bütün göllərin siyahısı vardır. Konkret tapşırıqlar verilib. Bu il müəyyən dərəcədə vəsait də nəzərdə tutulur. Əsas vəsait gələn il və 2014–2015-ci illərdə ayrılacaq ki, bu gölləri biz gözəl, şəffaf, təmiz göllərə çevirək. Beləliklə, həm insanların istirahəti üçün yeni yerlər yaradılacaq, həm də ekoloji vəziyyət yaxşılaşacaqdır.

Bakıda yerləşən yod zavodunun qalıqlarının köçürülməsi prosesi də başlayıb. Bu da çox zəhərli müəssisə idi. O işləmir, ancaq ətrafında yerləşən tullantılar zəhərlidir. Büdcədə vəsait nəzərdə tutulub. Həmin vəsait Fövqəladə Hallar Nazirliyinə ayrılıb. Onlar indi işləyirlər. Bu ilin sonuna qədər yod zavodunun ərazisi tamamilə təmizlənəcək.

Ağacəkmə məsələləri də yaddan çıxmamalıdır. Mən çox şadam ki, «Ekologiya ili»ndə bütün şəhər, rayon icra ha-

kimiyyətlərində böyük fəallıq nümayiş etdirilirdi. Hər yerdə ağacəkmə prosesləri gedirdi. «Ekologiya ili» başa çatandan sonra yavaş-yavaş bu proses – yeni ağacların əkilməsi, yeni zolaqların yaradılması səngiməyə başlamışdır. Düzdür, biz dövlət xətti ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinə vəsait ayırırıq, onlar bu prosesi davam etdirirlər. Nəzərdə tutulmuş yerlərdə yeni ağaclar əkilir. Hesab edirəm ki, mövsüm gələndə rayon icra orqanları da ağacəkmə məsələlərinə yenə də diqqət göstərməlidirlər. Bu, kampaniya olmamalıdır, bu, daimi, gündəlik iş prosesi olmalıdır.

Şəhərimizin tarixi abidələrinin qorunması yüksək səviyyədədir. Bizim üstünlüyümüz ondan ibarətdir ki, Bakı qədim, tarixi və müasir şəhərdir. Bakıda tarixi gözəllik, memarlıq abidələrimiz və qədim Bakının siması müasir Bakının siması ilə uzlaşır. Ziddiyyət təşkil etmir. Bakıya gələn qonaqlar bunu qeyd edirlər ki, burada qədim dövr ilə müasir dövr arasında sintez, harmoniya vardır. Bəzi hallarda, bəzi şəhərlərdə bu harmoniya pozulur. Amma məqsədimiz elə ondan ibarət idi ki, Bakının qədim simasını saxlamaqla, bütün tarixi abidələri bərpa etməklə yanaşı, müasir Bakımızın yeni simasını da yaradaq və buna nail olduq. Bu gün artıq Bakının yeni simvolları, rəmzləri vardır. Heydər Əliyev Mərkəzi, Bayraq Meydanı, «Alov qüllələri», «Bakı Kristal Sarayı» – bunlar Bakımızın yeni simvollarıdır, Azərbaycanın inkişaf dinamikasını göstərən abidələrdir. Şəhərimizi gözəlləşdirmək üçün biz bundan sonra da fəal işləməliyik. Mən çox şadam ki, cəmiyyətdə və dövlət qurumları nümayəndələri arasında bu məsələ ilə bağlı çox böyük fəallıq, böyük ruh yüksəkliyi və şəhərimizə böyük məhəbbət vardır.

Bakı doğrudan da dünyanın ən gözəl şəhərlərindən biridir. Mən demişəm, bir daha demək istəyirəm ki, vaxt gələcək deyəcəyik ki, Bakı dünyanın ən gözəl şəhəridir. Sağ olun.

## RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ MDB VƏ HƏMVƏTƏNLƏRLƏ ƏLAQƏLƏR ÜZRƏ KOMİTƏSİNİN SƏDRİ LEONİD SLUTSKİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Rusiya Federasiyası Dövlət Dumasının MDB və Həmvətənlərlə Əlaqələr üzrə Komitəsinin sədri Leonid Slutskini qəbul etmişdir.*

*Leonid Slutski ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi və mədəni sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq bu münasibətləri MDB çərçivəsində əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirdi.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluğunu ifadə etdi, əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi.*

**KANADANIN GENERAL-QUBERNATORU**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DEVİD CONSTONA**

Hörmətli cənab General-qubernator!

Ölkənizin milli bayramı – Kanada Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Kanada arasındakı dostluq münasibətlərinin, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın inkişafı bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kanada xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2012-ci il*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Milli bayram – Respublika Günü münasibətilə Sizə və dost Belarusun bütün xalqına mənim təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Bu gün Belarus dövlətçiliyin, qanunçuluğun və hüquqi qaydanın möhkəmləndirilməsi, cəmiyyətin həyatının bütün tərəflərinin modernləşdirilməsi yolu ilə uğurla irəliləyir.

Azərbaycan ilə Belarusu qırılmaz dostluq, əməkdaşlıq və qarşılıqlı dəstək telləri bağlayır. Əminəm ki, bundan sonra da bizim səylərimiz bu xeyirxah ənənələrin qorunub saxlanmasına və artırılmasına, dövlətlərarası münasibətlərimizin genişləndirilməsinə yönələcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Belarus xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2012-ci il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Biz ölkəmizin Amerika Birləşmiş Ştatları ilə münasibətlərinə böyük əhəmiyyət veririk. Bu baxımdan siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrimizin müvəffəqiyyətlə inkişaf etməsi, daim genişlənməsi məmnunluq doğurur.

Bu gün Azərbaycan ilə Birləşmiş Ştatları bir sıra sahələrdə strateji tərəfdaşlıq münasibətləri birləşdirir. Enerji təhlükəsizliyi, terrorizmə qarşı mübarizə sahəsində birgə səylərimizi davam etdirmək, dünyanın ən qaynar nöqtələrində sabitliyin təmin edilməsinə töhfələr vermək əzmindəyik. Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasəti və təcavüz nəticəsində ölkəmizin ərazi bütövlüyü pozulmuş, torpaqlarımız işğal olunmuş və bir milyondan çox soydaşımız öz doğma yurd-yuvasından didərgin düşmüşdür. Biz sülhyaratma missiyasını həyata keçirən ATƏT-in Minsk qrupunun həmsədri kimi, Birləşmiş Ştatların və şəxsən Sizin, cənab Prezident, bu münaqişənin beynəlxalq hüquq normaları əsasında, sülh yolu ilə, tezliklə və ədalətli həlli üçün göstərdiyiniz səylərə böyük ümidlər bəsləyirik.

Belə bir əlamətdar gündə Sizə, cənab Prezident, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2012-ci il*

## MÜDAFİƏ NAZİRLİYİNİN YENİ YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*22 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Bakının Yasamal rayonu ərazisində Müdafiə Nazirliyinin yeni yaşayış kompleksinin açılışı mərasimində iştirak etmişdir.*

*Müdafiə naziri general-polkovnik Səfər Əbiyev Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, prezident İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı yeni yaşayış kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi, yaşayış kompleksində yaradılan şəraitlə yaxından tanış oldu.*

*Müdafiə naziri, general-polkovnik Səfər Əbiyev dövlətimizin başçısına məlumat verərək bildirdi ki, 9 mərtəbəli iki binadan ibarət yeni yaşayış kompleksində hərbçilər üçün lazım olan bütün şərait yaradılmışdır. Ümumi yaşayış sahəsi 30 min kvadratmetrə yaxın olan birinci binadakı mənzillərin 184-ü üç, 20-si birotaqlıdır. İkinci binanın mənzillərinin ümumi yaşayış sahəsi isə təqribən 18 min kvadratmetrdir. Bu binadakı mənzillərin 105-i üç, 3-ü isə iki otaqdan ibarətdir. Mənzillərin davamlı olaraq isti su ilə təmin olunması üçün müasir istilik sistemi yaradılmışdır. Yaşayış kompleksini elektrik enerjisi və su ilə təchiz etmək üçün iki yarımstansiya və digər lazımi avadanlıq quraşdırılmışdır. Kompleksin ərazisində abadlıq işləri aparılmış, yaşıllıq zolaqları salınmışdır.*

*Mənzillərdə yaradılan şəraitlə yaxından tanış olan prezident İlham Əliyev yeni binaların sakinlərini təbrik etdi.*

# BADAMDAR QƏSƏBƏSİNDƏ HEYDƏR ƏLİYEV PARKININ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*22 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Bakının Səbail rayonunun Badamdar qəsəbəsində Heydər Əliyev parkının əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Səbail Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov qəsəbədə görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi.*

*Qeyd edək ki, prezident İlham Əliyev Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlərlə tanışlıq çərçivəsində Badamdarda olarkən qəsəbə sakinləri buradakı Heydər Əliyev parkının əsaslı şəkildə yenidən qurulması ilə əlaqədar dövlətimizin başçısına müraciət etmişdilər. Prezident İlham Əliyev parkın yenidən qurulması ilə bağlı göstərişlər vermişdi. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq parkda təmir və yenidənqurma işlərinin aparılması məqsədi ilə xüsusi layihə hazırlanmış və yenidənqurma işlərinə başlanılmışdır.*

*Parkda uşaqların əyləncəsi üçün xüsusi guşə, kütləvi tədbirlərin keçirilməsi və əhalinin istirahətinin təşkili ilə əlaqədar bütün lazımi şərait yaradılmışdır.*

*Həyata keçirilən yenidənqurma işləri çərçivəsində parkın ətraf əraziləri abadlaşdırılmış, küçələrə yeni asfalt örtük döşənmişdir.*

*Parkda yaradılan şəraitlə yaxından tanış olan dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD MURSİYƏ**

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Misir arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Misir xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyun 2012-ci il*

## HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİNDƏ XÜSUSİ TƏYİNATLI HƏRBİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN NÖVBƏTİ BURAXILIŞINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*25 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev iyunun 25-də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin 2012-ci il buraxılışına həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Müdafiə naziri general-polkovnik Səfər Əbiyev və Fəxri qarovul dəstəsinin rəisi Ali Baş Komandana raport verdilər.*

*Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində aparılmış yenidənqurma və maddi-texniki bazanın gücləndirilməsi ilə bağlı görülmüş işlərlə tanış oldu.*

*Məlumat verildi ki, ölkəmizin bütün ali hərbi təhsil müəssisələri ən müasir tələblər səviyyəsində yenidən qurulur, onların maddi-texniki bazası möhkəmləndirilir. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində də ardıcıl və məqsədyönlü tədbirlərin reallaşdırıldığı, hərbi təhsil müəssisəsində əsaslı abadlıq və yenidənqurma işlərinin görüldüyü diqqətə çatdırıldı.*

*Prezident, Ali Baş Komandan İlham Əliyevin tapşırığına uyğun olaraq bütün sahələrdə olduğu kimi, ordumuzda da yalnız ən son elmi-texniki yeniliklər tətbiq edilir. Bu baxımdan ölkəmizin ali hərbi məktəblərində də zabitlərin günün tələbləri səviyyəsində hazırlanması üçün yüksək şərait yaradılmışdır.*

*Dövlətimizin başçısına buraxılış mərasiminin nişanı təqdim olundu.*

*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində aparılan yenidənqurma işləri ilə tanış olan prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

*Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin növbəti buraxılışı münasibətilə mərasim başlandı. Prezident İlham Əliyev mərasimin keçirildiyi stadiona gəldi. Mərasimə toplaşanlar dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.*

*Ali Hərbi Məktəbin rəisi, polkovnik Mirzəli Yusifov Ali Baş Komandan, prezident İlham Əliyevə raport verərək şəxsi heyətin buraxılış mərasimi münasibətilə düzüldüyünü bildirdi.*

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev məzunları salamladı.*

*Mərasimin proqramı elan edildikdən sonra Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin və ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin və kursantların ifasında Azərbaycanın Dövlət himni əzəmətlə səsləndi.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasimdə nitq söylədi:*

– Əziz hərbçilər, hörmətli mərasim iştirakçıları!

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Ordusunda xidmət edən bütün şəxsi heyətə Vətən uğrunda yeni uğurlar arzulayıram. Bu gün hərbi

məktəblərin növbəti buraxılışıdır. Bütün məzunları bu münasibətlə təbrik edirəm. Əminəm ki, məzunlar Azərbaycan Ordusunda ləyaqətlə xidmət edəcəklər.

Bu gün Heydər Əliyev adına Ali Hərbi Məktəbdə gedən təmir-tikinti işləri ilə də tanış oldum. Çox şadam ki, məktəbdə böyük quruculuq işləri aparılır, bütün binalar təmir edilir, kursantlara yaxşı şərait yaradılır. Yeni trenajorlar alınmışdır və bu trenajorlar imkan verəcəkdir ki, kursantlar döyüş qabiliyyətini artırsınlar.

Bizə hazırlıqlı hərbçilər lazımdır. Bütün sahələrdə yeni gənc kadrların yetişdirilməsi məsələlərinə böyük diqqət göstərilir. Azərbaycan uğurla inkişaf edir. Ölkəmizdə bütün sahələr inkişaf edir. Gənc kadrların hazırlanması prosesi bizim gələcəyimizi şərtləndirən amildir. Hər bir sahədə, o cümlədən hərbi sahədə gənc peşəkar kadrlara ehtiyac var. Ulu öndər Heydər Əliyev bu məsələlərlə hələ keçən əsrin 70-ci illərində məşğul olmuşdur. Onun təşəbbüsü ilə Naxçıvanski adına Hərbi Məktəbin yaradılması bizim o illərdəki tariximizdə çox önəmli hadisələrdən biri idi. Ulu öndər hələ o zaman yaxşı görürdü, başa düşürdü ki, bizə yerli hərbi kadrların hazırlanması lazımdır – gün gələcək Azərbaycan müstəqil dövlətə çevriləcəkdir və müstəqil dövlətin güclü ordusu olmalıdır. Bu proses bu gün də davam etdirilir. Azərbaycanda hərbi kadrların hazırlanmasına böyük diqqət göstərilir. Mən çox şadam ki, hərbçilərimizin peşəkarlığı, döyüş qabiliyyəti ildən-ilə artır, ruh yüksəkliyi yüksək səviyyədədir. Gənclərimiz vətənpərvərlik ruhunda tərbiyə alırlar. Beləliklə, ölkə qarşısında duran əsas vəzifə – torpaqlarımızı işğalçılardan azad etmək üçün biz hazırıq və hazır olmalıyıq.

Azərbaycanda ordu quruculuğu prosesi də ulu öndərin adı ilə bağlıdır. 1993-cü ilə qədər, əfsuslar olsun ki, Azərbaycanda nizami ordu yaradılmamışdır. Bunun nəticəsində torpaqlarımız işğal altına düşmüşdür.

1993-cü ildən ordu quruculuğu prosesi başlamışdır. Bu proses bu gün də davam etdirilir. Bu illər ərzində Azərbaycanda

nizami ordu yaradılmışdır, ordu güclənmişdir. Azərbaycan Ordusu artıq nəinki bölgədə, dünya miqyasında güclü orduların sırasındadır. Ordumuzun maddi-texniki bazası böyük dərəcədə möhkəmləndirilmişdir. Hərbi xərclər ildən-ilə artır. Azərbaycanın dövlət büdcəsində hərbi xərclər birinci yerdədir. Bu da təbiidir. Bu belə də olmalıdır. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıbdır. Atəşkəs rejimi vardır. Ancaq sülh müqaviləsi imzalanmayıb. Müharibə şəraitində yaşayan ölkədə birinci növbədə ordu məsələlərinə diqqət göstərilməlidir və Azərbaycanda bu belədir. Son bir neçə il ərzində hərbi xərclərimiz 20 dəfədən çox artmışdır. Hazırda bu xərclər 3,6 milyard dollar səviyyəsindədir. Bu da Ermənistanın bütün dövlət xərclərindən 50 faiz çoxdur. Bu reallıqları bizim uğurlu iqtisadi siyasətimiz, iqtisadi islahatlarımız yaratmışdır. Ordu xərcləri bundan sonra da artacaqdır. Bu, əlbəttə ki, ordumuzun gücləndirilməsinə böyük dəstəkdir. Ancaq bununla bərabər, çox şadam ki, ordumuzun döyüş qabiliyyəti artır. Orduda xidmət edənlərin arasında vətənpərvərlik duyğuları çox yüksək səviyyədədir. Biz peşəkar ordu yaradırıq. Əminəm ki, həm maddi-texniki təminat, iqtisadi qüdrətimiz, hərbçilərin hazırlanması, gənclərimizin vətənpərvərlik ruhunda böyüməsi – bütün bu amillər bizi müqəddəs məqsədə çatdıracaqdır.

Torpaqlarımız işğal altındadır. Bu işğal davam edir. Bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz keçən dövrdə ordumuzun hərbi potensialını böyük dərəcədə gücləndirə bilmişik. Xaricdən böyük sayda silah, texnika, sursatlar gətirilir. Döyüş təyyarələri, döyüş helikopterləri, artilleriya qurğuları, hava hücumuna qarşı qurğular gətirilir. Azərbaycanda yerli istehsal da yaradılmışdır. Yeddi il bundan əvvəl mənim sərəncamım ilə Müdafiə Sənayesi Nazirliyinin yaradılması bu sahədə də dönüşə gətirib çıxarmışdır. Bu 7 il ərzində Azərbaycanda hərbi təyinatlı 20 zavod və istehsalat birliyi yaradılmışdır. Hazırda Azərbaycanda hərbi təyinatlı məmulatın sayı 665-dir. Azərbaycanda 665 adda hərbi təyinatlı

məmulat istehsal edilir. Biz gələcəkdə bu sahədəki fəaliyyətimizi daha da genişləndirəcəyik. Azərbaycan Ordusuna lazım olan əsas təminat daxili istehsal hesabına formalaşmalıdır. Ümumiyyətlə, bu bizim siyasətimizin, demək olar ki, əsas istiqamətlərindən biridir. Daxili istehsalın gücləndirilməsi və genişləndirilməsi siyasəti aparılır. Bu özünü bütün sahələrdə büruzə verir. Biz daha çox ərzaq təhlükəsizliyi və tikinti materialları məsələlərində özümüzü artıq təmin edirik. Azərbaycanda hərbi təyinatlı məhsullar daha da çox istehsal edilməlidir.

Orduya diqqət təkcə bu amillərlə məhdudlaşmır. Azərbaycan dövləti hərbçilərin məişət problemlərinin həlli üçün də lazımi addımlar atır. Keçən il hərbçilərin əmək haqları 25 faiz artırılmışdır. Bir neçə gün bundan əvvəl 312 mənzildən ibarət 2 yaşayış binası hərbçilərin sərəncamına verilmişdir. Hazırda yüzlərlə yeni mənzil tikilir. Keçən ilin sonunda mənim sərəncamımla orduda 20 il qüsursuz xidmət etmiş hərbçilərə dövlət vəsaiti hesabına mənzillərin verilməsi də nəzərdə tutulmuşdur. Artıq sənədlərin qəbulu prosesi başlamışdır. Bu da Azərbaycan dövlətinin öz ordusuna, hərbçisinə olan diqqətinin təzahürüdür.

Bir sözlə, orduya diqqət Azərbaycan dövlətinin prioritetidir. Mən çox şadam ki, cəmiyyət də bu təşəbbüsləri alqışlayır. Bizim ordumuz bizim qürurumuzdur. Bizim ordumuz müstəqilliyimizi şərtləndirən amildir. Bundan sonra da orduya, ordu quruculuğuna, hərbçilərə olan diqqəti artıracağıq, bu diqqəti göstərəcəyik.

Bizim qarşımızda duran əsas vəzifə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsidir. Bildiyiniz kimi, Azərbaycan dövləti uzun illərdir ki, bu istiqamətdə fəaliyyət göstərir, çalışır. Əfsuslar olsun ki, məsələ öz həllini tapmır. Bayaq qeyd etdiyim kimi, müstəqilliyimizin ilk illərində Azərbaycana qarşı edilən təcavüz və ədalətsizlik bu günə qədər də gündəlikdən çıxmır. Bir daha demək istəyirəm, əgər ölkəmizin həlledici anlarında, müstəqilliyimizin ilk illərində ulu öndər Heydər Əliyev

Azərbaycan rəhbərliyində olsaydı, bir qarış torpaq işğalçılara verilməzdi. Ancaq 1987-ci ildə sovet rəhbərliyi tərəfindən Heydər Əliyev siyasi hakimiyyətdən uzaqlaşdırıldı. Ondan sonra iki həftə keçməmiş erməni millətçiləri və onların havadarları Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşməsi haqqında iddialar irəli sürməyə başlamışlar. Sovet İttifaqının son aylarında Azərbaycana qarşı işğal siyasəti başlamışdır. Müstəqilliyimizin ilk aylarında bu işğal artıq böyük faciələrə gətirib çıxarmışdır. Xocalı soyqırımı törədildi, Şuşa, Laçın, Kəlbəcər işğal edildi.

Hazırda biz öz gücümüzü artırırıq və danışıqlar prosesində də iştirak edirik. Mən tam əminəm ki, ordumuz nə qədər güclü olsa, danışıqlar prosesində mövqemiz o qədər güclənər. Bu iki amil arasında birbaşa bağlantı vardır. Biz danışıqlarda prinsipial mövqemizi göstəririk. Bu mövqedən bir addım geri atmayacağıq. Bununla bərabər, son illər ərzində biz böyük dərəcədə güclənə bilmişik. Əgər bir neçə il əvvəl həm hərbi, həm iqtisadi sahədə Ermənistan ilə Azərbaycan arasında, demək olar ki, paritet var idisə, artıq bu pariteti biz dağıtdıq. Azərbaycan iqtisadi cəhətdən Ermənistandan 10 dəfə güclü ölkədir. Dövlət büdcəmiz 10 dəfədən çoxdur. Hərbi xərclər 10 dəfədən çoxdur. Azərbaycanda demoqrafik vəziyyət müsbətdir. Azərbaycan öz hesabına yaşayan ölkədir. Böyük ehtiyatlarımız, insan resurslarımız var. Güclü sənayemiz, güclü ordumuz var. Özümüz öz siyasətimizi müəyyən edirik, müstəqil siyasət aparırıq, Azərbaycan xalqının iradəsinə arxalanırıq. Getdikcə iki ölkə arasındakı uçurum daha da dərinləşir və dərinləşəcəkdir. Əminəm ki, bütün bu amillərin nəticəsində biz istəyimizə nail olacağıq, ədaləti, Azərbaycanın suverenliyini bərpa edəcəyik. Bunu etmək üçün biz daha da güclü olmalıyıq.

Əfsuslar olsun ki, beynəlxalq hüquq normaları dünyada pozulur. Biz bütün dövrlərdə beynəlxalq hüquqa əsaslanmışıq. Bu gün də bu münaqişənin həlli üçün əsas beynəlxalq hüquq normalarıdır. Beynəlxalq hüquq normaları Azərbaycanın mövqeyini dəstəkləyir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz

hissəsidir. Azərbaycanın tarixi hissəsidir. Hüquqi cəhətdən Azərbaycanın tərkib hissəsidir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Qondarma Dağlıq Qarabağın müstəqilliyini heç kim tanımayıb. Beləliklə, beynəlxalq hüquq baxımından Azərbaycanın mövqeləri çox möhkəmdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan işğalçı qüvvələrinin bizim torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmasını tələb edir. Digər beynəlxalq təşkilatların oxşar qərar və qətnamələri vardır. Hüquqi cəhətdən məsələ tam aydındır. Ancaq əfsuslar olsun ki, müasir dünyada beynəlxalq hüquq normaları pozulur. Biz bu mənzərəni görürük. Bu pozuntular getdikcə daha da geniş vüsət alır. Belə olan halda görürük ki, güclü olmasan sənin hüquqların tapdanacaqdır. Bu güclənmə prosesini, o cümlədən hərbi potensialımızın gücləndirilməsini artıq bir neçə ildir ki, uğurla aparırıq. Bəzi hallarda belə bəyanatlar səslənir ki, nə üçün Azərbaycan öz hərbi potensialını gücləndirir? Bu, bölgədə təhlükə yarada bilər. Buna müəyyən şərhlər də verilir. Ancaq mən tam əminəm ki, bu gün Azərbaycan bölgədə sabitləşdirici amildir. Azərbaycanın güclü ordusu bölgədə sabitliyin keşiyində dayanır. Bizim güclü ordumuz bizim suveren işimizdir. Heç kim bizə heç bir məsləhət verə bilməz. Bizim hərbi xərclərimiz ümumi daxili məhsulda o qədər də böyük faiz təşkil etmir. Sadəcə olaraq, bizim ümumi iqtisadi inkişafımız çox sürətlidir. Dünyada analoqu olmayan inkişafdır. Azərbaycan son illər ərzində dünyada iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkədir. Beləliklə, bütün başqa sahələrə olduğu kimi, hərbi məsələlərə də diqqət göstərilir.

Bir daha demək istəyirəm ki, biz bu siyasətdən kənara çıxmayacağıq. Bundan sonra da Azərbaycan Ordusunu gücləndirəcəyik. Maddi-texniki təminat daha da güclü olacaqdır. Silahlar, sursatlar, texnika daha da böyük həcmdə alınacaqdır. Ordumuzun peşəkarlığı daha da artırılacaqdır. Bizdə demoqrafik vəziyyət çox müsbətdir. Getdikcə ordumuzun sıralarının genişləndirilməsi məsələlərinə də baxıla bilər.

Beləliklə, əminəm ki, bundan sonrakı illərdə də Azərbaycan Ordusu inkişaf edəcək və daha da güclənəcəkdir.

Beynəlxalq hüquq normaları 20 ildir ki, pozulur. Biz daha da güclü olmalıyıq. Bizim gücümüz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində əsas vasitədir. Siyasi nöqteyi-nəzərdən Azərbaycanın mövqeləri kifayət qədər güclüdür. Bölgədə bizim iştirakımız olmadan heç bir təşəbbüs gerçəkləşdirilə, heç bir layihə icra edilə bilməz. Biz dünyanın dəstəyini qazanmışıq. Keçən ilin oktyabr ayında BMT Təhlükəsizlik Şurasına seçilməyimiz də dünyanın Azərbaycana olan münasibətini göstərir.

Azərbaycanın namizədliyini 155 ölkə dəstəkləmişdir. Keçən ay Azərbaycan tarixdə ilk dəfə Təhlükəsizlik Şurasına sədrlik etmişdir. Qeyd etmək istəyirəm ki, Təhlükəsizlik Şurasına seçilməyimiz o qədər də asan olmamışdır. Biz gərgin mübarizədə bu yeri qazanmışıq. Haqlı olaraq qazanmışıq. Bu beynəlxalq təşkilatlarda ilk günlərdən, ilk aylardan öz prinsipial mövqemizi nümayiş etdiririk.

Bizim mövqemiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Onu da deyə bilərəm ki, ilkin mərhələdə Ermənistan da bizimlə bərabər bu mötəbər quruma üzv olmaq istəyirdi, öz namizədliyini vermişdi. Ancaq sonra görəndə ki, Azərbaycanın qarşısında acizdir və onları çox acı məğlubiyyət gözləyir, siyasi döyüş meydanından sakitcə çəkildi və öz siyasi məğlubiyyətini etiraf etdi. Bu çox böyük rəmzi xarakter daşıyan bir addım idi. Artıq heç kimə sirr deyildir ki, Azərbaycana dünya birliyi tərəfindən diqqət çox yüksək səviyyədədir. Şübhə etmirəm ki, əgər müharibənin fəal fazası başlanarsa, necə ki Ermənistan siyasi meydandan qaçıb, döyüş meydanından da qaçacaqdır. Bizim bütün imkanlarımız vardır ki, ərazi bütövlüyümüzü bərpa edək. Cəbhə xəttində son hadisələr onu bir daha göstərdi, Ermənistanın bütün təxribatlarının qarşısı alındı. İşğalçı qüvvələr layiqli cavablarını aldılar. Azərbaycan əsgəri, Azərbaycan zabiti öz qəhrəmanlığını göstərdi və işğalçını yerinə oturtdu. Artıq dünya birliyi və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin

həlli ilə məşğul olan ölkələr də əminəm, daha çox dərk edirlər ki, Ermənistan Azərbaycanın qarşısında dayana bilməyəcəkdir. Bizim artan siyasi çəkimiz, iqtisadi potensialımız, hərbi gücümüz, bölgədəki rolumuz, artan əhalimiz məsələnin ədalətli həllinə gətirib çıxaracaqdır. Sadəcə olaraq, biz hələ ümid edirik ki, bu məsələ öz həllini danışıqlar yolu ilə tapar. Çünki ümid edirik ki, nə vaxtsa Ermənistan rəhbərliyində normal fikirdə olan insanlar təmsil olunar və onlar dərk edərlər ki, münaqişənin uzadılması Ermənistanın ziyanınadır. Vaxt uzatmaqla Ermənistan heç nəyi əldə etmir. İşğal edilmiş torpaqlar ölü torpaqlardır. Orada heç bir həyat yoxdur. İşğal dünya birliyi tərəfindən heç vaxt qəbul edilə bilməz. Azərbaycan dövləti və Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaqdır. Biz heç vaxt sakitləşməyəcəyik. Bizim üçün – həm dövlət, həm xalq üçün bir nömrəli məsələ Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllidir, Azərbaycan vətəndaşlarının işğal edilmiş torpaqlara qayıtmasıdır. Məsələ uzandıqca sadəcə olaraq, Ermənistan ilə Azərbaycan arasındakı güclər nisbəti bizim xeyrimizə daha da çox dəyişir. Bir daha demək istəyirəm ki, 10 il bundan əvvəl müəyyən dərəcədə tarazlıq var idi. İndi bu tarazlıqdan əsər-əlamət də qalmayıb. Növbəti illərdə Azərbaycan yalnız və yalnız güclənəcəkdir. Çünki biz perspektivlərimizi yaxşı bilirik, biz gələcəyimizi özümüz yaradırıq. Bizim gələcəyimiz Azərbaycan xalqının zəhməti hesabına yaranır. Biz yaxşı bilirik ki, güc baxımından Ermənistan bizim qarşımızda heç vaxt davam gətirə bilməz. Sadəcə olaraq, biz hələ ki, çalışırıq məsələ dinc yolla, danışıqlar yolu ilə həll edilsin. Ancaq məsələnin həlli beynəlxalq hüquqdan keçir. Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağ hüquqi cəhətdən də Azərbaycanın ayrılmaz hissəsi kimi dünya birliyi tərəfindən qəbul edilir. Ərazi bütövlüyümüz bərpa edilməlidir. İşğalçı qüvvələr işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır. Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar.

Mən hərbi hissələrdə, cəbhə xəttində də tez-tez oluram. Döyüşçülərlə səngərlərdə görüşürəm, söhbət aparıram. Görürəm

ki, həqiqətən, Azərbaycan əsgərinin Vətənə çox böyük bağlılığı vardır. Vətən sevgisi, vətənpərvərlik ruhu bizdə çox yüksəkdir. Əminəm ki, dediyim bütün bu amillər – bizim siyasi gücümüz, iqtisadi inkişafımız, hərbi gücümüz, Vətənə olan sevgimiz məsələnin həllinə gətirib çıxaracaq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, Azərbaycan bayrağı Şuşada, Xankəndidə, Dağlıq Qarabağda dalğalanacaqdır.

Əziz dostlar, sizi və Azərbaycan xalqını bir daha qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram.

* * *

*Prezident, Ali Baş Komandan İlham Əliyev xüsusi təyinatlı hərbi məktəblərin tədris və intizamda birinci yerləri tutan və təhsil müəssisələrini fərqlənmə ilə bitirən məzunlara diplomlar təqdim etdi. Tədrisdə və intizamda birinci yerləri tutan məzunlar qiymətli hədiyyələrlə təltif olundular.*

*Dövlətimizin başçısı bir qrup zabitə mənzillərin orderlərini təqdim etdi. Ali Baş Komandan onları təbrik etdi, gələcək xidmətlərində uğurlar arzuladı.*

*Digər məzunlara diplomlar müəllim heyəti tərəfindən təqdim edildi.*

*Sonra məzunların buraxılış mərasimi davam etdirildi.*

**O r x a n  C ə f ə r l i** *(məzun):* Möhtərəm Prezident, cənab Ali Baş Komandan! Hərbi tədris müəssisələrinin yaş kötüklərinə 2012-ci il məzunları tərəfindən üzərində ulduz və aypara təsviri olan emblemlər vurarkən, bu şərəfli vəzifəni yerinə yetirməkdən qürur və sevinc hissi duyur, bütün silahdaşlarım adından Sizə təşəkkür edirəm.

Yaş kötüyü Silahlı Qüvvələrin sıralarına daxil olanların ölkəsinə və millətinə xidmət üçün bu vəzifəni təhvil almalarının bir rəmzidir. Bu şərəfli vəzifəni təhvil almanın məsuliyyəti ilə 2012-ci il məzunları adından bir daha bildiririk ki, veriləcək hər bir tapşırığı üstün vəzifə anlayışı və Vətən sevgisi ilə yerinə yetirəcək, içdiyimiz anda daim sadiq qalacağıq.

Cənab Ali Baş Komandan, icazənizlə, 2012-ci il məzunları adından rəmzləri yaş kötüklərinə vururuq.

*Tədris və intizamda birinci yerləri tutan məzunlar üzərində ulduz və aypara təsviri olan emblemləri rəmzi yaş kötüklərinə vurdular.*

*Daha sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin döyüş bayrağının təhvili və qəbulu* oldu.

**M ə h ə m m ə d  Ş ə k i l i y e v** *(döyüş bayrağını təhvil verən kursant):* Silahdaşım, babalarımızın qanı bahasına ucalan bu şanlı döyüş bayrağının müqəddəs keşik növbəsi sənindir. Bayrağımın parçası tarixin nişanəsi, parıltısı zəfərlərin işığı, yazısı qəhrəmanlıq və şücaətə çağırış, ağacı dözüm, baftası şərəf və məsuliyyət rəmzidir. Ay-ulduzuna varlığım fəda olsun. Yazısını vicdanım tək təmiz saxlayacağam. Ağacını qürurla bərk tutacağam. Baftası inam dolu qanımda namus, çökməz çiyinlərimdə ən şərəfli məsuliyyət kimi qalacaqdır.

İçdiyim bu anda sadiq qalacağımı və ehtiramımı göstərmək üçün bayrağımı öpür və sənə təhvil verirəm!

*Məktəbin döyüş bayrağı növbəti buraxılışın kursantlarına təhvil verildi.*

**Q a l i b  B a ğ ı r o v** *(döyüş bayrağını qəbul edən kursant):* And içirəm ki, bu müqəddəs keşikdə bir an da olsun gözümü ondan ayırmayacağam. Babalarımızın qanı bahasına ucalan bu

şanlı döyüş bayrağını öz canımdan da əziz bilib, onu daim yüksəklərdə tutacağam.

Parçası tarixin nişanəsi, parıltısı zəfərlərin işığı, yazısı qəhrəmanlıq və şücaətə çağırışdır. Ağacı dözümüm, bayrağının göy rəngi ümidim, al rəngi qanım, yaşıl rəngi inamım olsun. Ay-ulduzuna varlığım fəda olsun. Yazısını vicdanım tək təmiz saxlayacağam. Ağacını qürurla bərk tutacağam. Baftası inam dolu qanımda namus, çökməz çiyinlərimdə ən şərəfli məsuliyyət kimi qalacaqdır.

Ulu öndər Heydər Əliyevin ruhunu yaşadan bu şanlı bayrağı məndən sonra sağ qalana təhvil vermədən ölmək mənə haram olsun. İçdiyim bu anda sadiq qalacağımı və ehtiramımı göstərmək üçün bayrağımı öpür və təhvil alıram.

*Nümunəvi orkestrin və kursantların ifasında məktəbin marşı ifa edildi.*

*Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin döyüş bayrağı gətirildi, kursantlar təntənəli hərbi marşın sədaları altında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin olduğu tribunanın qarşısından keçdilər.*

## TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*25 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 20 illik yubileyi sammitində iştirak etmək üçün Türkiyə Respublikasının İstanbul şəhərinə işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) 20 illik yubileyi sammitində iştirak etmək üçün iyunun 25-də Türkiyə Respublikasının İstanbul şəhərinə işgüzar səfərə gəlmişdir.*

*Dövlət bayraqları ilə bəzədilmiş Atatürk Hava Limanında Azərbaycan prezidenti İlham Əliyevi Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*İstanbul*

*26 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün iyunun 26-da İstanbulda Lütfi Kırdar Beynəlxalq İclas Mərkəzində görüşü olmuşdur.*

*Görüşdə İstanbulda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) 20 illik yubileyi sammitinin üzv ölkələr arasında əməkdaşlıq əlaqələrinin genişlənməsinə töhfə verəcəyi bildirildi. Ölkələrimiz arasındakı əlaqələrin bütün sahələr üzrə sürətli inkişafından məmnunluq ifadə edən qardaş dövlətlərin başçıları bu əməkdaşlığın sonrakı inkişafı istiqamətində fəaliyyətin genişləndirilməsinin zəruriliyini vurğuladılar.*

*Respublikalarımız arasındakı iqtisadi əlaqələrin hazırkı səviyyəsindən razılıq bildirən prezidentlər bu sahənin inkişafına dair imzalanmış sənədlərin əhəmiyyətini diqqətə çatdırdılar.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*İstanbul*

*26 iyun 2012-ci il*

*Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.*

*Baş nazir Rəcəb Tayyib Ərdoğan Dolmabaxça sarayının önündə prezident İlham Əliyevi qarşıladı.*

*Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olundu.*

*Trans–Anadolu Qaz Boru Kəməri (TANAP) layihəsinin Avropanın enerji təhlükəsizliyinə, o cümlədən ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinin vurğulandığı görüşdə Azərbaycan–Türkiyə əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*İstanbul*

*26 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə iyunun 26-da İstanbulda sənədlərin imzalanması mərasimi olmuşdur.*

*Türkiyə Respublikası və Azərbaycan Respublikası arasında «Trans–Anadolu Qaz Boru Kəməri üzrə Hökumətlərarası Müqavilə»ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan imzaladılar. Həmçinin müqaviləni Azərbaycanın Sənaye və Energetika naziri Natiq Əliyev və Türkiyənin Enerji və Təbii Ehtiyatlar naziri Tanər Yıldız imzaladılar.*

*BOTAŞ və ARDNŞ arasında TANAP Layihə Şirkətində təşkilati məsələlərlə bağlı ilkin razılaşmanı Azərbaycanın Sənaye və Energetika naziri Natiq Əliyev, Türkiyənin Enerji və Təbii Ehtiyatlar naziri Tanər Yıldız, ARDNŞ-in prezidenti Rövnəq Abdullayev və BOTAŞ-ın baş direktorunun müavini Məhmət Konuk imzaladılar.*

*Türkiyə Hökuməti ilə Trans–Anadolu Qaz Boru Kəməri Şirkəti arasında «Ev sahibi hökuməti Müqaviləsi»ni Türkiyənin Enerji və Təbii Ehtiyatlar naziri Tanər Yıldız, TANAP Şirkəti adından ARDNŞ-in prezidenti Rövnəq Abdullayev imzaladılar.*

# TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANLA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*İstanbul*

*26 iyun 2012-ci il*

*Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan mətbuat konfransında bəyanatlarla çıxış etmişlər.*

## Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Çox hörmətli qardaşım, Azərbaycan dövlətinin başçısı cənab İlham Əliyev!

Hörmətli tədbir iştirakçıları, hörmətli mətbuat nümayəndələri!

Xanımlar və cənablar!

Sizləri səmimi-qəlbdən salamlayır, «Xoş gəldiniz!» – deyirəm.

Azərbaycan ilə Türkiyə güclü qardaşlıq və qohumluq telləri ilə bir-birinə bağlı iki dövlətdir. Həmçinin – ruhu şad olsun – mərhum prezident Heydər Əliyevin unudulmaz sözləri ilə desək, bizlər Türkiyə və Azərbaycan olaraq özümüzü «bir millət – iki dövlət» görürük və belə tərəqqi edirik.

Bir qədər əvvəl imzaladığımız müqavilələrlə münasibətlərimizə qardaş ölkələrimizin xüsusiyyətinə layiq olan strateji bir xarakter də qataraq əlaqələrimizi ən yüksək səviyyəyə çatdırdıq. Azərbaycan ilə hər zaman qeyd etdiyimiz bu dərin

qohumluq və qonşuluq əlaqələrimizlə bərabər, enerji sahəsində də strateji əhəmiyyətə malik münasibətlərimiz vardır.

Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz boru kəmərləri enerji əməkdaşlığımız çərçivəsində uğurla həyata keçirilmiş və mühüm qlobal səviyyədə özünü təsdiq etmişdir. Bu iki tarixi layihə bizi bir-birimizə çox sıx şəkildə bağlamaqdadır. Bu mənada bir məqamı xüsusi vurğulamaq istəyirəm: Biz Xəzər hövzəsi və Orta Asiya təbii qazının ölkəmizin ərazisindən alternativ marşrutlarla Avropaya nəqlini nəzərdə tutan «Cənub Qaz Dəhlizi» layihələrini istər öz enerji təhlükəsizliyimizi təmin etmək, istərsə də Avropanın enerji təhlükəsizliyinə töhfə vermək məqsədi ilə fəal şəkildə dəstəkləyirik. Bu çərçivədə enerji strategiyamızın əsas tərkib hissələrindən olan mənbələrin və marşrutların şaxələndirilməsinə də böyük əhəmiyyət veririk.

«Cənub Qaz Dəhlizi»nin reallaşması Azərbaycanın enerji resurslarının etibarlı şəkildə Avropaya çatdırılması baxımından da mühüm əhəmiyyət daşıyır. Keçən il aparılan müzakirələr nəticəsində «Şahdəniz-2» layihəsi çərçivəsində əldə ediləcək təbii qazın 6 milyard kubmetrlik hissəsinin Türkiyəyə satışına, 10 milyard kubmetrlik hissəsinin də Türkiyə ərazisindən Avropaya tranzit daşınması ilə əlaqədar azərbaycanlı qardaşlarımızla 2011-ci il oktyabrın 25-də hökumətlərarası müqavilə, 2011-ci il dekabrın 24-də isə ilkin razılaşma imzalamışdıq.

Bu gün tarixi əhəmiyyətə malik daha bir yeni addım atdıq. Qısa adı TANAP olan «Trans–Anadolu Təbii Qaz Boru Kəməri layihəsinə dair Hökumətlərarası Müqavilə»ni və «Ev sahibi hökuməti Müqaviləsi»ni imzaladıq. TANAP layihəsi Azərbaycan qazının Türkiyə ərazisindən Avropaya tranzit daşınmasına imkan verəcək çox önəmli və tarixi əhəmiyyətli bir layihədir. Beləliklə, bu gün Türkiyə–Azərbaycan enerji əməkdaşlığının inkişaf etdirilməsi yalnız ölkəmiz üçün yox, həmçinin Avropanın da enerji təhlükəsizliyi baxımından böyük əhəmiyyət daşıyır ki, biz də belə bir hadisəyə şahidlik edirik. Bu

tarixi gündə sizlərlə birlikdə olmaqdan böyük məmnuniyyət və qürur duyduğumuzu xüsusilə ifadə etmək istəyirəm.

Hörmətli dostlar, bu gün imzalanan müqavilələrlə layihənin hüquqi bazasının tamamlanması istiqamətində ən mühüm addım atılmışdır. Bu layihə ölkələrimiz arasındakı strateji əməkdaşlığı dərinləşdirməklə kifayətlənməyəcək, eyni zamanda, Azərbaycan ilə Avropa arasında Türkiyə ərazisindən təbii bir bağlantı yaradacaqdır. Layihənin həyata keçməsi ilə ölkələrimiz həm Avropa İttifaqının mənbələrin şaxələndirilməsi hədəfinə əlavə dəyərə malik bir töhfə vermiş, həm də Avropanın enerji təhlükəsizliyində üzərinə mühüm öhdəlik götürmüş olacaqdır. Başqa sözlə, Qərb–Şərq enerji dəhlizini formalaşdıran bütün bu layihələr bölgədə təhlükəsizliyin və sülhün gücləndirilməsi və iqtisadi inkişafın təmin edilməsi istiqamətində strateji səylərdir. Bu layihələr bölgə ölkələrinin bir-biriləri ilə olan siyasi və iqtisadi əlaqələri ilə yanaşı, Qərb dünyası ilə münasibətlərini də gücləndirməkdədir. Bu xüsusiyyəti ilə həmin layihələr sırf ticari yatırım olmaqdan daha üstün bir məna daşımaqdadır.

TANAP layihəsi «Şahdəniz-2» qazı ilə işləməyə başlayacaqdır.

Ancaq gələcəkdə bu boru kəməri ilə Azərbaycanın digər yataqlarından əldə ediləcək təbii qazın da daşınması əsas mövzudur. Bundan başqa, Azərbaycan ərazisindən tranzit keçəcək Xəzərin o tayındakı qaz mənbələri də TANAP boru xəttinə istiqamətləndiriləcəkdir. Milyardlarla dollarlıq sərmayə tələb edəcək bu layihənin bölgə xalqlarının və gələcək nəsillərin rifahının təminat altına alınmasına böyük töhfə verəcəyinə inamımız qətidir. Bu layihənin Azərbaycan ilə ortaq taleyimizə və bütün sahələrdə mükəmməl əlaqələrimizin enerji qisminə də əlavə bir güc qazandıracağına inanırıq.

Bu inamla bu gün imzalanan müqavilələrin hamımıza xeyirli olmasını diləyir, sizləri bir daha hörmətlə salamlayıram.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox hörmətli Baş nazir, əziz qardaşım!

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

İlk növbədə qeyd etmək istəyirəm ki, yenidən qardaş Türkiyə torpağında olmağımdan çox məmnunam. Bu gün, bu tarixi gündə sizinlə bərabər olmaq mənim üçün böyük şərəfdir.

Böyük qürur hissi ilə deyə bilərəm ki, Türkiyə–Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Keçən il biz müstəqilliyimizin bərpasının 20 illik ildönümünü qeyd etmişik. İyirmi ildir ki, Azərbaycan müstəqil dövlətdir. Bu 20 il ərzində Türkiyə–Azərbaycan əlaqələri həmişə yüksək səviyyədə olmuşdur. Bu əlaqələr getdikcə daha da güclənir, daha da dərinləşir. Bu əlaqələrin təməlində xalqlarımız arasında olan bağlılıqdır, qardaşlıqdır, dostluqdur. Türk dünyasının böyük oğlu, böyük öndər Mustafa Kamal Atatürk demişdir: «Azərbaycanın kədəri–kədərimiz, sevinci–sevincimizdir». Bu unudulmaz tarixi kəlamlar bu gün də həm Türkiyə üçün, həm Azərbaycan üçün yol göstərən bir istiqamətdir.

Çox şadam ki, son illər ərzində biz ancaq sevincli günlər yaşayırıq. Birgə irəli sürdüyümüz təşəbbüslər, həyata keçirdiyimiz layihələr həm bizi, xalqlarımızı birləşdirir, həm də bölgədə yeni vəziyyətin yaranmasına gətirib çıxarmışdır. Türkiyə–Azərbaycan qardaşlığı, dostluğu bütün bu layihələri reallığa çeviribdir. Əlbəttə ki, hər bir layihənin kommersiya, iqtisadi, texniki məsələləri vardır. Ancaq əgər bu, möhkəm təməl üzərində qurulmasaydı, biz enerji sahəsində və başqa sahələrdə indiki səviyyədə uğura nail ola bilməzdik. Əlaqələrimiz çoxşaxəlidir, bütün sahələri əhatə edir. Mən dünyada siyasi sahədə Türkiyə və Azərbaycan kimi ikinci müttəfiq tanımıram. Biz bölgə məsələlərində birlikdə fəaliyyət göstəririk, daim siyasi məsləhətləşmələr aparırıq. İqtisadi sahədə əməkdaşlığımız bölgə üçün də çox böyük rol oynayır. Türkiyə–Azərbaycan birliyi bölgədə sabitlik yaradan bir amildir.

Enerji məsələsinə gəldikdə, bizim bərabər həyata keçirdiyimiz böyük layihələr bu gün dünya enerji xəritəsinə yeni çalarlar gətirmişdir. İndi bölgəni birgə icra etdiyimiz layihələrsiz təsəvvür etmək mümkün deyil. 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft, 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri Avropanın enerji xəritəsini xeyli dərəcədə dəyişdirmişdir. Bu gün biz yeni böyük tarixi əhəmiyyəti olan TANAP layihəsinə də start veririk. Əminəm ki, TANAP layihəsi eyni uğura nail olacaqdır. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum layihələri kimi, TANAP layihəsi də vaxtında və keyfiyyətlə icra ediləcəkdir.

Bildiyiniz kimi, Azərbaycan qazının Avropaya nəql edilməsi ilə əlaqədar son illər ərzində çox böyük danışıqlar, müzakirələr aparılır, müxtəlif tədbirlər keçirilir. Biz görürdük ki, bu müzakirələr elə durmadan davam edir, amma ortada bir nəticə yoxdur. İkitərəfli məsləhətləşmələr aparmaqla qərara gəldik ki, Türkiyə və Azərbaycan bu məsələdə də liderliyi üzərinə götürməli və bu layihəni birlikdə icra etməlidirlər. Bu layihə sırf Türkiyə və Azərbaycan layihəsidir. Çünki bu gün imzalanan sənədlər də bunu təsdiq edir. Bu layihəni biz özümüz öz gücümüzlə, öz pulumuzla və öz texniki imkanlarımızla icra edəcəyik. TANAP layihəsinin icrası nəticəsində biz ilk növbədə Türkiyəyə daha da böyük həcmdə təbii qazın nəql edilməsinə nail olacağıq. Türkiyə ərazisindən tranzit imkanları da açılacaq. Bu layihə gələcəkdə Avropanın enerji təhlükəsizliyinə də böyük dəstək verəcəkdir. Bu məsələ ilə bağlı aramızda fikir ayrılığı yoxdur. Bildiyiniz kimi, Bakı–Tbilisi–Ərzurum qaz kəməri işə düşəndən sonra Türkiyə Azərbaycandan qaz almağa başlamışdır. TANAP layihəsi Türkiyəyə böyük həcmdə Azərbaycan qazını nəql etmək üçün imkan yaradacaqdır. Bizim qaz ehtiyatlarımız çox böyükdür. Təkcə «Şahdəniz» layihəsi 1,2 trilyon kubmetr qaz ehtiyatına malikdir. Ancaq Azərbaycanın digər yataqlarında təsdiq edilmiş ehtiyatlar 2,6 trilyon kubmetrdir. Yəni bu gün başladığımız layihə əminəm ki, bundan sonra onilliklər, bəlkə də 100 il, bəlkə də ondan da artıq

müddətdə maraqlarımızı təmin edəcəkdir. Həm enerji təhlükəsizliyi məsələləri təmin ediləcək, həm də Azərbaycan üçün yeni bazarların açılması məsələləri də həllini tapacaqdır.

Enerji sahəsində əməkdaşlıq təkcə bu layihə ilə məhdudlaşmır. Keçən il biz İzmirdə Petkimdə əziz qardaşım cənab Baş nazirlə birlikdə böyük layihənin təməlini qoyduq. Petkim, TANAP layihələrinə birlikdə qoyulacaq sərmayə təxminən 15–20 milyard dollara bərabərdir. Yenə də deyirəm, bizim əlaqələrimiz dostluq, qardaşlıq üzərində qurulmasaydı, əlbəttə ki, böyük sərmayədən söhbət gedə bilməzdi. Yenə də qayıdıram əsas məsələyə ki, gördüyümüz işlərin təməlində xalqlarımızın bağlılığıdır, maraqlarımızın uzlaşmasıdır və bir-birimizə olan məhəbbətdir. Mən əminəm ki, bu layihələr əlaqələrimizi daha da möhkəmləndirəcəkdir.

Gələcəkdə bizi daha böyük layihələr gözləyəcəkdir. TANAP layihəsinə gəldikdə, şübhə etmirəm ki, Türkiyə və Azərbaycan bu liderliyi üzərinə götürməklə TANAP-ı vaxtında – 5 il ərzində icra edəcəkdir. Biz TANAP-ın açılışı mərasimini də belə sevinclə qeyd edəcəyik.

* * *

*Sonra Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev jurnalistlərin suallarını cavablandırdılar.*

**S u a l: Sualım cənab Baş nazir Rəcəb Tayyib Ərdoğanadır. Azərbaycan fəal şəkildə Türkiyə iqtisadiyyatına sərmayə yatırır və qeyd edildiyi kimi, ötən il Petkim Neft Kimya Kompleksinin «STAR» neft emalı zavodunun təməlqoyma mərasimi keçirildi. Artıq bu layihənin icrasına başlanılmışdır. İnvestisiya qoyuluşu sahəsində əməkdaşlığın inkişaf perspektivlərini necə qiymətləndirirsiniz?**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n**: Bu sualla əlaqədar olaraq deyim ki, xüsusilə Petkimlə bağlı Azərbaycanın, dəyərli qardaşımın mövqeyi həqiqətən, hər cür təqdirdən üstündür.

Petkim özəlləşdirmə layihələri içərisində ən mühüm yatırımlardan biri olmuşdur. Təbii ki, Azərbaycan ilk addımla kifayətlənməmişdir. Ondan sonrakı müddətdə də, təbii ki, İlham qardaşımla bərabər helikopterlə gedib Əliağa şəhərinin üstündə gəzdik. İndi təbii ki, aparılan yenidənqurma işləri, əlavə yatırımlar nəticəsində orada çox fərqli bir şəhər formalaşır. Orada limandan tutmuş, yeni müəssisələrə qədər, neft emalına qədər geniş tədbirlər görülür. Bu addımlar atılarkən bir şey də çox əhəmiyyətlidir ki, Azərbaycan qazı öz ölkəsində işlənən kimi, burada da işlənir. Bu bir şeyi də özü ilə bərabər ortaya qoyur. Baxın, bir millət olmanın ən gözəl ifadələrindən biri də, hörmətli dostlar, Əliağadır, Petkimdir, neft emalı zavodudur, limanlarıdır və sairə.

Bununla da kifayətlənmədilər. Mənim burada bir təşəkkürüm də vardır. Sağ olsun İlham qardaşım, istər atasının adından, istər anasının adından ölkəmizin müxtəlif yerlərində məktəblər inşa etdirməklə bizim təhsil dünyamıza da möhürünü vurur, bununla da qardaşlığımızı daha da möhkəmləndirir.

**İ l h a m Ə l i y e v:** Əziz qardaşım, dediyiniz xoş sözlərə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Doğrudan da qeyd etmək istəyirəm ki, bu gün Türkiyə–Azərbaycan əlaqələri dünya miqyasında fərqlənən, seçilən əlaqələrdir. Bu əlaqələrin təməlində bizim bir millət olmağımız durur. Siz də Azərbaycan xalqının böyük oğlu, mənim atam Heydər Əliyevin kəlamlarını xatırlatdınız. Doğrudan da bu kəlamlar ürəkdən gələn, tarixi sözlərdir. Ən önəmlisi ondan ibarətdir ki, bu gün bu sözlər bizim üçün əsas yol xəritəsidir. Biz əməkdaşlığımızı daha da inkişaf etmiş görmək istəyirik. Bu gün həyata keçirdiyimiz layihələr birliyimizi möhkəmləndirir. Bizim birliyimiz həm xalqlarımız, dövlətlərimiz üçün lazımdır, həm də bölgəyə lazımdır. Bu gün Türkiyə və Azərbaycan əməkdaşlığı və müttəfiqliyi bölgədə artıq reallıqdır, böyük bir sabitləşdirici amildir. Biz çalışmalıyıq ki, hər sahədə bir-birimizi dəstəkləyək.

Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə Türkiyə olmuşdur. Həm öz qardaşlıq borcunu göstərmişdir, həm də

digər ölkələrə yol göstərmişdir. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq. Bizim üçün ən çətin anlarda yanımızda Türkiyə olmuşdur. Azərbaycan da hər zaman olduğu kimi, Türkiyənin yanındadır. Bu birlik, bu əməkdaşlıq, bu qardaşlıq bu gün daha da çiçəklənir, daha da güclənir. TANAP layihəsi bu işlərin təzahürüdür. Belə layihələr əvvəllər də olub, bundan sonra da olacaqdır. TANAP layihəsinə gəldikdə isə, biz bu layihəni sırf Türkiyə–Azərbaycan layihəsi kimi görürük. Təsadüfi deyildir ki, bu layihəni həyata keçirən, gerçəkləşdirən Türkiyə və Azərbaycandır. Azərbaycan öz enerji təhlükəsizliyini təmin edib. Bizim mənbələrimiz, resurslarımız var. Biz Türkiyənin enerji təhlükəsizliyinə də öz enerji təhlükəsizliyimiz kimi baxırıq. Bu da təbiidir. Bir-birimizi ayırmırıq. Bizim maraqlarımız da, niyyətlərimiz də, siyasətimiz də birdir. Bu layihələr bu əlaqələri daha da möhkəmləndirir. Mən bugünkü günü təsadüfən tarixi gün adlandırmadım. Çünki doğrudan da biz bu gün böyük tarix kitabında yeni səhifələr açırıq, yeni səhifələrə imzalarımızı qoyuruq ki, gələcək illərdə, onilliklər bundan sonra Türkiyə və Azərbaycan, xalqlarımız bundan fayda görəcəkdir.

Mənə göstərilən qonaqpərvərliyə, ünvanıma, Azərbaycan haqqında dediyiniz xoş sözlərə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Bir daha qeyd etmək istəyirəm ki, biz bu layihəni beş il ərzində həyata keçirməliyik. Bu layihə ilə bilavasitə məşğul olan bütün qurumlar bu hədəfə çatmaq üçün çalışsınlar və beş ildən sonra bizi yenidən sevindirsinlər.

**Rəcəb Tayyib Ərdoğan:** Mən də bu işdə əməyi olan bütün dostlarımıza, nazir dostlarımıza, bütün rəhbər dostlarımıza çox-çox təşəkkür edirəm. Daha çox çalışaq, beş ildən daha az müddətdə icra edək.

# QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ 20 İLLİK YUBİLEYİ SAMMİTİNDƏ İŞTİRAK

*İstanbul*

*26 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da İstanbulda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) 20 illik yubileyi sammitində iştirak etmişdir.*

*Türkiyə prezidenti Abdullah Gül Azərbaycan prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.*

*Sammiti açan Türkiyə prezidenti Abdullah Gül iştirakçıları salamladı. Bildirdi ki, bu toplantıya ev sahibliyi etmək Türkiyə üçün böyük şərəfdir. Təşkilatın yaranma tarixindən danışan Türkiyə prezidenti diqqətə çatdırdı ki, 20 illik fəaliyyəti dövründə bu qurum üzv ölkələr arasında siyasi və iqtisadi münasibətlərin daha da yaxınlaşmasına yeni imkanlar açmışdır. Abdullah Gül qurumun beynəlxalq iqtisadiyyatda önəmli rolunu qeyd etdi. Bildirdi ki, təşkilat bölgədə iqtisadi əlaqələrin, o cümlədən üzv ölkələr arasında işbirliyinin genişlənməsinə, özəl sektorun, ticarətin, mədəniyyətin, turizmin inkişafına təkan verir. Bunlar isə üzv ölkələrin iradəsi sayəsində mümkün olmuşdur.*

*Türkiyə prezidenti bildirdi ki, bu gün təşkilatın qarşısında duran əsas məqsəd gələcək 10 il üçün iqtisadi əməkdaşlığın yeni hədəflərini müəyyən etməkdir. Abdullah Gül sammitin işinə uğurlar arzuladı.*

*Təşkilata sədrlik edən Serbiya prezidenti Tomislav Nikoliç yubiley sammitinin dünyada iqtisadi böhranın hökm sürdüyü bir dövrdə keçirilməsinin önəmindən danışdı. O bildirdi ki, Serbiyanın quruma sədrlik etdiyi dövrdə təşkilata üzv dövlətlər arasında iqtisadi inkişaf istiqamətində mühüm addımlar*

*atılmışdır. Təşkilatın əsas məqsədi beynəlxalq qurumlarla əlaqələri yüksək səviyyədə qurmaqdır.*

*Serbiyanın dövlət başçısı Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının nüfuzlu beynəlxalq qurumlar, o cümlədən Avropa İttifaqı və Avropa Komissiyası ilə sıx əlaqələrinin əhəmiyyətinə də toxundu. O, QİƏT-ə sədrliyin Türkiyəyə keçməsindən məmnun olduğunu dedi.*

*Azərbaycan Prezidenti İlham Əliyev sammitdə çıxış etdi:*

– Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, Türkiyə prezidenti, əziz qardaşım cənab Abdullah Gülə bu zirvə görüşünün yüksək səviyyədə təşkil olunmasına və bizə göstərdiyi yüksək qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm. Qardaş Türkiyə torpağında yenidən olmağımdan çox məmnunam.

Azərbaycan QİƏT-in fəaliyyətinə çox böyük qiymət verir. Hesab edirəm ki, təşkilatımız 20 il ərzində önəmli beynəlxalq təşkilata çevrilibdir. Təşkilatın tarixi, demək olar ki, ölkəmizin müstəqilliyinin tarixi ilə də üst-üstə düşür. Biz keçən il müstəqilliyimizin bərpasının 20 illiyini qeyd etmişik. Azərbaycan 20 il ərzində müxtəlif beynəlxalq təşkilatlarda fəal iştirak edib, o cümlədən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında fəaliyyətimiz də çox fəaldır.

Bu illər ərzində ölkəmiz böyük yol keçmişdir. İqtisadi sahədə təşkilatımızın əsas istiqaməti iqtisadi əməkdaşlıqdır. Azərbaycan iqtisadi sahədə köklü islahatlar aparmış və son illər ərzində ölkəmizin qarşısında duran əsas iqtisadi və infrastruktur layihələri uğurla icra edilmişdir.

Son 8 ildə ümumi daxili məhsul, yəni iqtisadiyyatımız 3 dəfə artmış, yoxsulluq 5 dəfə azalmış, bir milyondan artıq yeni iş yeri açılmışdır. Dövlət borcu ümumi daxili məhsulun 7 faizini təşkil edir və hətta dünyanı bürümüş, Avropanı bürümüş iqtisadi böhran Azərbaycana o qədər də böyük təsir

göstərməmişdir. Dünyanın üç aparıcı reytinq agentliyi son aylar ərzində Azərbaycanın suveren reytinqini artırmışdır.

Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər və konkret layihələr regional əməkdaşlıq məsələlərinə də böyük dəstək verir. Təşkilata üzv olan ölkələrin əksəriyyəti ilə bizim çox səmərəli iqtisadi əməkdaşlığımız vardır. Ticarət dövriyyəsi artır, Xəzər dənizi–Qara dəniz–Aralıq dənizi regional əməkdaşlıqda da Azərbaycan çox fəal iştirak edir və yenə də deyirəm, irəli sürülmüş təşəbbüslər reallığa çevrilir.

Xüsusilə enerji və nəqliyyat sahələrində icra edilən və icrası başa çatmış layihələr, demək olar ki, bölgənin enerji və nəqliyyat xəritəsini dəyişir. 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan, 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərinin işə salınması bölgədə yeni dəhlizlərin açılmasına gətirib çıxarmışdır. 3 neft kəmərinin ikisi Qara dəniz limanlarına, biri isə Aralıq dənizi limanına resurslarımızı nəql edir. Azərbaycan enerji resurslarının daşınması işində tranzit ölkəyə çevrilib. Beləliklə, əməkdaşlıq daha da dərinləşir və Xəzər dənizi–Qara dəniz–Aralıq dənizi hövzəsində yerləşən ölkələr arasındakı əməkdaşlıqda Azərbaycan bundan sonra da fəallıq göstərəcəkdir.

Biz bu ilin sonunda növbəti böyük layihənin başa çatmasını gözləyirik. Bakı–Tbilisi–Qars dəmir yolunun istismara verilməsi nəticəsində qədim İpək yolunu bərpa etmiş oluruq. Bu layihə təkcə iştirak edən 3 ölkəni deyil, geniş mənada Asiya və Avropa qitələrini birləşdirən bir layihədir. Mən çox şadam ki, bu layihəni biz uğurla başa vururuq. Xatırlayıram, beş il əvvəl İstanbulda, QİƏT-in zirvə görüşündə mən çıxışımda qeyd etmişdim ki, yaxın zamanlarda dəmir yolunun tikintisi başlanacaqdır. Artıq qeyd edə bilərəm ki, bu ilin sonuna qədər bütün işlər tamamlanacaq və gələn ildən başlayaraq Bakı–Tbilisi–Qars beynəlxalq dəhlizi işə düşəcəkdir.

Bu, konkret layihədir. Təşkilatda iştirak edən ölkələrin daha da sıx birləşməsi, iqtisadi sahədə birgə təşəbbüslərin

göstərilməsi həm təşkilatımızı möhkəmləndirəcək, həm də iqtisadi gücümüzü artıracaqdır.

Bu gün regional təhlükəsizlik məsələlərinə də toxunmaq istərdim. Çünki regional əməkdaşlıq meyilləri güclənir və belə olan halda təhlükəsizlik məsələlərinə də böyük diqqət göstərilməlidir. Əfsuslar olsun ki, bu sahədə vəziyyət istədiyimiz kimi deyildir. Xüsusilə, Azərbaycana gəldikdə, bizim beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyümüz uzun illərdir ki, Ermənistan tərəfindən pozulmuşdur. Ermənistanın işğalçı və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi hələ də işğal altındadır, bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün həyatı yaşayır. Bütün mötəbər beynəlxalq təşkilatlar məsələ ilə bağlı öz mövqelərini bildirmişlər. BMT Təhlükəsizlik Şurası məsələ ilə bağlı və erməni qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasına dair 4 qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, bu qətnamələr icra edilmir, işğal, müharibə bu gün də davam edir və bölgədə gərginliyin artmasına səbəb olur.

İlk növbədə münaqişənin səbəbi aradan qaldırılmalıdır, işğala son qoyulmalıdır. Sonra bölgədə həm sabitlik bərqərar olunacaq, həm də iqtisadi əməkdaşlıq üçün şərait yaradılacaqdır. Biz əməkdaşlığın dərinləşməsində maraqlıyıq. Bu gün bölgədə Azərbaycan tərəfindən irəli sürülmüş layihələr ümumi işimizə öz töhfəsini verir. Ümid edirəm ki, gələcək illərdə təşkilatımız daha da güclənəcək, bu gün müzakirə edilən və reallığa çevrilən layihələr ölkələrimizi daha da sıx birləşdirəcəkdir.

Bir daha hörmətli qardaşım Abdullah Gülə göstərdiyi qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, zirvə görüşü uğurlu keçəcək və çox gözəl nəticələri olacaqdır.

## ALBANİYANIN BAŞ NAZİRİ SALİ BERİŞA İLƏ GÖRÜŞ

*İstanbul*

*26 iyun 2012-ci il*

*İyunun 26-da İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Albaniyanın Baş naziri Sali Berişanın görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli əlaqələrin hazırkı vəziyyəti və perspektivləri müzakirə olundu, enerji, sərmayə qoyuluşu və turizm sahələrində əməkdaşlığın inkişafı üçün yaxşı imkanların olduğu qeyd edildi. Albaniyanın Azərbaycan ilə neft-qaz infrastrukturunun yaradılması sahəsində əməkdaşlıqda maraqlı olduğu bildirildi.*

*Baş nazir Sali Berişa Albaniyanın Bakıda səfirliyinin açılması istiqamətində işlərin getdiyini dedi və Azərbaycan prezidenti İlham Əliyevi ölkəsinə səfərə dəvət etdi.*

### Səfər başa çatdı

*İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri başa çatmışdır.*

*Dövlət bayraqları ilə bəzədilmiş İstanbulun Atatürk Hava Limanında Azərbaycan prezidentini Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Həmin gün prezident İlham Əliyev Bakıya qayıtmışdır.*

*Dövlətimizin başçısını Heydər Əliyev Bakıya Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

# «RUSİYA–AZƏRBAYCAN DİALOQU–2012» III RUSİYA–AZƏRBAYCAN REGİONLARARASI FORUMUNUN İŞTİRAKÇILARINA

Əziz dostlar!

Sizi – III Rusiya–Azərbaycan regionlararası forumunun iştirakçılarını və qonaqlarını səmimi-qəlbdən salamlayıram. Diqqətəlayiq haldır ki, bu forumlar xoş ənənə kimi, ikitərəfli əməkdaşlığın aktual məsələlərinin müzakirəsi üçün səmərəli tribunaya çevrilmişdir.

Strateji tərəfdaşlığa əsaslanan Azərbaycan–Rusiya münasibətləri bütün sahələrdə uğurla inkişaf etməkdədir. İqtisadi, elmi-texniki və humanitar əlaqələrin dərinləşməsi hər iki ölkə vətəndaşlarının rifahının yüksəlməsinə, xalqlarımız arasında tarixi dostluq tellərinin möhkəmlənməsinə müsbət təsir göstərir.

Son illərin təcrübəsi təsdiq edir ki, qonşu dövlətlərin regionları arasında əlverişli ticarət-iqtisadi və investisiya mühitinin formalaşdırılması bir çox dünya ölkələrinin rastlaşdığı qlobal maliyyə böhranının mənfi nəticələrinin qarşısını almağa imkan yaradır. Bu baxımdan Rusiya və Azərbaycanın regionlararası əməkdaşlıq təcrübəsi yaxşı nümunə ola bilər. Məmnunluqla qeyd etmək istərdim ki, hazırda respublikamız Rusiya Federasiyasının əksər subyektləri ilə birbaşa əlaqələr qurmuş, onların bəziləri ilə hökumətlərarası sazişlər imzalamışdır.

Əminəm ki, forum çərçivəsində işgüzar fikir mübadiləsi və müzakirələr Azərbaycan–Rusiya münasibətlərinin inkişafına yeni impuls verəcək, ölkələrimiz arasında qarşılıqlı anlaşmanın və əməkdaşlığın daha da dərinləşməsinə kömək edəcəkdir.

Forumun bütün iştirakçılarına uğurlu və məhsuldar iş arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyun 2012-ci il*

## MAKEDONİYANIN PREZİDENTİ GEORGE İVANOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Makedoniyanın prezidenti George İvanovu qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda keçiriləcək Krans Montana Forumunun önəmi vurğulandı, Azərbaycan ilə Makedoniya arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edildi, əlaqələrimizin müxtəlif sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## PORTUQALİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ PAULO PORTASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Portuqaliya Respublikasının Xarici İşlər naziri Paulo Portasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Portuqaliyanın Xarici İşlər naziri Paulo Portasın ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizin inkişafında yeni səhifə açacağına ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev qonağın ölkəmizdə keçirəcəyi görüşlərin səmərəli olacağına və bu səfərin əməkdaşlığımızın əsas istiqamətlərinin müəyyənləşdirilməsi baxımından yaxşı imkan yaradacağına əminliyini qeyd etdi.*

*Xarici İşlər naziri Paulo Portas Portuqaliya Respublikasının Prezidenti Anibal Kavaku Silvanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, yaxın gələcəkdə Portuqaliyanın Azərbaycanda səfirliyinin açılacağını bildirdi, ölkəsinin Azərbaycan ilə əlaqələrin müxtəlif istiqamətlərdə – siyasi, iqtisadi, kənd təsərrüfatı və turizm sahələrində inkişaf etdirməkdə maraqlı olduğunu dedi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, Avropa İttifaqı ilə əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı prezident Anibal Kavaku Silvanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Portuqaliya dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## ESTONİYA PARLAMENTİNİN SƏDRİ XANIM ENE ERQMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Estoniya parlamentinin Sədri xanım Ene Erqmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Estoniya arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası əlaqələr sahəsində inkişaf etdirilməsi, ölkələrimizin eyni zamanda, Avropa İttifaqı çərçivəsində əməkdaşlığının perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## XORVATİYA RESPUBLİKASININ KEÇMİŞ PREZİDENTİ STEPAN MESİÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Xorvatiyanın keçmiş prezidenti Stepan Mesiçi qəbul etmişdir.*

*Xorvatiyanın keçmiş prezidenti Stepan Mesiç Azərbaycanda böyük inkişaf proseslərinin şahidi olduğunu məmnunluqla qeyd etdi. Xorvatiyalı qonaq Bakıda keçiriləcək Krans Montana Forumunun önəmini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Xorvatiya arasında ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu bildirildi, əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## İRAQIN BAŞ NAZİRİNİN İQTİSADİ MƏSƏLƏLƏR ÜZRƏ MÜAVİNİ ROUŞ NURİ ŞAVEYSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də İraqın Baş nazirinin iqtisadi məsələlər üzrə müavini Rouş Nuri Şaveysin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İraq arasında ikitərəfli əlaqələrin böyük tarixə malik olduğunu və uğurla inkişaf etdiyini vurğulayaraq bu əlaqələrin gələcəkdə daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Siyasi sahədə əməkdaşlığımıza toxunan prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsinin önəmini qeyd etdi. Dövlətimizin başçısı iqtisadi sahədə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün də geniş imkanların olduğunu bildirdi.*

*Rouş Nuri Şaveys İraq prezidenti Cəlal Təlabaninin, Baş nazir Nuri əl-Malikinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycana səfərindən və prezident İlham Əliyev ilə görüşündən məmnunluğunu bildirdi.*

*Görüşdə ölkələrimiz arasında energetika sektorunda, turizm, sərmayə qoyuluşu və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.*

*Dövlətimizin başçısı prezident Cəlal Təlabaninin və Baş nazir Nuri əl-Malikinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İraq prezidentinə və Baş nazirə çatdırmağı xahiş etdi.*

## BAKIDA KRANS MONTANA FORUMUNUN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*Heydər Əliyev Mərkəzi*

*29 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 29-da Bakıda Heydər Əliyev Mərkəzində Krans Montana Forumunun rəsmi açılışı mərasimində iştirak etmişlər.*

*Bu il 23-cü dəfə keçirilən Krans Montana Forumunda Gürcüstanın, Makedoniyanın və Monteneqronun dövlət başçıları, xarici ölkələrdən gəlmiş ictimai xadimlər, parlament nümayəndələri, ziyalılar, biznes dairələrinin təmsilçiləri iştirak etmişlər.*

*Tədbirin əsas məqsədi 2013-cü ildə keçiriləcək növbəti Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və mədəniyyətlərarası dialoqa dair Bakı Prosesi ilə bağlı təşviqatın aparılması və ölkəmizin bu dialoqun mərkəzi olması barədə təbliğatın gücləndirilməsidir.*

*Forum 1986-cı ildə İsveçrə rəsmilərinin dəstəyi ilə yaradılan beynəlxalq təşkilatdır. Dünyada böyük nüfuza malik bu qurum BMT, Avropa İttifaqı, Avropa Şurası, həmçinin YUNESKO, İSESKO və digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir. Forumun təsisçisi və prezidenti səfir Jan Pol Karterondur. Beynəlxalq əməkdaşlıq və dialoqa yardım məqsədilə yaradılan bu qurumun işində Azərbaycan da yaxından iştirak edir. Sivilizasiyaların kəsişdiyi məkanda yerləşən, mədəniyyətlərarası dialoqa töhfələrini əsirgəməyən ölkəmizin fəaliyyəti beynəlxalq səviyyədə, o cümlədən Krans Montana Forumu çərçivəsində layiqincə qiymətləndirilir. 2011-ci ildə Brüsseldə Krans Montana Forumunda prezident İlham Əliyevin bu təşkilatın ən ali mükafatına – «Prix De La Fondation»*

*mükafatına, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın forumun Qızıl medalına layiq görülmələri bunun əyani nümunəsidir. Krans Montana Forumunun bu il Bakıda keçirilməsinə qərar verilməsi də Azərbaycanın durmadan artan beynəlxalq nüfuzuna, mədəniyyətlərarası dialoqun və beynəlxalq tədbirlərin mərkəzinə çevrilməsinə dəlalət edir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva forumun işində iştirak edən dövlət başçıları və müxtəlif ölkələrin yüksək vəzifəli rəsmiləri ilə görüşdülər.*

*Mərasimi açan forumun təsisçisi və prezidenti səfir Jan Pol Karteron Bakıda keçirilən 23-cü illik toplantıda iştirak edən qonaqları salamladı. Yaradılan yüksək şəraitə görə Azərbaycan prezidentinə təşəkkür edən Jan Pol Karteron bu gün dünyanın mühüm dairələrinin Azərbaycana toplaşdığını dedi. O, 1993-cü ildən Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən və bu gün uğurla davam etdirilən proseslərin ölkəmizin inkişafı ilə nəticələndiyini bildirdi.*

**Jan Pol Karteron** (*forumun təsisçisi və prezidenti):* Mən şəxsən hesab edirəm və böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, 1993-cü ildən etibarən – prezident Heydər Əliyev bu ölkəyə rəhbərliyə gələndən sonra Azərbaycanda böyük inkişaf başlamışdır. Həmin vaxtlardan etibarən mən, həmçinin gördüm ki, o çox böyük müdrikliyə, uzaqgörənliyə malik bir şəxsiyyətdir. Çox şadam ki, cənab Prezident, mənə belə bir fürsət qismət oldu. Biz Heydər Əliyev Mərkəzində, yeni binada bu cür nüfuzlu, mühüm, mötəbər iclasımızı keçirəcəyik və gələn iki gün ərzində müzakirələrimizi aparacağıq.

Cənab Prezident, hörmətli birinci xanım, gözəl bilirəm ki, Siz burada hansı fəaliyyəti aparırsınız və bu çox yüksək səviyyəli fəaliyyətdir. Siz Brüsselə səfər etdiyiniz zaman mən Sizə və Mehriban Əliyevaya bildirdim ki, gördüyünüz işlər, sözün əsl mənasında, möcüzəli nəticələr verir. Biz bu gün görürük ki, Azərbaycanda nələr baş verir. Biz bilirik ki, ölkəniz

xüsusi əhəmiyyət kəsb edən bir oyunçuya çevrilir. Həm sosial, həm mədəni, həm də humanitar sahələrdə siz get-gedə dünyaya daha çox açılırsınız. Böyük hörmət və iftixarla mən burada birinci xanımı salamlayıram. O, Heydər Əliyev Fonduna rəhbərlik edərək bir çox mühüm sahələrdə hökumətin gördüyü işləri də üstələyərək, bütün çətinlikləri aradan qaldırır. Təbii ki, məqsəd sırf yaxşı, xeyirxah işlər görməkdən ibarət deyildir. Məqsəd ondan ibarətdir ki, burada iradə vardır, razılıq vardır. Biz bilirik ki, Heydər Əliyev Fondu bir çox işlər görür, həmçinin müxtəlif təhsil, mədəniyyət ocaqlarında yeniliklər həyata keçirir.

Biz bilirik ki, Azərbaycan Avropa İttifaqının enerji təchizatçılarından biridir. Biz görürük ki, bu gün qarşımızda həmin o tarix yazılır. İqtisadi əhəmiyyət artır. Artıq bizim əlimizdə məşəl yanır. Bu məşəl, alov artıq güclənir. Məhz belə hisslərlə, cənab Prezident, mən bildirirəm ki, bu Sizin fəaliyyətiniz sayəsində hasilə gələn işlərdir. Buna görə də biz Sizə minnətdarıq.

Bu gün biz, həmçinin Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya mükafat təqdim edəcəyik. Bunu xüsusilə qeyd etmək istəyirəm ki, onun fəaliyyətinə böyük hörmət və rəğbət bəsləyirik. Biz xüsusilə də burada digər şəxsiyyətlərin iştirakını da qeyd edirik. Bilirik ki, uğur əldə etmək, humanitar məqsədlərə çatmaq istiqamətində qarşımızda duran yol asan deyildir. Azərbaycan bu gün çox qeyri-adi nəticələr əldə edərək düzgün yoldadır. Bu məqsədlə mən, hörmətli cənab Prezident, çıxışımı bitirirəm.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev forumun açılışında nitq söylədi:*

– Hörmətli xanımlar və cənablar!

Zati-aliləri!

Mən sizin hamınızı ölkəmizdə salamlamaq istəyirəm. Mən Krans Montana Forumuna, onun sədri cənab Karterona təşəkkürümü bildirmək istəyirəm. Çox təşəkkür etmək istərdim ki, o bu gün Azərbaycana, Bakıya təşrif buyurub və bu forumda iştirak edir.

Mən bilirəm ki, sizlərdən çoxu Azərbaycana ilk dəfədir gəlib, ilk dəfədir Azərbaycanda belə bir forumda iştirak edir. Əminəm ki, siz cəmiyyətimizdə olan bu inkişaf ruhunu, bu inkişafı özünüz hiss edəcəksiniz. Çox gözəl görəcəksiniz ki, Azərbaycanda, Bakıda hansı işlər həyata keçirilir. Azərbaycan, Bakı siyasi-iqtisadi sahələrdə dialoqun keçirildiyi, formalaşdığı yerlərdən birinə çevrilibdir. Azərbaycan, Bakı artıq çox mötəbər beynəlxalq forumların keçirilməsi məkanına çevrilib. Məhz buna görə çox şadıq.

Bakıda çox müxtəlif məsələlər, siyasi müstəvidə çox maraqlı mövzular ətrafında birgə müzakirələr, debatlar, forumlar təşkil olunur. Bunun hamısı bizim siyasətimizin nəticəsidir, eyni zamanda, bu, ölkəmizin tarixi irsidir. Azərbaycan tarixən, əsrlər boyu müxtəlif mədəniyyətlərin, müxtəlif millətlərin sülh şəraitində yaşadığı bir məkan olmuşdur. Ona görə də bizim ölkədə belə tədbirlərin keçirilməsi, müxtəlif millətlərin, mədəniyyətlərin nümayəndələrinin bir araya gəlməsi, birlikdə işləməsi, müzakirələrin, debatların keçirilməsi bizim üçün çox təbii bir haldır. Biz həmişə öz işimizlə multikulturalizmi, yəni çoxmədəniyyətlilik amilini inkişaf etdirməyə üstünlük veririk və bunun gücləndirilməsinə çalışırıq. Çünki qloballaşan bugünkü dünyada başqa bir yol, başqa bir alternativ yoxdur. Bir daha qeyd etmək istərdim ki, müxtəlif etnik mənşəyə mənsub olan, müxtəlif mədəniyyətləri təmsil edən insanların əsrlər boyu burada birlikdə yaşaması Azərbaycan üçün təbii bir hal olub. Azərbaycan çox böyük tarixə malik olan ölkədir. Mən əminəm, qonaqlarımızın imkanı olacaqdır ki, onlar bizim tarixi yerlərə baş çəkə bilsinlər, Azərbaycanın tarixi abidələrini görə bilsinlər və onlara toxuna bilsinlər.

Müstəqil ölkə olaraq biz yalnız 20 ildir ki, mövcuduq. Ötən il müstəqilliyimizin 20-ci ildönümünü qeyd etdik. Müstəqilliyimiz bizim üçün və xalqımız üçün ən böyük xoşbəxtlikdir, ən böyük dəyərdir. Xalqımız azadlıq fikri ilə yaşayıb və bu müstəqilliyə nail olubdur. İndi Azərbaycan artıq 20 ildir ki, beynəlxalq birliyin üzvüdür və uğurla inkişaf edir. Bu 20 il ərzində həm siyasi, həm də iqtisadi sahədə çox ciddi dəyişikliklər baş vermişdir. Əvvəllər Azərbaycan həm müstəqil, həm də azad deyildi. Ona görə ki, biz totalitar bir ölkə çərçivəsində yaşayırdıq.

Müstəqillikdən sonra bizdə siyasi müstəvidə dəyişikliklər, transformasiya baş verdi. Dövlətçiliyimizin qurulması bizim üçün çox böyük önəm daşıyırdı, bizim üçün böyük imkanlar yaratmışdı. Ancaq çoxlu çətinliklər də oldu. Lakin buna baxmayaraq, biz müstəqilliyimizin qazanılması ilə artıq möhkəm dövlətçiliyimizi yarada və iqtisadi-siyasi sahələrdə güclü transformasiyaya malik ola bildik. İndi demokratik prosesimizi inkişaf etdirir, gücləndiririk. Biz qanunun aliliyi, insan haqlarının müdafiəsi və qorunması sahələrinə çox böyük önəm veririk. Azərbaycanda bütün siyasi qurumlar, tərəflər öz fəaliyyətini uğurla davam etdirirlər.

Biz iqtisadi müstəvidə də transformasiyaya çox böyük önəm vermişik və veririk. Ona görə ki, iqtisadi sahəni inkişaf etdirmədən və güclü iqtisadiyyat qurmadan siyasi islahatlar mümkün deyildir. Ona görə də biz bu islahatları paralel olaraq həm siyasi, həm iqtisadi müstəvidə apardıq. Siyasi və iqtisadi islahatlar bir-birini dəstəkləmişdir və bugünkü Azərbaycan onu göstərir ki, biz düzgün yolu seçdik və düzgün işlər gördük.

Son 10 il ərzində dünyada ən sürətli iqtisadi inkişaf Azərbaycanda olmuşdur, iqtisadiyyatımız 3 dəfə artmışdır. Sənaye istehsalı 3 dəfə artmışdır. Sosial problemlərin həllinə çox böyük önəm vermişik. Ona görə ki, həddən çox çətin iqtisadi islahatlar bəzi ölkələrdə insanların narazılığına səbəb olur. Lakin Azərbaycanda bu olmamışdır. Azərbaycanda yoxsulluğun səviyyəsi son 8 il ərzində 5 dəfə azalaraq 7 faizə

enmişdir. Bundan başqa, biz onu nümayiş etdirə bildik ki, bazar iqtisadiyyatı yolu ilə inkişaf etmək sosial məsələlərin unudulması demək deyildir.

Azərbaycan sabit iqtisadiyyata malik olan bir ölkədir. Bizdə işsizlik səviyyəsi 5,4 faizdir. Xarici borc ümumi daxili məhsulumuzun yalnız 7 faizini təşkil edir. Bizim ixracımız idxalımızdan bir neçə dəfə yüksəkdir.

İqtisadi transformasiya, dəyişikliklər bizə daha çox islahatlar həyata keçirməyə imkan yaratmışdır və ölkəmizdə tamamilə yeni bir vəziyyətin yaradılmasına imkan vermişdir. Azərbaycan öz hesabına yaşayan, öz hesabına inkişaf edən ölkədir. Azərbaycan çox önəmli xarici siyasətini də inkişaf etdirir. Zənnimcə, bu hər bir ölkə üçün çox önəmli bir məsələdir. Xüsusilə də o ölkə üçün ki, uzun müddət, əsrlərlə müstəqil olmamışdır.

Beləliklə, regional əməkdaşlıq məsələləri eyni zamanda, bizim üçün çox önəmlidir. Biz regional əməkdaşlığı gücləndirmək üçün bir neçə layihə başlamışıq və bu layihələr xalqımıza və qonşularımıza fayda verəcəkdir. Biz düşünürük ki, regional əməkdaşlıq regional təhlükəsizlik olmadan mümkün deyildir. Ona görə də Azərbaycanın regionda artan təsiri bölgədə stabilləşdirici amilin əsasını yaratmışdır.

Müstəqilliyimizi bərpa etdikdən sonra əsas problemlərdən biri Ermənistan tərəfindən torpaqlarımızın işğalı olmuşdu. Bu bizə, ümumiyyətlə, regionun təhlükəsizliyinə, əməkdaşlığına çox böyük zərbə vurmuşdur. Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq müstəvidə tanınmış tarixi ərazisidir və Ermənistan bu torpaqları işğal etmişdir. Ermənistan Azərbaycanın bu torpaqlarında etnik təmizləmə aparmışdır. Ümumilikdə 20 faiz torpağımız indi erməni işğalı altındadır. BMT-nin qətnamələri, Helsinki xartiyası vardır. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Bu qətnamələr Ermənistandan öz qoşunlarını dərhal Azərbaycan torpaqlarından çıxarmasını tələb edir. Lakin onlar bu qətnamələri icra etməmişlər. Avropa Şurası, ATƏT və başqa mötəbər beynəlxalq təşkilatlar belə qətnamələr qəbul et-

mişlər. Lakin bunlara əməl olunmamışdır. Qətnamələrin uzun illər ərzində icra olunmaması beynəlxalq təşkilatların bu sahədə işlərinin dəyərini sual altına qoyur. Dağlıq Qarabağ, demək olar ki, Azərbaycanın mərkəzində yerləşir və münaqişə ilə bağlı qəbul edilmiş bütün qətnamələr bu torpaqların işğaldan azad olunması, oradan zorla çıxarılmış, qovulmuş insanların öz doğma torpaqlarına qaytarılması ilə bağlıdır. Bununla bağlı ATƏT-in faktaraşdırıcı missiyalarının orada keçirilən missiyaları göstərmişdir ki, bizim torpaqlarda – Dağlıq Qarabağda olan bütün tarixi, mədəni abidələr dağıdılmışdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Ona görə ki, Azərbaycanın ərazi bütövlüyü BMT tərəfindən qəbul olunmuşdur. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz ərazisidir və bu, bütün beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuşdur. Dağlıq Qarabağ ayrıca bir ölkə kimi, heç bir dövlət tərəfindən qəbul olunmamışdır.

Biz bu sahədə böyük diplomatik səylər görürük. Biz iqtisadiyyatımızı gücləndiririk. Əminəm ki, bütün bu amillər bizə öz suverenliyimizi, ərazi bütövlüyümüzü bərpa etməyə imkan verəcəkdir. Münaqişə yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında, Helsinki Yekun Aktı əsasında həll olunmalıdır. O aktda qeyd olunmuşdur ki, ərazi bütövlüyü prinsipi xalqların öz müqəddəratını təyin etmək prinsipi ilə ziddiyyət yaratmamalıdır və xalqların öz müqəddəratını müəyyən etmək hüququ ərazi bütövlüyü prinsipi çərçivəsində həll olunmalıdır.

Bütün bu məsələlər bizim əsas prioritetlərimizdir. Bizim xarici siyasətimiz tam aydındır. Biz siyasi və iqtisadi nöqteyi-nəzərdən beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyətimizi belə qururuq.

Azərbaycan bu yaxınlarda BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Azərbaycan indi qlobal təhlükəsizlik məsələlərində öz səsinə malikdir. Ötən ay Azərbaycan dünyanın bir nömrəli beynəlxalq təşkilatı olan Təhlükəsizlik Şurasına sədrlik etmişdir və namizədliyimizi

dəstəkləyən bütün ölkələrə təşəkkürümü bildirmək istərdim. Bu onu göstərir ki, ötən 20 il ərzində ölkəmiz özünü etibarlı tərəfdaş kimi tanıda bilmişdir. Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilərkən bizi 155 ölkə dəstəkləmişdir. Bizi dəstəkləyən, Azərbaycana inanan ölkələrin etimadını doğruldacağıq. Bu seçimdən sonra mən nitq söylədim, dedim ki, Azərbaycan ədalət və beynəlxalq hüquq prinsipləri əsasında fəaliyyət göstərir. Onu da qeyd etdim ki, əksər hallarda beynəlxalq hüquq və ədalət pozulur. Biz istəməzdik ki, bu belə olsun. Azərbaycan buna yol verməyəcəkdir. Ona görə ki, bütün bu pozuntular beynəlxalq birliyin böyük problemləridir. Ona görə ki, belə münaqişələrin həll olunması üçün qəbul edilən qətnamələr, sənədlər işləmirsə və beynəlxalq qurumların verdikləri qərarlar bəzi ölkələr tərəfindən nəzərə alınmırsa, onlara əməl edilmirsə, onda biz düşünməliyik ki, belə beynəlxalq qurumların, onların qərarlarının səmərəli olması üçün nə etməliyik. Hərdən elə hallar olur ki, beynəlxalq təşkilatların, məsələn, xüsusilə də Təhlükəsizlik Şurasının qərarları bir neçə saat ərzində icra edilir. Amma bizim problemimizlə bağlı təəssüf ki, bu belə olmamışdır.

Qlobal gündəlikdə duran məsuliyyətdən biri sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunmasıdır. Təhlükəsizlik Şurasının üzvü olaraq, Azərbaycan çox gözəl başa düşür ki, biz bu işdə çox fəal olmalıyıq. Bizim ümumilikdə əsas məqsədlərimiz əməkdaşlığı genişləndirməkdir. Biz əməkdaşlıq və birgə qarşılıqlı dəstək nəticəsində məqsədlərimizə nail ola bilərik. Bizim bu siyasətimiz beynəlxalq məsələlərə də, enerji məsələlərinə də aiddir. Siz bilirsiniz ki, Azərbaycan böyük neft və qaz ehtiyatlarına malikdir. Bizim enerji təhlükəsizliyi siyasətimiz çox aydındır və dəqiqdir. Əminəm ki, enerji təhlükəsizliyi ilə bağlı danışıqlar başlayanda müzakirələr çox maraqlı olacaqdır. Mənə elə gəlir ki, enerji təhlükəsizliyinin qarşısını nə alırsa, onu müzakirə etməyə dəyər.

Azərbaycan bu sahədə investorlarla, sərmayə qoyan tərəflərlə, şirkətlərlə qarşılıqlı maraqlar əsasında səmərəli

münasibətlərin qurulmasının tərəfdarıdır və bunu həyata keçirir. Bundan başqa, enerji siyasətinin yeni müstəvilərinin açılmasının tərəfdarıdır. Azərbaycan bu siyasəti həyata keçirməklə, qarşısına iqtisadi rifaha və qarşılıqlı dəstəyə nail olmaq prinsiplərini və məqsədlərini qoyur.

Enerji amillərindən heç vaxt siyasi məqsədlərə, hansısa başqa mənfəətlərə nail olmaq üçün istifadə edilməməlidir. Bizim ölkəmizdə enerji ehtiyatlarından çox məsuliyyətli şəkildə istifadə olunur. Bizim gündəlikdə olan bütün layihələr hələ keçən əsrin 90-cı illərindən başlayaraq çox uğurla həyata keçirilmişdir. Bir neçə neft və qaz boru kəməri layihəsini həyata keçirmişik. Bunlar bu gün enerji ehtiyatlarımızın müxtəlif istiqamətlərdə nəqlinə imkan yaradır. Azərbaycanın enerji ehtiyatları bəzi Avropa ölkələrinin ümumilikdə enerji balansının 25–30 faizini təşkil edir və bu rəqəm artır. Azərbaycan əsasən neft ölkəsi kimi tanınmışdır. Belə ki, ilk dəfə nefti Azərbaycanda tapmışdılar və quruda da ilk dəfə neft Azərbaycanda hasil olunmuşdur. İndi Azərbaycan bütün qlobal enerji təhlükəsizliyi məsələlərində həm də böyük qaz ehtiyatlarına malik olan ölkə kimi tanınmışdır.

Trans–Anadolu Qaz Boru Kəmərinin inşasına dair Türkiyə ilə Azərbaycan arasında bu yaxınlarda imzalanmış müqavilə bunun bariz nümunəsidir. Biz bu layihənin həyata keçirilməsi ilə Xəzər dənizi, Qara dəniz və Aralıq dənizi arasında dəhliz açmış olacağıq. Bu həm bizim üçün, həm də qonşularımız üçün bir enerji layihəsidir. Bu dəhlizdən artıq nəqliyyat infrastrukturu kimi istifadə olunmuşdur. Bu, tarixən Azərbaycan, Gürcüstan və Türkiyə arasında əlaqə yaratmaq üçün istifadə edilən bir dəhliz olmuşdur. Bu eyni zamanda, İpək yolunun bərpa olunmasına da öz töhfəsini verəcəkdir. Bütün bu layihələr Azərbaycanın qonşularına da fayda verəcəkdir. Biz bununla həm regionda, həm də, ümumiyyətlə, qitədə enerji xəritəsini dəyişmiş olacağıq. Gündəliyimizdə olan bütün enerji layihələrini nəzərə alaraq, potensialımızı, təchizat potensialını və Avropa istehlakçılarının artan ehtiyaclarını bilirik. Bundan

başqa, təbii qaza olan ehtiyac xüsusilə də nüvə enerjisi istehsalı məntəqələrinin bağlanmasından sonra daha da artacaqdır. 2020-ci ildən sonra bu, xüsusilə böyük önəm daşıyacaqdır. Azərbaycan böyük enerji ehtiyatlarına malik bir ölkə kimi, həmin vaxt Avropanın enerji təhlükəsizliyində çox böyük rol oynayacaqdır. Biz hazırda bu məsələlər üzərində işləyirik. Biz bilirik ki, şaxələndirmə məsələsi nə dərəcədə önəmlidir. Ona görə ki, bu məsələ həm istehsalçılar, həm istehlakçılar və həm də bütün ölkələr üçün önəmlidir. İstehsalçı, istehlakçı və tranzit ölkələr arasında münasibətlərin düzgün qurulması uğura gətirən yoldur. Əminəm ki, bizim yeni layihəmiz uğurla həyata keçiriləcəkdir. Ona görə ki, bu sahədə çox güclü iradəmiz vardır. Bizim lazımi maliyyə gücümüz vardır. Texniki nöqteyi-nəzərdən də biz bu sahədə çox bacarıqlıyıq. Bizim regionda ənənəvi qonşularımızla, müttəfiqlərimizlə çox gözəl münasibətlərimiz vardır. Bu günə kimi başladığımız heç bir layihə uğursuzluğa düçar olmamışdır. Ona görə də biz işimizi belə də davam etdirəcəyik.

Bilirəm ki, bu gün və sabah bizim çox maraqlı diskussiyalarımız olacaqdır. Forumun gündəliyi çox genişdir, çox mühüm məsələləri əhatə edir. Əminəm ki, sizin fikirləriniz bu müzakirələrdə yeni ideyaların, yeni yanaşmaların ortaya çıxmasına xidmət edəcəkdir. Biz gələcək üçün bu ideyaların üzərində birlikdə işləyəcəyik. Bir daha deyirəm ki, Azərbaycana xoş gəlmisiniz. Sizə uğurlar arzu edirəm. Sağ olun.

**Mixeil Saakaşvili** *(Gürcüstan prezidenti):* Mən Azərbaycana birinci dəfə keçən əsrin 90-cı illərinin əvvəllərində gəlmişdim. Çox xaotik, çox pərakəndə şəkildə fəaliyyətdə olan bir ölkə idi. Çox sayda  yoxsul insanlar var idi. Bundan başqa, müharibə vaxtı idi, müharibənin yükü çox böyük idi. Ölkənin inkişafı üçün heç bir ümid hiss olunmurdu.

Sovet vaxtında da Azərbaycanda təbii ehtiyatlar var idi. Lakin ölkə yenə də o qədər zəngin deyildi və kasıb idi. Ona görə də hər şeyi sadəcə olaraq, təbii ehtiyatlarla bağlamaq olmaz. Məsələn, dünyada təbii ehtiyatları olan başqa ölkələr də

vardır. Biz o ölkələrdə həmin təbii ehtiyatların düzgün paylanmasını görmürük. Biz həmin ölkələrdə o təbii ehtiyatların olmasına baxmayaraq, orada bu tərəqqini görmürük. O ölkələr regionda öz qonşuları ilə bu sahədə əməkdaşlıq etmirlər, bu sahədə uğurlu deyillər. Lakin Azərbaycan enerji ehtiyatlarının paylanılması, düzgün bölünməsi sayəsində iqtisadi sahədə çox uğurlar əldə etmişdir.

Bundan başqa, sosial, mədəniyyət və təhsil sahələrində böyük inkişafa nail olunmuşdur. Yeni məktəblər tikilmiş, istifadəyə verilmişdir. Bu, bütün regiona örnəkdir. Ona görə ki, bu məsələlər Azərbaycanda həm də çox ucqar kəndlərdə həll olunur. Azərbaycan beynəlxalq müstəvidə, beynəlxalq aləmdə çox gözəl təmsil olunmuşdur.

. *Gürcüstan prezidenti Mixeil Saakaşvili çıxışında yenidən Bakıda olmağından qürur hissi keçirdiyini vurğuladı. O, beynəlxalq tədbirin Bakıda, gözəl bir yeni binada – Heydər Əliyev Mərkəzində keçirilməsini Azərbaycanın sürətli iqtisadi inkişafı və beynəlxalq aləmdə qazandığı nüfuzla əlaqələndirdi. «Regional əməkdaşlıq regional təhlükəsizliyi əks etdirir» – deyən Saakaşvili bu mənada həyata keçirilən layihələrə toxundu və tikintisi davam edən Bakı–Tbilisi–Qars dəmir yolunun beynəlxalq əhəmiyyətini qeyd etdi. Gürcüstan dövlətinin başçısı «Eurovision» mahnı müsabiqəsinin yüksək səviyyədə təşkilini Azərbaycanın daha bir uğuru kimi dəyərləndirdi.*

**F i l i p  V u y a n o v i ç** *(Monteneqro prezidenti):* Mənə Azərbaycanın nailiyyətləri çox böyük təsir bağışladı. Rəsmi səfərlərimdə Azərbaycan haqqında çox şey öyrənmişəm. Azərbaycan rəhbərliyi ilə çoxlu müxtəlif görüşlər keçirmişəm. Azərbaycanın beynəlxalq prinsiplərə nə dərəcədə yaxın olduğunu gördüm. Mən gördüm ki, Azərbaycan öz tarixinə hörmətlə yanaşır, yenicə qazandığı müstəqilliyini qoruyub saxlayır, iqtisadi nöqteyi-nəzərdən çox sabit bir ölkədir. Çoxlu nailiyyətləri var. Azərbaycanın gələcəyə çox dəqiq baxışı vardır. Azərbaycanın başqa ölkələrlə çox gözəl əməkdaşlığı vardır. Bundan başqa, mən Avropa İttifaqı ilə sizin

münasibətlərinizin belə inkişaf etməsi ilə bağlı verdiyiniz qərarları çox dəstəkləyirəm və bu qərarlara hörmətlə yanaşıram. Həmçinin ehtiyac olduqda sizin regiondakı ölkələri belə dəstəklədiyinizi də çox alqışlayıram.

Monteneqronun nümayəndəsi olaraq, mən Azərbaycan rəhbərliyinə təşəkkürümü bildirmək istərdim. Xüsusilə də prezident İlham Əliyevin səylərini yüksək qiymətləndirirəm. Bizim ölkəmizlə yaranmış bu gözəl münasibətlərə və əməkdaşlığa görə təşəkkürümü bildirmək istərdim. Coğrafi nöqteyinəzərdən o qədər də bir-birinə yaxın olmayan ölkələr arasında belə gözəl əməkdaşlığın yaradılması doğrudan da böyük işdir. Buna görə sizə təşəkkürümü bildirmək istəyirəm.

*Hər bir dövlətin əsas məqsədinin iqtisadi inkişafa nail olmaqla əhalinin rifahını yaxşılaşdırmaqdan ibarət olduğunu vurğulayan Monteneqro prezidenti dövlət və özəl sektorlar arasında əməkdaşlığın genişləndirilməsində ölkəsinin təcrübəsindən danışdı. Dövlətin sosial ədalətin və ekoloji tarazlığın qorunmasında məsuliyyətinə toxunan Filip Vuyanoviç bu məsələlərdə bütün ölkələrin əməkdaşlığının önəminə də toxundu.*

**G e o r g e İ v a n o v** *(Makedoniya prezidenti):* Dünya qloballaşdıqca dəyişir və bu, bütün sahələrdə öz əksini tapır. Biz bilirik ki, Azərbaycan neft və qaz ehtiyatları ilə çox zəngin bir ölkədir. Azərbaycan ilə bu sahədə əməkdaşlıq etməyə çox şadıq. Bilirsiniz ki, Makedoniya da Azərbaycan kimi, öz regionunda önəmli bir yer tutur, önəmli enerji dəhlizi rolunu oynayır. Ona görə biz Azərbaycan kimi, bu sahədə enerji marşrutlarının şaxələndirilməsinə daha çox önəm veririk.

*Makedoniya prezidenti dünyada gedən miqrasiya problemlərinə toxundu, yoxsulluğun, baş verən münaqişələrin fonunda insanların rifahını düşünməyin aktuallığından danışdı. Ölkəsinin inkişaf mərhələləri barədə də məlumat verdi. NATO-ya üzvlük, Avropa İttifaqı ilə əlaqələrin gücləndirilməsi ilə bağlı prioritetlərdən söhbət açdı.*

**Ş e y x  M ə h ə m m ə d  H a m a d b i n  M ə h ə m m ə d  ə l-Ş ə r q i** *(Birləşmiş Ərəb Əmirliyinin Füceyra Əmirliyinin şahzadəsi):* Zati-aliləri cənab prezident İlham Əliyev, əziz dostlar! İlk növbədə, icazə verin bu cür vacib tədbirin təşkil edilməsi üçün göstərdiyi səylərə görə prezident İlham Əliyevə təşəkkür edim.

Enerji təhlükəsizliyi məsələsi insan təhlükəsizliyinin təminində vacib amillərdən biridir. Mən qonaqpərvərliyinə görə cənab İlham Əliyevə çox təşəkkür etmək istərdim. Çox şadam ki, Sizinlə belə gözəl şəhərdə, gözəl ölkədə görüşə bildim. Bu gözəl forumda Birləşmiş Ərəb Əmirliklərini təmsil etdiyim üçün çox şadam.

XXI əsrdə inkişaf üçün böyük potensial vardır. Enerji təhlükəsizliyi müasir dünyada əsl insan dəyəridir, biz bunu dəstəkləyib inkişaf etdirməliyik.

**R o u ş  N u r i  Ş a v e y s** (*İraq Baş nazirinin iqtisadi məsələlər üzrə müavini):* Mən zati-aliləri prezident İlham Əliyevə təşəkkürümü bildirirəm. İraqda aparılan demokratik proseslərə dəstək verdiyinə görə Azərbaycana təşəkkürümü bildirmək istərdim. Azərbaycan bu sahədə 2003-cü ildən fəaldır. Qonaqpərvərliyinizə görə bir daha təşəkkürümü bildirirəm. Ümumiyyətlə, gözəl Bakı şəhərində dostlar arasında olmaqdan çox şadam. Forumun təşkil olunmasında səy göstərdiyinə görə Jan Pol Karterona təşəkkür etmək istərdim. Mən Heydər Əliyev Mərkəzində olmaqdan çox böyük qürur hissi duyuram. Bu binanın memarı iraqlı xanımdır. Bunu xüsusilə qeyd etmək istərdim.

**E n e  E r q m an** *(Estoniya parlamentinin Sədri):* Mən birinci dəfədir ki, Bakıdayam. Bilirsiniz ki, mən Sovet İttifaqı dövrünü də görmüşəm. O vaxt biz, üzr istəyirəm bu sözlərimə görə, Bakıya gəlmək istəmirdik. Düşünürdük ki, bu, neft emalı şəhəridir, burada maraqlı bir şey yoxdur. Lakin biz bu gün görürük ki, insanlar öz həyatları üçün məsələlərə məsuliyyətlə yanaşırlar, hər şey necə dəyişə bilər. Allahın verdiyi ehtiyatlardan düzgün istifadə etdikdə nəyə nail olmaq olar.

Prezident İlham Əliyev demişdi ki, enerji ehtiyatlarından siyasi təzyiq, siyasi məqsəd üçün istifadə oluna bilməz. Bu çox düzgün deyilmişdir. Ona görə ki, enerjidən iqtisadiyyatın inkişafı üçün istifadə etməliyik. Ölkələr iqtisadi vəziyyətlərini düzəltsələr, yoxsulluğu azalda bilərlər. Bunlar bir-biri ilə bağlı olan məsələlərdir. Mən Sizin dediyiniz bütün məsələlərlə tam razıyam. Avropaya bir mənbədən deyil, müxtəlif enerji qaynaqları lazımdır. Siz qeyd etdiniz ki, müxtəlif dəhlizlər yaratmısınız. Müxtəlif enerji dəhlizləri üzrə layihələr həyata keçirmisiniz. Bunu çox yüksək qiymətləndirirəm.

*Xanım Erqman Krans Montana Forumunun əhəmiyyətindən danışdı və dünyada gedən qloballaşma prosesinin müxtəlif aspektlərdən müzakirəsi üçün Bakıda keçirilən bu tədbirin münbit şərait yaratdığını vurğuladı. Sovet İttifaqının dağılmasından sonra bir çox ölkələrdə gedən iqtisadi inkişaf proseslərindən və bu baxımdan Azərbaycanda baş verən yeniliklərə heyran qaldığından danışdı.*

* * *

*Sonra forumda müzakirələr başlandı. Ötən illərdə Gürcüstanın qazandığı nailiyyətləri xarakterizə edən prezident Mixeil Saakaşvili ölkəsinin Azərbaycan ilə uğurlu əməkdaşlıq qurduğunu, həmçinin respublikamızın, paytaxt Bakının çox sürətlə inkişaf etdiyini vurğuladı.*

**M i x e i l   S a a k a ş v i l i:** Baxın Azərbaycana. Belə inkişaf kimin ağlına gələrdi?! Estoniyadan da xanım bunu dedi. Bəli, əvvəllər – sovet vaxtı heç kim heç düşünmürdü də Bakıya gələk. Hamı düşünürdü ki, bu bir neft şəhəridir və s. Lakin hətta beş il qabaq Bakı fərqli idi. Üç il bundan qabaq Bakı fərqli görünüşə malik idi. Bakı elə bir şəhərdir ki, saatlar ərzində dəyişir. Artıq aylardan, illərdən söhbət getmir. Biz bir-birimizi tamamlayırıq. Gürcüstan ilə Azərbaycan arasındakı bu sinergiya, bu birləşmə, bu əməkdaşlıq bizə çox dəstək olur.

*Müzakirələr zamanı Estoniya–Avropa İttifaqı əlaqələri barədə də geniş fikir mübadiləsi aparıldı.*

*Növbəti sual Azərbaycan prezidenti İlham Əliyevə ünvanlandı.*

**S u a l: Növbəti 15 il üçün Azərbaycanın iqtisadi strukturunu ölkə prezidenti cənab İlham Əliyev necə görür?**

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Əslində doğrudan da bu, indi bizim diqqət dairəmizdə olan məsələlərdən biridir. Bilirsiniz ki, iqtisadiyyatımızın sürətli inkişafı elə enerji sahəsinin inkişafı ilə başlanmışdır. Azərbaycan iqtisadiyyatına 100 milyarddan çox sərmayə qoyulmuş və sərmayə qoyuluşu üçün çox münbit şərait yaradılmışdır. Lakin enerji layihələrindən əldə etdiyimiz gəlirlərdən çox səmərəli şəkildə istifadə edirik. Biz «Holland sindromu»nun ölkəmizdə baş verməsinə yol vermədik. Bəzi təhlilçilər proqnoz verirdilər ki, Azərbaycanda da «Holland sindromu» olacaq. Lakin bu belə olmadı. Biz Dövlət Neft Fondunu yaratdıq. Bu gəlirlər orada toplanır. Aktivlərimiz də orada toplanır. Biz aktiv və passivlərimizi idarə edə bilirik və Neft Fondunun idarəçiliyi parlament debatları əsasında həyata keçirilir. Yəni deputatlar qərar qəbul edirlər ki, oradan nə qədər vəsait götürülməlidir və hara istifadə olunmalıdır. Bundan başqa, biz bu vəsaitləri əsasən layihələrin inkişaf etdirilməsi üçün xərcləyirik. Biz regionlarda, əyalətlərdə insanların yaşayış səviyyəsinin yüksəldilməsi üçün bunu sərf edirik. 2004-cü ildə qəbul olunan ən önəmli proqramlardan biri regionların inkişaf etdirilməsi Dövlət Proqramı idi. Bu bizə 9 milyonluq əhalisi olan ölkədə bir milyondan çox iş yerinin yaradılmasına imkan vermişdir. Əvvəldə dediyim kimi, 8 il bundan qabaq yoxsulluq səviyyəsi 49 faiz idi, indi 7 faizdir. Gələcək onilliklər üçün bizim bununla bağlı çox aydın baxışımız vardır. Azərbaycanı 2020–2030-cu illərdə biz necə görürük?! Bizim əsas məqsədimiz son 8 ildə 3 dəfə artmış ümumi daxili məhsulun daha 2 dəfə artırılmasıdır və xüsusilə də bunun qeyri-neft və qaz sektorunda olmasını nəzərdə tutmuşuq. Bundan başqa, məqsədimiz İKT sahəsinin, müasir sənaye sahələrinin inkişaf etdirilməsidir. Biz Azərbaycanı adambaşına düşən yüksək gəlirli ölkəyə çevirmək istəyirik. Bir neçə il bundan əvvəl neftin qiyməti

140 dollardan 40 dollara düşəndə belə, bizim iqtisadiyyatımız güclü idi. Ona görə ki, artıq çoxşaxələnmə siyasəti həyata keçirilirdi. Bundan başqa, üç güclü reytinq şirkəti – «Standard & Poors», «Fitch», «Moodys» Azərbaycanın reytinqini artırmışdır. Bu o deməkdir ki, beynəlxalq maliyyə institutları da bizim gələcəyimizə inanırlar. Biz İKT-nin inkişaf etdirilməsini, texnoloji parkların, kosmos sənayesinin inkişaf etdirilməsini nəzərdə tutmuşuq. Artıq elə bir məqsədə nail olmaq istəyirik ki, gələcəkdə bizim dövlət məmurlarımız öz işlərinə başlayanda birinci neft qiymətlərinin necə olmasına baxmadan başlasınlar.

**Əbdüləziz bin Osman əl-Tüveycri** *(İSESKO-nun baş direktoru):* Zati-aliləri cənab Prezident düzgün dedi ki, BMT Təhlükəsizlik Şurası çoxlu qətnamələr qəbul etmişdir və bu qətnamələr işğalçılardan Azərbaycan torpaqlarından çıxmağı tələb edir.

Zati-aliləri cənab Prezident bu işğalın necə, hansı yollarla bitməsini düşünür. Ona görə ki, Azərbaycanın torpaqlarının 20 faizinin işğal altında olması beynəlxalq hüquqa ziddir. Ona görə ki, regionda olan sabitliyə çox böyük zərbə vurur, çoxlu sayda Azərbaycan vətəndaşlarının öz doğma torpaqlarına qayıtmasının qarşısını alır. Bu, insanların ləyaqətlərinə zərbə vurur və yoxsulluğa səbəb olur. Sizcə, nəyə görə beynəlxalq təşkilatlar bu qətnamələri icra etmirlər? Bu işğala son qoymaq üçün yenə nə etmək lazımdır? Qeyd olunduğu kimi, Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır. Nəyə görə biz hamımız öz səsimizi qaldırmayaq? Nəyə görə tələb etməyək ki, həmin qətnamələr icra olunsun, işğal olunan torpaqlar azad edilsin? Bu axı beynəlxalq ikiüzlülükdür! Ən yüksək beynəlxalq dairələrdə qətnamə qəbul etmək, sonra da onları icra etməmək. Ona görə də mən istərdim ki, bu forum öz işinin sonunda bir bəyannamə qəbul etsin. Bu bəyannamə də Azərbaycanın hüquqlarını dəstəkləsin.

Zati-aliləri, gələcəkdə biz doğrudan da bu dilemmanın həll olunmasının yollarını necə tapa bilərik? Bu haqda öz fikirlərinizi söyləsəniz, bunu yüksək qiymətləndirərdim.

**İlham Əliyev:** Sualınıza görə çox sağ olun, cənab əl-Tüveycri. Doğrudan da bu, yalnız Azərbaycan üçün deyil,

demək olar ki, bütün region üçün çox ciddi, böyük bir problemdir. Bu, Cənubi Qafqaz ölkələri üçün çox böyük bir təhdid, maneə yaradır. Gələcəkdə birlikdə inkişafın qarşısını alır. Bundan başqa, Azərbaycan ərazilərinin işğal edilməsi, yüz minlərlə qaçqın və köçkünün olması məsələsi çox böyük problemdir. Buna baxmayaraq, Azərbaycanda son illər ərzində çox böyük nailiyyətlər qazanılmışdır. Biz bununla çox böyük qürur hissi keçiririk. Bu qətnamələrin icrası mənə elə gəlir ki, Ermənistanın marağında olmalıdır. Əminəm ki, Ermənistan bu işğaldan heç nə qazanmır. Birincisi, bu, tarixi nöqteyi-nəzərdən ədalətsizlikdir. Biz tarixdən bilirik ki, ermənilər qonşu ərazilərdən Dağlıq Qarabağa XIX əsrin əvvəlində köçürülmüşlər. «Qarabağ» sözü Azərbaycan mənşəli sözdür. Dağlıq Qarabağ inzibati ərazi vahidi kimi, inqilabdan sonra, sovet dövründə Azərbaycanın tərkibində yaradılmışdır. Onun Ermənistan ilə heç bir inzibati sərhədləri yox idi. Bu məkan Azərbaycanın daxilində, mərkəzində yerləşir. Sovet İttifaqının dağılmasından sonra ermənilər, Ermənistan, Qarabağda olan separatçılar Azərbaycana qarşı müharibəyə başladılar. Orada yaşayan bütün azərbaycanlıları Dağlıq Qarabağın özündən və ətraf rayonlardan çıxardılar və indi həm Dağlıq Qarabağı, həm də ətrafda olan rayonları işğal altında saxlayırlar, etnik təmizləmə apardılar, mən artıq bu haqda qeyd etdim.

Ermənistan BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qətnamələrinin icrasına başlamalıdır. Bu onun xeyrinədir. Biz heç vaxt icazə vermərik ki, Azərbaycan ərazisində ikinci Ermənistan dövləti yaradılsın. Qətnamələr yalnız belə həll olunmalıdır və nəyə görə problem həll olunmayıb, bu da çox aydındır. Beynəlxalq birlik, Təhlükəsizlik Şurasında bu qətnamələri qəbul edən ölkələr işğalçıya kifayət qədər təsir göstərmirlər. İşğala son qoyulmalıdır. Biz bu yaxınlarda bununla bağlı bəzi müsbət mülahizələr eşitmişik. Xüsusilə də, məsələn, Minsk qrupunun həmsədrləri tərəfindən. Onlar bildirirlər ki, status-kvo artıq qəbulolunmazdır. Bu, müsbət bir mülahizədir.

Bu status-kvonu necə dəyişə bilərik, kim dəyişməlidir? Ermənistan işğal olunmuş əraziləri tərk etməyə başlamalıdır, bundan sonra artıq əlaqə yarana, qaçqınlarımızın oraya köçürülməsi başlaya bilər, praktiki tədbirlər görülər. Lakin Ermənistan bunu etmir. Ancaq status-kvonun qəbulolunmazlığı ilə bağlı fikirlər müsbət siqnaldır. Digər müsbət bir siqnal ondan ibarətdir ki, vasitəçilər bu münaqişənin yalnız sülh yolu ilə həll olunmasının mümkünlüyünü qeyd etmişlər. Biz bununla razıyıq. Lakin Ermənistanda sülh yolunu danışıqları uzatmaq, bu torpaqları istədikləri qədər işğal altında saxlamaq kimi başa düşürlər. Onlar elə zənn edirlər ki, danışıqlar hələ 20 il də gedə bilər.

ATƏT-in Minsk qrupu da bilirsiniz, artıq neçə illərdir ki, yaranıb və fəaliyyətdədir. Mən bu qeyri-adi vəziyyətin yaranmasından təəssüf hissi keçirirəm. Yadınızdadırsa, Liviya barədə qətnamə bir neçə saat ərzində icra olundu. Ancaq Azərbaycanla, Dağlıq Qarabağla bağlı qətnamələr 20 ildir ki, icra olunmur. Bu nə deməkdir? Bu, ikili standartlardır. Nəyə görə, səbəb nədən ibarətdir? Səbəblər haqqında çox danışa bilərəm. Səbəblərdən biri ikili standartlardır, ikincisi dünyada Ermənistan diasporudur. Bu diaspor Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətini güclü şəkildə dəstəkləyir. Başqa səbəblərə gəldikdə, onlar da öz rolunu oynayır. Lakin qeyd etdiyim əsas səbəblər bunlardır. Zənnimcə, bu məsələni beynəlxalq hüquqa uyğun olaraq həll etmək Ermənistanın xeyrinədir. Ona görə ki, onlar bu işğaldan heç bir bəhrə görmürlər. Orada hər şey dağıdılıb, həyat yoxdur, boşluqdur. Bundan başqa, statistik məlumatlara görə, bu ilin 5 ayı ərzində minlərlə Ermənistan vətəndaşı ölkəni tərk etmişdir. Ermənistanın əhalisi get-gedə azalır. Bunun səbəblərindən biri qonşu ölkəyə qarşı işğalçı siyasətin yürüdülməsidir. Bu, beynəlxalq aləmdə Azərbaycana qarşı həmlələr, təbliğatdır. Mən Ermənistanın qonşuluqla bağlı siyasətinin başqa cəhətlərindən danışmaq istəməzdim. Lakin demək istərdim ki, bu, qeyri-dostyana siyasətdir. Bu ölkə öz müstəqilliyindən istifadə edərək qonşuları ilə əlaqələrini, münasibətlərini normallaşdırmalıdır. Ermənistan ilə

Azərbaycan arasında güclərin tarazlığı fərqi çox böyükdür. 5–10 ildən sonra bu fərq daha böyük olacaqdır. Bu boşluq çox böyük olacaqdır, müqayisə olunmayan səviyyədə. Bu, millətlərin milli maraqlarına uyğun olan bir məsələdir. Bu, Ermənistanda gəlib-gedən liderlərlə bağlı olan bir məsələ deyildir. Bu həmin xalqın öz milli maraqlarına cavab verməli olan məsələsidir.

Biz öz ərazilərimizin, öz suverenliyimizin bərpa olunması üçün əlimizdən gələni edəcəyik.

**S u a l:** *(Tunisin nümayəndəsi):* **Mənim sualım prezident İlham Əliyevədir. Cənab Prezident, qonaqpərvərliyinizə görə sağ olun. Bu gözəl ölkədə apardığınız işlə bağlı Sizi təbrik etmək istəyirəm. Mənim sualım iş yerlərinin açılması və təhsillə bağlıdır. Tunisli kimi, demək istərdim ki, biz doğrudan da bu «Ərəb baharı» fəlsəfəsi ilə çox yaşadıq. Mənə elə gəlir ki, bizdə baş verən inqilabın əsas səbəblərindən biri təhsil sistemimizin uğursuzluğa düçar olması, məzun tələbələrin iş yerləri tapa bilməməsi idi.**

**Gələcəkdə məzun tələbələrə iş yerləri açmaq üçün hansı strategiyanız vardır?**

**İ l h a m  Ə l i y e v:** Təşəkkür edirəm. Bu, Azərbaycan üçün önəmli məsələlərdən biridir. Bizim də təhsil üçün strategiyamız vardır və təhsil bizim prioritet istiqamətlərimizdən biridir. Ona görə ki, Azərbaycanda müstəqilliyin son illəri ərzində əldə etdiyimiz bütün nailiyyətlərimiz xalqımızın nailiyyətləridir. Burada, əlbəttə ki, neft və qaz kifayət deyil. Mən bizim həmkarlarımızın, xüsusilə də neft və qazları olmayanların bu hisslərini çox yaxşı başa düşürəm. Adətən, nefti və qazı olan ölkələrin bəzilərində inkişaf olmur, kasıb və zənginlər arasında boşluq artır. Lakin Azərbaycan bu ölkələrdən deyildir. Azərbaycan ümumilikdə neft və qaz hasil edən ölkələrin həcmə görə ən yüksək yeri tutan ölkələr arasında da deyildir. Buna görə də biz neft və qaz sahəsinin inkişafına çox böyük önəm veririk. Mən həmişə demişəm ki, təhsili olmayan gənclər ölkə üçün çox böyük problemlər yaradar. Biz əminik ki, ölkədə yerlərini düzgün tutan yüksək bacarıqlı, peşəkar

işçilərin, əməkdaşların, insanların olması çox önəmlidir. Bizim insanlarımız təhsillidir. Bizdə əhali 100 faiz təhsillə əhatə olunmuşdur. Bundan başqa, prezidentin sərəncamı ilə gənclərimizə Avropa universitetlərində təhsil almaq üçün imkanlar yaradılır. Bu, Neft Fondu tərəfindən dəstəklənir və minlərlə azərbaycanlı tələbə xaricdə təhsil alır. Azərbaycanda təhsil sistemi belə yaradılıbdır. Gələcəkdə bizdə şərait elə olacaqdır ki, bu səviyyə elə artırılacaqdır ki, vətəndaşlarımızın xaricə təhsil almaq üçün getmələrinə ehtiyac qalmayacaq. Zənnimcə, belə forumların keçirilməsi təhsilə də öz töhfəsini vermiş olur. Ona görə ki, burada bizim intellektuallarımız, siyasi elmlə məşğul olan gənclərimiz iştirak edəcəklər. Düşünürəm ki, bir çox gənclərimiz maraqlanırlar ki, bu binada nə baş verir və onlar da bu foruma qoşulmaq, onun işində iştirak etmək istəyirlər.

Mənə elə gəlir ki, bunun siyasi vəziyyətə, işsizliyə o qədər də birbaşa təsiri yoxdur. Bəlkə də Tunisdə bunun belə bir təsiri olmuşdur. Lakin zənnimcə, orada inqilabın səbəbi daha çox sosial və ədalət axtarışı məsələləri ilə bağlıdır, nəinki iş yerləri ilə. Mənə elə gəlir ki, gənclər daha çox istəyirdilər ki, milli sərvətlərində payları olsun. Bu paylarını ala bilmədiklərinə görə orada inqilab baş verdi. Biz müstəqilliyimizin ilk illərində çox yoxsul bir ölkə idik. Sovet İttifaqı ölkələri arasında ən yoxsul ölkələrdən biri idik. Küçələrdə insanlar «Kalaşnikov» avtomatı ilə gəzirdilər, yəni xaos idi. Təxminən 20 il bundan qabaq. Ona görə də sosial ədalət və sərvətlərin ədalətli bölgüsü hər hansı bir inqilabın, xoşagəlməz proseslərin qarşısını ala bilər. Mən bir prezident kimi, deyə bilərəm ki, bu məsələlər daha önəmlidir, hətta ümumidaxili məhsulun üç dəfə artmasından da vacibdir. Çünki bu məsələlərlə biz insanlara daha yaxın oluruq. Ona görə də təhsil, sosial ədalət, korrupsiyaya qarşı mübarizə, iqtisadi inkişaf və hamı üçün bərabər imkan prinsipləri çox önəmlidir. Bu prinsiplər ölkənin inkişafına gətirib çıxarmışdır və bu, gələcək üçün əsas istiqamətdir və əsas rəhbər prinsipdir.

* * *

*Daha* sonra *müzakirələrdə ərəb ölkələrində* neft-qaz sektorundan *əldə edilən gəlirlərin xərclənməsi istiqamətləri,* Pakistan *və İraqın inkişafı ilə bağlı həyata keçirilən işlər və nəzərdə* tutulan *tədbirlər barədə geniş fikir mübadiləsi aparıldı.*

*Rəsmi açılış mərasimi başa çatdıqdan* sonra *Azərbaycan* prezidenti *İlham Əliyevin və xanımı* Mehriban *Əliyevanın adından* forum *iştirakçılarının şərəfinə* nahar verildi.

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Krans Montana Forumunda iştirak etmək üçün Bakıya gələn Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvili ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu və əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminlik bildirildi. Dövlət başçıları Bakıda keçirilən Krans Montana Forumunun önəmini qeyd etdilər.*

# MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Krans Montana Forumunda iştirak etmək üçün Bakıya gələn Monteneqro Respublikasının Prezidenti Filip Vuyanoviç ilə görüşmüşdür.*

*Görüşdə ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi bildirildi. Əlaqələrimizin ölkələrimizin iqtisadi inkişafına və xalqlarımızın rifahına töhfə verəcəyi qeyd olundu. Dövlət başçıları ölkələrimiz arasındakı əlaqələrin digər sahələrdə də inkişaf perspektivlərinin yüksək olduğunu bildirdilər.*

# BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN FÜCEYRA ƏMİRLİYİNİN ŞAHZADƏSİ ŞEYX MƏHƏMMƏD HAMAD BİN MƏHƏMMƏD ƏL-ŞƏRQİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Krans Montana Forumunda iştirak etmək üçün ölkəmizə gələn Birləşmiş Ərəb Əmirliklərinin Füceyra Əmirliyinin şahzadəsi Şeyx Məhəmməd Hamad bin Məhəmməd əl-Şərqi ilə görüşmüşdür.*

*Görüşdə Birləşmiş Ərəb Əmirlikləri və Füceyra Əmirliyi ilə Azərbaycan arasında inkişaf edən əlaqələrin məmnunluq doğurduğu bildirildi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə verdiyi dəstəyin əhəmiyyəti vurğulandı. Qarşılıqlı səfərlərin mövcud əlaqələri daha da genişləndirəcəyinə əminlik ifadə edildi.*

# MACARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ VİKTOR ORBAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 iyun 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Macarıstanın Baş naziri Viktor Orban ilə görüşmüşdür.*

*Azərbaycan prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orbanı qarşıladı.*

*Sonra prezident İlham Əliyev ilə Macarıstanın Baş naziri Viktor Orban arasında təkbətək görüş oldu.*

*Macarıstanın Baş naziri Viktor Orban Azərbaycana ilk səfərindən ötən dövr ərzində Bakıda çox böyük inkişafın şahidi olduğunu vurğuladı və bu inkişafın onda böyük təəssürat yaratdığını dedi.*

*Azərbaycan ilə Macarıstan arasında əlaqələrin, o cümlədən siyasi sahədə fəal əməkdaşlığın sürətli və uğurlu inkişafından məmnunluğunu ifadə edən dövlətimizin başçısı iqtisadi sahədə daha çox inkişafa nail olunacağına ümid etdiyini bildirdi. Ölkələrimiz arasında güclü tərəfdaşlıq əlaqələrinin qurulduğunu deyən prezident İlham Əliyev energetika sektoru ilə bağlı əməkdaşlığımızın genişləndiyini vurğuladı. Bakıda keçirilən Krans Montana Forumunun beynəlxalq əhəmiyyətinə toxunan dövlətimizin başçısı Macarıstanın Baş naziri Viktor Orbanın forumda iştirakının önəmini qeyd etdi. Prezident İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orbanın ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı məsələlərin müzakirəsi baxımından da əhəmiyyətli olacağına əminliyini bildirdi.*

*Sonra görüş geniş tərkibdə davam etdirildi. Dövlətimizin başçısı Azərbaycan ilə Macarıstan arasında ikitərəfli əlaqələrin, o cümlədən Avropa İttifaqı çərçivəsində əməkdaşlığın önəmini vurğuladı. Macarıstanı Azərbaycan üçün əhəmiyyətli tərəfdaş və dost ölkə hesab etdiyini deyən prezident İlham Əliyev ölkəmizin Macarıstan ilə ikitərəfli əlaqələri daha da inkişaf etdirməkdə maraqlı olduğunu bildirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi sahədə güclü əlaqələrin mövcud olduğunu dedi və bildirdi ki, iqtisadiyyat, energetika, təhlükəsizlik və mədəniyyət sahələrində əməkdaşlığımızın genişləndirilməsi üçün isə yaxşı perspektivlər vardır.*

*Bakıda keçirilən Krans Montana Forumunun önəmini qeyd edən Macarıstanın Baş naziri Viktor Orban forumda iştirakından məmnunluğunu ifadə etdi. Baş nazir ölkəsinin Azərbaycan ilə istər ikitərəfli, istərsə çoxtərəfli formatda əməkdaşlığı daha da genişləndirəcəyinə əminliyini bildirdi.*

*Sonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Macarıstanın Baş naziri Viktor Orbanın şərəfinə nahar verildi.*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA**

Hörmətli cənab Prezident!

Fransa Respublikasının milli bayramı – Bastiliyanın Alınması Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Azərbaycan–Fransa münasibətləri hərtərəfli inkişaf yolundadır. Siyasi, iqtisadi, mədəni əlaqələrimizin daim genişlənməsi zəminində əməkdaşlığımızın bir sıra sahələrdə dərinləşməsi tərəfdaşlığımızı səciyyələndirən amillərdəndir.

Biz Fransanın regionumuzda sülhün və sabitliyin bərqərar olması işinə maraq və dəstəyindən məmnunluq duyuruq. Bu baxımdan ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın və şəxsən Sizin, cənab Prezident, səyləriniz sayəsində xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə və ədalətli həlli işində tezliklə real nəticələr əldə olunacağına ümidlər bəsləyirik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı*, 2 iyul 2012-ci il*

## KOLUMBİYA SENATININ İKİNCİ KONSTİTUSİONAL KOMİTƏSİNİN SƏDRİ XANIM ALEXANDRA MORENO PİRAKİVENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Kolumbiya Respublikası Senatının İkinci Konstitusional Komitəsinin sədri xanım Alexandra Moreno Pirakivenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı xanım Alexandra Moreno Pirakivenin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev Azərbaycan ilə Kolumbiya arasında ikitərəfli münasibətlərin güclü tərəfdaşlıq əlaqələrinə çevrildiyini məmnunluqla qeyd etdi. Ölkələrimiz arasında siyasi əlaqələrin razılıq doğurduğunu deyən dövlətimizin başçısı bu əlaqələrin iqtisadi sahədə əməkdaşlığın inkişafı işinə kömək edəcəyinə ümidvar olduğunu bildirdi. İkitərəfli münasibətlərin genişlənməsində parlamentlərarası əlaqələrin əhəmiyyətini vurğulayan prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı gələcəkdə də davam etdirəcəyinə əminliyini ifadə etdi. Kolumbiya Parlamentinin Azərbaycan ərazilərinin Ermənistan tərəfindən qanunsuz işğalı ilə bağlı qəbul etdiyi qərarın ölkəmiz üçün böyük əhəmiyyət daşıdığını vurğulayan dövlətimizin başçısı qəbul olunan qərara və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı tutduğu ədalətli mövqeyə görə Kolumbiya dövlətinə və xalqına, Kolumbiya parlamentinə və şəxsən xanım Alexandra Moreno Pirakiveyə minnətdarlığını bildirdi.*

*Kolumbiya Senatının komitə sədri xanım* Alexandra Moreno Pirakive *Azərbaycana səfərindən məmnunluğunu ifadə etdi. O, ölkəsinin Azərbaycanda baş verən inkişaf* proseslərini *yaxından izlədiyini* dedi. *Kolumbiyalı* qonaq *ölkəsinin Ermənistan–Azərbaycan*, *Dağlıq Qarabağ münaqişəsinin* nizama *salınmasında Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğuladı, münaqişənin beynəlxalq hüquq çərçivəsində həllinə tərəfdar olduğunu* dedi. *Kolumbiyanın* iqtisadi *inkişafı*, investisiya *imkanlarından danışan xanım* Alexandra Moreno Pirakive *ölkələrimiz arasında mövcud* dostluq *əlaqələrini* siyasi, iqtisadi, *mədəni və digər sahələrdə* daha da *genişləndirməyin önəmini* qeyd etdi.

*Azərbaycan xalqının böyük tarixə, zəngin mədəniyyətə* malik olan Kolumbiya *xalqına* dost *münasibət bəslədiyini vurğulayan* prezident *İlham Əliyev* bu *münasibətləri* iqtisadi *və mədəni əməkdaşlıq sahələrində* daha da *möhkəmləndirməyin zəruriliyini* qeyd etdi. Kolumbiyada *Azərbaycan səfirliyinin fəaliyyətə başlamasından* sonra *ikitərəfli münasibətlərimizin yüksək səviyyədə inkişaf* etdiyini *bildirən* prezident *İlham Əliyev əlaqələrimizin genişlənməsində qarşılıqlı səfərlərin önəmini vurğuladı. Dövlətimizin başçısı Azərbaycan* Respublikası *ilə* Kolumbiya *Respublikası arasında* dostluq *əlaqələrinin inkişafına* verdiyi *töhfəyə görə xanım* Alexandra Moreno *Pirakivenin Azərbaycanın ən yüksək dövlət mükafatlarından* olan *«Azərbaycan* Respublikası Prezidentinin *Fəxri* diplomu»na *layiq görüldüyünü* dedi *və mükafatı qonağa təqdim* etdi.

*Xanım* Alexandra Moreno Pirakive *Azərbaycanın yüksək mükafatına* layiq *görüldüyünə görə minnətdarlığını* bildirdi.

# BOLQARISTAN KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ YEVGENİ TANÇEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Bolqarıstan Respublikasının Konstitusiya Məhkəməsinin sədri Yevgeni Tançevi qəbul etmişdir.*

*İki il bundan əvvəl ölkəmizə səfər etdiyini xatırladan Bolqarıstan Konstitusiya Məhkəməsinin sədri Yevgeni Tançev ötən dövr ərzində Azərbaycanda gedən sürətli inkişaf proseslərinin şahidi olduğunu dedi. Yevgeni Tançev Azərbaycanda keçirilən «Evrovision» mahnı müsabiqəsinin və Krans Montana Forumunun beynəlxalq əhəmiyyətini vurğuladı.*

*Dövlətimizin başçısı ölkəmizin əldə etdiyi nailiyyətləri dünyaya göstərmək üçün bu cür beynəlxalq müsabiqə və forumların önəmini qeyd etdi, gələcəkdə belə beynəlxalq tədbirlərin mütəmadi olaraq keçiriləcəyini dedi.*

*Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən Konstitusiya məhkəmələrinin əməkdaşlığının genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB FİLİP VUYANOVİÇƏ**

Hörmətli cənab Prezident!

Əziz dostum!

Monteneqronun milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan–Monteneqro münasibətləri hazırda dinamik şəkildə inkişaf etməkdədir. Daim möhkəmlənən dövlətlərarası münasibətlərimiz, dostluq əlaqələrimiz qarşılıqlı maraq doğuran əməkdaşlığımız üçün yaxşı imkanlar açır.

Ümidvaram ki, bu günlərdə ölkəmizə səfəriniz zamanı Sizinlə görüşümüz, apardığımız ətraflı fikir mübadiləsi əməkdaşlığımızın inkişaf perspektivlərini gerçəkləşdirmək yolunda səylərimizə yeni təkan verəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monteneqro xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyul 2012-ci il*

**MONQOLUSTAN RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB SAXİAQİYN ELBEQDORJA**

Hörmətli cənab Prezident!

Monqolustanın milli bayramı – Xalq İnqilabı Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Monqolustan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı və genişlənməsi daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Monqolustan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyul 2012-ci il*

# LONDONDA KEÇİRİLƏCƏK XXX YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK EDƏCƏK AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİ YOLASALMA MƏRASİMİ

*3 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyulun 3-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının paytaxtı London şəhərində keçiriləcək XXX Yay Olimpiya oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin rəsmi yolasalma mərasimində iştirak etmişlər.*

*Heydər Əliyev Mərkəzinin foyesində Azərbaycanın olimpiya hərəkatını əks etdirən fotobannerlər düzülmüşdü.*

*Səhnədə Azərbaycan Respublikasının Dövlət bayrağı qoyulmuşdu.*

*Mərasimə toplaşanlar dövlətimizin başçısını və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi:*

– Əziz idmançılar, əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün biz London Yay Olimpiya və Paralimpiya oyunlarında iştirak edəcək olimpiya və paralimpiya komandalarımızı rəsmi qaydada yola salırıq. Bu ayın sonunda Olimpiya və gələn ayın sonunda isə Paralimpiya oyunları keçiriləcəkdir və mən bütün idmançılarımıza böyük uğurlar arzulayıram. Əminəm ki, idmançılarımız Azərbaycanı ləyaqətlə təmsil edəcək və Vətənə böyük qələbələrlə qayıdacaqlar.

Bunu deməyə əsas vardır. Çünki Azərbaycanda idman sürətlə və uğurla inkişaf edir. İdmanın inkişafı Azərbaycanda dövlət siyasətidir və Azərbaycan dövləti Azərbaycan idmanının inkişafı üçün konkret addımlar atmışdır. Bu gün də bu siyasət davam etdirilir. İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılara

olan hörmət cəmiyyətdə yüksək səviyyədədir. İdmançıların məişət problemlərinin həlli məsələləri yüksək səviyyədə təşkil edilir. Bütün bu amillər idmanın inkişafına böyük təkan verir, gənclərdə, yeniyetmələrdə, uşaqlarda idmana marağı artırır.

Çox şadam ki, idman bölmələrinə axın kütləvi xarakter alıb. İndi idmanla məşğul olmaq üçün bütün şərait vardır. Biz idmanın inkişafı ilə bir neçə vacib məqsədi təmin edirik: ilk növbədə, ölkəmizin idman şöhrətini yüksəklərə qaldırırıq, idmanın kütləviliyini təmin edirik. İdman infrastrukturunun yaradılması ilə bu kütləvilik daha da geniş vüsət almışdır və idman hər bir insanın sağlamlığı üçün çox mühüm amildir. İdman insanları həm fiziki cəhətdən sağlam edir, həm də gözəl milli-mənəvi dəyərlərimizi idmançılara, uşaqlara aşılayır. Bir sözlə, Azərbaycanda idmanın inkişafına dair siyasət çox uğurludur və deyə bilərəm ki, bizdə olan təcrübə bəzi ölkələrdə öyrənilir və tətbiq edilir.

İdmanın inkişafını müəyyən edən bütün amillər Azərbaycanda vardır. İdmançılarımız beynəlxalq arenalarda ölkəmizi ləyaqətlə təmsil edirlər, hər il yüzlərlə medal qazanırlar. Həm dünya, həm də Avropa çempionatlarında Azərbaycanın milli bayrağı dalğalanır, Azərbaycanın milli himni səslənir. Bu hər bir Azərbaycan vətəndaşı üçün böyük sevincdir, böyük fərəh hissi yaradır. Mən əminəm ki, bundan sonrakı dövrdə də idmançılarımız ölkəmizi ləyaqətlə təmsil edəcəklər.

İdmanın kütləviliyinin təmin edilməsi üçün Azərbaycanda geniş tikinti-quruculuq işləri aparılır. Hazırda 34 regional olimpiya mərkəzi tikilmişdir, 8 mərkəzdə tikinti davam edir. Əminəm ki, yaxın zamanlarda hər bir rayon mərkəzində müasir Olimpiya İdman Kompleksi açılacaqdır. Bu siyasəti biz 2000-ci ildən başlamışıq və son 12 il ərzində, demək olar ki, bölgələrimizin əksəriyyətində müasir olimpiya kompleksləri tikilmişdir. Gənc idmançılar, uşaqlar bu imkanlardan səmərəli şəkildə istifadə edirlər. Bizim milli olimpiya komandamızın tərkibində olan idmançıların bəziləri də öz idman fəaliyyətini məhz son illər ərzində tikilmiş olimpiya komplekslərində başlamışlar.

Yenə də qeyd etmək istəyirəm ki, bu həm idmanın kütləviliyini təmin edir, eyni zamanda, gənc idmançılarımızın yetişdirilməsində də çox mühüm bir vasitədir. Bunu da qeyd etmək istəyirəm və çox şadam ki, Azərbaycanda idmanın inkişaf dinamikası çox müsbətdir. Yeni gənc nəsil yetişir və olimpiya komandamızın tərkibindəki idmançıların böyük əksəriyyəti ilk dəfə olaraq Olimpiya oyunlarında iştirak edəcəkdir. Bu onu göstərir ki, idman ardıcıllıqla inkişaf edir, idmanda nəsillər dəyişir və gənclər də böyüklərin, çempionların yerlərini tuturlar.

Gənclərin idmana olan marağı xüsusilə böyük əhəmiyyətə malikdir. Bu maraq beynəlxalq yarışların nəticələrində də özünü göstərir. Gənclər arasında keçirilən I Ümumdünya Olimpiya oyunlarında Azərbaycan idmançıları böyük uğurlar qazanmışlar və komanda hesabında 10-cu yeri tutmuşlar. Bu onu göstərir ki, idman Azərbaycanda ardıcıl şəkildə inkişaf edir, gənclər idmana böyük maraq göstərirlər. Beləliklə, bu bizə imkan verəcəkdir ki, bundan sonra bütün dövrlərdə gənc, istedadlı idman nəsli yetişdikcə, uğurlarımız da davamlı olsun. Kütləviliyə gəldikdə, bir daha demək istəyirəm ki, idman hər bir insan üçün gündəlik həyat tərzi olmalıdır. Mən idmanla məşğul olmağı hər bir vətəndaşa tövsiyə edirəm. İdmanın çox böyük xeyri var. İdman insanı fiziki cəhətdən möhkəm edir. İdmançılar, xüsusilə Azərbaycan idmançıları böyük mənəvi dəyərlərə malikdirlər. Təsadüfi deyildir ki, Azərbaycan cəmiyyətində idmançılara çox böyük hörmət vardır. Bu hörməti idmançılarımız həm öz qələbələri, həm də cəmiyyətdə olan fəaliyyətləri ilə qazanmışlar.

Azərbaycan nisbətən gənc müstəqil dövlətdir. Müstəqilliyimizin cəmi 20 yaşı var. Ancaq bütün sahələrdə olduğu kimi, idman sahəsində də böyük uğurlar qazana bilmişik. Bu gün dünyada Azərbaycan idman dövləti kimi tanınır. Biz beynəlxalq idman ailəsində layiqli yeri tuta bilmişik. Bu gün Azərbaycan idmançıları hər bir rəqib üçün çox ciddi sınaqdır və idman ölkəsi adını qazanmaq asan məsələ deyildir. Biz bu adı öz əməyimizlə, idmançılarımızın zəhməti, məşqçilərin əməyi ilə qazanmışıq.

Azərbaycanda idmanda idarəçilik sistemi də mükəmməldir. Onu da qeyd etmək istəyirəm və mən şəxsən onun şahidiyəm ki, Azərbaycandakı təcrübə bir çox ölkələrdə öyrənilir. Çünki bəzi hallarda idman federasiyaları, cəmiyyətləri və klubları arasında, Milli Olimpiya Komitəsi və nazirliklər arasında ziddiyyətlər var. Azərbaycanda isə bütün idman qurumları – Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri və klubları vahid komanda şəklində fəaliyyət göstərir. Məqsədimiz ondan ibarətdir ki, ölkə idmanını inkişaf etdirək və Azərbaycanın uğurlarını təmin edək. Bu idarəçilik sistemi, bax, bu nəticələrə gətirib çıxarmışdır.

Düşünülmüş, məqsədyönlü proqramlar əsasında qurulan fəaliyyət gözəl nəticələrini verməkdədir. Əgər biz idmançılarımızın beynəlxalq yarışlarda və Olimpiya oyunlarında çıxışlarının dinamikasına nəzər salsaq, görərik ki, uğurlarımızın sayı ildən-ilə artır. Həm olimpiya, həm qeyri-olimpiya idman növləri üzrə idmançılarımız hər il yüzlərlə medal qazanır. Onu da qeyd etmək istəyirəm ki, bəzi başqa ölkələrdə olduğu kimi, biz burada da heç bir fərq qoymuruq, heç bir ayrı-seçkilik etmirik. Həm ölkə prezidenti, həm də Milli Olimpiya Komitəsinin prezidenti kimi, mənim üçün olimpiya və qeyri-olimpiya idman növləri arasında heç bir fərq yoxdur. Çünki bütün idmançılarımız Azərbaycan idmançılarıdır. Onlar bütün yarışlarda Azərbaycanı təmsil edirlər və çalışırlar ki, qələbə qazansınlar. Bizdə qələbə əzmi çox yüksək səviyyədədir. Ona görə, Azərbaycanda həm olimpiya, həm də qeyri-olimpiya idman növlərinin inkişafı üçün çox gözəl şərait vardır.

Federasiyalar möhkəmləndi. Federasiyalara gələn rəhbər işçilər vəzifə borclarını yerinə yetirirlər. Beləliklə, hər bir federasiya konkret plan əsasında fəaliyyət göstərir və göstərməlidir. Hər bir federasiya nəticə verməlidir. O federasiyada cəmləşmiş idmançılar nəticə göstərməlidirlər, qələbə qazanmalıdırlar. Azərbaycanda idman belə çoxşaxəli şəkildə inkişaf edir və edəcəkdir.

Dünya idman və olimpiya aləmi də Azərbaycanda gedən prosesləri çox böyük maraqla və təqdirlə izləyir. Bizim beynəlxalq

əlaqələrimiz də yüksək səviyyədədir. Bunun nəticəsidir ki, Azərbaycanda artıq beynəlxalq yarışların, dünya və Avropa çempionatlarının keçirilməsi bir ənənəyə çevrilib. Elə ay yoxdur ki, Azərbaycanda hansısa mötəbər beynəlxalq tədbir, yarış keçirilməsin. Bəzi hallarda bir həftə ərzində bir neçə idman növü üzrə yarışlar keçirilir. Bu da onu göstərir ki, artıq Azərbaycandakı mövcud idman infrastrukturu, idmançılara olan diqqət və xalqımızın qonaqpərvərliyi bizim üçün bu imkanları yaradır.

Regional olimpiya kompleksləri ilə bərabər, Bakı şəhərində də böyük olimpiya infrastrukturu yaradılır. Son illər ərzində bir neçə böyük idman-konsert zalı tikilmişdir. Onların içərisində, əlbəttə ki, ən böyüyü, ən möhtəşəmi Bakı Kristal Zaldır. O zalda «Eurovision» mahnı müsabiqəsi keçirilmişdir. İstənilən idman yarışı da keçirilə bilər. Tofiq Bəhramov adına Respublika stadionunda aparılmış yenidənqurma və bərpa işlərindən sonra bu stadion dünya standartlarına cavab verir. Yaxın günlərdə stadionun təmirdən sonra açılışını qeyd edəcəyik.

Keçən il Bakıda yeni olimpiya stadionunun təməl daşı qoyulmuşdur. Hazırda texniki-iqtisadi əsaslandırma işləri aparılır, mühəndislik layihəsi hazırlanır. Ümid edirəm ki, bu il Olimpiya stadionunun tikintisi başlanacaqdır və bu, bölgənin ən böyük və ən müasir olimpiya stadionu olacaqdır. Yaxın zamanlarda biz Bakıda dünya standartlarına cavab verəcək yeni müasir üzgüçülük kompleksinin tikintisinə başlayacağıq. Buna da böyük ehtiyac vardır. İndi, demək olar ki, bütün rayonlarda üzgüçülük hovuzları vardır. Ancaq biz Bakıda bu sahədə geridə qalmışıq. İdmançılarımız sovet dövründən qalan hovuzlardan istifadə edirlər. Bu, dözülməz bir haldır. Ona görə yeni Su sarayı və Üzgüçülük Olimpiya Mərkəzinin tikintisinə böyük ehtiyac vardır. Gimnastika Olimpiya İdman Zalının tikintisi başlanmışdır. Bakıda ən mötəbər beynəlxalq idman yarışını keçirmək üçün infrastruktur yaradılır və gələcək illərdə biz bu işləri daha sürətlə aparacağıq.

Bir sözlə, bütün bu amillər Azərbaycanı dünya idman xəritəsində xüsusi yerə qoyur. Bizim yerimiz möhkəmdir. Əminəm ki, biz bundan sonra da olimpiya hərəkatında fəal iştirak edəcəyik.

O ki qaldı müstəqillik dövründə bizim Olimpiya oyunlarında iştirakımıza, burada da müsbət dinamikanı görürük. Hər bir sahədə olduğu kimi, bu sahədə də ancaq və ancaq uğurlarımızı artırırıq. Biz 20 il ərzində böyük və uğurlu yol keçmişik, beynəlxalq arenada möhkəm yer tutmuşuq, 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına seçilmişik. İqtisadi sahədə son illər ərzində Azərbaycandan daha uğurlu və daha sürətli inkişaf edən ikinci ölkə yoxdur. Sosial məsələlərin həllinə gəldikdə, təcrübəmiz nümunə kimi göstərilir. Azərbaycanda sosial ədalət prinsipləri bərqərar olunub.

İdman sahəsində də biz eyni mənzərəni görürük. Müstəqil ölkə kimi, Atlanta Olimpiya oyunlarında 1, Sidneydə 3, Afinada 5, Pekində 7 medal qazanmışıq. Bu dinamika özlüyündə bir göstəricidir. Sadaladığım bu rəqəmlər bizi bir məntiqi nəticəyə gətirib çıxarır ki, London Yay Olimpiya oyunlarında da idmançılarımızdan daha da gözəl nəticə və daha çox medal gözləyirik.

İdmanda hər şey ola bilər, qələbə də, məğlubiyyət də. Ancaq mən əminəm və inanıram ki, idmançılarımız ölkəmizi layiqətlə təmsil edəcəklər. Bir daha bildirmək istəyirəm ki, bunu deməyə əsas verən idmançılarımızın dünya və Avropa çempionatlarında uğurlu çıxışlarıdır. Bizim doğrudan da güclü komandamız vardır. Bu komanda böyük uğurlara nail ola bilər. Tariximizdə ilk dəfədir ki, Azərbaycan Olimpiya oyunlarında böyük say tərkibi ilə çıxış edir. Çünki Olimpiya oyunlarında 50-dən çox idmançıya malik olan ölkə böyük idman ölkəsi kimi tanınır. Bu dəfə Olimpiya oyunlarında iştirak edəcək idmançılarımızın sayı 53-dür. Bu doğrudan da bizim idman potensialımızı bir daha göstərir.

İdmançılarımızın böyük şansları, böyük imkanları vardır. Biz hamımız, bütün Azərbaycan xalqı idmançılara yalnız uğurlar arzulayırıq və onların qələbələrini gözləyirik.

Bir məsələyə də toxunmaq istəyirəm. İdmançıların məişət problemlərinin həlli də daim diqqət mərkəzində olmuşdur. Demək olar ki, hər il 20–30 idmançıya dövlət və Milli Olimpiya Komitəsi tərəfindən yeni mənzillər verilir. Bu praktika artıq 15 ildir ki,

tətbiq edilir. Biz bu proqramı 1997-ci ildən başlamışıq. Böyük uğurlara malik olan idmançıların məişət problemlərini həll edə bilmişik. Bu proses bundan sonra da davam etdiriləcəkdir. İdmançıların maddi təminatı da artır, mükafat fondu da artmaqdadır. Bütün bunlar çox vacib məsələlərdir, vacib amillərdir.

Ancaq mən bilirəm və tam əminəm ki, idmançılarımızın əsas təkanverici stimulu Vətən sevgisidir. Bütün başqa amillərlə yanaşı, birinci sırada dayanan Vətənə, xalqa olan bağlılıqdır. Azərbaycan idmançıları istər Olimpiya oyunlarında, istərsə də Avropa, dünya çempionatlarında medallar qazananda, Azərbaycanın milli himni səslənəndə hər bir vətənpərvər Azərbaycan vətəndaşı sevinir. Hər bir insanın, hər bir vətənpərvər vətəndaşın ürəyi fərəhlə dolur. Bu unudulmaz anları bizə idmançılar bəxş edirlər. Buna görə biz onlara minnətdarıq, buna görə biz onları dəstəkləyirik. Azərbaycan idmançıları doğrudan da həm peşəkarlıq, həm mənəvi dəyərlər baxımından nümunə ola bilərlər. Mən istəyirəm ki, gənc nəsil, bax, belə ruhda yetişsin. Bizim idman qəhrəmanlarımız gənc idmançılar qarşısında nümunə olsunlar, həm idmanda, həm də həyatda.

O ki qaldı Azərbaycan dövlətinə və mənim bu sahədəki fəaliyyətimə, mən 15 ildir ki, Milli Olimpiya Komitəsinin prezidentiyəm. Baxmayaraq ki, ölkə prezidenti kimi, mənim çoxsaylı işlərim, böyük, çoxşaxəli funksiyalarım vardır, Milli Olimpiya Komitəsinin prezidenti kimi də mən daim idmançılarla təmasdayam, onların problemləri ilə maraqlanıram, onların uğurlarına sevinirəm. Hesab edirəm ki, bu həm cəmiyyət, həm də idmanın inkişafı üçün lazımdır. Mən onu da qeyd etmək istəyirəm ki, ölkə prezidenti vəzifəsinə də idman aləmindən gəlmişəm. 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti və 2003-cü ildə respublika prezidenti seçilmişəm. Mən Azərbaycan rəhbərliyində, belə demək mümkünsə, idmançıları təmsil edirəm və bundan sonra da hər bir sahəyə olduğu kimi, bu sahəyə də xüsusi diqqət göstərəcəyəm. Təsadüfi deyildir ki, 2012-ci il Azərbaycanda «İdman ili» elan edilmişdir. Bu özlüyündə bir göstəricidir. Bu onu göstərir ki, idmana doğrudan da dövlət tərəfindən böyük dəstək, idmançılara böyük qayğı vardır. İdmançılar bizim milli

sərvətimizdir. Azərbaycan idman arenalarında öz sözünü deyir, deyəcəkdir. Mən əminəm ki, London Yay Olimpiya oyunları Azərbaycan idmanının növbəti təntənəsi olacaqdır.

Əziz dostlar, əziz idmançılar, olimpiyaçılar, paralimpiyaçılar, sizi bu gün bir daha ürəkdən salamlayıram, sizə uğurlar arzulayıram. Bilin ki, hər bir Azərbaycan vətəndaşı kimi, mən də oyunları izləyəcəyəm, sizə azarkeşlik edəcəyəm və sizin qələbələrinizi gözləyəcəyəm.

# ÜMUMHƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ PREZİDENTİ MİXAİL ŞMAKOV VƏ BAŞ KATİBİ VLADİMİR ŞERBAKOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Ümumhəmkarlar İttifaqları Konfederasiyasının prezidenti Mixail Şmakovu və konfederasiyanın Baş katibi Vladimir Şerbakovu qəbul etmişdir.*

*Ümumhəmkarlar İttifaqları Konfederasiyasının prezidenti Mixail Şmakov Azərbaycanda ölkə rəhbərliyi ilə həmkarlar qurumları arasında sıx əlaqələrin və fəal əməkdaşlığın mövcudluğunu məmnunluqla qeyd etdi.*

*Ölkəmizə hər dəfə səfər etdikləri zaman Azərbaycanda böyük inkişaf proseslərinin və müsbət dəyişikliklərin şahidi olduqlarını vurğulayan Ümumhəmkarlar İttifaqları Konfederasiyasının prezidenti Mixail Şmakov bu istiqamətdə prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın təcrübəsinin və əldə etdiyi nailiyyətlərin yaxşı nümunə kimi rəhbərlik etdiyi təşkilatın iclaslarında müzakirə etdiklərini söylədi. Mixail Şmakov həmkarlar hərəkatındakı yüksək xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ümumhəmkarlar İttifaqları Konfederasiyasının ali mükafatına – Qızıl döş nişanına layiq görülməsi ilə bağlı təşkilatın yekdilliklə qərar qəbul etdiyini dedi və mükafatı dövlətimizin başçısına təqdim etdi.*

*Təşkilatın baş katibi Vladimir Şerbakov Rusiyada və Azərbaycanda hökumət qurumları ilə həmkarlar ittifaqları arasında münasibətləri yüksək dəyərləndirdi.*

*Dövlətimizin başçısı Ümum Həmkarlar İttifaqları Konfederasiyasının yüksək mükafatına layiq görülməsindən məmnunluğunu*

*ifadə* etdi *və* bunu *ölkəmizdə hökumət orqanları ilə həmkarlar ittifaqları arasında əməkdaşlığa verilən yüksək qiymət* kimi *dəyərləndirdi.* Prezident *İlham Əliyev* bildirdi ki, *Azərbaycan dövlətinin əsas məqsədi insanların* sosial *həyat şəraitini yaxşılaş-dırmaqdan, ölkə iqtisadiyyatını* daha da *gücləndirməkdən ibarətdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlərdə,* o *cümlədən* siyasi, iqtisadi *və mədəni sahələrdə uğurla inkişaf* etdiyini *vurğuladı, münasibətlərimizin* strateji *tərəfdaşlıq* xarakteri *daşıdığını* dedi. *İkitərəfli münasibətlərimizin güclü* tarixi bazaya *və* humanitar *əməkdaşlığa əsaslandığını deyən* prezident *İlham Əliyev Azərbaycanda* Slavyan Universitetinin, rusdilli *məktəblərin,* Rusiya *Mədəniyyət Mərkəzinin,* Moskva *Dövlət* Universitetinin *Bakı filialının fəaliyyətini,* Rus Pravoslav *Kilsəsinin Bakı və Azərbaycan* Yeparxiyasının inzibati *binasının* tikintisini bu *sahədə əməkdaşlığın nümunəsi* kimi *qiymətləndirdi. Dövlətimizin başçısı əlaqələrimizin* bundan sonra da *genişlənəcəyinə əminliyini ifadə* etdi.

## ÜMUMHƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ FƏXRİ QIZIL NİŞANI İLƏ TƏLTİFEDİLMƏ MƏRASİMİ

*3 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümumhəmkarlar İttifaqları Konfederasiyası (ÜHİK) İcraiyyə Komitəsinin qərarı ilə «Həmkarlar ittifaqları hərəkatı qarşısında xidmətlərinə görə» Fəxri Qızıl nişana layiq görülmüşdür.*

*ÜHİK-in Baş katibi Vladimir Şerbakovun imzaladığı qərarda deyilir: «Azərbaycan Respublikası həmkarlar ittifaqları hərəkatı qarşısında xidmətləri, həmkarlar ittifaqları üzvlərinin sosial-iqtisadi hüquqlarının, mənafelərinin və azadlıqlarının müdafiəsinə, həmkarlar ittifaqlarının beynəlxalq səviyyədə nüfuzunun artırılmasına əvəzsiz şəxsi töhfəsi, qətiyyətli və prinsipial mövqeyi, MDB-nin qorunub saxlanması və inkişafı, sosial-iqtisadi və siyasi sahələrə inteqrasiya üzrə çoxillik səmərəli fəaliyyəti nəzərə alınaraq və anadan olmasının 50 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev ÜHİK-in Həmkarlar ittifaqları hərəkatı qarşısında xidmətlərinə görə Fəxri Qızıl nişanı ilə təltif edilsin».*

## ARGENTİNA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ ETİQAD NAZİRİ HEKTOR TİMERMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Argentina Respublikasının Xarici İşlər və Etiqad naziri Hektor Timermanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Argentinanın Xarici İşlər və Etiqad naziri Hektor Timerman ilə Nyu-Yorkda keçirdiyi görüşü məmnunluqla xatırlatdı. Azərbaycan ilə Argentina arasında ikitərəfli əlaqələrin dinamik şəkildə inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev əməkdaşlığın genişləndirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd etdi.*

*Argentina ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin genişləndiyini qeyd edən Hektor Timerman bu əlaqələrin daha da möhkəmləndirilməsi üçün böyük potensialın olduğunu qeyd etdi. İş adamlarından ibarət nümayəndə heyəti ilə Azərbaycana səfər etdiyini deyən qonaq bu səfərin ölkələrimiz arasında işgüzar əlaqələrin qurulması üçün yaxşı imkan yaradacağını vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlığın enerji, kənd təsərrüfatı və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BİLGƏH–NOVXANI–SUMQAYIT AVTOMOBİL YOLUNUN YENİDƏN QURULMASININ BİRİNCİ VƏ İKİNCİ HİSSƏLƏRİNİN LAYİHƏLƏRİ ÇƏRÇİVƏSİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*4 iyul 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 4-də Bilgəh–Novxanı–Sumqayıt avtomobil yolunun yenidən qurulmasının birinci hissəsinin layihəsi çərçivəsində Kardiologiya Mərkəzinin qarşısındakı tunelin açılışında iştirak etmiş, magistralın ikinci hissəsinin layihəsi üzrə görülmüş işlərlə yaxından tanış olmuşdur.*

*Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq Bakı şəhərində yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi, yeni körpülərin və yolötürücülərinin tikilməsi, magistral yolların salınması, yeraltı və yerüstü keçidlərin inşası davam etdirilir. Prezident İlham Əliyevin abadlıq və quruculuq işlərini daim diqqət mərkəzində saxlaması nəticəsində görülən işlər vaxtında və yüksək keyfiyyətlə həyata keçirilir. Dövlətimizin başçısının tapşırıqlarına əsasən görülən məqsədyönlü tədbirlər nəticəsində paytaxtın yol-nəqliyyat infrastrukturuna yeni obyektlər əlavə olunmuşdur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, , ümumi uzunluğu 566 metr, örtülü hissəsinin uzunluğu 65 metrə, eni isə 23 metrə yaxın olan tunelin inşası yüksək keyfiyyətlə başa çatdırılmışdır. Dörd zolaqdan ibarət tunelin hərəkət hissəsinin eni 15 metrdir. Yolun bu sahəsinin müxtəlif hissələrində yeraltı piyada keçidlərinin inşasının başa çatdırıldığı, körpünün tikintisinin isə tamamlanmaq üzrə olduğu bildirildi.*

*Dövlətimizin başçısı tunelin açılışını bildirən lenti kəsdi.*

*Açılışdan sonra prezident İlham Əliyev yolun rahatlığını yoxlamaq üçün sükan arxasına keçərək avtomobili idarə etdi.*

*Sonra prezident İlham Əliyev Bilgəh–Novxanı–Sumqayıt avtomobil yolunun yenidən qurulmasının ikinci hissəsinin layihəsi üzrə görülən işlərlə yaxından tanış oldu. Layihənin texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, layihəyə görə 6 zolaqdan ibarət yolun bu hissəsinin ümumi uzunluğu 28 kilometr, hərəkət zolaqlarının eni isə 4 metrə yaxındır. Yolboyu avtomobil və dəmir yollarının üzərində 12 körpünün və yolötürücüsünün inşası nəzərdə tutulur. Bu yolun inşasında əsas məqsəd Abşeron yarımadasının şimal-şərq hissəsində yerləşən yaşayış məntəqələrini strateji əhəmiyyətli Heydər Əliyev Beynəlxalq Aeroportu–Mərdəkan dairəsi–Bilgəh–Sumqayıt avtomobil magistralı vasitəsilə paytaxta daxil olmadan Bakı–Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolu ilə şimal istiqamətində beynəlxalq nəqliyyat əlaqəsini təmin etməkdir. Yeni magistral həmin yaşayış məntəqələrinə Bakı–Şamaxı avtomobil yoluna çıxmaqla respublikanın qərb zonası ilə təhlükəsiz, iqtisadi baxımdan daha səmərəli və rahat nəqliyyat əlaqəsi qurmağa imkan verəcəkdir.*

*Layihə ilə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ENRİKE PENYA NİETOYA

Hörmətli Enrike Penya Nieto!

Meksika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Meksika dövlətlərarası münasibətləri, dostluq əlaqələrimiz və əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Meksika xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 iyul 2012-ci il*

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ HERMAN VAN ROMPUYUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*5 iyul 2012-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuyun iyulun 5-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Avropa İttifaqının bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuyu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Avropa İttifaqı Şurasının prezidentinə raport verdi.*

*Avropa İttifaqının və Azərbaycanın himnləri səsləndi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Avropa İttifaqı Şurasının prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Herman Van Rompuya, Avropa İttifaqı nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ HERMAN VAN ROMPUY İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyul 2012-ci il*

*İyulun 5-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuyun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Dövlətimizin başçısı Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuyun ölkəmizə səfərini tərəfdaşlığımızın və dostluğumuzun əhəmiyyətli göstəricisi kimi qiymətləndirdi.*

*Azərbaycan–Avropa İttifaqı arasında münasibətlərin bir çox sahələri əhatə etdiyini vurğulayan prezident İlham Əliyev Herman Van Rompuyun ölkəmizə səfərinin uğurlu olacağına əminliyini ifadə etdi. Dövlətimizin başçısı bu səfərin Avropa İttifaqı Şurası prezidentinin ölkəmizi daha yaxından tanıması üçün yaxşı imkan yaradacağını dedi.*

*Azərbaycan ilə Avropa institutları, eləcə də ölkəmizin əsas enerji tərəfdaşlarından olan Avropa İttifaqı arasında əlaqələri yüksək qiymətləndirən prezident İlham Əliyev Herman Van Rompuyun ölkəmizə səfərinin Azərbaycanın Avropa İttifaqı ilə tərəfdaşlığının daha da genişləndirilməsi işinə təkan verəcəyinə əminliyini bildirdi.*

*Azərbaycan ilə Avropa İttifaqı arasında yaxşı münasibətlərin olduğunu deyən Herman Van Rompuy iqtisadi və enerji sahələri ilə yanaşı, digər istiqamətlərdə də əlaqələrin inkişaf etdirilməsi üçün geniş potensialın mövcudluğunu bildirdi.*

*Avropa İttifaqı Şurasının prezidenti bu səfərin ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsi baxımından yeni imkanlar açacağını vurğuladı.*

# AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ HERMAN VAN ROMPUY İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*5 iyul 2012-ci il*

*İyulun 5-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuy mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, Sizi bir daha Azərbaycanda salamlayıram. Mənim dəvətimi qəbul edib Azərbaycana səfərə gəldiyinizə görə təşəkkürümü bildirirəm.

Bu gün biz qarşılıqlı maraq doğuran məsələlərə dair geniş müzakirələr apardıq. Avropa təsisatları ilə Azərbaycan arasında əlaqələr çox uğurla inkişaf edir. Ötən il biz müstəqilliyimizin bərpa olunmasının 20 illiyini qeyd etdik. Bütün bu illər Azərbaycan ilə Avropa təsisatları arasında fəal əməkdaşlıqla yadda qaldı. Hazırda bu əlaqələr uğurla inkişaf edərək tərəfdaşlığın yeni formasına çevrilir. Biz regional miqyaslı bir sıra məsələlər – siyasi inkişaf, iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi və regional təhlükəsizlik üzərində iş aparırıq. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycanın Avropa İttifaqı ölkələri ilə yaxşı ikitərəfli əlaqələri mövcuddur. Bu münasibətlər çox möhkəm qarşılıqlı maraqlara, hörmətə və dostluğa əsaslanır.

Bu gün biz Avropa ilə Azərbaycan arasında əlaqələrin geniş gündəliyini müzakirə etdik. Biz Azərbaycanda baş verən siyasi prosesləri, siyasi islahatları nəzərdən keçirdik. Mən cənab Prezidentə bildirdim ki, Azərbaycan siyasi islahatlar və demokratik

inkişaf siyasətinə sadiqdir. Biz qanunun aliliyinin möhkəmləndirilməsi, siyasi azadlıqlar və insan hüquqlarının müdafiəsi sahəsində işlər aparırıq. Hesab edirəm ki, Azərbaycan müstəqillik illərində mühüm inkişafa nail olub. Azərbaycanda bütün əsas azadlıqlar – din azadlığı, toplaşmaq azadlığı, mətbuat azadlığı təmin olunub, azad internet vardır. Azərbaycan ilə Avropa təsisatları arasında mövcud münasibətlər bu baxımdan davam edəcək və bizə Avropanın bu sahədə əldə etdiyi müsbət təcrübəni tətbiq etməyə imkan yaradacaqdır.

Biz regional inkişaf və təhlükəsizlik məsələlərinə, xüsusilə də Ermənistan ilə Azərbaycan arasında mövcud münaqişənin həlli ilə əlaqədar vəziyyəti də nəzərdən keçirdik. Mən cənab Prezidentə bu məsələ ilə bağlı son vəziyyət barədə məlumat verdim. Azərbaycan danışıqlar prosesinə çox sadiqdir. Biz praktiki nəticələri mümkün qədər tez görmək istəyirik.

Azərbaycanın beynəlxalq səviyyədə tanınan torpaqları artıq 20 ildir ki, Ermənistanın işğalı altındadır. Erməni silahlı qüvvələri təkcə Dağlıq Qarabağı deyil, həmçinin onun inzibati sərhədlərinə daxil olmayan 7 digər rayonu da işğal altında saxlayır. Onlar etnik təmizləmə siyasətini həyata keçiriblər və bunun nəticəsində bizim bir milyondan çox qaçqın və məcburi köçkünümüz vardır, torpaqlarımızın 20 faizi isə hələ də işğal altındadır. Beynəlxalq təşkilatlar bu məsələyə dair bir sıra qətnamələr qəbul ediblər. Buraya BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, Avropa Parlamentinin, Avropa Şurasının, ATƏT-in qərarları da daxildir. Amma əfsuslar olsun ki, bu qətnamələrin heç biri hələ də yerinə yetirilməyib.

Mən cənab Prezidentin diqqətinə çatdırdım ki, ATƏT-in Minsk qrupunda həmsədr ölkələrin rəhbərlərinin status-kvonun qəbuledilməz olmasına dair verdikləri bəyanat bizi çox ruhlandırdı. Bu çox dərinməzmunlu bəyanatdır və düşünürəm ki, vaxtında qəbul edilmiş bir bəyanatdır. Ümid edirik ki, bu cür mühüm bəyanatdan sonra biz status-kvonun həqiqətən də dəyişdiyinin şahidi olacağıq. Status-kvonun dəyişməsi işğal altında olan torpaqların azad edilməsinin başlanması deməkdir. Bu da regionda

müsbət inkişaf ilə nəticələnəcəkdir. Ermənistanın işğal etdiyi torpaqların azad edilməsinə başladığı andan dərhal sonra bütün kommunikasiyalar açıla və regional əməkdaşlığa başlanıla bilər. Bundan bütün ölkələr faydalanacaqdır.

Biz vasitəçilərin göstərdiyi səylərə çox ümidlər bəsləyirik və ümid edirik ki, bu məsələnin həlli tezliklə tapılacaqdır. Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri bərpa olunacaq və bizim insanlar öz torpaqlarına qayıtmaq kimi əsas hüquqlarından istifadə edəcəklər. Azərbaycanlı məcburi köçkünlərin bu əsas hüququ pozulub.

Bu gün biz enerji təhlükəsizliyi məsələlərinə də toxunduq və bu müzakirələri bundan sonra da davam etdirəcəyik. Onu da demək istərdim ki, Azərbaycan regionda əsas enerji layihələrinin təşəbbüskarıdır. Xəzərin karbohidrogen ehtiyatlarının Avropa və dünya bazarlarına nəqlini təmin etmək üçün enerji dəhlizini ilk açan məhz biz olmuşuq. Bu gün Azərbaycan nefti Avropa İttifaqının bəzi üzv dövlətlərinin enerji balansının təqribən 30 faizini təşkil edir. Bu o deməkdir ki, biz Avropadakı tərəfdaşlarımızın da enerji təhlükəsizliyini təmin edirik.

Azərbaycanda neft sahəsinin inkişaf potensialı çox yüksəkdir. Bizim çoxşaxəli bir sıra neft boru kəmərlərimiz var və bununla da gələcək üçün böyük potensiala malikik. Azərbaycan nefti dostlarımızın gələcək onilliklər üçün enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayacaqdır. Bundan başqa, Azərbaycanın Dövlət Neft Şirkəti Avropaya fəal şəkildə sərmayə qoyur. Bu əməkdaşlığı və faydalı razılaşmaları gələcəkdə də ikitərəfli qaydada davam etdirmək üçün planlar vardır.

Azərbaycan artıq iri qaz ixracatçısına çevrilib. Biz iri qaz yataqları aşkar etmişik. Üç əsas yataq – «Şahdəniz», «Ümid» və «Abşeron» Azərbaycanın əsas qaz ehtiyatlarını təşkil edir. Lakin əminəm ki, növbəti illərdə biz yeni yataqların aşkar edilməsinin şahidi olacağıq. Azərbaycanın beynəlxalq səviyyədə təsdiqlənmiş qaz ehtiyatlarının həcmi 2,6 trilyon kubmetr təşkil edir. Biz həmçinin artıq qazötürücü şəbəkəni də şaxələndirmişik. Bu yaxınlarda Türkiyə ilə Trans–Anadolu Qaz Boru Kəməri layihəsi

barədə tarixi bir saziş imzalamışıq ki, burada da Azərbaycanın payı 80 faizdir. Bu o deməkdir ki, layihənin icrasına dair bütün əsas məsuliyyəti və maliyyə öhdəliyini üzərimizə götürmüşük. TANAP-a rəhbərliyi üzərimizə götürmüşük və əminəm ki, bu, uğurlu nəticəni şərtləndirən amil olacaqdır.

Belə ki, bu günədək təşəbbüskarı olduğumuz, maliyyələşdirdiyimiz və icra etdiyimiz enerji layihələri uğurlu olub. Bu bizim üçün, tərəfdaşlarımız üçün çox vacib məsələdir. Bu, şaxələndirmə məsələsidir. Şaxələndirmə dedikdə biz, əlbəttə ki, əsasən mənbələrin şaxələndirilməsini nəzərdə tuturuq. Bu halda vəziyyət məhz bu cürdür. Azərbaycan qazı dünya üçün, Avropa üçün yeni enerji mənbəyidir. Avropa bazarları bizim üçün çox cəlbedicidir, çünki çox böyükdür. Bu, liberallaşdırılmış, qanunvericiliklə tənzimlənən bazardır. Burada biz istehsalçı və istehlakçı arasında maraqlar balansı kimi çox mühüm məsələyə yaxınlaşırıq. Burada, əlbəttə ki, tranzit ölkələri də unutmaq lazım deyildir. Düşünürəm ki, bu maraqların qovuşması enerji layihələrinin uğurlu icrası ilə nəticələnəcəkdir. Bu layihələr onilliklərlə, bəlkə də yüz il və daha çox müddətdə davam edəcək layihələr olacaqdır. Azərbaycan etibarlı tərəfdaş kimi, artıq iqtisadi, enerji və siyasi nöqteyi-nəzərdən özünü doğruldub. Əminəm ki, əməkdaşlığımızda enerji sahəsi uğurlu olacaqdır. Lakin, əlbəttə, bu təkcə qarşılıqlı maraq məsələsi deyildir.

Bizim iqtisadi əməkdaşlıq, qarşılıqlı sərmayə qoyuluşu, siyasi əməkdaşlıq, regional təhlükəsizlik, regional inkişaf müstəvisində də çoxlu planlarımız vardır. Başqa sözlə desək, bu gün biz cənab Prezident ilə saat yarım ərzində bu məsələləri müzakirə etmişik və bir çox məsələlər də müzakirə olunmalıdır. Bu, əlaqələrin bizim üçün nə qədər mühüm olduğunu, müzakirə edilən məsələlərin nə qədər vacib olduğunu göstərir.

Cənab Prezident, sizi bir daha ölkəmizdə salamlayıram, şadam ki, vaxt tapıb Azərbaycanı görməyə, bizimlə görüşməyə gəldiniz. Sizə uğurlu səfər arzulayıram.

## Avropa İttifaqının prezidenti Herman Van Rompuyun bəyanatı

Cənab Prezident, Azərbaycana ilk dəfə və ölkənizin dinamik inkişaf etdiyi dövrdə səfərimdən məmnunam. Buraya qısa müddətə gəlsəm də, artıq sürətli müasirləşmənin bir çox əlamətlərini görmüşəm.

Bu baxımdan, mən Sizi və Azərbaycan xalqını may ayında «Eurovision» mahnı müsabiqəsinə ev sahibliyi etməyiniz münasibətilə təbrik etmək istərdim. Avropada ən çox baxılan tədbirlərdən biri olan bu müsabiqə Azərbaycanı geniş Avropa ictimaiyyətinə aydın şəkildə yaxınlaşdırdı.

İlk görüşümüz mənim Belçikanın Baş naziri olduğum vaxta təsadüf edib. Mənim Avropa İttifaqı Şurasının Prezidenti qismində Bakıya səfərim bundan əvvəl Astana, Brüssel və Varşavada keçirdiyimiz görüşlərin nəinki davamı, həm də Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələri bir daha nümayiş etdirmək üçün bir imkandır. Bu gün biz səmərəli müzakirələr apardıq. Bir çox ikitərəfli və regional məsələləri müzakirə etdik.

Mən üç məsələni qeyd etmək istərdim. Birincisi, icazə verin vurğulayım ki, biz Avropa İttifaqı–Azərbaycan əlaqələrini və əməkdaşlığımızın nəticəsində əldə etdiyimiz faydanı yüksək qiymətləndiririk. Biz keçmişdəki nailiyyətlərimizə əsaslanaraq birlikdə gələcək potensialdan istifadə etməyə çalışmalıyıq. Fikrimcə, bu, Avropa İttifaqının, Azərbaycanın və bütün regionun maraqlarına xidmət edir.

Müxtəlif sahələrdə əlaqələrimizin intensivləşməsini müşahidə edirik. Bütün səviyyələrdə ikitərəfli siyasi əlaqələrimiz, həmçinin insanlar ilə işgüzar dairələr arasında əlaqələr də intensivləşir. Biz bir çox əhəmiyyətli beynəlxalq məsələlərdə Sizin dəstəyinizi yüksək qiymətləndiririk. Enerji əməkdaşlığımız ikitərəfli əlaqələrimizin mühüm müsbət ölçüsü kimi sürətlə inkişaf edir.

«Cənub Qaz Dəhlizi» və «Transxəzər» kəməri ilə bağlı davam edən danışıqlar Azərbaycan və Avropa İttifaqı üçün strateji əhəmiyyət kəsb edir.

Mən bu yaxınlarda Türkiyə ilə Azərbaycan arasında Trans–Anadolu kəməri ilə bağlı əldə olunan anlaşmanın rəsmiləşdirilməsini alqışlayıram. Bu, «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsi istiqamətində Azərbaycanın və bizim öhdəliyimizi daha da möhkəmləndirir.

Bununla belə, əlaqələrimizi daha da genişləndirmək və şaxələndirmək üçün hələ də böyük potensial vardır. Daha çox iş görülə bilər və görülməlidir. Biz xüsusilə yeni assosiativ saziş, o cümlədən ticarət və investisiyalarla bağlı danışıqlarda irəliləyiş əldə etməliyik.

Cənab Prezident, Sizi «Şərq Tərəfdaşlığı»nın Azərbaycan üçün nəzərdə tutduğu imkanlardan daha yaxşı istifadə etməyə dəvət edirəm. Varşava Sammitindən sonra biz əhəmiyyətli irəliləyiş əldə etmişik. Biz «Şərq Tərəfdaşlığı»nın 2013-cü ildə Vilnüsdə keçiriləcək növbəti sammitinin «Yol xəritəsi»ndə nəzərdə tutulmuş hədəflərə çatmaq üçün doğru yoldayıq.

İkincisi, Azərbaycan dünyəvi cəmiyyətdir və Sizin müxtəlif dinlərin nümayəndələrinin birgə yaşaması prinsipinə sadiqliyiniz müasir dünyada çox mühüm əhəmiyyət kəsb edir. Avropa İttifaqının və regionun sabit, mütərəqqi və tolerant, demokratik islahatlara və müasirləşməyə sadiq Azərbaycana ehtiyacı vardır. Mən inkişaf edən vətəndaş cəmiyyətinin vacibliyini prezident İlham Əliyevin diqqətinə çatdırdım. Bu bizim tariximizdə inkişafa zəmin yaradan əsas amil olub. Bu, Azərbaycanda da belə ola bilər. İslahatların aparılması və davam etdirilməsi, insan haqlarının təşviqi Azərbaycanın uzunmüddətli müvəffəqiyyətini və çiçəklənməsini artıracaqdır. Bu həm də Avropa İttifaqı–Azərbaycan əlaqələrinin gücləndirilməsi üçün vacibdir.

Bu baxımdan, mən 2011-ci il aprelin 2-də keçirilmiş aksiya zamanı həbs olunmuş doqquz nəfərin ötən həftə azadlığa buraxılmasını alqışlayıram. Bu, vətəndaş və siyasi hüquqların təkmilləşdirilməsi istiqamətində Azərbaycan tərəfindən atılmış müsbət bir addımdır. Lakin buna baxmayaraq, daha çox addım atılmalıdır.

Üçüncüsü, Dağlıq Qarabağ münaqişəsinin həllində irəliləyişin əldə edilməsi əsas prioritet olaraq qalmalıdır. Həll yolu tapılmadan keçən hər gün bizim hamımız üçün itirilmiş imkandır. Münaqişənin həllinə nail olmaq üçün etimadın yaradılmasına, inam və hörmətə ehtiyac var. Dünən Yerevanda verdiyim mesajı eyniliklə bu gün Bakıda təkrar edirəm.

Son vaxtlar Ermənistanın və Azərbaycanın sərhədində və qoşunların təmas xəttində baş verən ciddi silahlı insidentlər bizi çox narahat edir, insan itkisi məni çox kədərləndirir.

Hərbi güc münaqişəni həll etməyəcəkdir. Münaqişənin yalnız sülh, danışıqlar yolu ilə həlli bütün regionda status-kvonu təhlükəsiz və çiçəklənən gələcəyə doğru dəyişməyə imkan verə bilər. Əgər təhlükəsiz və sabit regional mühit yaradılsa, bu hamının xeyrinə olacaq. Mən bir müddət əvvəl Avropa İttifaqının və bu yaxınlarda ATƏT-in Minsk qrupu həmsədrlərinin Meksikanın Los Kabos şəhərində «İyirmilik»in sammitində verdiyi bəyanatları təkrarlayıram: Həm Azərbaycan, həm də Ermənistan münaqişənin Madrid prinsipləri əsasında davamlı və sülh yolu ilə həllinə nail olmaq üçün qərar qəbul etməlidirlər. Hər iki ölkənin prezidentləri ATƏT-in Minsk qrupu çərçivəsində götürdüyü öhdəlikləri tam həyata keçirməlidir. Hər iki tərəf atəşkəsə əməl etməli, təmkin nümayiş etdirməli, rəsmi bəyanatlarda düşmənçilik ritorikasından çəkinməlidir.

Avropa İttifaqı etimad yaradılmasına və barışığa yönəlmiş səyləri dəstəkləməyə hazırdır. Bizim bunu etməyə imkanlarımız və təcrübəmiz var. Səfir Lefortun Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstanda böhran üzrə yeni xüsusi nümayəndəsi təyin olunması Avropa İttifaqının münaqişənin həllinə artan sadiqliyini və həll paketinin bütün aspektlərinə töhfəsini nümayiş etdirir. Cənab Prezident, məni Bakıda qəbul etdiyiniz üçün Sizə bir daha minnətdarlığımı bildirirəm. Mən çox şadam ki, biz Avropa İttifaqı–Azərbaycan tərəfdaşlığını daha yüksək səviyyəyə qaldırmaq üçün birgə öhdəliyimizi bir daha təsdiqləyə bildik. Təşəkkür edirəm. Gəlin işimizi davam etdirək.

# QEYDLƏR

**1. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. –3,5–12.39–59.

**2. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 3, 22, 35, 39–59, 111, 149, 150, 152, 154, 267, 268, 301, 302, 311, 312, 346.

**3. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 4, 162, 201.

**4. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 14, 228.

**5. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min $km^2$, əhalisi 194 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 18, 49,154, 316.

**6. Asif Əli Zərdari** (d.1955) – 2008–2013-cü illərdə Pakistan Respublikasının Prezidenti olmuşdur. – 18.

**7. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon $km^2$, əhalisi 325,8 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 22, 39–59, 124, 130–138, 205, 215, 224, 257.

**8. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 22, 45, 50, 56, 74, 106, 124, 147, 149, 151, 157, 160, 224, 266–270, 284, 292, 301, 307, 312, 313, 346, 350.

**9. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya,ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 22, 64, 124, 257.

**10. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Aİ-yə 28 dövlət daxildir.

Aİ-nin yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ-nin üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 33, 133, 160, 278, 292, 343–351.

**11. Həzi Aslanov,** H ə z i Ə h ə d o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H.Aslanov Stalinqrad vuruşmasında, feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə H. Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H. Aslanov 1945-ci il yanvar ayının 24-də Latviyanın Liepay şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 34, 74.

**12. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 48, 58, 113, 142, 160, 227, 289.

**13. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənubşərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 38, 131, 160, 203, 218, 273–289.

**14. Abdullah Gül** (d.1950) – Türkiyənin dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Tayyib Ərdoğanla Ədalət və İnkişaf Partiyasının

yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 38, 131, 284, 285.

**15. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və R.T.Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 38, 275–284.

**16. Pan Gi Mun** (d.1944) – peşəkar diplomat. 2007–2016-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. – 42, 55–57.

**17. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 48, 58, 113, 162, 203, 219.

**18. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 52, 154.

**19. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir.

Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 47, 49, 203.

**20. Artur Rasizadə,** A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin Birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 59, 128, 138, 192, 272, 273, 289.

**21. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin Birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «İstiqlal» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 59, 125, 128, 138, 192, 272, 273, 289.

**22. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmişdir. – 59, 61, 106, 125, 128, 192, 231, 273, 289.

**23. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi al-

tında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 61, 68– 71, 100, 103, 112–114, 143, 144, 316.

**24. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur, 2012-ci ilin may ayından Rusiyanın Baş naziridir. – 60, 72, 196.

**25. Fransua Olland** (d.1954) **–** Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 64, 322.

**26. Macarıstan,** M a c a r ı s t a n R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 9,8 milyon nəfərdir. Dövlət

başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 65, 160, 320.

**27. Norveç,** N o r v e ç  K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 385 min $km^2$, əhalisi 5 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı parlamentdir (Stortinq). Paytaxtı Oslo şəhəridir. – 66.

**28. V Harald** (d.1937) – 1991-ci ildən Norveç kralı. Kral V Ulafin oğlu. – 66.

**29. Yəmən,** Y ə m ə n  R e s p u b l i k a s ı – Ərəbistan yarımadasının cənub hissəsində dövlət. Sahəsi 528 min $km^2$, əhalisi 25,4 milyon nəfərdir. İnzibati ərazisi 22 mühafazaya bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Sana şəhəridir. – 67, 141.

**30. Abdurabbih Hadi** (d.1945) – Yəmənin dövlət xadimi. 2012–2015-ci illərdə Yəmən Respublikasının Prezidenti olmuşdur. – 67, 141.

**31. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 73, 74.

**32. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə

ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 73, 76, 100–114, 146–149, 167, 168, 182, 183, 186, 188, 197, 217, 262, 272, 276.

**33. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n F ə t t a h o ğ l u (d.1961) – general-polkovnik, 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 78, 83, 85, 86, 93.

**34. Ramil Usubov,** R a m i l İ d r i s o ğ l u (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 98, 129.

**35. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) –görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 96, 157–158.

**36. Əziz Əliyev,** Ə z i z M ə m m ə d k ə r i m o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Əziz Əliyev müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə Şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə Komissarının müavini və Xalq Səhiyyə Komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət

Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 100.

**37. Tamerlan Əliyev,** Tamerlan Əziz oğlu (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor.

Professor Tamerlan Əliyev 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 100.

**38. Qız qalası** – Bakı şəhərində tarixi-memarlıq abidəsi. Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 32 m, diametri 16-16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 105.

**39. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun

nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 103, 112–114.

**40. Şirvanşahlar sarayı –** Azərbaycan memarlıq kompleksi, Şirvan – Abşeron memarlıq məktəbinin görkəmli abidəsi. Bakının İçərişəhər hissəsindədir. Bakının XV əsrdə Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsilə əlaqədar tikilmişdir. 1420–60-cı illər arasında salınmış Şirvanşahlar sarayı ansamblının binaları yerin relyefinə uyğun olaraq inşa edilmişdir. Ərazisinin ən hündür yerində olan Yuxarı həyətdə saray binası və ona bitişik Divanxana, aşağı həyətdə türbə və minarəli Şah məscidi, yuxarı həyətin yaxınlığında Seyid Yəhya Cəlaləddin Bakuvinin türbəsi və ona bitişik kiçik məscid yerləşir. Türbə olan həyətin giriş baştağı Şimal darvazası tikilmişdir. Şirvanşahlar sarayı ansamblının yaxınlığında hamam, «Şah kəhrizi»nin qurtaracağında 500 min litr su tutan ovdan qalmışdır. – 95.

**41. Qobustan qayaüstü rəsmləri** – Azərbaycanın şərqində alçaq dağlıq sahə, uzunluğu 100 km, eni 80 km-ə yaxındır. Qobustan yaxınlığında, Qobustan qoruğu ərazisində zəngin qayaüstü rəsmlərlə yanaşı, Daş dövründən başlamış orta əsrlərədək çoxlu ibtidai insan düşərgəsi, qədim yaşayış məskəni, kurqanlar və s. arxeoloji abidələr vardır. Onların beşində Mezolit, dördündə Neolit, yeddisində Tunc, birində antik və beşində orta əsrlər dövründə yaşayış olduğunu göstərən mədəni təbəqə və maddi qalıqlar aşkar edilmişdir. – 95.

**42. Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004–2014-cü illərdə İndoneziya Respublikasının Prezidenti olmuşdur. – 115.

**43. Sudan,** S u d a n R e s p u b l i k a s ı – Şimal-Şərqi Afrikada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 40,2 milyon nəfərdir. İnzibati ərazisi 9 ştata bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı (parlament) Ali Milli Şuradır. Paytaxtı Xartum şəhəridir. – 117.

**44. Ömər Həsən əl-Bəşir** (d.1944) – Sudanın hərbi və dövlət xadimi, 1993-cü ildən Sudan Respublikasının Prezidentidir. 1989-cu ildə hərbi çevrilişdən sonra hakimiyyətə gəlmişdir. – 117.

**45. İordaniya,** İ o r d a n i y a H a ş i m i l ə r K r a l l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 9,8 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral,

qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 120.

**46. II Abdullah,** A b d u l l a h b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniya kralıdır. – 120.

**47. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 122, 132, 305, 317.

**48. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 130, 132, 137, 149, 216, 224.

**49. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 32,5 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 135, 137, 138.

**50. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 137, 205, 257.

**51. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 139.

**52. Ciorcio Napolitano** (d.1925) – İtaliyanın siyasi xadimi. 2006–2015-ci illərdə İtaliya Respublikasının Prezidenti olmuşdur. – 139.

**53. Serbiya,** S e r b i y a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min km$^2$, əhalisi 7 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunvericilik orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 140.

**54. Bamir Topi** (d.1957) – Albaniya siyasətçisi. 2007–2012-ci illərdə Albaniya Respublikasının Prezidenti olmuşdur. – 142.

**55. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı» haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 145–159, 164.

**56. İslam Konfransı Təşkilatı** (İKT)– 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatı adlanır. – 150, 200.

**57. Yaqub Mahmudov,** Y a q u b M i k a y ı l o ğ l u (d.1939) – tarix elmləri doktoru. Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı. 2000-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 157–159.

**58. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 147, 266.

**59. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 147, 266.

**60. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 75 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 147, 266.

**61. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 167–192.

**62. Vasif Talıbov,** V a s i f  Y u s i f  o ğ l u (d.1960) – Azərbaycanın dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 167–192.

**63. Portuqaliya,** P o r t u q a l i y a  R e s p u b l i k a s ı – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92,1 min $km^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 19 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabon şəhəridir. – 193.

**64. Anibal Kavaku Silva** (d.1939) – Portuqaliyanın siyasi xadimi. 2006–2016-cı illərdə Portuqaliya Respublikasının Prezidenti, 1985–95-ci illərdə Portuqaliyanın Baş naziri olmuşdur. – 193.

**65. II E l i z a b e t** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqun ölümündən sonra taxt-taca sahib olmuşdur. – 194.

**66. Nigeriya,** N i g e r i y a  F e d e r a t i v  R e s p u b l i k a- s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min $km^2$, əhalisi 181,5 milyon nəfərdir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Abuca şəhəridir. – 199.

**67. Qudlak Conatan** (d.1957) **–** Nigeriyanın siyasi və dövlət xadimi. 2010–2015-ci illərdə Nigeriya Respublikasının Prezidenti olmuşdur. – 199.

**68. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 209.

**69. Rövnəq Abdullayev,** R ö v n ə q  İ b r a h i m  o ğ l u (d.1965) – mühəndis. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. – 215, 275.

**70. Xoşbəxt Yusifzadə,** X o ş b ə x t  B a ğ ı  o ğ l u (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2000-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2004-cü ildən isə birinci vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şərəf», «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 215.

**71. «Türk petrolları»,** T ü r k i y ə  p e t r o l l a r ı – 1954-cü ildə Türkiyənin neft və qaz sənayesinin inkişafı üçün yaradılmışdır. Karbohidrogen istehsalı və emalı sahəsində Türkiyənin ən böyük şirkətidir. TPAO hazırda MDB, Şimali Afrika və Orta Şərqdə fəaliyyət göstərir. Azərbaycana gələn ilk xarici neft şirkətlərindəndir. – 216.

**72.** «**Statoyl**» – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 217.

**73. «Qazprom»** – Rusiyanın qaz istehsal edən və qaz paylayan şirkəti. Dünyanın ən böyük qaz ixrac edən şirkətlərindən biri. Şirkətin hazırkı adı – Rusiya «Qazprom» Səhmdar Cəmiyyəti. Mənzil-qərargahı Moskvadadır. – 117.

**74. Xorvatiya,** X o r v a t i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqreb şəhəridir. – 221–294.

**75. İvo Yosipoviç** (d.1957) – Xorvatiyanın siyasi xadimi, kompozitor, pedaqoq. 2010–2015-ci illərdə Xorvatiya Respublikasının Prezidenti olmuşdur. – 221.

**76. Lüksemburq,** B ö y ü k  L ü k s e m b u r q  H e r s o q l u ğ u – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min km$^2$, əhalisi 576 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı Böyük hersoqdur. Qanunverici orqanı Deputatlar Palatasıdır. Paytaxtı Lüksemburq şəhəridir. – 222.

**77. Anri** (d.1955) **–** 1998-ci ildən Lüksemburq Hersoqluğunun hökumət naibi, 2000-ci ildən isə Böyük hersoqudur. 1998-ci ildən Beynəlxalq Olimpiya Komitəsinin üzvüdür. – 222.

**78. Hillari Klinton** (d.1947) – hüquqşünas, siyasi xadim. Prezident Klintonun həyat yoldaşı. 2001-ci ildən Nyu-York ştatından Amerika Senatına üzv seçilmişdir. 2009–2013-cü illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. – 224.

**79. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı ər-Riyad şəhəridir. – 226.

**80. Abdullah ibn Əbdüləziz,** Al Səud (1924–2015) – 2005–2015-ci illərdə Səudiyyə Ərəbistanı kralı. 1962-ci ildən Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandiri olan birinci əmir Abdullah ibn Səudun oğlu. 1982-ci ildən Baş nazirin müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuşdur. – 226.

**81. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9,98 milyon km$^2$, əhalisi 36 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı (Senat və İcmalar Palatası) parlamentdir. Paytaxtı Ottava şəhəridir. – 255.

**82. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 285,286–288.

**83. Monqolustan,** Monqolustan Respublikası – Mərkəzi Asiyada dövlət. Sahəsi 1,56 milyon km$^2$, əhalisi 3 milyon nə-

fərdir. İnzibati ərazisi 18 aymaka bölünür. Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı Ulan-Bator şəhəridir. – 327.

**84. Saxiaqiyn Elbeqdorj** (d.1963) – 2009–2017-ci illərdə Monqolustan Respublikasının Prezidenti olmuşdur. 1998 və 2004–2006-cı illərdə Monqolustanda Baş nazir vəzifəsində çalışmışdır. – 327.

**85. Meksika,** M e k s i k a B i r l ə ş m i ş Ş t a t l a r ı – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1,97 milyon km$^2$, əhalisi 121 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar Palatası və Senat). Paytaxtı Mexiko şəhəridir. – 342.

**86. Herman Van Rompuy** (d.1947) – Belçika siyasətçisi. 2008–2009-cu illərdə Belçikanın Baş naziri, 2009–2014-cü illərdə Avropa Şurasının sədri olmuşdur. – 343–351.

## Şəxsi adlar göstəricisi

**II Abdullah ibn əl-Hüseyn** – 120
**Abdullayev Rövnəq** – 215,275
**Abutalıbov Hacıbala** – 59,61,101,125,128,138,192, 231,273,289
**Ağalarov Emin** –162
**Akıncı Xəlil** – 2
**Ader Yanoş** – 65
**Al Səud Abdullah** – 226
**Anri (*Lüksemburq hersoqu*)** – 222
**Aslanov Həzi** – 34,74
**Atambayev Almazbek** –128
**Atatürk Mustafa Kamal** – 279
**Bağırov Qalib** – 271
**Bayramova Minarə** – 177
**Beytman Piter** – 205
**Berişa Sali** – 289
**Berdıməhəmmədov Qurbanqulu** – 126
**Boqomolov Oleq** – 20
**Borisov Boyko** – 36–37,123
**Bradtken Robert** – 124
**Cəfərli Orxan** – 270
**Cim Yen Kim** – 14
**Conatan Qudlak** – 199
**Conston Devid** – 255
**Dadli Robert** – 1
**De Kirşner Kristina** –121
**Da Silva Joze** – 3
**Elbeqdorj Saxiqiyn** –327
**II Elizabet** – 194
**Ərgün Nihat** – 38
**Erqman Ene** – 293, 309
**Əbiyev Səfər** – 258,261
**ƏhmədzadəƏhməd** – 84
**Əhmədzadə Mübariz** – 84
**Əl-Bəşir Ömər** – 117
**Əl-Maliki Nuri** – 295
**Əl-Məktum Məhəmməd** – 13

**Əl-Ravabidə Abdurrauf** – 35
**Əl-Şaybani Məhəmməd** – 13
**Əl-Şərqi Məhəmməd** – 319
**Əl-Tani Həməd** – 166
**Əl-Tüveycri Əbdüləziz** – 311
**Əliyev Heydər** – 73,76,100–114, 146,147,148, 149,167,168,182,183,186, 188,127,207,262,272,276
**Əliyev Əziz** – 98
**Əliyev Natiq** – 275
**Əliyeva Mehriban** – 61,68,69,70,71,100, 103, 112–114,143,144,316
**Əliyeva Zərifə xanım** – 100,167–168
**Əliyev Tamerlan** – 100
**Əlizadə Səfurə** – 163
**Əmrani Yusif** – 48
**Ərdoğan Rəcəb Tayyib** – 38,274–283
**Əsədov Oqtay** – 272
**Əsgərov Cahangir** – 15
**For Jak** – 124
**Freyzer Uilyam** – 41
**Genşer Hans-Ditrix** – 219
**Gözəlova Nigar** – 157
**Gül Abdullah** – 38, 131,284, 285
**Hacıbəyli Üzeyir** – 146
**Hacıyeva Səidə** – 157
**Hadi Abdurabbih** – 67, 141
**Hadid Zaha** – 104
**V Harald** – 66
**Heydərov Kəmaləddin** – 78,83,85,86,93
**Həsənov Hacı** – 157
**İhsanoğlu Ekmələddin** – 200
**İltaf Mohamed** – 220
**İvanov George** – 293, 307–308
**İzzetbekoviç Bakir** – 134
**Karti Əli** – 117
**Kemeron Devid** – 135, 206, 220
**Kasprşik Anji** – 124
**Keralin Henri** – 228
**Kıvrıqoğlu Hayri** – 218
**Klinton Hillari** – 224

**Konuk Məhmət** – 275
**Kumar Patel** – 220
**Qasımov Eldar** –160
**Qrişenko Konstantin** – 201
**Quayd Patrik** –119
**QurbanovƏhməd** – 80
**Lefort Filip** – 160
**Liberman Aviqdor** – 19
**Litvin Vladimir** – 4
**Londono Patti** – 49
**Lukşiç İqor** –136
**Lukaşenko Aleksandr** – 256
**Maksvell Dük** – 220
**Mahmudov Yaqub** – 157–159
**Medvedev Dmitri** – 60,72,196
**Mehdiyev Ramiz** – 59,125,128,138,192,272,273, 289
**Mehdiyev İbrahim** – 75
**Mesiç Stepan** – 294
**Məmmədov Asəf** – 169
**Məmmədov Süleyman** – 157
**Məmmədov İsrafil** – 157
**Məmmədov Ziya** – 71
**Məmmədova Göhər** – 157
**Mursi Məhəmməd** – 260
**Musayev Fazil** – 86
**Mustafayev Kərəm** – 179
**Mustafayev Nazim** – 157
**Napalitano Ciorcio** – 139
**Nieto Enrike** – 342
**Nigar Camal** – 162
**NikoliçTomislav** – 140
**Nişani Buyar** – 227
**Obama Barak** – 137,205,257
**Olland Fransua** – 64,322
**Ohin Eliot** – 48, 59
**Orban Viktor** – 320–321
**Pan Çi Mun** – 42,55–57,57
**Pirakive Alexandra** – 323–324
**Popov İqor** – 124
**Portas Paulo** – 293
**Putin Vladimir** – 63,116,126,195,196

**Rasizadə Artur** – 59,128,138,193,272,273,289
**Saakaşvili Mixeil** – 122,132,305–306,317
**Saveys Rouş** – 295,308
**Silva Anibal** – 193, 292
**Slutski Leonid** – 254
**Sunye Gilbert** – 202
**Şaumyan Stepan** – 158
**Sterlinq Adam** – 205
**Şerbakov Vladimir** – 336–337,338
**Şəkiliyev Məhəmməd** – 271
**Şmakov Mixail** – 336–337
**Talıbov Vasif** – 167–192
**Tançev Yevgeni** – 325
**Tələbani Cəlal** – 295
**Thok-kyu Limb** – 21–26
**Timerman Hektor** – 40,339
**Timofti Nikolaye** – 127
**Topi Bamir** – 142
**Türk Danilo** – 223
**TsaçevaTsetska** – 123
**Umudlu Vidadi** – 157
**Usubov Ramil** – 98,129
**Vander Linder Rene** – 225
**Van Rompuy** – 343–351
**Vestervelle Guido** – 48,58
**Vud Endryu** – 204–205
**Vuyanoviç Filip** – 306,318,326
**Yosipoviç İvo** – 221
**Yanukoviç Viktor** – 201
**Yıldız Tanər** – 276
**Yudhoyono Susilo** –115
**Yusifov Mirzəli** – 262
**Yusifzadə Xoşbəxt** – 205
**Yetirmişli Qurban** – 95
**Zərdari Asif** – 18
**Zineverski Aleksandr** – 48

## Coğrafi adlar göstəricisi


**Afina** – 333
**Afrika** – 142
**Albaniya** – 48,58,113,142,162,227,289
**Almaniya** – 48,58,113,162,103,219
**Amerika Birləşmiş Ştatları** – 22,39–59,124,130–138,205, 215,224,257
**Andorra** – 202
**Argentina** – 40,121,339
**Atlanta** – 333
**Avropa** – 51,64,172,203,209,278,348
**Avrasiya** – 197
**Badamdar** – 259
**Balakən** – 78
**Belarus** – 256
**Birləşmiş Ərəb Əmirlikləri** – 319
**Bolqarıstan** – 36–37,123,325
**Bosniya və Herseqovina** – 134,162
**Böyük Britaniya** – 47,49,113,135,162,194,203–204, 205,206,220
**Bülbülə** – 118,160
**Cənubi Afrika Respublikası** – 49
**Cənubi Qafqaz** – 23,33,150,160,214,228,241
**Culfa** – 190–191
**Çikaqo** – 130–138,149,220,224
**Çin** – 47,49,203
**Çobankol** – 78
**Danimarka** – 162
**Dubay** – 13
**Estoniya** – 162,293
**Əfqanıstan** – 135,137–138
**Fransa** – 22,47,49,64,113,124,162, 215,322
**Gözparaq** – 78
**Gürcüstan** – 122,132,305,317

**Haiti** – 113
**Hindistan** – 49
**Xəzər dənizi** – 203–217,347
**Xocalı** – 50,154
**Xorvatiya** – 221,294
**İndoneziya** – 115,116
**İordaniya** – 35
**İraq** – 295,316
**İstanbul** – 273–289
**İsrail** – 19
**İslamabad** – 18
**İspaniya** – 162
**İslandiya** – 160
**İtaliya** – 113,139,162
**İsveç** – 162
**Kanada** – 255
**Kəlbəcər** – 147,266
**Kəngərli** – 175–180
**Kipr** – 162
**Kurqan (*RF-də vilayət*)** – 20
**Kolumbiya** – 49,154,323–324
**Koreya Respublikası** – 21–26
**Qafqaz** – 63
**Qax** – 78
**Qətər** – 166
**Qımır** – 78
**Qırğız Respublikası** – 128
**Qvatemala** – 49
**Laçın** – 147,266
**Litva** – 162
**London** – 328–335
**Los Kabos** – 351
**Lüksemburq** – 222
**Mahaçqala** – 60
**Macarıstan** – 65,160,320
**Makedoniya** – 162,291
**Malta** – 162
**Mamrux** – 78
**Mərakeş** – 48

**Misir** – 260
**Moldova** – 127
**Monqolustan** – 327
**Monteneqro** – 136,306,318,326
**Moskva** – 125–128
**Muxax** – 78
**Meksika** – 154,342,351
**Moldova** – 162
**Münhen** – 219
**Naxçıvan** – 182–189
**Naxçıvan MR** – 167–192
**Nigeriya** – 199
**Niderland** – 66,225
**Norveç** – 66,160
**Nyu-York** – 39–59
**Pakistan** – 18,49,154,316
**Pekin** – 333
**Portuqaliya** – 47,193,292
**Rumıniya** – 162
**Rusiya** – 20,22,31,47,48,60,63,72, 116,124,126–129,162,195, 196,203,254
**Serbiya** – 140,162
**Səudiyyə Ərəbistanı** – 226
**Sloveniya** – 133,223
**Sumqayıt** – 106
**Sudan** – 117
**Suraxanı** – 116
**Şərqi Asiya** – 203
**Şuşa** – 147, 266
**Toqo** – 48,59
**Türkiyə** – 31,38,131,162,203,218,273– 289
**Türkmənistan** – 126
**Ukrayna** – 4,162,201
**Vatikan** – 113
**Vyetnam** – 203
**Yerevan** – 351
**Yəmən** – 67,141
**Yunanıstan** – 162
**Zaqatala** – 78–99

**Zərnə** – 78
**Zəyəm** – 78
**Zuğulba** – 129

**MÜNDƏRİCAT**

BAKIDA BMT-nin ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ AVROPA ÜZRƏ 28-ci REGİONAL KONFRANSININ AÇILIŞI MƏRASİMİ

*19 aprel 2012-ci il ..........................................................................5*

DUBAY ƏMİRİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ, DUBAY İNVESTİSİYA KORPORASİYASININ İCRAÇI DİREKTORU MƏHƏMMƏD ƏL-ŞAYBANİ İLƏ GÖRÜŞ

*19 aprel 2012-ci il ........................................................................13*

DÜNYA BANKININ PREZİDENTİ CƏNAB CİM YEN KİMƏ

*20 aprel 2012-ci il ........................................................................14*

HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNDA YENİ UÇUŞ-ENMƏ ZOLAĞININ AÇILIŞI MƏRASİMİ

*20 aprel 2012-ci il ........................................................................15*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

*21 aprel 2012-ci il ........................................................................18*

İSRAİLİN BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ AVİQDOR LİBERMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 aprel 2012-ci il* ..........................................................................*19*
RUSİYA FEDERASİYASI KURQAN VİLAYƏTİNİN QUBERNATORU OLEQ BOQOMOLOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 aprel 2012-ci il* ..........................................................................*20*

NÜVƏ TƏHLÜKƏSİZLİYİNƏ DAİR KOREYA RESPUBLİKASININ «DİPLOMACY» JURNALINA MÜSAHİBƏ

*24 aprel 2012-ci il* ..........................................................................*21*

AZGÜNTEX ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*24 aprel 2012-ci il* ..........................................................................*27*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 aprel 2012-ci il* ..........................................................................*33*

GENERAL HƏZİ ASLANOVUN ABİDƏSİNİN, BAKI FUNİKULYORUNUN ƏSASLI ŞƏKİLDƏ YENİDƏN QURULMASI, DAĞÜSTÜ PARKDA İSTİQLAL MUZEYİNİN İNŞASI VƏ DƏNİZKƏNARI MİLLİ PARKIN GENİŞLƏNDİRİLMƏSİ İLƏ BAĞLI HƏYATA KEÇİRİLƏN İŞLƏRİN GEDİŞİ İLƏ TANIŞLIQ

*25 aprel 2012-ci il* ..........................................................................*34*

İORDANİYA SENATI SƏDRİNİN BİRİNCİ MÜAVİNİ ABDURRAUF ƏL-RAVABİDƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 aprel 2012-ci il* ..........................................................................*35*

BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ BOYKO BORİSOV İLƏ GÖRÜŞ

*26 aprel 2012-ci il* ......................................................................*36*

TÜRKİYƏNİN ELM, SƏNAYE VƏ TEXNOLOGİYA NAZİRİ NİHAT ƏRGÜNÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 aprel 2012-ci il* ......................................................................*38*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA İŞGÜZAR SƏFƏR

*2 may 2012-ci il* ..........................................................................*39*

ARGENTİNANIN XARİCİ İŞLƏR NAZİRİ HEKTOR TİMERMAN İLƏ GÖRÜŞ

*3 may 2012-ci il* ..........................................................................*40*

ABŞ-ın NƏQLİYYAT KOMANDANI GENERAL UİLYAM FREYZER İLƏ GÖRÜŞ

*3 may 2012-ci il* ..........................................................................*41*

AZƏRBAYCANIN BMT-yə ÜZV QƏBUL OLUNMASININ 20-ci İLDÖNÜMÜ VƏ 2012–2013-cü İLLƏR ÜÇÜN BMT-nin TƏHLÜKƏSİZLİK ŞURASINA QEYRİ-DAİMİ ÜZV SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*3 may 2012-ci il* ..........................................................................*42*

AZƏRBAYCAN PREZİDENTİNİN SƏDRLİYİ İLƏ BMT TƏHLÜKƏSİZLİK ŞURASININ YÜKSƏK SƏVİYYƏLİ İCLASINDA İŞTİRAK

*4 may 2012-ci il* ..........................................................................*47*

BMT-nin BAŞ KATİBİ PAN Gİ MUN İLƏ GÖRÜŞ

*4 may 2012-ci il* ........................................................................... *55*

BMT-nin BAŞ KATİBİ ADINDAN VƏ BMT TƏHLÜKƏSİZLİK ŞURASINA SƏDRLİK EDƏN ÖLKƏ TƏRƏFİNDƏN TƏŞKİL OLUNMUŞ NAHARDA İŞTİRAK

*4 may 2012-ci il* ........................................................................... *57*

ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİ GUİDO VESTERVELLE İLƏ GÖRÜŞ

*4 may 2012-ci il* ........................................................................... *58*

TOQONUN XARİCİ İŞLƏR VƏ ƏMƏKDAŞLIQ NAZİRİ ELİOT OHİN İLƏ GÖRÜŞ

*4 may 2012-ci il* ........................................................................... *59*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*4 may 2012-ci il* ........................................................................... *60*

HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ, NƏRİMANOV RAYONU ƏRAZİSİNDƏKİ YOLDA VƏ «HİLTON» HOTELİNİN QARŞISINDAKI PARKDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*6 may 2012-ci il* ........................................................................... *61*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*7 may 2012-ci il* ........................................................................... *63*

FRANSA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB FRANSUA OLLANDA

*7 may 2012-ci il*..........................................................................*64*

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB YANOŞ ADERƏ

*7 may 2012-ci il*..........................................................................*65*

NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

*7 may 2012-ci il*..........................................................................*66*

YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ABDURABBİH MƏNSUR HADİYƏ

*7 may 2012-ci il*..........................................................................*67*

DƏNİZKƏNARI MİLLİ PARKIN YENİ TİKİLMİŞ
HİSSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*7 may 2012-ci il*..........................................................................*68*

«BAKU CRYSTAL HALL» KOMPLEKSİNİN AÇILIŞI
MƏRASİMİ

*7 may 2012-ci il*..........................................................................*70*

BAKI–ƏLƏT YOLUNUN DÖVLƏT BAYRAĞI
MEYDANINA GEDƏN 2–4 KİLOMETRLİK
HİSSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*7 may 2012-ci il*..........................................................................*71*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*9 may 2012-ci il.........................................................................72*

9 MAY – QƏLƏBƏ BAYRAMI MÜNASİBƏTİLƏ
KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK

*9 may 2012-ci il.........................................................................73*

BAKININ İNŞAATÇILAR PROSPEKTİNDƏ SALINMIŞ
YENİ İSTİRAHƏT PARKI İLƏ TANIŞLIQ

*9 may 2012-ci il.........................................................................75*

NƏSİMİ RAYON İCRA HAKİMİYYƏTİNİN
YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*9 may 2012-ci il.........................................................................76*

ŞİMAL-QƏRB BÖLGƏSİNDƏ BAŞ VERMİŞ
ZƏLZƏLƏNİN NƏTİCƏLƏRİNİN ARADAN
QALDIRILMASI İLƏ BAĞLI GÖRÜLƏN
TƏDBİRLƏRLƏ YERİNDƏ TANIŞ OLMAQ ÜÇÜN
TƏBİİ FƏLAKƏT BÖLGƏSİNƏ SƏFƏR

*9 may 2012-ci il.........................................................................78*

ZAQATALADA ZƏLZƏLƏ İLƏ BAĞLI KEÇİRİLƏN
MÜŞAVİRƏDƏ NİTQ

*9 may 2012-ci il .........................................................................90*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI
ZİYARƏT

*10 may 2012-ci il.....................................................................100*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 89-cu İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ PAYTAXTDA TƏŞKİL EDİLMİŞ GÜL BAYRAMINDA İŞTİRAK

*10 may 2012-ci il ............................................................................101*

HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞI, ULU ÖNDƏRİN ANADAN OLMASININ 89-cu İLDÖNÜMÜ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTƏ BAŞLAMASININ 8 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*10 may 2012-ci il ............................................................................103*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

*11 may 2012-ci il ............................................................................115*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*11 may 2012-ci il ............................................................................116*

SUDAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ƏLİ ƏHMƏD KARTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 may 2012-ci il ............................................................................117*

HEYDƏR ƏLİYEV PROSPEKTİNİN SURAXANI RAYONU ƏRAZİSİNDƏN KEÇƏN HİSSƏSİNDƏ YENİ SALINMIŞ PARKIN AÇILIŞI MƏRASİMİ

*11 may 2012-ci il ............................................................................118*

BEYNƏLXALQ VELOSİPEDÇİLƏR İTTİFAQININ
PREZİDENTİ PATRİK MAK QUAYD İLƏ GÖRÜŞ

*13 may 2012-ci il*..........................................................................*119*

İORDANİYANIN KRALI ƏLAHƏZRƏT
II ABDULLAH İBN AL HÜSEYNƏ

*14 may 2012-ci il*..........................................................................*120*

ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ
XANIM KRİSTİNA FERNANDES DE KİRŞNERƏ

*14 may 2012-ci il*..........................................................................*121*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MİXEİL SAAKAŞVİLİYƏ

*14 may 2012-ci il*..........................................................................*122*

BOLQARISTAN RESPUBLİKASININ XALQ
MƏCLİSİNİN SƏDRİ TSETSKA TSAÇEVANIN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*14 may 2012-ci il*..........................................................................*123*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ
HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ
GÖRÜŞ

*14 may 2012-ci il*..........................................................................*124*

RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*15 may 2012-ci il*..........................................................................*125*

MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ŞURASININ QEYRİ-RƏSMİ İCLASINDA İŞTİRAK

*15 may 2012-ci il*..........................................................................*126*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ NİKOLAYE TİMOFTİ İLƏ GÖRÜŞ

*15 may 2012-ci il*..........................................................................*127*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ALMAZBEK ATAMBAYEV İLƏ GÖRÜŞ

*15 may 2012-ci il*..........................................................................*128*

DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ZUĞULBADAKI «XƏZRİ» İSTİRAHƏT VƏ SAĞLAMLIQ MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*16 may 2012-ci il*..........................................................................*129*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA İŞGÜZAR SƏFƏR

*19 may 2012-ci il*..........................................................................*130*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*19 may 2012-ci il*..........................................................................*131*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*19 may 2012-ci il*..........................................................................*132*

SLOVENİYA RESPUBLİKASININ BAŞ NAZİRİ
YANEZ YANŞA İLƏ GÖRÜŞ

*20 may 2012-ci il*..........................................................................*133*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT
HEYƏTİNİN SƏDRİ BAKİR İZZETBEKOVİÇ İLƏ
GÖRÜŞ

*20 may 2012-ci il*..........................................................................*134*

BÖYÜK BRİTANİYANIN BAŞ NAZİRİ
DEVİD KEMERON İLƏ GÖRÜŞ

*21 may 2012-ci il*..........................................................................*135*

MONTENEQRO RESPUBLİKASININ BAŞ NAZİRİ
İQOR LUKŞİÇ İLƏ GÖRÜŞ

*21 may 2012-ci il*..........................................................................*136*

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ
ƏFQANISTAN ÜZRƏ GÖRÜŞÜNDƏ İŞTİRAK

*21 may 2012-ci il*..........................................................................*137*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ
CƏNAB CİORCİO NAPOLİTANOYA

*22 may 2012-ci il*..........................................................................*139*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ
CƏNAB TOMİSLAV NİKOLİÇƏ

*22 may 2012-ci il*..........................................................................*140*

YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ABDURABBİH MƏNSUR HADİYƏ

*22 may 2012-ci il .............................................................................141*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB BAMİR TOPİYƏ

*23 may 2012-ci il .............................................................................142*

BAKI FUNİKULYORUNUN VƏ AZNEFT
MEYDANINDA YERALTI PİYADA KEÇİDİNİN
AÇILIŞINDA İŞTİRAK, DƏNİZKƏNARI MİLLİ
PARKDA ABADLIQ İŞLƏRİNİN
GEDİŞİ İLƏ TANIŞLIQ

*23 may 2012-ci il .............................................................................143*

28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ
RƏSMİ QƏBULDA İŞTİRAK

*25 may 2012-ci il .............................................................................145*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ
XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİP LEFORT İLƏ GÖRÜŞ

*26 may 2012-ci il .............................................................................160*

«EUROVİSİON–2012» MAHNI MÜSABİQƏSİNİN
FİNAL MƏRHƏLƏSİNDƏ İŞTİRAK

*27 may 2012-ci il .............................................................................161*
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN
ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*28 may 2012-ci il .............................................................................164*

HEYDƏR ƏLİYEV VƏ ZİYA BÜNYADOV PROSPEKTLƏRİNİN KƏSİŞMƏSİNDƏKİ YOL QOVŞAĞININ ÜÇÜNCÜ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*28 may 2012-ci il*..........................................................................165

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN XƏLİFƏ ƏL-TANİYƏ

*29 may 2012-ci il*..........................................................................166

NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏR

*30 may 2012-ci il*..........................................................................167

KƏNGƏRLİ RAYONUNDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ADINI DAŞIYAN MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKI İLƏ TANIŞLIQ

*30 may 2012-ci il*..........................................................................175

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*30 may 2012-ci il*..........................................................................176

NAXÇIVAN–CULFA MAGİSTRAL AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*30 may 2012-ci il*..........................................................................181

NAXÇIVAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*30 may 2012-ci il*..........................................................................182

CULFADA UŞAQ MUSİQİ MƏKTƏBİNİN AÇILIŞI MƏRASİMİ

*30 may 2012-ci il*..........................................................................*190*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ANİBAL KAVAKU SİLVAYA

*31 may 2012-ci il*..........................................................................*193*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN
KRALİÇASI ÜLYAHƏZRƏT
II ELİZABETƏ

*31 may 2012-ci il*..........................................................................*194*
RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*31 may 2012-ci il*..........................................................................*195*

RUSİYA FEDERASİYASININ MDB İŞLƏRİ ÜZRƏ
XÜSUSİ NÜMAYƏNDƏSİ KONSTANTİN KOSAÇOV
İLƏ GÖRÜŞ

*31 may 2012-ci il*..........................................................................*196*

XIX BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFT
EMALI VƏ NEFT KİMYASI – 2012» SƏRGİSİ VƏ
KONFRANSININ İŞTİRAKÇILARINA

*4 iyun 2012-ci il*............................................................................*197*

NİGERİYA FEDERATİV RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB QUDLAK CONATANA

*4 iyun 2012-ci il*............................................................................*199*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ
EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*4 iyun 2012-ci il ........................................................................ 200*

UKRAYNA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ KONSTANTİN QRİŞENKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 iyun 2012-ci il ........................................................................ 201*

ANDORRA KNYAZLIĞININ XARİCİ İŞLƏR NAZİRİ GİLBERT SABOYA SUNYEN İLƏ GÖRÜŞ

*4 iyun 2012-ci il ........................................................................ 202*

XIX BEYNƏLXALQ «XƏZƏR NEFT, QAZ, NEFT EMALI VƏ NEFT KİMYASI – 2012» SƏRGİSİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*5 iyun 2012-ci il ........................................................................ 203*

TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMANDANI HAYRİ KIVRIKOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyun 2012-ci il ........................................................................ 218*

ALMANİYANIN KEÇMİŞ XARİCİ İŞLƏR NAZİRİ HANS-DİTRİX GENŞERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyun 2012-ci il ........................................................................ 219*

BÖYÜK BRİTANİYANIN LORDLARDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyun 2012-ci il ........................................................................ 220*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVO YOSİPOVİÇƏ

*6 iyun 2012-ci il*..........................................................................*221*
LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

*6 iyun 2012-ci il*..........................................................................*222*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DANİLO TÜRKƏ

*6 iyun 2012-ci il*..........................................................................*223*

ABŞ-ın DÖVLƏT KATİBİ XANIM HİLLARİ KLİNTON İLƏ GÖRÜŞ

*6 iyun 2012-ci il*..........................................................................*224*

NİDERLANDIN İQTİSADİ MƏSƏLƏLƏR, KƏND TƏSƏRRÜFATI VƏ İNNOVASİYALAR NAZİRLİYİNİN XƏZƏR REGİONUNUN ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ TAPŞIRIQLAR SƏFİRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*6 iyun 2012-ci il*..........................................................................*225*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*17 iyun 2012-ci il*........................................................................*226*

ALBANİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BUYAR NİŞANİYƏ

*18 iyun 2012-ci il*........................................................................*227*

DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ KEÇMİŞ VƏ YENİ REGİONAL DİREKTORLARI ƏSƏD ALAM VƏ HENRİ KERALİN İLƏ GÖRÜŞ

*18 iyun 2012-ci il* ........................................................................ *228*
«İQTİSADİYYATIN İNKİŞAFINDA ANTİİNHİSAR SİYASƏTİNİN ROLU» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*19 iyun 2012-ci il* ........................................................................ *229*

«2011–2013-cü İLLƏRDƏ BAKI ŞƏHƏRİNİN VƏ ONUN QƏSƏBƏLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR DÖVLƏT PROQRAMI»NIN İCRASININ BİRİNCİ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA İŞTİRAK

*20 iyun 2012-ci il* ........................................................................ *230*

YEKUN NİTQİ ........................................................................ *237*

RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ MDB VƏ HƏMVƏTƏNLƏRLƏ ƏLAQƏLƏR ÜZRƏ KOMİTƏSİNİN SƏDRİ LEONİD SLUTSKİ İLƏ GÖRÜŞ

*20 iyun 2012-ci il* ........................................................................ *254*

KANADANIN GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB DEVİD CONSTONA

*22 iyun 2012-ci il* ........................................................................ *255*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

*22 iyun 2012-ci il* ........................................................................ *256*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*22 iyun 2012-ci il* ........................................................................ *257*

MÜDAFİƏ NAZİRLİYİNİN YENİ YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*22 iyun 2012-ci il..........................................................................258*

BADAMDAR QƏSƏBƏSİNDƏ HEYDƏR ƏLİYEV PARKININ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*22 iyun 2012-ci il..........................................................................259*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD MURSİYƏ

*25 iyun 2012-ci il..........................................................................260*

HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİNDƏ XÜSUSİ TƏYİNATLI HƏRBİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN NÖVBƏTİ BURAXILIŞINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*25 iyun 2012-ci il..........................................................................261*

TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*25 iyun 2012-ci il..........................................................................273*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*26 iyun 2012-ci il..........................................................................274*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*26 iyun 2012-ci il..........................................................................275*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*26 iyun 2012-ci il*..........................................................................*276*

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANLA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*26 iyun 2012-ci il*..........................................................................*277*

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ 20 İLLİK YUBİLEYİ SAMMİTİNDƏ İŞTİRAK

*26 iyun 2012-ci il*..........................................................................*285*

ALBANİYANIN BAŞ NAZİRİ SALİ BERİŞA İLƏ GÖRÜŞ

*26 iyun 2012-ci il*..........................................................................*289*

«RUSİYA–AZƏRBAYCAN DİALOQU–2012» III RUSİYA–AZƏRBAYCAN REGİONLARARASI FORUMUNUN İŞTİRAKÇILARINA

*27 iyun 2012-ci il*..........................................................................*290*

MAKEDONİYANIN PREZİDENTİ GEORGE İVANOV İLƏ GÖRÜŞ

*28 iyun 2012-ci il*..........................................................................*291*

PORTUQALİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ PAULO PORTASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 iyun 2012-ci il*..........................................................................*292*

ESTONİYA PARLAMENTİNİN SƏDRİ XANIM ENE ERQMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 iyun 2012-ci il*..........................................................................*293*

XORVATİYA RESPUBLİKASININ KEÇMİŞ
PREZİDENTİ STEPAN MESİÇ İLƏ GÖRÜŞ

*28 iyun 2012-ci il..........................................................................294*

İRAQIN BAŞ NAZİRİNİN İQTİSADİ MƏSƏLƏLƏR
ÜZRƏ MÜAVİNİ ROUŞ NURİ ŞAVEYSİN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 iyun 2012-ci il..........................................................................295*

BAKIDA KRANS MONTANA FORUMUNUN RƏSMİ
AÇILIŞI MƏRASİMİ

*29 iyun 2012-ci il..........................................................................296*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ
MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*29 iyun 2012-ci il..........................................................................317*

MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ
FİLİP VUYANOVİÇ İLƏ GÖRÜŞ

*29 iyun 2012-ci il..........................................................................318*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN FÜCEYRA
ƏMİRLİYİNİN ŞAHZADƏSİ ŞEYX MƏHƏMMƏD
HAMAD BİN MƏHƏMMƏD ƏL-ŞƏRQİ İLƏ GÖRÜŞ

*29 iyun 2012-ci il..........................................................................319*

MACARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ
VİKTOR ORBAN İLƏ GÖRÜŞ

*30 iyun 2012-ci il..........................................................................320*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ

ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA

*2 iyul 2012-ci il* ........................................................................................ *322*

KOLUMBİYA SENATININ İKİNCİ KONSTİTUSİONAL KOMİTƏSİNİN SƏDRİ XANIM ALEXANDRA MORENO PİRAKİVENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 iyul 2012-ci il* ........................................................................................ *323*

BOLQARISTAN KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ YEVGENİ TANÇEV İLƏ GÖRÜŞ

*2 iyul 2012-ci il* ........................................................................................ *325*

MONTENEQRO RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FİLİP VUYANOVİÇƏ

*2 iyul 2012-ci il* ........................................................................................ *326*

MONQOLUSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAXİAQİYN ELBEQDORJA

*2 iyul 2012-ci il* ........................................................................................ *327*

LONDONDA KEÇİRİLƏCƏK XXX YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK EDƏCƏK AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİ YOLASALMA MƏRASİMİ

*3 iyul 2012-ci il* ........................................................................................ *328*

ÜMUMHƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ PREZİDENTİ MİXAİL ŞMAKOV VƏ BAŞ KATİBİ VLADİMİR ŞERBAKOV İLƏ GÖRÜŞ

*3 iyul 2012-ci il* ........................................................................................ *336*

ÜMUMHƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ FƏXRİ QIZIL NİŞANI İLƏ TƏLTİFEDİLMƏ MƏRASİMİ

*3 iyul 2012-ci il* ............................................................................. *338*

ARGENTİNA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ
ETİQAD NAZİRİ HEKTOR TİMERMANIN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 iyul 2012-ci il* ............................................................................. *339*

BİLGƏH–NOVXANI–SUMQAYIT AVTOMOBİL
YOLUNUN YENİDƏN QURULMASININ BİRİNCİ VƏ
İKİNCİ HİSSƏLƏRİNİN LAYİHƏLƏRİ ÇƏRÇİVƏSİNDƏ
GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*4 iyul 2012-ci il* ............................................................................. *340*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ YENİ SEÇİLMİŞ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ENRİKE PENYA
NİETOYA

*5 iyul 2012-ci il* ............................................................................. *342*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ HERMAN
VAN ROMPUYUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*5 iyul 2012-ci il* ............................................................................. *343*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ İLƏ
GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*5 iyul 2012-ci il* ............................................................................. *344*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ HERMAN
VAN ROMPUY İLƏ BİRGƏ MƏTBUAT
KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*5 iyul 2012-ci il* ............................................................................. *345*

QEYDLƏR ..............................................................................*352*

*Şəxsi adlar göstəricisi*........................................................................

*Coğrafi adlar göstəricisi*....................................................................

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** ***Məhəbbət** **Orucov***

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.